KAMİL FƏRHADOĞLU İBRAHİMOV

QƏDİM ŞİRVAN ELİNƏ SƏYAHƏT

(tarixi-arxeoloji və etnoqrafik oçerk)

BAKI –2017

Elmi məsləhətçi:

t.ü.e.d., professor Solmaz Rüstəmova-Tohidi

Elmi redaktor:

t.ü.e.d., professor, Q.C.Cəbiyev

Tərcüməçi:

T.K.İbrahimov

Kompyüter tərtibatçısı və dizayn:

H.Ə.Ağayeva

Rəssam:

R.Cəfərova

İrana, İraqa eyləsəm səfər,
Başıma yağıştək yağar simuzər
Şahlar məclisimdə diz çökər mənim,
Başıma təbəqlə zər tökər mənim
Lakin üzüm gülməz, gözlərim ağlar,
Qəlbimdə dağ qədər ağır intizar,
Vətən həsrətilə töküb göz yaşı
"Ah, Vətən" deyirəm hər sözüm başı
Şamaxı, ey mənim sevimli yurdum,
Mən sənin qoynunda xaniman qurdum
İndisə acığın tutmuşdur mana,
Sənin qucağından ayrılsam, ana,
Ümidim, pənahım Təbrizdir, Təbriz
O şəhər də mənə doğmadır, əziz.
Siz mənə həyatı etdiniz ata,
Sən mənə anasan, Təbrizdir ata.
Anasından küsən körpə bir uşaq
Ata ağuşunda yer tapar ancaq...

Əfzələddin Xaqani Şirvani

MÜNDƏRİCAT

Ön söz.....6

I FƏSİL

Bəlalar çəkibdir başı Şirvanın.....32

II FƏSİL

Şirvanda şəhərsalma tarixindən.....48

Şirvanın iki böyük şəhəri.....57

Qədim Şamaxı.....57

Şirvanın liman şəhəri Bakı.....70

Böyük İpək yolu üzərində.....75

Şamaxı şəhərinin tarixindən səhifələr (faktlar, mülahizələr, qeydlər).....86

Şamaxının məhəllələri.....103

Əfsanələr də bir tarixdir.....107

Şamaxı sənətkarlar diyarıdır.....109

Şamaxı Cümə Məscidi.....113

1918-ci ildə Şamaxı qəzasında həyata keçirilən soyqırım.....131

Şamaxıda elm, təhsil və maarifçilik.....149

Ədəbiyyat.....152

III FƏSİL

Şamaxi mənbələrdə və tarixi tədqiqatlarda.....157

Alman alimi Dr. Lottar Veysin Şamaxıya səyahəti.....188

Alman səyyahı və həkimi Engelbert
Kaempferin Şamaxıya səfəri….....196
IV FƏSİL
Şamaxının Əngəxaran kəndi və ətraf ərazilərin tarixi
abidələri.....228
Əngəxaran yaşayış yeri.....228
Əngəxaran və ətrafının tarixi abidələri.....247
Əngəxaran ətrafındakı müdafiə istehkamları.....261
Buğurt qalası.....261
Gülüstan qalası.....271
V FƏSİL
Əngəxaranda malakanların törətdiyi soyqırım.....294
Molokanlar kimdirlər.....294
Əngəxaran kəndində qətliam.....297
Soyqırım sənədlərdə.....302
Əngəxaranlıların soyqırımı haqqında
mülahizələr.....392
VI FƏSIL
Əngəxaranın yetirmələri.....397
Əngəxaran aşıqları.....397
Əngəxaran ziyalıları və görkəmli şəxsiyyətləri.....440
Əngəxaranda nəsillər.....494
Ağaxanlılar nəslinin soyağacı…….....497
Nəticə……498
İstifadə olunmuş ədəbiyyat.....500

Kitab Əngəxaran kəndinin yetirmələri, atam - Azərbaycanın görkəmli arxeoloqu Fərhad İbrahimov və anam - Azərbaycanın əməkdar müəllimi Tamilla İbrahimovanın əziz xatirələrinə ithaf edilir.

ÖN SÖZ

Vətən hər kəsə öz evindən, ata-baba ocağından, yurdundan, soyadından başlanır. Və əgər kimsə öz ata-baba ocağının tarixini, necə deyərlər, "yeddi arxadan dönəninin" tarixini, yaxın və ya uzaq keçmişini bilmirsə, çətin ki, sənin də tarixini bilsin. Tarixini bilməyənlər isə heç qədrini də bilməyəcək.

Bəli, hər bir insan əvvəlcə gərək öz nəslinin, doğulduğu kəndinin, rayonunun tarixini bilməli, onun adət-ənənələrinə bələd olmalıdır. Hər qarış torpağın tarixini öyrənmək, doğma və qədim vətən anlayışını xalqımızın vətənsevər oğlu Abbas Səhhət kimi dəyərləndirmək, vətəni məhz onun kimi sevmək gərəkdir. O, vətəni belə tərənnüm edirdi:

Vətən əcdadımızın mədfənidir,
Vətən övladımızın məskənidir
Vətəni sevməyən insan olmaz,
Olsa da, ol şəxsdə vicdan olmaz.

Fikrimizcə, misralar bütün dövrlərdə, həm də bütün insanlar üçün sözün əsil mənasında vətəni sevmək nümunəsi

kimi dəyərləndirə bilər.

Öz yurdunu, vətənini sevən və onunla fəxr edən bir çox ziyalılarımız ulu yurdun ayrı-ayrı şəhər və rayonlarının, kəndlərinin, qədim yaşayış yerlərinin tarixi, mədəniyyəti, adət-ənənələri, eləcə də həmin ərazilərin təbiəti, görkəmli şəxsiyyətləri haqqında çoxsaylı, dəyərli, həyat yolunu əks etdirən əsərlər yaratmışlar. Əlbətdə, bu əsərlərdən hər birı doğma Azərbaycanımızın tarixi keçmişini öyrənmək baxımından həqiqətən əvəzsizdir, qiymətsizdir.

Azərbaycanın dilbər guşələrindən biri, əsrlər boyu Şirvanın mühüm mədəni, iqtisadi və siyasi mərkəzi olan, yaşı, sorağı eramızdan çox-çox əvvəllərə gedib çıxan Şamaxı, vətənimizə hər zaman şöhrət gətirən şəhərlərimizdən olmuşdur.

Şamaxı, Baş Qafqaz sıra dağlarının cənub-şərq ətəklərində, dəniz səviyyəsindən 750 m. hündürlükdə olan əlverişli bir yerdə yerləşir. Onu şərqdən Pirsaat çayı, şimal qərbdən Pirdirəki və Qız qalası dağları, qərbdən Xınıslı kəndi və Meysəri dağı, cənubdan isə Zoğalavay çayı dövrələyir.

Şamaxının yaşı mübahisəlidir. Şəhərin salındığı tarix dəqiq məlum deyildir. Tarixçi alimlərimizin bəziləri şəhərin e.ə. III-II əsrlərdə mövcud olduğunu, bəziləri isə Şamaxının 2000-2500 il bundan əvvəl salındığını iddia edirlər. Orada aparılmış arxeoloji qazıntıların nəticələrinə əsasən də konkret faktlar söyləmək çətindir. Hələlik isə Şamaxı yaxınlığında yerləşən Xınıslı kəndi ətrafında aparılan arxeoloji qazıntılar

nəticəsində aşkarlanmış bir dəfinə daha çox diqqəti cəlb edir. Dəfinədə Lisimaxın (e.ə. 323-281) adından Frakiyada zərb edilmiş tetradraxma, III Fratın (e.ə. 69-57) Arşaki draxması və digər qədim pullar olduğu qeydə alınmışdır. 1958-ci ildə Xınıslı kəndi yaxınlığında aparılan arxeoloji qazıntılar zamanı aşkar olunan sikkələr içərisində Makedoniyalı İsgəndərin sikkələrinə oxşadılmış yerli pullar da elmi cəhətdən böyük marağa səbəb olmuşdur.

Xatırladaq ki, Azərbaycan arxeoloqları tərəfindən aparılmış uzunmüddətli arxeoloji qazıntılar nəticəsində Xınıslıdan e.ə. IV və eramızın III əsrinə aid dörd minə yaxın qəbir abidəsi, o cümlədən küp qəbirləri aşkar olunmuşdur. Bu abidələrdən olduqca zəngin arxeoloji material əldə edilmişdir.

Görkəmli fransız səyyahı A.Düma Şamaxıya səyahətini "Qafqaz səfəri" adlı yazılarında təsvir edərkən Volterin "Böyük Pyotrun tarixi" adlı əsərindən sitat gətirərək yazır ki, "Şamaxı Midiya dövlətinin paytaxtı, Kabis və Mandananın oğlu Kirin iqamətgahıdır".

Şamaxının qədimliyini təsdiq edən çoxlu dəlil və sübutlar gətirmək olar. Şəhərin tarixi haqda xeyli fundamental əsərlər yazılmışdır. Şamaxının özü kimi, onun ətrafındakı digər yaşayış məntəqələrinin də özünəməxsus tarixi var. Onların bəzisinin tarixi qismən də olsa araşdırılmışdır. Amma tarixi öyrənilməyən kəndlərimiz daha çoxdur. Onlardan biri də Əngəxaran kəndidir. Şamaxının lap yaxınlığında yerləşən

Əngəxaran kəndinin tarixini araşdırmaq, kəndin adının etimologiyası haqda mülahizələr söyləmək, ətrafdakı digər qədim yaşayış məskənləri barədə məlumat vermək Şirvanın tarixini öyrənmək baxımdan çox əhəmiyyətlidir.

Əngəxaran kəndi Şamaxı şəhərindən şimalda yerləşir. Təqribən XVII əsrin əvvəllərində bu kənd bir az daha yüksəklikdə yerləşən indiki Zarat kəndinin yaxınlığında imiş. Hal-hazırda da, Zarat kəndinin yaxınlıgında "Əngəxaran yeri" adlandırılan yer qalmaqdadır. Bu kəndlərin əhalisi müvafiq tarixi şəraitə və məşgul olduqları təsərrüfat fəaliyyətinə görə, kənd agsaqqallarının razılığı nəticəsində yurdlarını dəyişmişlər. Öz kəndlərinin adını saxlamaqla Əngəxaranlılar Zarata, Zaratlılar da Əngəxarana köçmüşlər. Xalq etimalogiyası yaddaşında bu deyim elə indi də qalmaqdadır – "Əngəxaran xeybəri, köhnə Zaratdan bəri". Tarixdə belə məkan dəyişmə kimi faktlar az olur.

Mərhum atam, görkəmli tədqiqatçı - arxeoloq Fərhad İbrahimovun (1931-2001) arxivində Şamaxı rayonunun qədim abidələri, xüsusilə doğulub böyüyüdü doğma Əngəxaran kəndi, Şamaxı və Bakı şəhərlərinin tarixi haqqında qaralama qeydləri gördüyüm zaman düşündüm ki, görünür, atam Şirvan bölgəsinin tarixi barədə elmi-populyar bir neçə əsər yazmağı nəzərdə tutubmuş. Lakin o, bu işi başa çatdıra bilməmiş, tədqiqat əsəri yarımçıq qalmışdır. Bununla belə, onun qeydlərində elmi cəhətdən maraq doğuran mülahizələr çoxdur.

Bakı və Şamaxı şəhərləri haqqında qeydlərindən görünür ki, o bu şəhərlərin adlarının farsca olması fikrinə də mənfi münasibət bəsləmiş, Azərbaycan ərazisinə türkdilli tayfaların orta əsrlərdə gəlmə baxışı ilə razılaşmamışdır.

Atamın əlyazmaları içərisində Əngəxaran kəndi haqqında qeydlər xüsusilə diqqətimi cəlb etdi. O, kəndimizin tarixi, oradakı nəsillər və nəhayət, Əngəxaranın görkəmli ziyalıları barəsində xeyli material toplamışdı. Görünür, atam doğma kəndi haqqında ayrıca bir tarixi-etnoqrafik əsər də yazmağı nəzərdə tutubmuş.

Atamın babası İbrahim Güliyev Şirvan aşıq məktəbinin banisi, bölgənin tanınmış ustad-aşığı olmuşdur. Atam, babası haqqında hələ XX əsrin 60-cı illərində yaşlı adamlardan, kənd ağsaqqallarından xatirələr toplamışdır. Lakin vaxtsız ölüm bu işin də başa çatdırılmasına imkan vermədi.

Odur ki, mən atamın arxivində olan bu əlyazmaları işləyib təkmilləşdirdikdən sonra nəşr etdirməyi özümə borc sayıram. Bu işdə mənə kömək edən hər kəsə dərin minnətdarlığımı bildirirəm.

Kitab 6 fəsildən ibarətdir. I fəsildə Şamaxının başına gələn bəlalardan, müharibələr və işğallar, zəlzələlər və dağıntilardan söz açılır. Amma bunlara baxmayaraq, şamaxılıların mərdliyi və şücaəti, o cümlədən düşmənə baş əyməməsi, dağılan və dağıdılan vətəni sevmələri, yenidən dirçəldib qurmalarından bəhs edilir.

II fəsildə Şirvanda və Şamaxıda şəhərsalma və dövlətçilik tarixi məsələlərindən söhbət açılır. Şirvanın iki böyük şəhəri olan Şamaxı və Bakı haqqında qısa tarixi arayış verilir.

III fəsildə Şamaxı və ətraf bölgələri haqqında məxəzlərdə, mənbələrdə, o cümlədən, tarixi tədqiqatlarda olan materiallar araşdırılır. Orta əsrlərdə Şamaxıya gələn diplomat, tacir, alim və səyyahların bu diyar haqqındakı informasiyaları nəzərə çatdırılır. İlk dəfə olaraq E.Kempferin Şamaxı haqqındakı görüşləri tədqiq olunur.

IV fəsildə ilk dəfə olaraq Şamaxı yaxınlığındakı Əngəxaran kəndi, onun toponimi, Əngəxaran və ətrafının tarixi abidələri, Əngəxaran yaxınlığında aşkar edilmiş orta əsr yaşayış yerləri, Əngəxaran ətrafındakı müdafiə istehkamları haqqında məlumat təqdim edilir.

V fəsildə Əngəxaranda malakanların 1918-ci ilin 31 martında törətdiyi soyqırım və qarətlərdən bəhs olunur. Fövqəladə Təhqiqat Komissiyanın üzvləri tərəfindən Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında 7 cild, 925 vərəqdən ibarət təhqiqat materialları toplanmışdı. Bu fəsildə Fövqəladə Təhqiqat Komissiyası materiallarının ilk dəfə olaraq Əngəxaran kəndinə aid olan bölməsindən bir hissə təqdim edilir.

VI fəsildə ilk dəfə olaraq Əngəxaranın ziyalıları və yetirmələri, aşıqlar eli sayılan kəndin tanınmış aşıqları, eləcə də

onların xalq yaddaşında olan qoşmaları, o cümlədən əngəxaranlıların əqraba və nəsilləri haqqında məlumat verilir.

Kitabın ərsəyə gəlməsində öz köməyini və dəyərli məsləhətlərini əsirgəməyən kənd ağsaqqalı, mərhum Gülabba Qəhramanova, həmçinin, Əngəxaran kəndinin qocaman müəllimi, aşıq İbrahimin nəvəsi Əvəz müəllimə xususi minnətdarlıq edirəm. Kənd ziyalıları İlqar Qəhramanov və Fəxrəddin İbrahimova göstərdikləri köməyə görə və əslən əngəxaranlı olan t.ü.f.d. BDU-nun dosenti Sevinc Qasımovaya "Şamaxı mənbələrdə və tarixi tədqiqatlarda" adlı maraqlı yazını təqdim etdiyi üçün təşəkkür edirəm.

Kitabı bir jurnalist kimi gözəl dil üslubunda redaktə edən və bir tədqiqatçı alim, bir arxeoloq kimi qiymətli məsləhətlər verən tarix elmləri doktoru, professor Qafar Cəbiyevə öz təşəkkürümü bildirirəm.

Kitabın ərsiyə çatmasında görkəmli ziyalı, xeyirxah insan, elmi rəhbərim, tarix elmləri doktoru, professor, mərhum Aləm Nuriyevin və tanınmış etnoqrafımız tarix elmləri doktoru, professor, mərhum Qiyasəddin Qeybullayevin zəhməti və köməyi olduğunu qeyd etməyi özümə borc bilirəm.

Aşıq İbrahim yaradıcılığının ilk araşdırıcısı, görkəmli ədəbiyyatşünas, tanınmış ictimai xadim, yazıçı, publisist, tərcüməçi, mətnşünas, Azərbaycan Yazıçılar Birliyinin üzvü, Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin direktoru, filologiya elmləri doktoru, professor, AMEA-nın

həqiqi üzvü, millət Vəkili, Azərbaycan Respublikasının Milli Məclisin Mədəniyyət komitəsinin sədri Rafael Hüseynovun xidmətini xüsusi minnətdarlıq hissi ilə qeyd etmək istərdim.

Kitabın məsləhətçisi, Şamaxı rayonunda və Əngəxaran kəndində törədilmiş soyqırım faktlarının ilk araşdırıcısı, mənə unikal arxiv materillarını lütfkarlıqla təqdim edən, görkəmli tarixçi alim, tarix elmləri doktoru, professor, Solmaz Rüstəmova-Tohidiyə dərin təşəkkürümü bildirirəm.

Güman edirəm ki, uzun müddət Şirvan dövlətinin paytaxtı olmuş Şamaxı və kiçik Əngəxaran kəndinə, onun tarixinə, arxeoloji-memarlıq abidələrinə və görkəmli ziyalılarına həsr olunmuş bu kitabla qədim bir Şirvan elinə maraqlı səyahət edəcəksiniz.

Müəllifdən

Книга посвящена светлой памяти моих родителей отца – выдающегося археолога Фархада Ибрагимова, матери – заслуженного учителя Азербайджана Тамиллы Ибрагимовой и выходцам из села Ангехаран

ПРЕДИСЛОВИЕ

Родина каждого человека начинается с собственного порога, очага его предков, земли, где он родился, фамилии. И тот, кто не знает историю своих предков, т.е. своих дедов и далекое прошлое, тот не знает историю своей страны, своего народа.

Незнание своей истории приводит к безразличию. Человек у которого нет исторической памяти превращается в мангурта, способного на любые подлости.

Каждый человек обязан знать свою родословную, историю села, района, где он родился, его обычаи и обряды. Каждый гражданин должен изучать историю каждой пяди земли, высоко ценить понятие Родины родной и древней земли, так как ценил ее патриот нашего народа Аббас Саххат.

Он так восхвалял Родину:

В земле родной - всех предков наших прах,
Потомкам жить и жить в веках...

И в ком любви к Отчизне, боже, нет,
В том совести и чести тоже нет.

На наш взгляд эти строки во все времена и для всех поколений могут быть примером бесконечной любви и преданности своему народу, своей отчизне.

Представители нашей интеллигенции с чувством глубокой гордости воспевали в своих трудах историю древних городищ, городов, сел, районов, разнообразную природную палитру, обычаи и обряды нашего народа, жизненный путь его выдающихся личностей. Конечно, же с точки зрения изучения истории и прошлого нашего родного Азербайджана эти труды бесценны.

Один из райских уголков Азербайджана зарожденный задолго до нашей эры город Шемаха на протяжении веков являлся важным культурным, политическим и экономическим центром Ширвана, гордостью нашей родины.

Географически город расположен в одном из благоприятных мест на высоте 750 м. над уровнем моря, на юго-восточном склоне Главного Кавказского хребта. С востока его окружает река Пирсаат, с северо-запада – Пирдираки и горы Девичьей башни, с запада – село Хыныслы и гора Мейсари, с юга – река Загалавай.

Об истории возникновения города Шемаха нет

единого мнения. Некоторые ученые-историки считают, что город здесь был заложен в III-II вв. до н.э., некоторые утверждают, что он существовал 2000-2500 лет тому назад.

Невозможно сказать что-то конкретно даже на основании археологических раскопок, проведенных здесь.

В настоящее время привлекает внимание клад монет, обнаруженный во время археологических раскопок близ села Хыныслы, расположенного недалеко от Шемахи. Из клада выявлена тетрадрахма чеканенная от имени Лисимаха (323-281 гг. до н.э.) во Фракии, аршакидская драхма Фрата III (69-57 гг. до н.э.) и др. древние монеты.

Большой научный интерес представляют местные монеты варварского подражания монетам Александра Македонского обнаруженные во время археологических раскопок близ села Хыныслы.

Следует отметить, что в результате продолжительных археологических раскопок, проводимых на территории близ села Хыныслы, было обнаружено около 4000 захоронений IV в. до н.э. и III в. н.э., в том числе кувшинные захоронения. Из захоронений был выявлен очень интересный археологический материал.

Известный французский путешественник Дюма в своих путевых заметках “Кавказская поездка”, описывая свое путешествие по Шемахе, цитирует Волтера, который в своей книге “История Великого Петра” писал: “Шамаха

столица Мидийского государства, резиденция Кира сына Кабиса и Манданы”.

Можно привести множество фактов и документов свидетельствующих о древности Шемахи. Об истории города написано достаточное количество фундаментальных трудов. Населенные пункты, расположенные вокруг города также имеют свою историю, которая частично исследована. Однако еще существует большое количество населенных пунктов, история которых до сих пор не исследована.

Одним из них является село Ангехаран. С точки зрения изучения истории Ширвана очень важно исследование истории возникновения села, расположенного недалеко от Шемахи, изучение этимологии его названия, исследование истории других древних населенных пунктов, раскинутых вокруг.

Село Ангехаран располагается севернее Шемахи. В начале XVII века оно располагалось чуть выше, рядом с селом Зарат сохранилось место именуемое “место Ангехарана”.

Население села в связи с изменившимися историческими условиями и характером хозяйственной деятельности, с согласия сельских старшин изменили место жительства. Сохранив названия сел ангехаранцы переселились в Зарат, а заратцы – в Ангехаран. В истори

подобных фактов обмена местами жительства встречается очень мало.

В архиве моего отца, выдающегося исследователя-археолога Фархада Ибрагимова (1931-2001 гг.) сохранились рукописи о древних памятниках Шемахинского района, в особенности его родины села Ангехаран, черновые заметки об истории города Шемаха и Баку, что наводит на мысль о том, что по-видимому он планировал написать по истории Ширвана научно-популярную книгу. Однако он не смог завершить эту работу, исследование осталось незаконченным.

Наряду с этим, в его заметках есть много мыслей и гипотез, которые представляют научный интерес. Из заметок о Баку и Шемахе видно, что он отрицательно относится к мысли о персидском происхождении названия этих городов, не согласен с мнением о проникновении тюркоязычных племен на территорию Азербайджана в период средневековья.

Среди рукописей моего отца особый интерес вызывают его заметки о селе Ангехаран.

Им собран интересный материал об истории нашего села, о родах и наконец, о видных представителях интеллигенции Ангехарана.

По-видимому, отец планировал написать отдельный историко-этнографический труд о родном селе.

Дед моего отца Ибрагим Кулиев является основателем Ширванской ашугской школы, был известным мастером-ашугом региона. Еще в 60-ые годы XX века отец в беседе со старожилами села собирал о своем деде воспоминания. Однако смерть не позволила ему завершить и эту работу.

Поэтому я счел своим долгом обработать архивные рукописи моего отца и опубликовать.

Всем кто помогал мне в этом деле выражаю свою глубокую благодарность.

Особую благодарность в деле подготовки книги и за дельные советы выражаю сельскому аксаккалу, покойному Гюлабба Кахраманову, старейшему педагогу села Ангехаран, внуку ашуга Ибрагима, Аваз муаллиму. Выражаю благодарность уроженке Ангехарана, доценту БГУ Севиндж Гасымовой за предоставленный интересный материал “Шемаха в источниках и исторических исследованиях”.

Книга состоит из 6 глав. В первой главе повествуется о бедах пережитых Шемахой, войнах и захватах, землетрясениях и разрушениях, которым подвергался город на протяжении истории. С другой стороны говорится о героизме и мужестве шемахинцев, об их непреклонности перед врагом, о безграничной любви к разоренной и разрушенной родине, о созидательном труде.

Во второй главе идет речь о градостроительстве в Ширване и Шемахе и вопросах истории государственности. Дается краткая историческая справка о двух крупных городах Ширвана-Баку и Шемахе.

Третья глава посвящена исследованию исторических трудов в том числе источников в которых говорится о Шемахе и прилегающих областях. Доводится до сведения информация дипломатов, купцов, ученых, путешественников посетивших Шемаху в период средневековья. Впервые исследуются взгляды Э.Кемпфера о Шемахе.

В 4 главе впервые представлена информация о селе Ангехаран, его топониме, об исторических памятниках Ангехарана и его окрестностей, о средневековых поселениях, обнаруженных вблизи Ангехарана.

В 5 главе говорится о резне и погромах, учиненных малаканами 31 марта 1918 года в Ангехаране.

Со стороны Чрезвычайной Исследовательской Комиссии собран 7 томный материал объемом 925 страниц, о зверствах армян в городе Шемахе и Шемахинском уезде в 1918 году. В этой главе впервые представлена часть материала относящегося к селу Ангехаран, собранного Чрезвычайной Комиссией.

В 6 главе впервые даются сведения об интеллигенции Ангехарана, об известных ашугах села, их стихи,

сохранившиеся в народной памяти, в том числе о родах и родственниках ангехаранцев.

Выражаю глубокую благодарность доктору исторических наук, профессору, археологу, ученому исследователю, прекрасному человеку Гафару Джабиеву, редактировавшему мою книгу.

Считаю своим долгом отметить труд и помощь оказанную мне при написании работы моего научного руководителя, добродушного человека, доктора исторических наук, профессора, покойного Аляма Нуриева и известного этнографа, доктора исторических наук, профессора, покойного Гиясаддина Гейбуллаева.

С чувством глубокой благодарности хочу отметить заслуги первого исследователя творчества ашуга Ибрагима, выдающегося литературоведа, известного общественного деятеля, публициста, переводчика, источниковеда, члена Союза Писателей Азербайджана, директора Национального Музея Азербайджанской литературы им. Низами Гянджеви, доктора филологических наук, профессора, Академика, депутата, председателя Комитета Культуры Милли Меджлиса (Национального Собрания) Азербайджанской Республики Рафаэля Гусейнова.

Выражаю глубокую благодарность, консультанту книги, первому исследователю кровавых событий 1918

года в Ангехаране, великодушно предоставившему мне эти уникальные архивные материалы, видному ученому историку, доктору исторических наук, профессору Солмаз Рустамовой-Тохиди.

Я надеюсь, что с помощью этой книги Вам удастся отправиться в интересное путешествие по столице государства Ширваншахов древней Шемахе и маленькому селу Ангехаран, ознакомиться с его историей, археолого-архитектурными памятниками и видными представителями интеллигенции.

От автора

This Book is dedicated to the memory of the natives of Angarkhan village – my father Farhad Ibrahimov, well-known archeologist of Azerbaijan and my mother Tamilla Ibrahimova, honored teacher of Azerbaijan.

INTRODUCTION

The homeland of each person begins with his own threshold, the focus of his ancestors, the land where he was born, the family name. Moreover, he who does not know the history of his ancestors, i.e. his grandfathers and the distant past, he does not know the history of his country, or his people.

Ignorance of history leads to indifference. A person who does not have a historical memory is capable of any meanness.

Every person is obliged to know his pedigree, the history of the village, the district where he was born, his customs and rituals. Every citizen should study the history of every inch of the earth, appreciate the concept of Homeland native and ancient land, as her patriot of our people appreciated Abbas Sahhat.

He praised the homeland:

Homeland is the madman of our ancestors,

Homeland is the home of our sons,

There is no one who does not love the homeland,

If there is a person, it means he does not have a conscience.

In our opinion, these lines at all times and for all generations can be an example of endless love and devotion to their people, their homeland.

Representatives of our intellectuals with a deep sense of pride and praises in their writings about the history of ancient cities, towns, villages, districts, varied palette of natural, customs and traditions of our people, the way of life of its prominent personalities. Of course, from the point of view of studying the history and past of our native Azerbaijan, these works are invaluable.

One of the paradises of Azerbaijan, the city of Shemakha, born long before our time, was an important cultural, political and economic center of Shirvan for centuries, the pride of our homeland.

Geographically, the city is located in one of the favorable places at an altitude of 750 m above sea level, on the southeastern slope of the Main Caucasian Range. From the east, it is surrounded by the river Pirsaat, from the northwest - Pirdiraki and the mountains of the Maiden Tower, from the

west - the village of Hynysly and Mount Maysari, from the south - the Zagalavai River.

There is no common opinion on the history of the emergence of the city of Shemakha. Some historians believe that the city here was laid in the III-II centuries. BC, some claim that it existed 2000-2500 years ago.

It is impossible to say anything specifically even on the basis of the archaeological excavations conducted here.

At present, the treasure of coins, which was discovered during archaeological excavations near the village of Khynysly, located near Shemakha, attracts attention. From the treasure, tetradrachma was minted in the name of Lysimachus (323-281 BC) in Thrace, the Arshakid Drachma of Frata III (69-57 BC), and other ancient coins.

Of great scientific interest are local coins of barbaric imitation of the coins of Alexander of Macedon found during archaeological excavations near the village of Hynysly.

It should be noted that as a result of long archaeological excavations carried out on the territory near the village of Khynysly, about 4000 burials of the 4th c. BC. In addition, III c. AD, including pitchers burial. A very interesting archaeological material was revealed from the graves.

The famous French traveler Dumas, in his travel notes "The Caucasian Trip", describing his journey to Shemakha, quotes Volter who in his book "The History of Great Peter" wrote: "Shamakhi is the capital of the Median state, the residence of Cyrus the son of Cabis and Mandana."

You can give a lot of facts and documents that testify to the antiquity of Shemakha. A sufficient number of fundamental works have been written about the history of the city. The settlements around the city also have their own history, which has been partially explored. However, there are still a large number of settlements, the history of which has not yet been investigated.

One of them is the village of Angakharan. From the point of view of studying the history of Shirvan, it is very important to study the history of the origin of a village located not far from Shemakha, to study the etymology of its name, to study the history of other ancient settlements scattered around.

The village of Angakharan is located in the north of Shemakha. At the beginning of the XVII century, it was located a little higher, next to the village of Zarat there was a place called "the place of the Angakharans".

The population of the village in connection with the changed historical conditions and the nature of economic

activity, with the consent of the rural elders changed their residence. After saving the names of the villages, the Angakharan moved to Zarat, and the Zaтtz people moved to Angakharan. In the history of such facts of the exchange of places of residence is very little.

In the archives of my father, the outstanding explorer-archaeologist Farhad Ibrahimov (1931-2001), manuscripts on the ancient monuments of the Shemakha district, in particular his homeland of the village of Angakharan, rough notes on the history of the city of Shemakha and Baku, suggest that Apparently he planned to write a popular science book on the history of Shirvan. However, he was not able to complete this work, the study remained unfinished.

Along with this, in his notes, there are many thoughts and hypotheses that are of scientific interest. From the notes on Baku and Shemakha, it is clear that he negatively views the idea of the Persian origin of the names of these cities, does not agree with the opinion of the penetration of Turkic-speaking tribes into the territory of Azerbaijan during the Middle Ages.

Among my father's manuscripts, his notes on the village of Angakharan are of particular interest. They collected interesting material about the history of our village, about

childbirth and, finally, about prominent representatives of the intellectuals of Angharan.

Apparently, his father planned to write a separate historical-ethnographic work about his native village.

My father's grandfather Ibrahim Kuliyev is the founder of the Shirvan school of national Music (School of Ashugs), he was a famous “ashig” master of the region. Back in the 60s of the twentieth century, the father, in an interview with the old residents of the village, collected memories of his grandfather. However, death did not allow him to complete this work.

Therefore, I considered it my duty to process my father's archival manuscripts and publish them.

To all who helped me in this matter I express my deep gratitude.

I express special gratitude to the preparation of the book and the proper advice to the rural, the late Gulubba Kahramanov, the oldest teacher in the village of Angakharan, the grandson of ashig Ibrahim, Mr.Avaz. I express my gratitude to the native of Angakharan, BSU assistant professor Sevinj Gasymova for providing interesting material "Shemakha in Sources and Historical Studies".

The book consists of six chapters. The first chapter tells about the troubles experienced by Shemakha, wars and

seizures, earthquakes and destruction, which the city was subjected to throughout history. On the other hand, they talk about the heroism and courage of the Shamakhins, their inflexibility towards the enemy, their unlimited love for a ruined and destroyed homeland, and creative work.

The second chapter deals with urban planning in Shirvan and Shemakha and questions of the history of statehood. A brief historical reference is given about the two major cities of Shirvan-Baku and Shemakha.

The third chapter is devoted to the study of historical works including sources in which it is spoken about Shemakha and adjacent areas. The information of diplomats, merchants, scientists, travelers who visited Shemakha during the Middle Ages is brought to the attention. For the first time, E.Kempfer's views on Shemakha are investigated.

In the 4th chapter, information is presented for the first time about the village of Angakharan, its toponym, about the historical monuments of Angharan and its environs, about medieval settlements discovered near Angakharan.

Chapter 5 deals with the massacres and pogroms committed by the Malakans on March 31, 1918, in Angakharan.

From the side of the Extraordinary Study Commission, seven volumes of 925 pages of material were collected, about the atrocities of Armenians in the city of Shemakha and Shemakha Uyezd in 1918. In this chapter, for the first time, a part of the material relating to the village of Angakharan, compiled by the Extraordinary Commission, is presented.

In Chapter 6, information is given for the first time about the intellectuals of Angharan, about the famous ashugs of the village, their poems preserved in the people's memory, including the families and relatives of the Angakharans.

I express my deep gratitude to the doctor of historical sciences, professor, archaeologist, scholar researcher, fine person Gafar Jabiev, who edited my book.

I consider it my duty to mention the work and help rendered to me when writing the work of my scientific adviser, a good-natured man, and a doctor of historical sciences, a professor, the late Alyam Nuriyev and a famous ethnographer, doctor of historical sciences, professor, late Giyasaddin Geibullayev.

With deep gratitude, I want to note the merits of the first researcher of ashug Ibrahim, an outstanding literary critic, well-known public figure, publicist, translator, source-writer, a member of the Writers' Union of Azerbaijan, director of the

National Museum of Azerbaijan Literature. Nizami Ganjavi, doctor of philology, professor, academician, deputy, chairman of the Culture Committee of the Milli Mejlis (National Assembly) of the Republic of Azerbaijan Rafael Huseynov.

I express my deep gratitude to the book's consultant, the first researcher of the bloody events of 1918 in Angakharans, who generously provided me with these unique archival materials, the prominent historian, doctor of historical sciences, Professor Solmaz Rustamova-Tohidi.

I hope that with the help of this book you will be able to go on an interesting journey through the capital of the state of Shirvanshah to ancient Shemakha and the small village of Angakharan, to be acquainted with its history, archaeological and architectural monuments and prominent representatives of the intellectuals.

From the Author

I FƏSİL

Bəlalar çəkibdir başı Şirvanın

Şamaxı! Qocaman Şərqin qüdrətli şəhəri! Dünyanın ən böyük ticarət mərkəzlərindən biri. Gözəl, abu-havalı, mülayim iqlimli, ceyran gözlü, nanəli, çeşməli-bulaqlı, sıx meşəli, insanı valeh edən laləzar çəmənli, dağlı-düzlü, aranlı-yaylaqlı, Buqubeys taylı-timsallı gülüstanlı, pirdirəkili, meysərili, buğurdlu, ellər yaraşığı, ölkə iftixarlı, xalq inamlı, başı qarlı Baba dağlı, Nənə zirvəli, ən qədim ölkələri, elləri, şəhərləri, böyük kəndləri, obaları, ovdanları, körpüləri və mehmanxanaları bir-birinə calaşdıran uzun-uzun şahrah yollu-izli, təbiətin ürək dolusuyla, insan övladına tam əliaçıqlıqla bəxş etdiyi min-min nemətin hamısının cəmləşdiyi bərəkətli diyar, böyük ölkəmizin torpağının füsünkar, bənzərsiz unikal bir parçası.

Bu diyarın böyük oğlu Mirzə Ələkbər Sabir özünün "Şamaxıda" adlı şerində doğma şəhəri görün, necə tərənnüm edir.

Əsri-bistümdür, səhab altında qalmaz şəmsi-elm,
Bir zaman tələt açar, pərtöv saçar, zülmət qaçar;
Məktəbi-nisvan lüzumu hər kəsə məfhum olar,
Şeyxzadəm açmaz isə, xahərim Gövhər açar.

Bəlkə də bu böyük təbii amillərə görə insanlar burada daha erkən məskunlaşmış, zaman keçdikcə yer üzünün mütəfəkkirlərini özünə valeh eləyən zəngin, varlı, dövlətli, alışlı-verişli, sənətli-sənətkarlı, şairli-alimli, qonaqlı-qaralı, bazarlı-karvansaralı, cah-cəlallı, çal-çağırlı, toylu-busatlı, zər-zibalı, gur sakinli, ürək açan əzəmətli bir şəhər səviyyəsinə yüksələ bilmişdir. Kimlər olub bu şəhərdə?! Kimlər can atmayıb tarixlər şahidi olan bu yeri görməyə, ona tamaşa etməyə, bazarına, görməli yerlərinə, qala bürclərinə və divarlarına buranın nəfis xalı-xalçasına, parçasına, ipəyinə, baftasına, taftasına, ətrafının qədim quş qonmaz dağları üzərindəki qala və şəhərlərinə, müqəddəslərin dəfn edildiyi türbə, xanəgah və sənduqələrinə baxmağa! İrqindən, milliyyətindən və dinindən asılı olmayaraq bura gələn hər kəs - ərəb, fars, gürcü, rus, alman, ingilis, ispan, özbək, türkmən, hindli, çinli, monqol, burtas və qazax da yaxşı oxuyub abidələrin üzərində onun zəngin, ulu keçmişini, qədim, keşməkeşli tarixini. Yaxşı başa düşüblər onun minilliklərdəki sakinlərinin həm uğurlarını, həm də talesizliklərini, on iki dəfə böyük zəlzələlərin vurduğu min-min ziyanı, min bir əzabı, yüz minlərlə insan qurbanlarını. Onun tamaşasına gələn hər bir əcnəbi, uzaq və yaxın qonşu da yaxşı başa düşür ki, nəyə görə sasani, ərəb, bizans, monqol və digər uzaqlı-yaxınlı ölkə hökmdarları və fatehləri bu şəhəri yağlı tikə sanıb və hər zaman onu tutmağa can atmışlar. Onun qəhrəman döyüşçülərinin

öhdəsindən gələ bilmədikdə “nə sənə qalar, nə mənə” - deyib bu gözəl şəhəri yerlə yeksan etmişlər, dinc sakinlərini qılıncdan keçirmişlər.

Şamaxı belə bəlalarla antik dövrdə də, orta əsrlərdə də tez-tez üzləşib. Nadir şah Şamaxının tarix səhnəsindən salmaq niyyətilə onu 37 km. cənuba – Ağsu ərazisinə köçürdü. Sanki Şamaxı bir anlığa yer üzündən yoxa çıxdı, qeyb oldu, bu dünyada yoxmuş elə bil. Lakin torpağının, şəhərinin, ulu müqəddəslərinin, ata-babalarının mətfəni olan yerin qədrini bilən qəhrəman şamaxılılar yenidən qurdu ev-eşikləriri, həyat bacalarını. Onlar məscid və hamamlarını yenidən bəzədilər, dəyişdilər bircə-bircə, ev-ev onun simasını, görkəmini, libasını, bəzəyini zaman-zaman qurdular, daha təmiz, lap yeni, gözəl Şamaxını.

İlahi, insanlar necə də böyük məhəbbət və inamla sevərmiş elini, obasını! Nadir şah didərgini olan, zəlzələlər vaxtı atasını, anasını, bacısını, qardaşını, övladını itirib baş götürüb qaçan şamaxılılar da az iş görmədilər. Azərbaycanın digər şəhrələrində qurdular, onlar da, dünənədək “Yeni Şamaxı” deyilən Axsunu bəzədilər. Göyçayı, Ərəşi, Ağdaşı özlərinin Uşquvağ, Uznik kimi barlı-bazarlı, yavaş-yavaş şəhərləşən qədim məhəllələri ilə Ucarı, Zərdabı da. Bu minvalla Bakıda da yeni, şamaxılılar məhəlləsi, “Şamaxı qapıları” tikildi, müdafiə istehkamları, şəhərin qala divarları, Bayıl qəsri quruldu. Əzəmətli Şirvanşahlar kompleksi, onun

divanxanası, qədim və gözəl Bakı da gözəlləşdi yavaş-yavaş, zaman-zaman, şamaxılı qardaşlarının əməyilə, köməyilə. Yaradıldı geniş sinəli Xəzərdə, I Axsitan şahın böyük donanması və qüdrətli ordusu, tikildi və yarandı ev-ev qocaman şərqin iftixarı, bizim vilayətin Bağdadı, Aranın anası olan Bərdənin cənubi-şərq hissəsitndə "Şirvanlı"lar məhəlləsi.

Bircə-bircə, hətta, onun ustalarından olan usta İsi Kremlin qala divarlarını da inşa etdi, Yuri Dolqorukidən qəribə, heç kəs istəmədiyi, heç kəsə lazım olmayan bir "mükafatı"da aldı. Son vaxtlaradək adına "başdan-başa savadsızlar diyarı" da dedilər. Damğa da vuruldu və qədim diyarın Şirvanilərin hamısına, sabirlərin, Səhhətlərin, Hadi, Seyyid və şeyxlərin vətəni, məskunu və mətfəni olduğu torpaq yiyələrinin sinəsinə. Allahsızlıq demək olar buna, ancaq allahsızlıq, tanrısızlıq, dinsizlik.

Bu qədim ölkənin bircə şəhəri kimləri verdi dünya mədəniyyəti və sənəti xəzinəsinə gör. Yetişdi bu şəhərdə üsyankar Əfzələddin Xəqani, doğuldu və böyüdü və torpaqda, səmimi şer mütəfəkkirləri, fazil və kamil alimlər - Kifayətdin Ömər İbn Osman, Seyid Zülfüqar, Fələki İzzəddin, Əbutahir, Seyid Həsən, Seyid Yəhya, Məsud, Əbdi, Zeynalabdin, Dədəgünəş baba, Hacı Seyid Əzim, Şirvanilər. İftixar etdi, tikdi, qurdu şeir məclislərini ustad Əbül-üla. Yazdı, yaratdı burada Mücərəddin Beyləqani, Şahxəndan, Nəsimi, tarix öyrəndi bu şəhərdə Məsud ibn Namdar, boya-başa çatdı həcv

və satira inciləri yaratdı. Mirzə Ələkbər Sabir, yazdı, yaratdı böyük vətənpərvər şair, kövrək qəlbli həkim Abbas Səhhət, romantik şair, talesiz, ünvansız, həmişə qərib, itkin Məhəmməd Hadi, ucaltdı böyük imarətləri Məsud Davud oğlu, Zivər bəy, öz musiqisini yazdı, çaldı zər simli tarında qonaqpərvərlər - qonaqpərvəri Mahmudağa, oxudu zövqlə öz sarəngini Mirzə Məhəmməd Həsən, mehmanı oldu bu şəhərin böyük alimlər, şairlər, səyyahlar, rəssamlar və tacirlər, ingilis Cenkinson, holland Streys, alman Adam Oleari, fransız Aleksandr Düma, rus Afanasi Nikitin, Kotov, gözəl şair Lermontov. Vəsf etdi bu şəhərin gözəllərini rus şerinin atası Puşkin: yazdı, yazdı, danışdı ağız dolusu böyük alimlər və şairlər bu şəhərin özündən, şəhər sakinlərinin günündən-güzəranından, abad bazarından, qəhrəmanlıqla dolu keçmişindən. Tikdi, qurdu, xoşa gəlməyəni sökdü, yenidən lap yaxşısını, dəyərlisini tikdirdi böyük Şirvanşah Məniçöhr, onun xələfləri, III Fəribruz, Fərruxzad və başqa Şirvan hökmdarları. Nəhayət, dəfn edildi bu cənnət şəhərin müxtəlif qəbristanlıqlarında onların çoxları, o böyük sənət adamları, ulu xalq iftixarları və müqəddəsləri. Uyuyur onlar bu gün Yeddi gümbəzdə, Mirzədə, Pirsaatda, Göylərdə. Onların nişanəsidir Zoğalavay körpüsü Göylərin Pir körpüsü, çay və dərə qurğularının hamısı. Deyirlər unudulmur yaxşı kəlamlar, yaxşı sözlər, ifadə və xatirələr. Əslən Şamaxıdan olan petroqradlı bir şərqşünasın maraqlı qeydlərini burda yada salmaq yerinə düşərdi. O, yazır: “Boya-başa

çatdığım, oxuduğum şəhər qədim tarixli Şamaxı olub. Gəzərdim bu şəhəri, baxardım onun daş kitabələrinə, sənduqə, türbə və əlyazmalarına. Görəsən, mən onlarla danışa bilərəmmi?! Oxuya bilərəmmi, bu qədim tarixlər nişanəsini?! Buna görə də qət elədim ki, mən mütləq Şərqi, onun yazalırını, ədəbiyyatını, onun dillərini, o cümlədən Azərbaycan, rus dillərini, ictimaiyyəti, elmi öyrənməliyəm. Ona görə ki, bunsuz qədim Şirvan dövlətinin tarixini öyrənmək, müsəlman şərqini tam başa düşmək qeyri-mümkündür. Belə də etdim". Çoxları deyib belə dəyərli ifadəni, bu şəhərin qədim abidələri haqqında çoxları yazıb, fikirləşib, nəhayət qələmə alıb bu fikrini. Zaman keçib deyilən fikirlər, yazılan ifadələr, məclislərdə söylənən şeirlər, çalınan, oxunan mahnı və havalar dönüb bir tarix olub bugünkü nəsil üçün. Bu günkü nəslin şəhərin tarixini öyrənmək üçün min-min suallara cavab tapması həqiqətən çox çətindir. Bəli, çətindən də çətindir bu iş. Bunun üçün çoxlu kitab, çoxlu əlyazma, çoxlu tarixi ədəbiyyat oxumaq lazımdır. Şəhəri yaxşıca qarış-qarış gəzmək, onun abidələrinə baxmaq lazımdır. Müdrik bir alim əlavə edib dedi: "Bu da azdır. Şamaxı şəhərinin tarixini diqqətlə, dəqiq öyrənmək üçün, onun tarixini dürüst müəyyən etmək üçün onun ərazisində yaxşıca qazıntı aparmaq lazımdır, qazıntı. Bunu eləməsək biz heç vaxt qədim Şamaxının tarixini öyrənə bilmərik, onun yaşını dəqiq müəyyən edə bilmərik. Vaxt gəldi, zaman yetişdi. Sancıldı böyük arxeologiyamızın ucu şiş ağacları yerə, sancıldı iri-iri

şəbəkə kvadratlar. Başladı yorulmaq, dinclik bilmədən, çox vaxt gündüzünü gecəyə, ağır zəhmətə çevirən zəhmətkeş arxeoloqlarımız işə. Çıxdı min-min abidə, açıldı yüz-yüz sərdabə, baxıldı on-on küpdən - torpaq və quyudan olan dəfn nişanəsi, açıldı çoxlu-çoxlu sənətkar yadigarları, dəmirçixanalar, şüşəəridən kürələr, dulusxanalar. Makedoniyalı böyük İskəndərin Şamaxıda zərb edilən yerli, gümüşdən olan oxşadılmış pullarının sirri də tədqiq olundu. Roma hökmdarı Böyük Filippin (244-249) Arşaki çarı Qotarsın (40/41-51) pullarının buraya düşmə taleyi və səbəbi: Neçə-neçə Sasani hökmdarının gümüş sikkələrinin tarixi-taleyi, tikilən evlərin üslubu forması və ölçüsü. Öyrənildi çoxlu məscid, karvansaray, hamam, hücrə, universitet, Came məscidinin tikilməsinin tarixi. Köçürüldü onlar bircə-bircə ağappaq kağız vərəqlərin üzərinə, çəkildi hamısı bir-bir rəssam Cəbrayıl İskəndərovun əliylə, oxundu kitabələr, dil açıb nələr söylədi bizə çoxsaylı dulus, metal, şüşə, ağac, daş məmulatı. Ağardı bu yolda gözəl tarixçi - arxeoloq Cabbar Xəlilovun saçı: işıqlı dünyadan Təbrizli getdi aramızdan, şamaxı fədaisi, arxeoloq Hüseyn Ciddi, köçdü işıqlı dünyadan ömrünün çiçəkləndiyi, sənətinin püxtələşdiyi dövründə məsum rəssam Cəbrayıl İsgəndərov, dünyasını dəyişdi arxeoloq, vətənini sevən, onunla fəxr edən, Göylərli Aləm Nuriyev, yaşa doldu neçə-neçə sənətkar arxeoloqlarımız, memarlarımız. Deyildi sözlər, yazıldı tarixlər damla-damla, cəmləndi fikirlər, gəldi zaman, yetişdi dövran. Bir də qayıtdıq

Şamaxının tarixinin yazılmasına - yeni qayğıya, təzə zəhmətə, bir də ki, bu xoş dünyamızda yaşamaq arzusuyla döyündü qəlbimiz, xoş arzularla. Niyə soruşmur görəsən bizdən tələbkar tarix azarkeşləri olan oxucular?

Harada idi bu şəhərin ilkin yeri, orta əsrlərdəki məskəni? Tədqiqatlar, arxeoloji axtarışlar nə deyir, nəyi sübuta yetirir? Arxeoloji tədqiqat sübut edir ki, antik və ilk orta əsrlər Şamaxısı indiki Xınıslı kəndi ərazisindən başlamış ta indiki Çuxuryurd kənd instiqamətindən gedən qədim "El yolu"nun bir hissəsi, indiki N.Nərimanov prospektinə qədərki böyük bir ərazini əhatə etmişdir.

Orta əsrlərdə şəhərin yeri nisbətən cənuba, Bakıdan Şamaxıya gedən yolun, daha doğrusu, onun həm cənubunda, həm də şimal tərəfindəki qədim ticarət yolunun sonrakı Minaxor, Sarıtorpaq, Karıslar və Qurdlar deyilən məhəllələr ətrafında cəm edilmiş, buradaca məşhurlaşıb dünya şöhrətli şəhərlər səviyyəsinə qədər ucala bilmişdir bu yer. Müharibələr zamanı şəhərin təsərrüfatına, onun sənətkarlığına, iqtisadiyyatına bütövldükdə zərbə dəysə də, şəhər əvvəlki səviyyəsini, öz şöhrət və ad-sanını saxlamaqda davam edirdi. I şah Təhmasibdən sonra Şamaxını Şirvan bəylərbəyi idarə edir, lakin şəhər yenə də öz fəallığından qalmır, özünün geniş ticarətini, yeni istehsal və beynəlxalq münasibətlərdəki mövqeyini əldən vermədi. Məlumdur ki, 1734-cü ildə Nadir şah Şamaxını dağıtdı və onu indiki Ağsu ərazisinə köçürdü.

Belə nağıl edirlər ki, o zaman şair Zülali Təbrizdən dönərkən görüb ki, Şamaxı yerlə-yeksan olub. Soruşub ki, bu necə oldu? Hara getdi bəs bizim gözəl, iftixar etdiyimiz tərifli, dəbdəbəli Şamaxı?! Dedilər ki, get Şərədildən aşağı bax. Yeni Şamaxını orada görərsən. Pəjmürdə şair Şərədil dağına gəldi. Qoca Zülali qəm içində yeni salınan təzə bir şəhər gördü və bu iki misra şeiri ordaca qələmə aldı.

Ey dust, bu cəfalar sənə bilməm nədən oldu,
Sındırdı fələk qəlbim əsiri-muhən oldu
Ahın odu yandırdı məni, ey kuli-rəna,
Bir ölmədim, ancaq mənə el tənəzən oldu.
Qürbətdə deyərdin ki, Zülali, vətənim var,
Ensin gözünə qarə su, Ağsu vətən oldu!

Xanlıqlar dövründə Şamaxı əvvəlki nüfuzunu bir qədər itirsə də, yenə də abad və füsünkar şəhər olaraq qalırdı. Yerli əhali isə, kökü uzaq keçmişinə gedib çıxan adət və ənənələrini qoruyub saxlamaqda davam edirdi.

1805-ci ildə Şamaxı xanlığı çar Rusiyasının hakimiyyətini qəbul etdi. 1813-cü ildə isə Şamaxı quberniya mərkəzi kimi həmişəlik Rusiyanın tərkibinə daxil oldu. 1859-cu ilin 31 may zəlzələsi nəticəsində Şamaxı yerlə yeksan oldu və həmin tarixdən quberniya mərkəzi Bakıya köçürüldü.

1902-ci ilin 31 yanvar zəlzələsi sözün əsil mənasında

Şamaxının axırına çıxdı, onu xarabazara çevirdi. Lakin şamaxılılar yenə də qoymadılar ki, sevimli şəhərləri bərbad qalsın. Onu yenidən bərpa etməkdə davam etdilər. Çox çəkmədi ki, şəhər yenidən Azərbaycanın abad, iri yaşayış məntəqələrindən birinə çevrildi.

Zaman keçib, vaxt ötüb. İndi Şamaxı Respublikamızın abad şəhərlərindən birinə çevrilmişdir. Ötən əsrin 70-80-ci illərində Şamaxı öz inkişafının yeni çağlarını yaşamışdır. O, respublikanın ən iri üzümçülük və şərabçılıq şəhərinə çevrilmişdir. Kolxozçular o illərdə ümummilli liderimiz Heydər Əliyevin qayğısı, təşəbbüsü və bilavasitə rəhbərliyi ilə Şamaxıda həyata keçirən böyük quruculuq işləri yəqin ki, əsrlər boyu unutmayacaqlar.

Hər bir şamaxılı doğma şəhərinin naliyyəti, füsünkar gözəlliyilə fəxr edə bilər. İndi o, respublikamızın mühüm sənaye mərkəzi və iri kənd təsərrüfatı rayonudur. Şamaxı, qədim və orta əsrlər dövründə olduğu kimi bu gün də çox mühüm sənt və mədəniyyət mərkəzi funksiyasını özündə saxlayır.

Sasani ağalığı dövründə Albaniya ərazisində, o cümlədən Şirvanda çoxsaylı müdafiə istehkamları tikilib. Əlbətdə, müdafiə istehkamlarının inşasının obyektiv səbəbi vardı. Şübhəsiz, bu müəyyən mənada erkən feodal münasibətləri, şəhərsalma qanunauyğunluğu ilə bağlı idi. Lakin bu əsas amil deyildi. Əsas amil o idi ki, şimaldan gələn tayfalar ildırım

sürəti ilə əraziləri fəth edirdi. Odur ki, Sasani imperatorları vəziyyətdən çıxmağın ən yaxşı və optimal yolunu möhkəm müdafiə istehkamlarını və səddləri tikdirməkdə görürdülər. Bununla da onlar şimallıların qarşısını almaq ümidində idilər. Erkən orta əsrlərdən bu günümüzə yadigar qalan abidələrindən biri də qlobal müdafiə istehkamlarıdır. Bunlardan Dərbənd, Gilgilçay, Kolanı və Quşçu, Qalacığı. Torpaqqala yaxınlığındakı müdafiə istehkamı, Zakatalanın uzun kərpic divarları, Beşbarmaq müdafiə səddləri və s. saymaq olar. Sasanilər bu yolla şimaldan gələn türk tayfalarının hücumuna qarşı nisbi mənada möhkəm bir müdafiə bəndi çəkirdilər. Bu işin öhdəsindən şərəflə gələn yerli əhali bir neçə il ərzində Xəzərdən Beşbarmağadək və daha sonra davam edən çox əzəmətli, qlobal müdafiə səddlərinin inşasını başa çatdırdılar. Bununla da ildırım sürətli şimallıların yürüşlərinin sürəti nisbətən səngidi. Bütün bunlar isə müdafiə səddlərinin indiki vəziyyəti və çoxsaylı arxeoloji abidələrin mövcudluğu ilə təsdiq olunur.

Ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycan arxeoloqları orta əsr şəhərləri və qala-istehkamların tədqiqi ilə intensiv məşğul olur və aşkar edilən maddi-mədəniyyət nümunələrini dəqiqliyi ilə öyrənirlər.

Böyük Çin səddi əslində Çini, bütövlükdə ölkəni şimal düşmənlərindən möhkəm müdafiə edirdisə, bununla belə ölkənin daxilində olan şəhərlər də öz ətrafını ayrı-ayrılıqda

kiçik qalalarla qurşayıb bərkidirdi ki, belə həcmcə nisbətən kiçik qala-haşiyələrlə əhatə edilmiş müdafiə istehkamları çox möhkəm müdafiə divarları ilə qapanılmış mənada başa düşülməlidir. Eyni cür müqayisəni Azərbaycan haqqında da söyləmək olar. Qlobal Gilgil-çay və Beşbarmaqdırsa, lokal - Bakı, Şamaxı, Şabran və Dərbəndin müdafiəsini təsdiq edən çox möhkəm hörülmüş müdafiə özülü ilə də çox mötəbər sədd və istehkamlardır. Qlobal və lokal müdafiə istehkamları əslində məhz bu mənada başa düşülür. Buna eyni zamanda Qafqaz Albaniyasının erkən feodal şəhərləri və eləcə də o dövrün müdafiə istehkamlarına da aid etmək olar. Bu fikir Bakı, Bərdə, Şamaxı, Qəbələ, Dərbənd, Naxçıvan, Şabran və Şəmkir şəhərlərində aparılan geniş arxeoloji tədqiqat işlərinin elmi nəticələri zamanı da tam mənası ilə təsdiq olunmuşdur.

Son illərin arxeoloji tədqiqatlarının nəticələri də sübut edir ki, ilk orta əsrlərdə lokal müdafiə istehkamları iri yaşayış məntəqələrinin şəhristan hissəsinin ətrafına çəkilirdi. Bu cəhətdən Bakının “İçəri şəhər”, Şamaxının “Pirən”, “Şirvan”, Qəbələnin “Qala”, Bərdənin və Naxçıvanın “Köhnə qala” hissələrini çox bariz bir misal kimi qeyd etmək olar. Şəhristanlar da özü-özlüyündə bir neçə məhəlləyə bölünmüşdür, Bakının “Hamamlar, Zərgərlar, Ağşalvarlar” məhəlləsi, Beyləqanın “Hamamlar”, “Şıxsərli”, “Malağan”, “İçəri qala”, “Aşağı Qalabazar”, “Narağac”, “Sarıtorpaq”, “Dərəməhəllə”, “Qurdlar”, “Ucarlı”, “Kürtlər”, “Şəhidlər”,

“Şıxnamaz”, “Quşçular”, “Padarlar”, “Qalabidi”, “Yuxarı Qalabazar”, “Aşağı Qalabazar” məhəllələri deyilənlərə bariz bir misal ola bilər. Şamaxı şəhər sakini Nurəddin Məmmədovun söyləməsinə görə əsrin əvvəllərinədək Şamaxı şəhər sənətkarlığı, əsasən bazar və bazar ətrafı ərazidə cəm olmuşdu. Odur ki, şənbə və bazar günlərində hətta ətraf yaşayış məntəqələrinin sakinləri də axın-axın mərkəzi bazara gələrək, şəhər sənətkarlarının istehsal etdikləri metal, dulus, şüşə və gön-dəri məmulatı nümunələri alırdılar. Bununla da onlar öz evlərində normal məişət şəraiti yaradırdılar ki, bu da orta əsr Azərbaycan şəhərlisinin gündəlik həyat tərzi üçün zəruri əmir idi. Xatırladaq ki, orta əsr şəhər məişətinin öyrənilməsi uzun müddət ciddi problem olaraq Azərbaycan tarixçilərinin, etnoqraf və arxeoloqlarının diqqət mərkəzində olmuşdur.

1160-1233-ci illərdə yaşamış ərəb müəllifi İbn əl-Əsir özünün şah əsəri olan əl Kamil fit-tarix əsərində monqolların 1222-ci ilin yazında Şamaxıya hücumunu ürək ağrısı ilə belə təsvir etmişdir. “Monqol işğalçıları Şamaxı şəhərinin qala divarı boyunca çəkilmiş dərin xəndəyə yaxınlaşdılar. Yaxınlaşdıqca enli və dərin xədəyi keçmək olduqca çətin idi”. Şamaxı qəhrəmanlıqla müdafiə olunurdu. İbn-əl-Əsrin yazdığına görə Şamaxının müdafiəsində, xüsusilə, şücaət göstərən qəhrəman döyüşçülərindən biri o vaxt belə demişdi: “Canımızı bu saysız-hesabsız kafir monqolların qılıncından onsuz da qurtara bilməyəcəyik, yaxşısı budur ki, yerimizdə

möhkəm dayanıb heç olmasa şərəflə ölək”, deyərək, Şamaxı uğrunda döyüşdə şəhidlik zirvəsinə ucaldı.

Monqollar bu döyüşdə Şamaxı üzərinə oxları yağış kimi yağdırırdılar. Şəhərdə qan su yerinə axırdı. Amma Şamaxının müdafiəçiləri təslim olmurdu ki, olmurdu. Onlar geri çəkilməkdənsə, vətən uğrunda şərəflə ölməyə üstünlük verdilər. Şamaxılı döyüşçülərin son şüarı bu oldu: “Biz bilirik ki, öləcəyik, elə isə şərəflə ölək!”. Gövhər Məşhədi Əsəd qızı Şirvani “Şirvanım” rədəfli qoşmasında Şamaxını və şamaxıllıların yağı düşmənlə qeyri-bərabər döyüşlərini belə tərənnüm edib:

Zalım fələk, səni görüm yanasan,
Qanlara boyandı daşı Şirvanın.
Duman gəlib Fit dağını bürüdü,
Bəlalar çəkibdi başı Şirvanın.

Gahdan ağa soyub, gah paşa soyub,
Talanlar, qırğınlar boş yurdda qoyub,
Gözəl gəlinləri saf cana doyub,
İgidləri olub naşı Şirvanın.

Gövhər çəkər ahu-nalə ürəkdən,
Beli sınıb, əli düşüb biləkdən,
Fələk vurub, quşu uçub tüləkdən,
Göylərindən axır yaşı Şirvanın.

Monqollar Şamaxıya girmək üçün ölənlərin cəsədlərini üst-üstə yığaraq, dərin xəndəyi doldurdular və bu yolla da, şəhərə daxil oldular. Bu ondan etibarən hər küçə, hər ev, hər döngə uğrunda amansız mübarizə başladı. Şirvan oğulrranı misilsiz igidliklərinə baxmayaraq qeyri-bərabər yürüşdə azlıq təşkil edən əhalinin müqaviməti tədricən qırıldı. Qoca, qadın və uşaqlar belə amansız düşmən tərəfindən qılıncdan keçirildi. Şamaxının dəbdəbəli imarət və evləri viran və talan edilirdi.

Monqollar Şamaxını viran etdikdən sonra külli miqdarda qənimət götürərək şimala doğru hərəkət etdilər. Dərbənddən yan keçərək rus çöllərinə, daha sonra isə Volqa boyuna üz tutdular. Ərəb tarixçisi Şamaxının müdafiəsinə dair qeydlərini bu sözlərlə tamamlayıb. “Şamaxı döyüşünə baxmaq mənə olduqca ağır idi. Burada qan su yerinə axırdı. Təki mən anadan kor doğulaydım ki, bu son dərəcə ağır və amansız səhnəni görməyədim”.

İbrət ediləsi odur ki, tarix boyu fatehlərdən heç birisi tutduğu torpaqda həmişəlik qala bilməyib. Tarix özü buna şahiddir.

II FƏSİL

Şirvanda şəhərsalma tarixindən

Şəhər anlayışı çox uzun bir tarixi təkamül dövrü keçib, inkişaf edərək özünün bu günkü səviyyəsinə gəlib çatmışdır. Yeri gəlmişkən, təəssüflə qeyd etməliyik ki, hətta son vaxtlara kimi alimlərimizin bir qrupu şəhərlərimizin tarixini onların yaranmasını, tikilməsini, müvəqqəti gəlmə hökmdarların fəalliyyəti ilə bağlayırdılar. Belə çıxırdı ki, Azərbaycan şəhərlərinin birini - məsələn, Qəbələni Sasani hökmdarı I Qubad (488-531), Bərdəni, Sasani hökmdarı Xosrov Ənuşirəvan (459-484), Gəncəni isə VII əsrdə ərəb canişini Əbdül Məlik tikdirmişdir. Axı, hər bir şəhər evlərin tək-tək artımıyla böyüyür, məhəllə-məhəllə, genişlənir və beləliklə də nəinki onillikləri, əsrləri və bəzən isə hətta minillikləri əhatə edən uzun bir təkamül prosesi keçməklə dövrünün qlobal mədəniyyət və sənət mərkəzinə çevrilmişdir.

Qeyd etdiyimiz kimi şəhər, adı missiyanı öz üzərinə götürməsi üçün o daxili məhəlli strukturlara malik olmalıdır ki, bu da onun gördüyü işin həcmi və səviyyəsi ilə ölçülür. Yaşayış məntəqəsi səviyəsinə yüksəlməsi üçün hər şeydən əvvəl o, iqtisadi mərkəz olmaq funksiyasını özündə cəmləşdirməlidir. Yəni, şəhər, daxili və ətraf ərazi yaşayış məntəqələri sakinlərinin məişət və təsərrüfat həyatındakı fəal rolunu öz əlində saxlamalıdır. O, yaxın və uzaq yerlərlə sıx

əlaqədə olmalıdır. Şəhərin şəhər səviyyəsinə yüksəlməsi üçün mühüm amillərdən biri də onun ölkənin sənətkarlıq mərkəzinə çevrilməsidir. Burada o, ərazi sakinlərinə lazım olan dulus, metal və şüşə məmulatı istehsalını öz əlinə almalı, yerli əhalini lazım olan çoxçeşidli qab-qacaqla təmin etməlidir.

Zəngin əmtəə-pul münasibətlərinin mövcud olması şəhərin ən mühüm amillərindəndir. Qədim Şamaxı şəhərində və ətraf ərazilərdə aparılan geniş arxeoloji tədqiqat zamanı söylənilən amillər tam mənası ilə təsdiq edilir.

Şəhərin şəhər kimi şöhrətlənməsini təsdiqləyən göstəricilərdən əsas birisi də şəhər sakinlərinin pul zərb etməsi və mərkəzi bazarın yaranmasıdır. Şamaxı şəhərinin antik hissəsindən Makedoniyalı İsgəndərin (e.ə. 356-323) adından zərb olunmuş zəngin pul dəfinəsinin tapılması da yuxarıda göstərilən atributların ən bariz nümunəsidir.

Bütün bunlar sübut edir ki, eradan əvvəl III-II, əsrlərdə Şamaxı sözün əsil mənasınla Yaxın Şərqin mühüm şəhərləri sırasında olub. Dediyimiz, bu fikirləri 1959-cu ildən bəri şəhər ərazisində aparılan geniş miqyaslı arxeoloji tədqiqatlar büsbütün təsdiqləyir. Tədqiqatçıların fikrincə, Şamaxı şəhərinin ən azı 2200 illik tarixi olması məntiqə uyğun gəlir və bu fikri zəngin maddi mədəniyyət qalıqları da təsdiq edir.

Təbiidir ki, şəhər tam formalaşdıqdan sonra isə onun ətrafına qala divarı çəkilərək, əlverişli hissədə qala darvazası qoyulmuşdur. Şəhərlərimizi tikib, qurub, yaradan şübhəsiz ki,

öz xalqımız, vətənpərvər, zəhmətkeş, ulu baba və nənələrimiz olmuşdur. Qocaman şəhərlərin fəaliyyəti və dünya mədəniyyəti xəzinəsinə verdiyi töhfələr baxımından Şamaxının müstəsna xidməti vardır. Bəli, Şamaxı, məhz bu unikal şəhər, Qafqaz Albaniyasının əsas şəhərlərindən biri olub. Şəhər xarabalıqlarında aparılan 47 illik geniş arxeoloji tədqiqat işləri onun 2200 illik tarixə malik olduğunu inandırıcı təsdiq edir. Oradan toplanmış zəngin metal, daş, dulus, şüşə, toxuculuq məmulatı, bəzək əşyaları Şamaxının maraqlı keçmişindən xəbər verir. Tarixçilərin yazdığına görə eramızın I-II əsərlərində, şəhərin bir tərəfində işləyən metal ustalarının hazırladıqları müxtəlif ölçülü gavahınlar, kotan başlıqları və s. həm də ətrafdakı yaşayış məntəqələrinin ehtiyaclarını ödəməyə xidmət edirdi. Şəhər sənətkarları şəhərlilərin süfrəsi üçün səciyyəvi olan çox nəfis şüşə qab-qacaq istehsal edirdilər.

Beləliklə, arxeoloji tədqiqat işlərinin nəticəsində sübut edilmişdir ki, eramızdan əvvəl II əsrdə Şamaxıda artıq iri şəhərlər üçün xarakterik olan məhəllələr formaşmağa başlamışdı. Burada aparılan geniş arxeoloji tədqiqat işləri zamanı dünyanın əksər ölkələri, o cümlədən Misir, Suriya, Fələstin, Mesopotomiya, Gürcüstan, İran və digər ölkələrdə istehsal edilmiş çox unikal sənət nümunələri də aşkar edilmişdir. Şamaxı şəhərinin arxeoloji tədqiqi zamanı dəfinə və ya tək-tək halda əldə edilən gümüş, mis və qismən də qızıl sikkə nümunələrinin hələ antik dövrdən başlayaraq bu şəhərin

beynəlxalq ticarət mərkəzi olduğunu sübuta yetirir.

Bütün şərq ölkələrində mədəniyyət və incəsənətin inkişafına böyük təsir göstərmiş Azərbaycan qədim və zəngin bir tarixə malikdir. Bu tarix isə hər şeydən öncə sirlər, əfsanələr örtüyünə bürünmüş qədim şəhərlərin qalıqlarında, dəbdəbəli saraylarda, ahəngdar biçimli, incə naxışlı türbələrdə, monumental məscidlərdə, xalqımızın yadelli işğalçılara qarşı "düyünlənmiş yumruqları" olan möhtəşəm qalalarda yaşayır. Məhz onların əsasında sonradan tarixi yazırlar.

Bəli, qədim abidələrdən hər biri, həqiqətən də, yarandığı dövrün ictimai-siyasi hadisələrini, ötən nəsillərin arzu və istəklərini, bədii zövqünü əks etdirən daş səlnamələrdir. Dərbənddən Həmədana qədər böyük bir ərazinin hər qarışında - Qobustan qayalarında, Alban tikintilərində, Aran, Şirvan–Abşeron, Təbriz-Naxçıvan, Qəzvin–Həmədan abidələrində hər an müdrik babalarımızın "ürəkləri döyünür". Zaman etibarilə yaxın-uzaq nəsillərin yaratmış olduqları bütün nadir sənət inciləri bizə eyni dərəcədə əzizdir. Çünki, onların bu gün bizdə oyatdığı dərin iftixar hissi azadlıq uğurunda canlı vuruşmalarda sarsılmayan xalqımızın sönməz istedadından yaranmışdır. Tarixi abidələr xalqın keçmişini, onun tərəqqi və tənəzzül çağlarını parlaq əks etdirir, qüdrətinə ehtiram ilə baş əydiyimiz sənətin sirlərindən söhbət açır. Bəhs qədim şəhərlər? Ayrı-ayrı memarlıq abidələri ilə müqayisədə əlbəttə ki, fərqli olaraq şəhərlərin tarixi rolu və təsir gücü daha böyükdür.

Əslində şəhərlər də bir növ canlı orqanizmdir. Onlardan hər şəhərin özünəməxsus taleyi vardır. Bir şəhər hərbi, siyasi hadisələrdən kənarda sakit həyat sürürdüsə, digəri tarixi hadisələrin güclü burulğanında çırpınırdı. Biri yanğınlara, feodal çəkişmələrinə, qaniçən, müstəbid hökmdarların intiqamına, təbii fəlakətlərə tab gətirməyərək məhv olub aradan gedirdisə, digəri əlverişli təbii-iqlim şəraitinə, güclü iqtisadiyatına, ticarət və sənətkarlığın inkişafına görə çiçəklənərək şöhrət qazanırdı. Birində memarlıq dövrünə görə ən yüksək inkişaf nöqtəsinə çatırdısa, digərində ətalət və durğunluq hökm sürürdü.

Orta əsr Azərbaycan şəhərləri xalqımızın yaradıcılıq imkanlarının tükənməzliyindən söhbət açır, bizi yüz illərin dərinliyinə aparır. Dövrümüzə gəlib çatmış şəhərlərdə dar, əyri-üyrü küçələri, meydançaları, dolaşdıqca insanların yaşayışının, zövq və marağının, məişətinin, bunlarla bərabər gözəllik haqqındakı təsəvvürlərinin zaman keçdikcə necə dəyişdiyini görürük. Qədim şəhərlərin divarları arasında sanki keçmişə qayıdaraq, müasir baxımdan müxtəlif dövrlərin ətrini, nəfəsini duyuruq. “Mədəni qatları” şəhərsalma ənənələri və planlaşdırma prinsiplərini təcəssüm etdirən qədim şəhərdə sənət eşqilə yaşayıb-yaradan insanların ürək çırpıntılarını eşidirik.

Məlumdur ki, Azərbaycan qədim zamanlardan bəri təkcə Zaqafqaziyada deyil, eləcə də Yaxın Şərqdə əlhalisi çox olan

ölkələrdən biri kimi tanınmışdır. Əlverişli iqlim şəraiti, təbii sərvətlərin bolluğu ölkənin ərazisindən keçən beynəlxalq əhəmiyyətli ticarət yolları bu vilayətin iqtisadi cəhətdən inkişafına kömək etmişdir. Qafqaz Albaniyasının və Midiyanın məhsuldar torpaqları, IV-V əsrlərdə Mil və Muğan düzlərində çəkilmiş süni suvarma kanalları landşafat gözəlliyi, rəngarəngliyi və ən başlıcası ölkənin geosiyasi mövqeyi burada qəqdim zamanlardan başlayaraq bir çox iri yaşayış məntəqələrinin meydana gəlməsi üçün ilkin şərtlərdən idi. Təsadüfi deyildir ki, hələ bizim eramızın əvvəllərində yunan astranom və coğrafiyaşünası Klavdi Ptalomey (70-147-ci illər) Azərbaycanın 28 şəhərinin adını çəkmişdir.

Tarixi tədqiqatlar və arxeoloji qazıntı işlərinin nəticələri göstərir ki, şəhərlərin böyük bir qismi yaranmazdan əvvəl onların yerində kiçik yaşayış məntəqələri mövcud olmuşdur. Təssərrüfat həyatının güclənməsi və mədəniyyətin tədricən inkişafı bu məntəqələrin getdikcə böyüyərək şəhərlərə çevrilməsini müəyyən edən obyektiv səbəblər idi. Feodal münasibətlərinin inkişafı, əmək bölgüsünün dərinləşməsi, sənətkarlığın durmadan yüksəlməsi, daxili və xarici ticarətin genişlənməsi şəhərlərin meydana gəlməsi və inkişafı prosesini sürətləndirirdi.

Azərbaycanda şəhərlər müxtəlif zəmin üzərində meydana gələrək inkişaf edirdi. Əsas karvan yolları üzərində yerləşən yaşayış məntəqələrində ticarət və sənətkarlığın artması,

digərinin dini zəmin əsasında yaranması, bəzilərinin isə inzibati mərkəz rolu oynaması onların inkişafına müxtəlif dərəcədə təsir göstərmişdir. Bir sıra şəhərlər ilkin başlanğıc olan qalaların, V-VI əsrlərdə Sasanilər dövründə tikilmiş istehkamların əksəriyyəti məntələqərinin böyüməsi nəticəsində yaranmışdır. Sonralar da öz hərbi-inzibati əhəmiyyətini itirməyən belə şəhərlərə örnək olaraq, Şamaxı və Bakını misal göstərmək olar.

Orta əsr şəhərlərinin inkişafı, yuxarıda göstərildiyi kimi, onların iqtisadi əsasını təşkil edən sənətkarlıq istehsalının vəziyyəti ilə qırılmaz surətdə bağlı idi. Lakin sənətkarlığın inkişafı da təklikdə həlledici amil kimi qəbul edilə bilməz. Bunun üçün həm də istehsal rayonunda sənətkarın istehsal etdiyi məmulatı reallaşdırmaq üçün həm də bazarın olması zəruri idi. Bu baxımda müxtəlif istehsal da mədəniyyət mərkəzlərini birləşdirən ticarət yollarının olması faktoru da böyük kömək edirdi. K.Marksın yazdığı kimi "...Şəhərlərin inkişafı ilə ticarətin əlaqəsi və digər tərəfdən, bu inkişafın ticarətlə bağlılığı özlüyündə aydındır".

Şəhərlərdə izdihamlı, qaynar həyatlı mərkəzlər – ticarət kompleksləri, meydanlar, küçələr və bəzən də böyük məhəllələr meydana gəlirdi. XI-XIII əsrlərdə Azərbaycanda sənətkarlıq geniş inkişaf etmişdir. O zaman ölkənin şimal və cənub vilayətlərindəki iri şəhərlərin əsas sənətkarlıq mərkəzləri kimi fəaliyyət göstərməsinə baxmayaraq, sonrakı əsrlərdə

cənub şəhərləri bu sahədə böyük üstünlük qazanmışdır. Bununla əlaqədar olaraq O.A.Əfəndiyev yazır ki, “XVI əsrdə Azərbaycanda şəhərlərin özünü idarəetmə hüququ mübarizə yolu ilə qazanılmırdı. Əksinə, bəzi şəhərlərdə hakim dairələr, yuxarı təbəqələr Səfəviləri müdafiə etdiyinə görə onlardan müəyyəni müstəqillik hüququ, qızılbaş hərbçilərinə nisbətən muxtariyyət payı alırdılar”.

Şəhərlərin plan strukturunun formalaşması prosesini ictimai-iqtisadi şəraitdən ayrı təsəvvür etmək olmaz. Bu prosesdə estetik tələblər böyük əhəmiyyət kəsb etsə də, ilk növbədə cəmiyyətin sosial, məişət, təsərrüfat, funksional və s. xarakterli ehtiyacların doğurduğu spesifik cəhətlər nəzərə çarpırdı. Azərbaycanda, bir çox şəhərlərin üç pilləli plan quruluşu feodalizm cəmiyyətindəki təbəqələşməni əks etdiridi. Şəhər əhalisi ictimai-siyasi və iqtisadi vəziyyətinə müvafiq olaraq iç qalada, şəhristanda və ya rabadda yaşayırdı. Lakin feodalizm cəmiyyətinin məzmununa uyğun olan üç pilləli bölgü zaman getdikcə özünün mütləq əhəmiyyətini itirirdi. Bəzi şəhərlərin planı inkişaf prosesində iki pilləli quruluşa malik olmuşdur. Onlarda İç qaladan sonra gələn Şəhristan və Rabad hissələri bir-birindən ayrılmazdır.

Şəhərlərin yaranması və inkişafı təbii iqlim amilləri ilə vəhdətdə cərəyan edən mürəkkəb ictimai-iqtisadi prosesin nəticəsidir. Bəllidir ki, həmin prosesdə həmişə bu və ya digər stimul həlledici rol oynayır. Əgər Azərbaycanın müxtəlif

vilayətlərində ictimai-iqtisadi şəraitin təxminən oxşarlığı eyni palanlaşma xüsusiyyətlərinə gətirib çıxarırdısa, təbii landşaftın və iqlim şəraitinin müxtəlifliyi fərdi əlamətlərə səbəb olurdu.

Arxeoloji qazıntı işlərinin nəticələri sübut etmişdir ki, hələ ibtidai insanlar təbii sığınacaqlar seçərkən həmişə strateji cəhətdən etibarlı və əlverişli yerlərə üstünlük vermişlər.

Şəhərlərin tikintisində xalq sənətkarları və memarlar onların inkişafının aktiv elementləri sistemini təşkil edən təbii-iqlim amillərnini nəzərə alırdılar. Təmiz hava, su, relyef, küləyin istiqaməti və gücü, su hövzələri və s. belə amillərdəndir. Orta əsrlərdə nəm çökəkliklər və günəş şüaları az düşən şimal yamacları şəhər tikmək üçün yararsız sayılırdı. Təsadüfi deyildir ki, hələ bizim eradan əvvəl yaşamış yunan alimi Hippokrat yazırdı ki, şəhəri gündoğana cəhətləndirmək, onu şərq küləklərinə açmaq daha yaxşıdır. Belə şəhərlərin atmosferini tutan duman səhər günəşinin şəfəqləri ilə dağılır, iqlimi müliyim olur; orada yaşayanlar şimala baxan yamaclarda yaşayanlara nisbətən daha dərrakəli olurlar.

Bir çox şəhərlərin müdafiə divarları oval və dairə şəklində tikilirdi. Qala divarlarının perimetrinin şüurlu surətdə azaldılması (qeyd etməliyik ki, bu tikinti üçün material və vəsait sərfini azaldır, az hərbi qüvvə ilə şəhərin müdafiəsini təşkil etmək imkanı verirdi) onun daxilində sahənin çox xırdalanmasına səbəb olurdu. Qala divarları çəkilərkən həmişə ehtiyat ərazi nəzərdə tutulurdu. Hamı təhlükəsiz yerdə, müdafiə

xətti daxilində yaşamaq istəyirdi. Zaman getdikcə əhalinin artması qala divarları içərisindəki ehtiyat sahəsinin mənimsənilməsinə, tikintinin sıxlaşmasına, küçə və meydanların darısqallaşmasına, bunlar da öz növbəsində sanitariya, gigiyena şəraitinin və abadlığın pisləşməsinə səbəb olurdu. Buna görə də orta əsr şəhərlərində tez-tez yoluxucu xəstəliklər və yanğınlar baş verirdi.

Orta əsr şəhərlərinin zamanca ləng dəyişən plan quruluşu, göründüyü kimi, qala divarları ilə "qandallanmışdı". Şəhər planının müdafiə sistemindən asılılığı onun strukturuna və kompozisiyasına böyük dəyişikliklik gətirə biləcək əsaslı şəhərsalma işlərinin aparılmasını çətinləşdirirdi. Güman ki, bütün Şərqdə, həmçinin Azərbaycanda şəhərlərin plan quruluşunun uzun əsrlər boyu çox az dəyişməsi səbəblərindən biri də bu olmuşdur.

Şirvanın iki böyük şəhəri

Qədim Şamaxı. Azərbaycanın böyük və qədim mədəniyyət mərkəzlərindən biri olan Şamaxı şəhərinin zəngin və olduqca maraqlı tarixi vardır. Bu haqda yunan, bizans mənbələri, İran, IX əsrdən başlayaraq ərəb coğrafiya alimləri, daha sonra isə Avropa və Şərq səyyahları məlumat veriblər.

Fars tarixçiləri Şamaxı şəhərinin salınmasının Sasani hökmdarlarından olan Ənuşirəvanın (531-579) adı ilə

bağlayırlar. XIV əsrin tarix və coğrafiya alimi Həmdullah Qəzvini də Şirvan haqqında danışarkən onun əsas şəhərlərindən biri olan Şamaxının şah Ənuşirəvan Adil tərəfindən tiktildiyini göstərir. Lakin arxeoloji qazıntı işlərinin nəticələri sübut edir ki, Şamaxı şəhəri tarixən daha əvvəl mövcud olmuşdur; o zaman bütün Şirvan və eləcə də onun mərkəzi şəhəri Şamaxı eyni bir adla - Şirvan kimi adlandırılırdı. Əfzələddin Xaqani Şirvanı belə tərənnüm edir:

Şirvan ki var hər cəhətdən ülviyyətin anasıdır,
Onun səhər əsən yeli dərdlərimin dəvasıdır.
Mən vətənə qurban olum yaranmışdır düzgünlüklə,
Bağdadı da dolandıran onun bollu qidasıdır.

Eramızdan əvvəl IV-III əsrlərdə Şamaxı şəhərinin ətrafı yaşayış yeri olmuşdur. Görünür, Sasani hökmdarı Ənuşirəvan burada mövcud olan yaşayış məntəqəsini bərpa etdiyinə görə fars müəllifləri buna əsaslanaraq şəhərin salınmasını onun adı ilə əlaqələndirmişlər.

“Şirvan” toponiminin açılışı da maraqlıdır. XIX əsrdə yaşamış alman alimi və şərqşunası Jozef Martvartın bu adı farsca “hşaya” “Şah” və yer bildirən “Van” sözlərindən ibarət olması fikri ağla batmır. Görkəmli tarixçi Sara xanım Aşurbəyli bu fikrilə razılaşır. Lakin tarixçi-arxeoloq Fərhad İbrahimov Matvartın bu fikri ilə razılaşmır. “Şirvan”

toponiminin yaranma tarixi əslində çox qədimdir. Orta əsrlərdə Türkiyədə Diala çayının hövzəsində “Şirvan” adlı mahal, İranda, Xəzərin cənub-qərbində “Şirvan” adlı şəhər, və “Şirvandeş” adlı kənd, XIX əsrdə İrəvan mahalında “Şirvançık” adlı kənd, orta əsrlərdə Orta Asiyada “Şirvanqala” adlı yaşayış yeri olmuşdur.

Söz yox, ki, Şirvanda farsdilli əhali də yaşayıb. Amma türk dilli əhali həmişə əksəriyyət təşkil edib. Göylər kəndində yaşayanlar bəlkə də Göy (göktürk) türklərdir. Çünki, Türkiyədə də “Göylər” adlı bir neçə kənd var.

Şamaxının adı II əsrdən çəkilir və əhalisi də həmişə türkdilli olub. Təəssüf ki, tədqiqatçılarımız “Şamaxı” toponimini hələ aydınlaşdıra bilməyiblər. İndiyədək deyilmiş fikirlər inandırıcı deyil. Yunan dilində “ş” səsi olmadığına görə bu toponimi ilk dəfə Ptolomey “Ksamaxiya” kimi çəkmişdir.

Şirvanın adı ilk dəfə V əsr erməni tarixçisi Moisey Xorenli tərəfindən çəkilmişdir. Lakin xalqımızın mədəniyyətində bu bölgənin rolu kifayət qədər öyrənilməmişdir. Xüsusilədə Şirvanda türk mənşəli tayfaların məskunlaşma tarixi. Bəzi tədqiqatçılar albanları, dağıstandilli əhali sayır. Amma Dağlıq Şirvanda dağıstandilli tayfaların yaşamaları barədə fakt yoxdur. Dağlıq Şirvanda bir çay Girdman adlanır.

Burada “Cavanşir qalası” (“Qız qala” da adlanır) adlı qala da vardır. Bu qalanı Fazil Osmanov tədqiq etmişdir. Lakin

Cavanşirin Dağlıq Şirvanda yaşaması və qala tikməsi barədə heç bir yazılı mənbə yoxdur. Bəzi tədqiqatlar isə Girdman əyalətinin indiki Şəmkir - Qazax - Aqstafa bölgəsində olduğunu yazırlar. Əlbəttə bu məsələ xüsusi tədqiqat mövzusudur.

Tədqiqatçıların araşdırmalarına görə "Şirvan" yaxud "Sirvan" tayfa adıdır. Polemey Qafqazda Suqran (yunanca "ş" səsi yoxdur) adlı tayfanın olduğunu yazır. VII əsr erməni mənbələrində "şarvan" adlı tayfa adı çəkilir.

Ərəb tarixçiləri isə, əksinə şəhərin salınmasını Şirvan hakimi olmuş Şəmax İbn-Şücanın və ya ərəb şairi Əşşəmaxiyənin adı ilə bağlayırlar. IX əsrin ərəb tarixçisi Əhməd Balazuri "Kitabi fütüh buldan" əsərində bu haqda yazırdı: "Bərdədə yaşayan bir neçə ağsaqqalın verdiyi məlumata görə Məhəmməd İbn İsmayıl mənə xəbər verdi ki, guya Şirvan vilayətində olan Şamaxı öz adını o zaman oranın hakimi Şamax İbn Şücanın adından almışdır".

Digər tarixi mənbələrin verdiyi məlumata görə isə Şamaxıya Yəzidiyyə də deyilirmiş. Bu ad xəzərlər ilə müharibə etmiş məşhur ərəb sərdarı Yezid İbn Əsəd Əssülaminin şərəfinə verilmişdir. XII əsrdə yaşamış ərəb alimi Yaqut Həməvi də Şamaxı ilə Yəzidiyyənin eyni bir yer olduğunu göstərirdi. XVII əsr türk tarixçisi Münəccimbaşı yazır ki, ərəb əmiri Əbu Tahir Yəzid 918-ci ildə Yəzidiyyə şəhərini tikdirmiş, 1045-ci ildə Şirvanşah Qubad onun ətrafında daş

divar çəkdirmişdir. V.Minorskiyə görə Şəmax ibn-Şüca və Əbu-Tahir Yəzid burada olan qədim yaşayış yerini bərpa etmiş, biri onu "Şammaxiyə", digəri isə "Yəzidiyyə" adlandırmışdır.

Şamaxı XII əsrdən etibarən Azərbaycan tarixində müstəsna əhəmiyyət kəsb edən qaynar həyatlı bir şəhər kimi şöhrətlənmiş, ölkənin iqtisadi, siyasi və mədəni həyatında mühüm rol oynamışdır. Səlcuq imperiyasının parçalanmasından sonra Şamaxı möhkəmlənmiş böyük Şirvanşahlar dövlətinin paytaxtına çevrilmişdir. Ərəb əmirlərinin, Şirvanşah-Kəsranilərin, Şirvanşah-Dərbəndilərin və Şamaxı xanlığının iqamətgahı burada yerləşmişdir.

XII əsrin axırlarında Eldəgiz Qızıl Arslanın Şirvana hücumu ilə əlaqədar olaraq Şirvanşah I Axistan (1160-1196) paytaxtı müvəqqəti Bakıya köçürür. XIII əsr boyu Şirvan və eləcə də Şamaxı şəhəri Elxanilərlə Qızıl Orda xanları arasında gedən müharibələrdə talanlara və sarsıntılara məruz qalır.

İşğal və talanlara məruz qalan Şamaxıdan əhalinin bir hissəsi ətraf yerlərə köçür. Xalq bunu da bayatı ilə dilə gətirir:

Şamaxı vətənimiz,
Duymadı yatanımız,
Əl-ələ verdi getdi
Dili söz tutanımız.

Paytaxt Bakıya köçərək sonra da Şamaxı Azərbaycanın mühüm ticarət və sənətkarlıq mərkəzi əhəmiyətini saxlayır.

1475-ci ildə Şamaxıda olmuş Avropa səyyahı Ambroco Kontarini onu Təbrizdən daha zəngin bir şəhər kimi təsvir edib. Səyyah İ.Barbaronun verdiyi məlumata görə o zaman şəhərin dairəsi tərqibən 5000 addım idi. Orada ipək parça toxuma və başqa sənətkarlıq sahələri var idi. XV əsrdə Şamaxı artıq benəlxalq ipək ticarətində əhəmiyyətli mövqe tuturdu. Talama ipəyi adı ilə məşhur olan Şirvan ipəyi kiçik Asiyaya, Suriyaya, İtaliyaya, Çinə, İngiltərəyə və bir çox başqa ölkələrə göndərilirdi. Şübhəsiz ki, bu iqtisadi əlaqələr Şamaxının mədəni həyatına təsir göstərməyə bilməzdi.

İngilis səyyahı A.Cenginson (1562) XVI əsr Şamaxısını "qəşəng hökmdar şəhəri" adlandırır. Cefri Deked isə onu "bütün Midiyanın ən yaxşı şəhəri" kimi təsvir etmişdir.

XVI əsrdə və XVII əsrin əvvəllərində baş vermiş Osmanlı – Səfəvi müharibələri Azərbaycanın bütün şəhərləri kimi, Şamaxının da iqtisadiyyatına, abadlıq və mədəniyyətinin inkişafına ağır zərbə vurmuşdur. 1533-1538, 1547-1555, 1559-1576, 1578-1588, 1602-1609-cu illərdə təkrarlanan hərbi toqquşmalar ticarət və sənətkarlıq mərkəzlərinin zəifləməsinə, şəhər əhalisinin azalmasına səbəb oldu. Xüsusilə də, Şah Abbasın hərbi taktikası şəhərlərin dağılmasına gətirib çıxarırdı. O, türk qoşunlarının yolu üzərində olan şəhər və kəndləri dağıdır, əhalisini başqa yerlərə köçürürdü. Göründüyü kimi, Şamaxı şəhəri tez-tez mürəkkəb hərbi-siyasi sınaqlara məruz qalıb. Buna görə də şəhərin zəngin memarlıq irsindən az sayda

abidə dövrümüzə qədər gəlib çatmışdır.

Şəhərdə tez-tez baş verən təbii fəlakətin – zəlzələlərin də dağıdıcı təsiri az olmamışdır. Bütün bunlar Şamaxı şəhərini iqtisadi inkişafın və mədəni yüksəlişinə mənfi təsir etsə də, onun qaynar həyatını ədəbi söndürə bilməmişdir.

Şamaxıda baş verən işğal, talan və zəlzələlər hətta sevgililəri də dilə gətirib:

Şirvan oğulları olub gəzəri,
Quruyub bağları töküb xəzəli
Mənim yarım Şamaxının gözəli,
Sən dəli, mən dəli, qayıt gəl bəri.

Şamaxı orta əsr Azərbacan memarlığının mühüm bir qolunu təşkil edən Şirvan-Abşeron memarlıq məktəbinin əsas mərkəzi olmuşdur. Tarixi mənbələrdən və dövrümüzə çatmış abidələrdən aydın olur ki, Şirvan–Abşeron memarlığına aid tikintilərin ən yaxşı monumental nümunələri – Bakıda, Dərbənddə və eləcə də Şamaxıda toplanmışdır.

Şamaxı şəhərinin plan quruluşu barədə nə demək olar? Onun quruluşunda təbii amillərin və müdafiə divarlarının rolu nəzərə alınmışdırmı? Küçə şəbəkəsinin nə kimi xüsusiyyətləri var idi, şəhərdə abadlığın inkişaf səviyyəsi necə idi?

Şəhərlərin yaranma səbəblərini və formalaşma amillərini tədqiq edən alman alimi Ştülben onları başlıca olaraq dörd yerə bölür Buraya coğrafi, topoqrafik, iqtisadi və strateji amillər daxildir. Qeyd etmək lazımdır ki, Şamaxının yaranması və

inkişafında strateji, iqtisadi və coğrafi amillər başlıca rol oynamışdır. Onun yaranmasında əvvəllər əsas rol oynayan feodal qəsri sonralar Şirvanşahların iqamətgahı yerləşən İç qalaya çevrilmişdir.

Şamaxı şəhəri üçün seçilmiş sahə sağlam təbiəti, təmiz su mənbələri və məhsuldar torpaqlara malik olması, ticarət yollarının üzərində yerləşməsi, yerli tikinti materiallarının zənginliyi və s. bu kimi bir çox təbii amillərlə müəyyən olunur. Şəhər üçün yer seçilərkən dağın gün düşməyən şimal yamacları deyil, əksinə cənub və şərq yamacları üstün tutulmuşdur. Belə seçmə təsadüfi deyil, funksional xarakterə malik olub, binaların soyuq şimal küləklərindən qorunmasını, sərbəst, axarlı su kəmərlərinin çəkilişini və s. təmin etmişdir. Digər tərəfdən belə yerlər bağçılıq təsərrüfatının genişləndirilməsi üçün də əlverişli idi. Şəhərlərin tikinti yerini gigiyena baxımından yararlığı haqqında danışarkən Aristotel özünün "Siyasət" kitabında yazmışdır. "Ən gigiyenik şəhərlər o şəhərlərdir ki, onlar şərq yamaclarda yerləşsin və şərq küləkləri ilə havası dəyişilmiş olsun. Əhəmiyyətinə görə sonrakı tələbat şəhərin şimal küləklərindən mühafizəsidir; Çünki bu cür şəhərlərdə qış yumşaq keçir".

Şamaxı şəhəri strateji cəhətdən də çox əlverişli yerdə yerləşmişdir. Dağlıq relyefin tikinti üçün düzgün istifadə olunması ona ətraf ərazi üzərində hakim mövqe tutmaq imkanı vermişdir. Ümumiyyətlə, orta əsr qala-şəhərlərin tikintisində

əsas götürülən strateji prinsiplər Şamaxının timsalında parlaq bir şəkildə özünü göstərirdi.

Aydındır ki, Şamaxı şəhərinin küçə və məhəllələri salınarkən onun dağlıq relyefə uyğunlaşdırılması barədə düşünülməyə bilməzdi. Düzənlik yerlərdə inkişaf edən şəhərlərdən (Gəncə, Beyləqan və s.) fərqli olaraq, Şamaxı düzxətli küçələrə və kompakt plana malik olmamışdır. Lakin şəhər tikintisinin qeyri-müntəzəmliyi və təbii amillərin düzgün qiymətləndirilməsi Şamaxının ümumi estetik ifadəliliyini gücləndirmişdir. Təbii şərait memarlıq kompozisiyası ilə üzvi şəkildə uzlaşdırılmışdır.

Qala divarları, onların vəziyyəti şəhərlərin tarixi topoqrafiyasını öyrənməyə kömək edir. Əfsus ki, Şamaxının qədim müdafiə divarları dağılmış, bütünlüklə dövrümüzə qədər gəlib çatmamışdır. Lakin şəhərin qala divarları müxtəlif səyyahların rəsm və təsvirlərində bəzi təhriflərlə də olsa verilmişdir. Bu materiallarla yanaşı "Qədim şəhər divarlarının izləri" göstərilmiş plan mötəbərliyi etibarilə son dərəcə qiymətlidir. Bu planda Şamaxının düzbucaqlı küçə şəbəkəsinə malik yeni tikinti məhəllələri və bəzi tarixi abidələri göstərilmişdir. Plana aid eksplikasiyada Bala qala daxilində "Xan sarayının qalıqları" verilmişdir. Həmin plan 1844-cü ildə rus hərbi mühəndisləri tərəfindən çəkilmişdir. Bu planda görünür ki, Şamaxının İç qalası – Bala qala, şəhərin ortasında deyil, xarici divarlarından birinə yaxın tikilmişdir. İç qalanın

belə yerləşməsi erkən orta əsrlər dövründə Orta Asiya feodal qala şəhərləri üçün xarakterik idi. Plana görə düzgün olmayan altıbucaqlı formasındakı Bala qala ən yüksək təpələrdən birində böyük sahədə yerləşmişdir. Altıbucaqlının hər küncü bürc vasitəsilə möhkəmləndirilmişdir. Burada H.Ciddinin və F.İbrahimovun rəhbərliyi altında kəşfiyyat xarakterli qazıntı işləri aparmış, Bala qala bürclərindən biri və şərq-qərb istiqamətində uzanan divar qalıqları aşkar edilmişdir. Həmin tapıntılara əsasən Bala qala divarlarının hündürlüyünün təxminən 5-6 m. olduğu müəyyənləşdirilib. Buradan şəhər mədəniyyətinə aid çoxsaylı arxeoloji materiallar da aşkar olunmuşdu.

Məlumdur ki, bütün orta əsr şərq şəhərləri kimi, Azərbaycan şəhərləri də cəmiyyətin sinfi quruluşunu, ictimai təbəqələşməni əks etdiridi. Şəhərlərin memarlığı hökmdarların zövqünü oxşamalı, mənafelərini ifadə etməli idi. Təsadüfi deyil ki, iç qalalarda yerləşən saray və inzibati binalar kompleksi yaşayış məhəllələri üzərində hakim kəsilir, sanki onları öz monimentallığı və əzəməti ilə kölgədə qoyurdu. Bu baxımdan iç qalalar rəmzi məna daşıyırdı. Feodalın əzəmət və gücünü hər an rəiyyətə göstərmək üçün onların qəsr və sarayları şəhərin ən yüksək yerində tikilir, həm də memarlıq cəhətdən böyük sənətkarlıqla həll olunurdu. Saray komplekslərinin tikilməsi üçün hökmdarlar küllü miqdarda vəsait ayırırdılar.

Şamaxı şəhərinin XVI-XVII əsrlərdə ümumi memarlıq

görüntüsü, strukturu və əsas tikililəri haqqında A.Cenginsonun (1562), F.Kotovun (1623), A.Olearinin (1637), Ö.Çələbinin (1656), Y.Streysin (1671), Taverniyenin (1668), Ö.Dannerinin (1681) və qeydləri, olduqca maraqlı məlumatları var. Onların əksəriyyəti şəhərin qala divarları ilə əhatə olunmuş iki hissədən ibarət olduğunu, cənub hissədə böyük bazar yerləşdiyini yazırlar.

Şah Abbasın Azərbaycana yürüşündə (1603-1607) iştirak edən tarixçi İ.Münşi yazırdı: "Şəhər yamacda, hökmdarların və keçmiş şahların evi isə dağın şimal yamacında, şəhərin ərazisinə nisbətən çox yüksək bir sahədə yerləşir". Onun sözlərinə görə bu iki hissədən hər biri XVII əsrin əvvəllərində türklər tərəfindən bir-biri ilə əlaqələnmiş müstəqil qalalara çevrilmişdir. XVII əsrin birinci yarısında Azərbaycanda olmuş alman alimi Adam Olearinin Şamaxı haqqında verdiyi məlumat da olduqca maraqlıdır: "Əvvəllər onun dairəsi daha böyük idi və 5000-ə qədər ev vardı, ancaq Şah Abbasın türklərlə apardığı müharibələr nəticəsində çox kiçildi. O, hər biri divarlarla əhatə olunmuş iki müxtəlif hissədən ibarət idi. Şah Abbas gördü ki, türklər açıq yerlərdən keçərək daha çox müdafiə olunmuş və istehkamlarla möhkəmlənmiş yelərə hücum edib oraları tutmağa çalışırlar. O güman edir ki, sərhəd və keçidlərdə deyil, əksinə, ölkənin daxilində yerləşən qalalar onun üçün daha təhlükəlidir. Ona görə də o, cənub hissədəki daha möhkəm olan divarların dağıdılmasını əmr etdi. Təbriz, Naxçıvan və Gəncə

kimi böyük şəhərlərdə də belə olmuşdur”.

Şamaxının 1844-cü ildə tərtib olunmuş planında qala divarlarının izləri çox ümumi bir şəkildə verildiyindən şəhər qapılarının və eləcə də bürclərin yerlərini müəyən etmək mümkün deyildir. Lakin həmin plana əsasən şəhərin darvazalarından ikisinin yerini müəyyənləşdirmək mümkündür. Onlardan birincisi güman ki, iç qala yaxınlığında, ikincisi isə əsas qala divarlarının cənub-şərq hissəsindədir. Bu hissədə qala bürcləri bir-birinə çox yaxınlaşmışdır ki, bu da şübhəsiz darvaza yeri ilə əlaqədardır. Təbiidir ki, hərbi təhlükə zamanı Şirvanşahların saraydan çıxaraq, asanlıqla və vaxt itirmədən Gülüstan qalasına getməsini təmin etmək üçün birinci darvaza (şərti olaraq “Gülüstan darvazası”) şəhər divarlarının Bala qalaya daha yaxın hissəsində olmalı idi.

Plana əsasən ikinci şəhər qapısı ilə Bala qala arasında küçə olduğunu ehtimal etmək olar. Digər tərəfdən Şamaxı şəhərinin 1947-ci ildə tərtib olunmuş baş planından görünür ki, onun əsas küçələrindən birinin ox xətti Cümə məscidinin simmetriya oxu ilə uyğun gəlir, başqa sözlə, həmin küçənin qarşısı qədim dini bina ilə qapanır. Əlbəttə, bununla biz heç də bu küçənin orta əsrlər dövründə düz xətli olmasına dair qəti hökm vermək iddiasında deyilik.

A.Olearinin rəsminə görə “Bala qala”, “Kələntərin evi” və şəhərin şimal hissəsi ayrıca qala divarları daxilində olmuşdur. Şəhərin cənub və şimal hissələri arasındakı geniş

sahədə bazar yerləşmişdir. Cənub hissədən bazara düz və geniş bir küçə olmuşdur. Yazılı mənbələrin verdiyi məlumata görə Şamaxının cənub hissəsində müxtəlif sənətkarlıq məmulatı ticarəti üçün üstüörtülü küçələr olmuşdur. Orada müxtəlif karvansaralar, o cümlədən Şah və Ləzgi karvansaraları yerləşirdi.

1623-cü ildə Şamaxıda olmuş rus taciri F.Kotov yazırdı: "Şamaxı daşdan tikilib, böyük deyil, rabad hissəsi də daşdandır. Şəhər divarlarla əhatə olunmuş, darvazalarına dəmir vurulmuşdur: rabad, bazar və karvansaralar şəhərin xaricindədir".

İmtiyazlı təbəqələrin evləri yerləşən şimal hissədən fərqli olaraq Bala qaladan bir qədər cənubda, indiki Cümə məscidi rayonunda miskin evlərdən ibarət olan ticarət və sənətkarlıq məhəllələri yerləşmişdir. Qalanın yanında bazar və misgərlik məhəlləsinin olmasını 1703-cü ildə Holland səyyahı K.De-Bruin də qeyd etmişdir. Görünür, XVIII əsrdə Şamaxıdan keçmiş rus alimi S.Qmelinin xatırlatdığı qala bazar elə həmin bazar olmuşdur.

XVI-XVIII əsrlərdə Şamaxı müxtəlif məhəllələrə bölünürdü. Şəhərin məhəllələrə ayrılmasının əsasını əhalinin ictimai-iqtisadi vəziyyətinin müxtəlifliyi təyin edirdi. Məhəllələrə ad verilməsində vahid prinsip olduğu nəzərə çarpır. Rayonların hər biri özünəməxsus ictimai-iqtisadi və mədəni məişət şəraitinə malik spesifikası, memarlıq siması ilə

seçilirdi. Məhəllələr əsasən yerləşdiyi sahənin xüsusiyyətinə görə adlandırılırdı. Məsələn, “Sarı topaq”, “Narağac” və s.

Türk səyyahı Ö.Çələbi göstərir ki, Şamaxı 26 məhəlləyə börünmüşdür. Onlardan ikisi – “Meydan” və “Şapuran” məhəllələri, abadlığı və zövqlə bəzədilmiş gözəl evlərin olması ilə diqqəti cəlb edirdi. Bu məhəllələrdə şəhərin varlı sakinləri yaşayırdı.

S.Qmelinin məlumatına görə Şamaxı 9 məhəlləyə bölünmüşdür: “İçəri qala” “Sarı torpaq”, “Qala bazar”, “Cuhud məhəlləsi”, “İmamlı məhəlləsi”, “Meydan”, “Şapuran”, “Qala dibi”, “Narağac”.

XIX əsrin axırlarında şəhərdə on beş məhəllə olmuşdur: Ərəblər, Ərdəbilli, Dərə məhəllə, Cuhud məhəlləsi, İmamlı məhəlləsi, Qala bazar, Kürd, Meydanlı, Sarı torpaq, Talış, Ucarlı, Şeyx Zahirli, Şeyx Namaz, Şapirli və Yuxarı qala. Hər bir məhəllə müxtəlif küçə və dalanlara ayrılırdı. Əyri küçələr küləklərin təsirini azaldır, kölgə verir, relyefin nahamarlığı və sərtliyi ilə yaxşı əlaqələnirdi. Lakin məşhur fransız memarı Korbuziye əyri küçələri “uzun bulaqlar yolu” adlandırırdı. Əslində feodal şəhərlərinin əyri küçələri haqqında onun fikri, A.V.Buninin göstərdiyi kimi birtərəflidir; çünki düz küçələrlə yanaşı əyri küçələrin də, yuxarıda qeyd edildiyi kimi, öz estetik mənası vardır. Əlbəttə, iqtisadi və texniki imkanların məhdudluğu şəraitində daha çox məhz belə küçələrin salınması anlaşılan idi.

Bir sıra müəlliflər şəhərin diqqətəlayiq tikintiləri içərisində xan evlərini və “Kələntərin evi”ni ayrıca qeyd edirlər. Kələntər dövrünün tanınmış və zəngin insanlarından biri olmuşdur. Şamaxıda onun xeyli mülkləri vardı. Lakin bu mülklərdən biri daha da möhtəşəm olub saraya oxşayırdı. Xan evlərinin qalıqları isə XIX əsrin 30-cu illərinə qədər qalmışdı. Onlar fəvvarələri olan böyük bağın içərisində tikilmişdi.

XVII əsrin 40-cı illərində Şamaxıda 70 mehrab, 7 mədrəsə, 44-ə qədər karvansara, 200-ə qədər dükan var idi. Bu zaman şəhərdə 6 məscid və 3 hamam olması haqqında A.Olearinin məlumatı doğru deyildir. Ö.Çələbi öz qeydlərində – Şəbudi, Qazan xan, Fərəc xan və Həsən xan hamamlarını xatırladır.

Kürdən şimalda yerləşmiş Azərbaycan ərazisi qədimdə (antik mənbələrdə e.ə. IV əsrdən) Albaniya (buna klassik Albaniya deyilir) adlanırdı. Ərəb işğallarından sonra həmin ərazi Şirvan adlanıb. Azərbaycanın görkəmli tarixçisi A. Bakıxanov belə yazıb. 861-ci ildə yaranmış Şirvanşahlar dövləti şimaldan Dərbənd keçidi, Cənubdan Kür çayı, qərbdən Alazan çayı, şərqdən Xəzərlə sərhədlənirdi.

Şirvanın liman şəhəri Bakı. Azərbaycan tarixinin qədim köklərə bağlılığını, onun yüksək mədəniyyət diyarı olmasını sübut edən xeyli şəhərlərimiz var ki, onlar qorunaraq nəsillərdən-nəsillərə ötürülmüşdür. Bunlardan biri də tarixi yaddaşımızın canlı şahidi olan İçərişəhərdir.

Möhtəşəm qala divarları əhatəsində yerləşən İçəri şəhər açıq səma altında bir muzeydir. O, qədim və orta əsrlər dövrünə aid zəngin maddi-mədəniyyət abidələrini əsrlərdən bəri qoruyub saxlayır. Əslində iki əsr bundan əvvəl İçəri şəhər – Bakı, İçəri şəhərin ətrafı isə bayır şəhər adlanırdı.

Tarixdən məlumdur ki, ibtidai insanlar təbii sığınacaqlar seçərkən həmişə strateji cəhətdən etibarlı və əlverişli yerlərdə məskunlaşmışlar. Azərbaycan şəhərləri, o cümlədən Bakı antik və ilk orta əsrlər dövründə iqtisadi cəhətdən daha çox inkişaf etmiş, əsas karvan yolları üzərində yerləşmiş və sıx əhaliyə malik olan iri yaşayış məntəqəsinin böyüməsi nəticəsində meydana gəlmişdir. Bakının "müqəddəs" odlar diyarı kimi tanınması onun həyatında mühüm rol oynamışdır. Ərəb istilasına qədər Azərbaycanın müxtəlif vilayətlərində atəşpərəstlik və xristianlıq yayılmış, bu ərazilərdə onların dini mərkəzləri mövcud olmuşdur. Atəşpərəstlik dininin əsas ocaqlarından biri də qədim Bakı idi. Mənbələrdə 624-cü ildə Bizans imperatoru İraklinin (610-641) məhz baş şəhər – paytaxt olduğu üçün Bakıya gəlməsi haqqında məlumat vardır.

Şəhər tikintilərində sənətkar və memarlar təbii iqlim amillərini nəzərə alırdılar. Təmiz hava, su, relyef, küləyin istiqamət və gücü, su hövzələri və s. belə amillərdən idi. Orta əsrlərdə nəm çökəkliklər, günəş şüaları az düşən şimal yamacları şəhər tikmək üçün əlverişsiz sayılırdı. Yunan alimi Hippokrat yazırdı ki, şəhəri gündoğana cəhətləndirmək, onu

şərq küləklərinə açmaq daha yaxşıdır. Belə şəhərlərin atmosferini tutan duman səhər günəşinin şəfəqləri ilə dağılır, iqlimi mülayim olur, orada yaşayanlar şimala baxan yamaclardakılara nisbətən daha dərrakəli olurlar. Biz bunu Bakının timsalında görürük. Dənizdən baxanda Bakı amfiteatrı xatırladır və şəhər, sanki cənuba baxır. Şirvanşahlar Sarayı təpənin ən yüksək hissəsində yerləşir. Filosofun şəhərsalma mədəniyyəti haqqında yazdıqlarını məhz Bakıya aid etmək olar.

Orta əsr şəhərlərinin zamanca ləng dəyişən plan quruluşu adətən qala divarları ilə çərçivələnərdi. Şəhərsalma planı bir qayda olaraq, müdafiə sistemindən asılı olardı. Şəhərlərdə izdihamlı ticarət meydanları, küçələr və bəzən də böyük məhəllələr məhz buna uyğunlaşdırılardı. İçəri şəhərdə də məhz belə olmuşdur. Qədim şəhərin yaşayış binaları iqlim şəraitinə uyğunlaşdırılmışdı. Yayda gilavardan – isti, cənub küləyindən, qum tufanından, qışda isə xəzridən – güclü və dağıdıcı şimal küləyindən qorunmaq üçün binalar düzbucaqlı formada tikilər, həyət ortaya salınardı. Dar, döngəli küçələr bir növ labirinti xatırladar, sürətlə əsən küləyin gücünü azaldardı. Bir-birlərinə yaxın məsafədə tikilmiş binaların kölgələri isə yayda dar küçələrə sərinlik gətirərdi. Binaların küçəyə tərəf pəncərə və eyvanı olmazdı. Yalnız XIX əsrin ortalarından etibarən pəncərə və eyvanlar küçəyə tərəf açılmağa başlamışdı. Bakı şəhər əhalisi ictimai-siyasi və iqtisadi vəziyyətinə müvafiq olaraq iç

qalada, şəhristanda və rabadda yaşayırdı. İç qalada Şirvanşahlar Sarayı yerləşirdi və burada şah, ailəsi, həmçinin onun xidmətçiləri yaşayırdı. Şəhristan iç qalanı əhatə edən divarlar ilə çöl qala divarları arasındakı əraziyə deyilirdi və burada şəhər əhalisi yaşayırdı. Rabad isə qala divarından kənarda idi. Burada sənətkar məhəllələri yerləşirdi. Rabadda çalışan sənətkarların bir hissəsi şəhristanda, əksəriyyəti isə elə rabadda – öz iş yerlərinin yaxınlığında yaşayırdı.

Bakı şəhəri sözün əsl mənasında daxili məhəlli struktura malik idi. O, bir iqtisadi mərkəz kimi formalaşmışdı. Qədim Bakının özünüidarəsi daxili və ətraf yaşayış məntəqələri sakinlərinin məişət və təsərrüfat həyatında aparıcı rol oynayır, yaxın və uzaq yerlərlə sıx iqtisadi-mədəni əlaqələr saxlayırdı. Bu dövrdə Bakı sənətkarlıq mərkəzlərindən birinə çevrilmişdi. Burada müxtəlif sənət sahələri formalaşmış, əmtəə istehsalı (dulus, metal, şüşə məmulatı və s.) genişlənmiş, yerli əhali lazım olan çoxçeşidli mallarla təmin edilmişdi.

Müasir dövrdə Azərbaycanın paytaxtı Bakı şəhərinin qədim hissəsi kimi qorunan İçəri şəhərin əsrlər boyu formalaşan adətləri, ictimai qanunları olmuşdur. Müasir ailə-məişət münasibətlərində də həmin qaydaların izləri qalmışdır.

Hüseynqulu Sarabski “Köhnə Bakı” əsərində yazır ki, bakılılar bütün Azərbaycan xalqı kimi, səxavətli, qonaqsevər, üzügülər, bacarıqlı, igid, çalıb-oxumağı, oynamağı sevən, öz qonşularının dərdinə qalan, qəriblərə hörmət edən, əlsiz-

ayaqsızların dadına çatan, xeyirdə, şərdə bir-birinə kömək edən və bir-birlərini sevən adamlardır. Şəhərin içində əhali çox olduğundan, onlar tədricən şəhərin kənarında evlər və daha sonra məhəllələr salmağa başladılar. Ümumiyyətlə, Bakıda peşəkar sənətkarlar: bənna, xarrat, dəmirçi, rəngsaz, malakeş, daşyonan, daşçıxaran, qırbasan, quyuqazıyan, nalbənd, qundaqsaz, bıçaqçı, başmaqçı, keçəçi, dabbaq, dərzi, xəncərsaz, xalçaçı, zərgər, papaqçı, saatsaz, minasaz, dəllək, boyaqçı və digərləri çox olardı.

Əhalinin bir qismi kənd təsərrüfatı – əkinçilik, bağçılıq, dəyirmançılıq, atçılıq, maldarlıqla məşğul olduğu kimi, bir qismi də xırda ticarətlə – çayçılıq, kababçılıq, qənnadıçılıq, halvaçılıq, çörəkçilik, hamamçılıq, baqqallıq, bəzzazlıqla məşğul olardı.

Yay aylarında bakılılar bağa köçərdilər. Bunun üçün əvvəlcədən tədarük görülərdi. Düyü, noxud, lobya, mərci təmizlənərək kisələrə yığılar, araba ilə bağa aparılardı.

Neft gəlirlərindən zənginləşən Bakı milyonçuları XIX əsrin sonları, XX əsrin əvvəllərində qala divarlarından kənarda gözəl binaların inşasına başladılar. Həmin dövr “Bayır şəhər” və qismən də İçəri şəhərdə barokko, qotika, klassik, neoklassik memarlıq üslublarını şərqin memarlıq üslubları ilə vəhdətdə əks etdirən bir çox gözəl binalar tikildi. Bundan sonra qədim Bakının görünüşü də dəyişdi. Bakı əhalisinin qala divarlarından kənara çıxmasına elə urbanizasiya da şərait yaratmış oldu.

Artan əhali “Bayır şəhər”də məskən salmağa başladı. “Bayır şəhər”də məskunlaşanlar isə qala divarlarının içində yaşayan əhaliyə “içərişəhərli”lər deməyə başladılar.

Əlverişli iqlim şəraitinə, təbii ehtiyatlara və güclü iqtisadiyyata malik olan Bakı yüz illər ərzində ticarət və sənətkarlığını inkişaf etdirərək böyüdü, genişləndi. İçəri şəhər isə onun qəlbində keçmişi əks etdirən mədəni irsimizin yadigarı kimi qaldı.

İçəri şəhər qədim tarixə və zəngin mədəniyyətə malik olan Azərbaycan xalqının milli sərvətidir. Onun ərazisinin hər qarışında, abidələrinin hər daşında xalqımızın canlı tarixi həkk olunmuşdur. Azərbaycan xalqının daş yaddaşı olan İçəri şəhər və onun ərazisindəki Qız qalası, Qala divarları, Şirvanşahlar Sarayı Kompleksi, məscidlər, karvansaralar, hamamlar və digər memarlıq abidələri öz orijinallığı, təkrarolunmaz gözəlliyi ilə bəşər mədəniyyəti inciləri sırasında xüsusi yer tutur.

Böyük İpək yolu üzərində. Qədim Çini, Mərkəzi Asiya və Hindistanı Aralıq dənizi və Qara dəniz sahillərindəki başlıca ticarət mərkəzləri ilə birləşdirən beynəlxalq karvan yollarının 2 əsas qolu Azərbaycandan keçirdi. Bu qollardan biri Kür çayı boyunca Kolxidaya, İberiyaya (Gürcüstana), digər qol isə şimala dönərək Xəzər dənizinin qərb sahilləri ilə Dərbəndə oradan isə Şimali Qafqaz çölləri ilə yunan şəhərlərinə gedib çıxırdı. Bu yolların üzərində fəaliyyət göstərən qədim şəhərlərimizdən biri də Şamaxı olmuşdur.

Ymumiyyətlə ticarət yolları öyrənilmədən antik və orta əsr şəhərlərinin iqtisadi həyatının dərindən tədqiq edilməsim mümkün deyildir. Bu baxımdan da qədim Şamaxı şəhərinin Azərbaycan şəhərləri və xarici ölkələrlə olan iqtisadi, mədəni əlaqələrinin öyrənilməsində ticarət yollarının tədqiqi mühüm əhəmiyyət kəsb edir.

Arxeoloji qazıntılar zamanı Şamaxıda tapılmış mis sikkələr, Çində istehsal edilmiş çini qablar, beynəlxalq ticarət əlaqələrinə xidmət edən karvansarayların olması qədim Şamaxının Tarixi ipək yolundakı fəaliyyətini sübut edir. Belə karvansaraylardan Şamaxıdakı XIII əsrə aid Göylər kəndindəki karvansarayı və digərlərini göstərmək olar.

VIII-IX əsrlərdə Bərdə ilə şərqdən kəsişən Berzeng-Şamaxı, Şabran Dərbənd yolu Azərbaycanın digər şəhərləri kimi Şamaxını da Dağıstan, Şimali Qafqaz,Qara dəniz sahilləri və Yaxın Şərqlə birləşdirirdi.

X əsrdə Bərdə paytaxt kimi öz əvvəlki rolunu itirdikdən sonra Şamaxı Məzyədi Şirvanşahların mərkəzi kimi inkişaf etmiş, nəqliyyat yollarının əhəmiyyəti xeyli artmışdı. Ərəb müəlliflərinin verdiyi məlumata görə IX-XIII əsrlərdə Şamaxı qərbdən Bərdə-Gəncə-Tiflis, şimaldan Şabran-Dərbənd, şərqdən Xəzər dənizi,cənubdan Pirsaat çayı kənarı ilə uzanan karvan yolları ilə dünyanın bir çox ölkələri ilə iqtisadi, mədəni əlaqələr saxlayırdı. Arxeoloji qazıntılar zamanı Şamaxıda və İranın Nişapur şəhərində tapılmış 4 lüləkli çıraq qoyan qablar, piyalələr onun ipək yolu vasitəsilə İranla olan əlaqələrini göstərir.

XI-XII əsrlərdə Şamaxının Orta Asiya şəhərləri ilə də iqtisadi mədəni əlaqələri olmuşdur.Arxeoloji qazıntılar zamanı Şamaxıda tapılmış Otra Asiya şəhərlərinə məxsus basma naxışları olan saxsı qablar bunu bir daha sübut edir.

XII əsrdə Şamaxı Hindistanla, Çinlə iqtisadi mədəni əlaqələr saxlamışdı. Şamaxıda tapılmış Çinə məxsus qablar bunu sübur edir. Belə hesab edirlər ki, XII-XIII əsrlərdə bu qablar Orta Asiya və İran vasitəsilə Azərbaycana gətirilmişdir.

XIV əsr Şamaxının ticarət yolları haqqında məlumat verən Həmdulla Qəzvini yazırdı ki, XIV əsrdə Elxanilər

dövlətinin mövcud olduğu dövrdə 4 böyük ticarət yolu vardı. Bunlardan biri də şimal yolu adlanan Biləsüvar, Maxmudabad, Şamaxı, Dərbənd yolu idi. Bu yol Təbriz şəhərini Qafqaz və Rusiya şəhərləri ilə birləşdirirdi.

XIV–XV əsrin ikinci yarısında Şirvanşahlar ərazisinin Çobanilər, Cəlarilər, Teymurilər, Ağqoyunlular, Qaraqoyunlular arasında döyüş meydanına çevrilməsinə baxmayaraq Şirvanın ticarət yolları öz əhəmiyyətini itirməmişdi.

XIV-XV əsrlərdə beynəlxalq ticarət əlaqələrində əsas yeri ipək tuturdu. Şamaxıdan Avropa və Şərq ölkələrinə, İrana, Kiçik Asiyaya,Suriyaya ipək daşınırdı. Bu barədə məlumat verən Teymurilər sarayındakı İspan səfiri Klavxia yazırdı ki, Şamaxıdan Sultaniyyəyə yüksək keyfiyyətli ipək daşınır, ipəkdən ötrü Genuya və Venetsiya tacirləri Şamaxıya gəlirdilər.

Rus tacirləri Şirvana Volqa çayı vasitəsilə Həştərxan, Xəzər dənizi və Dərbənd yolu ilə gəlirdilər. Gətirilən əsas məhsul isə neft, duz və xəz- dəri idi. Yazılı mənbələrdə XIV əsrdə Şamaxı yolu ilə Rusiya şəhərlərindən qiymətli xəz dərinin Təbrizə və İranın digər yerlərinə daşındığı da göstərilirdi. Bununla əlaqədar ən qiymətli sənəd monqol Qazan xanın qış tədarükü ilə əlaqədar Şirvandan aldığı vergilərin siyahısıdır. Bu siyahıda Sibir samuru, qoqom kimi qiymətli xəzlərin adları çəkilir ki, bunların da Rusiyadan Şirvana

gətirilməsi heç bir şübhə doğurmur. Monqolların Təbriz əhalisindən aldığı vergi siyahısında da həmin xəzlərin adları çəkilir ki, bunları da şübhəsi ki, Təbriz tacirləri Şamaxı bazarlarından əldə etmişlər.

XIV-XV əsrlərdə Şamaxı Yaxın Şərq ilə Rusiya və Avropa şəhərləri arasında ipək ticarətində mühüm dayaq məntəqəsi idi. Şamaxı Təbriz toxucularını yüksək keyfiyyətli ipəklə təmin etmişdir. Bu dövrdə Təbriz ilə Şamaxı arasında iqtisadi əlaqələr o qədər güclü olmuşdur ki, hətta Şirvanşah İbrahim müharibə zamanı Qara Yusifə əsr düşdüyü zaman Təbriz tacirləri onun əf olunması üçün lazım olan məbləği ödəməyə razı olmuş və onu azad etmişlər.

Səyyah Barbaronun verdiyi məlumata görə XV əsrdə Şamaxıda 30-60 min əhali yaşamış və o Azərbaycanın ən iri, Yaxın Şərqdə isə orta səviyyəli iqtisadi mərkəzlərdən biri olmuşdur. Səyyah A.Kontari isə Şamaxını Təbrizlə müqayisə edərək belə qənaətə gəlmişdir ki, Şamaxı həyat üçün əlverişli məhsul bolluğu baxımından Təbrizdən üstündür.

XVI əsrdə Cənubi Qafqazda ipək istehsalı və ticarəti başlıca olaraq Şamaxıda cəmlənmişdi. Şamaxıda rus, hind, türk, fars tacirlərinə xidmət edən karvansaraylar vardı. Şamaxı xarici ölkələrdən axışıb gələn, xam ipək alan, onu başqa ölkələrdə mənfəətlə satan çoxsaylı tacir kütləsinin cəmləşdiyi mərkəzi bazar olmuşdur.

XVI əsrin II yarısında Şamaxıda İngilislərə məxsus “Moskva şirkətinin” daimi nümayəndəliyi açılmışdır. Səyyah Artur Edvards yazırdı ki, “Moskva şirkəti” Şamaxıdan hər il 30-40 min funt məbləğində xam ipək alırdı. İngilis tacirləri Volqa-Xəzər ticarət yolu ilə Yaroslavl şəhərindən Şərqə ticarət səfəri edir, Həştərxana çatdıqdan sonra Xəzərin Qərb sahilləri ilə üzərək Dərbəndə daxil olmadan Niyazabad limanına yetişir, yükləri orada boşaltdıqdan sonra Şabrandan keçərək Şamaxıya çatırdılar. İngilis səyyahı Antoni Cenkinsonun məlumatına görə Həştərxandan Şamaxıya səfər iki həftəyə, Moskvadan isə Şamaxıya qədər olan ticarət yolunu qət etmək üçün iki ayadək vaxt lazım idi.

Ümumiyyətlə XVI əsrdə Azərbaycanın Qərbi Avropa ölkələri ilə ticarət əlaqələrində ipək xüsusi rol oynayırdı. Bu isə təsadüfi olmayıb inkişafda olan Avropa manufakturalarının Azərbaycan ipəyinə olan tələbatının artması ilə bağlı idi. Şirvan ipəyinin Rusiyaya, İngiltərəyə ixracında Şamaxı xüsusi rol oynayırdı.

Şamaxı bazarında nəinki Rusiyanın xəz dəri məmulatları, həmçinin Orta Asiya, Türkiyə və Hindistanın çox çeşidli malları da satılırdı. Şamaxıda istehsal olunan ipək mallar Moskvaya ixrac edilən əsas əmtəə idi. Rusiya Azərbaycan ticarət əlaqələri əsasən Şamaxı və Bakı vasitəsilə həyata keçirilirdi. Şamaxıda Moskva tacirlərinin ticarət nümayəndəliyi yaradılmışdı. Onlar Moskva dövlətində hazırlanmış sənətçarlıq

məmulatların satır, xam ipəyi və ipək parçaları isə alıb aparırdılar.

Şamaxıda olmuş Alman səyyahı Adam Olearinin XVII əsrin ortalarına olan məlumatına görə Şamaxı azərbaycanlılardan başqa gürcü, yəhudi, rus, hind tacirlərinin ticarətlə məşğul odduğu sənaye mərkəzi idi. Burada 44 karvansaray, 200-ə yaxın dükan vardı. Daha sonra o yazırdı ki, şəhərin cənub hissəsində böyük bazar, bağlı küçələrdə isə müxtəli mallar olan dükanlar yerləşirdi. Qızılı, gümüşü parçaları, oxu, yayı, qılıncı və digər əl işlərini burada ucuz qiymətə almaq olardı.

1725-ci ildə Şamaxıda olmuş İngilis Henri Bryus öz xatirələrində, Şamaxını Cənubi Qafqazın ən məşhur ticarət mərkəzi kimi qiymətləndirərək yazırdı: “Şamaxıda bütün Şərq xalqlarının ticarət şirkətləri vardır. Məhz bu səbəbdən şəhərdə bütün ölkələrdən gələn tacirlərə rast gəlmək olar”.

Şamaxının ipək yolu üzərində yerləşməsi şəhərin iqtisadi inkişafı üçün əlverişli şərait yaratmışdır. Lakin 1192-ci ildə və 1667-ci ildə baş verən ikinci zəlzələ, müharibələr Şamaxının iqtisadi inkişafına müəyyən zərbə vurmuşdu. 1724-cü il Rusiya ilə Türkiyə arasında bağlanmış İstanbul müqaviləsi, Şirvana daxili muxtariyyətin verilməsi Şamaxı şəhərinin ticarət əlaqələrinin əvvəlki səviyyəyə çatmasına imkan yaratmışdı.

1562-ci ildə Şamaxıda olmuş İngilis səyyahı Antoni Cenkinson Osmanlılarla Səfəvi dövləti arasında Avropaya

çıxışı olan ticarət yolları uğrunda mübarizə getdiyini göstərmişdir.

Tarixi ipək yolu öz fəaliyyətini dayandırdıqdan sonra da Şamaxı Volqa-Xəzər ticarət yolu ilə Niyazabad limanı vasitəsilə xarici ölkələrlə ticarət əlaqələri saxlayırdı. XVI-XVII əsrlərdə Şamaxı tacirləri Rusiya ilə geniş ticarət əlaqələrinə malik idi. 1684-cü il çar fərmanı ilə Moskvada ticarət edən gəlmələrin siyahıya alınması zamanı burada Şamaxılı tacirlərin olması qeydə alınmışdır. XVII əsr sənədlərində Moskvada Şamaxıdan olan Lətif, Abdul, Məhəmməd, Xıdır kimi şəxslərin adları qeyd olunmuşdur.

Göründüyü kimi, Şərqi Avropanı o cümlədən Rusiyanı və Volqaboyunu Dərbənd keçidi vasitəsilə Cənubi Qafqaz, İran, Kiçik Asiya və Hindistanla əlaqələndirən karvan yolları Azərbaycan torpağından keçirdi. Azərbaycanın Bərdə, Naxçıvan, Şəki və digər qədim şəhərləri kimi Şamaxı şəhərinin də "Tarixi ipək yolu"nun fəaliyyətində, Azərbaycanın Yaxın Şərq, Rusiya və Avropa ölkələri ilə ticarət-iqtisadi və mədəni əlaqələrinin genişləndirilməsində mühüm rolu olmuşdur. Bu gün isə Şamaxı "Yeni ipək yolu" üzərində turizmin inkişaf etdirilməsində, ölkəmizin iqtisadi qüdrətinin gücləndirilməsində fəal iştirak edir.

Çoxşaxəli İpək yollarının mövcudluğu, həmçinin əlverişli təbii şərait nəticəsində Azərbaycan uzun illər dünyanın əsas ipək istehsalçısı və ticarət mərkəzi olmuşdur. Azərbaycanın

Dərbənd, Bakı, Şamaxı kimi şəhərləri şimal və şərq ölkələrini birləşdirən beynəlxalq ticarət yolunda yerləşirdi. Azərbaycan ipəyi avropalıların idxalında əsas yer tuturdu. Avropada yüksək keyfiyyətli xam ipəyin əsas alıcıları isə İtaliya tacirləri, xüsusən də venesiyalılar idi. Venesiyalılar öz manufakturalarını sürətlə inkişaf etdirərək, Qərbi Avropa saraylarını ipək parça ilə təchiz edirdilər. XIV əsrin II, XV əsrin I yarısında yaşamış alman səyyahı İohann Şiltberger yazırdı ki, ipəyin ən yaxşı növü Şirvandan aparılır və ondan Dəməşqdə, Kaşanda, Bursada yaxşı parçalar toxunurdu. İpək qismən Venesiyaya və Lukkaya da ixrac olunurdu və bu yerlərdə ondan əla məxmər toxuyurdular. İspan səfiri Rui Qonzales de Klavixo da "Teymurun Səmərqənd sarayına səyahəti" adlı gündəliyində (1414-cü il) Şamaxıda ipək istehsalından bəhs edərkən yazırdı: "Burada çoxlu ipək toxunur, oraya ipək almağa, hətta Genuya və Venesiya tacirləri də gəlirlər".

Bakı şəhərinin iqtisadi inkişafı buradan keçən güclü ticarət arteriyası – "Böyük ipək yolu" ilə bağlıdır. Bakı orta əsr müəlliflərinin təsvirində sakit və rahat, ticarət üçün əlverişli liman şəhəri kimi təsvir edilirdi. XV əsrdə Venesiya səyyahı Ancolello bu barədə yazırdı ki, Bakuk şəhəri Şirvanın Xəzər dənizində yerləşən varlı məkanıdır. Bakıdan həm dəniz, həm də quru yollarla neft, duz, marena – boyaq bitkisi, ipək və başqa ticarət malları çıxarılırdı. XIII-XV əsrlərdə xarici ölkələrlə

ticarət mübadiləsi genişlənir, Bakının əlverişli liman kimi əhəmiyyəti artırdı. Ticarət malları Bakı və Bilgəhdən dəniz və quru yollarla uzaq diyarlara göndərilirdi. Bakı bir ticarət mərkəzi kimi Avropa-Asiya ticarət əlaqələrinin həyata keçirilməsində də mühüm rol oynayırdı. Venesiyalı səyyah Donato da Leze XV əsrdə Azərbaycanda olarkən Bakının ticarət əhəmiyyəti barədə belə yazırdı: "Hindistandan gətirilən ədviyyat Şamaxıya, oradan da Bakıya daxil olur. Şəhərdə qızğın ticarət gedir. Əmtəələr gəmilərə yüklənir və Həştərxana yola salınır". Bakıdan aparılan əmtəə məhsulları Şimali İrana, Orta Asiyaya, Hindistana, Həştərxan vasitəsi ilə Moskva knyazlığına, oradan isə Avropa ölkələrinə aparılırdı. Qərb ölkələri Asiya ilə ticarətdə Rus dövlətinin ərazisindən istifadə edirdi. Onlar Volqa çayı, Xəzər dənizi vasitəsi ilə Təbriz-Ərdəbil-Lənkəran-Bakı yolu ilə ticarət edirdilər. Alman alimi və səyyahı İ. Lerx Avropa və Asiya arasında aparılan ticarətin təqribən Həştərxan - Qızlar - Tərki - Dərbənd - Bakı - Şamaxı - Cavad - Rəşt yoluyla getdiyini göstərmişdi.

XVI-XVII əsrlərdə şimal dəniz yolu ticarəti Xəzər dənizi vasitəsilə aparılırdı. Avropa tacirlərinin şimaldan Şirvan yolu ilə Təbrizə axını üçün şərait yaranmışdı. Təbriz tacirləri Volqa-Xəzər ticarət yolundan istifadə etməklə Qərbi Avropa ölkələri ilə ticarət əlaqələrini genişləndirirdilər. Moskva knyazlığı ilə əlaqələrdəİsfahan-Qəzvin-Rəşt-Astara-Lənkəran-Bakı-Dərbənd-Həştərxan yolundan savayı, Təbriz-Şamaxı-Şabran-

Niyazabad-Həştərxan ticarət karvan yolu əsas tranzit yolu idi. Bakı və Xəzər dənizi artıq XV əsrdə beynəlxalq ticarətdə mühüm əhəmiyyət kəsb edirdi. XVI əsrdə Bakıdan Moskva knyazlığına, İran, Hindistan, Türkiyə, İtaliya şəhərlərinə, Fransaya və Avropanın digər ölkələrinə 100 min puda yaxın xam ipək aparılırdı. Xarici tacirlər Şirvan şəhərlərində pudunu 15-16 manata aldıqları xam ipəyi öz ölkələrində 60-70 manata satırdılar.

Bakı və Şamaxıda çoxlu sayda hind taciri ticarətlə məşğul olurdu. Onlar Azərbaycanın xarici ticarətində mühüm rol oynayırdılar. Alman səyyahı A.Oleari, fransız səyyahı J.Tavernye Səfəvi dövləti ərazisində hind tacirlərinin sayını 10-12 min, digər fransız səyyahı J.Şarden isə 20 min göstərirdi. Niderland səyyahı Y.Streys də Şamaxıda yüzə qədər hind tacirini gördüyünü yazırdı. Hindistan tacirlərinin Azərbaycanın ticarət mərkəzlərində bilavasitə qaldıqları karvansaralar var idi. Hind tacirləri burada ticarət şəbəkəsi yaratmışdılar. Bu karvansaralardan biri – “Multanı” karvansarası indi də Bakının tarixi özəyində qorunub saxlanır. Onunla üzbəüz yerləşən “Buxara” karvansarası isə Orta Asiyadan gələn tacirlərin qaldıqları məkan idi. Hər iki karvansara XV əsrin abidəsidir. Hindistan tacirləri ədviyyatdan başqa, Kəşmir parçaları, tirmə də gətirir, onları qızıl pula satırdılar. Bu ticarətdə təkcə Bakı yox, Azərbaycanın şəhərləri də iştirak edirdilər. Gəncədən ipək və yun parçalar, Ərdəbildən musiqi alətləri, Şabrandan xalça,

yun, Dərbənddən marena, zəfəran ixrac olunurdu. İxrac edilən məhsullar içərisində metal əşyalar da – zirehli geyim, qalxan, soyuq silahlar və s. də üstünlük təşkil edirdi. Rus çarı Boris Qodunovun Azərbaycan silah ustaları tərəfindən hazırlanmış 10 ədəd zirehli dəbilqəsinin səkkizi Şamaxı silah ustalarına məxsus idi. Metalişləmə sənəti Bakıda, Təbrizdə, Şamaxı, Gəncə və Ordubadda, Ərdəbildə daha çox inkişaf etmişdi. Bu dövrdə Bakıda, Şirvanın digər şəhərlərində əmtəə-pul münasibətlərinin inkişafını sübut edən faktlardan biri də burada XV–XVII əsrlərə aid iri həcmli pul xəzinələrinin aşkar olunmasıdır.

Böyük İpək yolu üzərində yerləşən şəhərlərdə böyük bazarlar olurdu. İpək yolunun Bakı qalası daxilindəki ticarət bazarının bir qolu Qoşa qala qapılarından Məhəmməd məscidinə qədər, digəri isə Qız qalasından dəniz kənarındakı küçəyə doğru uzanırdı. İkinci bazardakı dükanların üstü örtülü olduğu üçün, ona "üstüörtülü bazar" da deyirdilər. Burada satılan mallar o qədər dəyərli və rəngarəng idi ki, gələn əcnəbilər heyran qalırdı. 1858-ci ildə Bakıda olmuş fransız yazıçısı Aleksandr Düma bu yerlərdə sənətkarlığın yüksək səviyyəsi barədə yazmışdır. O bazardan sinəbənd qadın bəzəyi və təsbeh almış, buradakı xalçalardan, inkrustasiya işləməli şərq tüfənglərindən böyük zövq almışdı. Böyük ticarət magistralı olan İpək yolu ildən-ilə genişlənirdi, aparılan malların növləri çoxalırdı. Bu inkişaf demək olar ki, XVIII əsrə

qədər davam etmişdi. İllər keçdikcə dəniz ticarətinin aktivləşməsi ilə İpək yolu zəifləmiş və fəaliyyəti demək olar ki, dayanmışdı.

Şamaxı şəhərinin tarixindən səhifələr. Azərbaycanda şəhərsalma mədəniyyətinin ən qədim mərkəzlərindən olan Şamaxı şəhəri antik Albaniya dövlətinin iri yaşayış məskənlərindən biri idi. Vətənimizin dilbər guşələrindən biri olub, əsrlər boyu Şirvanın mühüm mədəni, iqtisadi və siyasi mərkəzi sayılan, yaşı, sorağı eramızdan çox-çox əvvəllərə gedib çıxan Şamaxı millətimizə hər zaman şöhrət gətirən şəhərlərimizdən olmuşdur.

Tarix boyunca davam edən dəhşətli zəlzələlər zamanı təkrar-təkrar yerlə-yeksan olmuş və dəfələrlə yerini dəyişmiş Şamaxının arxeoloji qazıntılar zamanı ən qədim ərazisini müəyyən etmək hələlik mümkün olmamışdır. Lakın antik müəlliflərinin yazılı məlumatları və Şamaxı şəhəri yaxınlığındakı Xınıslı qazıntıları zamanı aşkar olunmuş maddi-mədəniyyət nümunələrinin analiz və nəticələrinə görə Şamaxı şəhərinin ən azı 2500 il yaşı vardır.

Bütün bunlara baxmayaraq tədqiqatçılar hələ də Şamaxının yaşı ətrafında mübahisə edirlər. Tarixçi alimlərimizin bəziləri şəhərin e.ə. III-II əsrlərdə mövcud olduğunu, bəziləri isə Şamaxının 2000-2500 il bundan əvvəl salındığını iddia edirlər. Bu ərazidə uzun müddət aparılmış arxeoloji qazıntıların nəticələrinə əsasən də konkret faktlar söyləmək çətindir. Hələlik isə Şamaxı yaxınlığında yerləşən Xınıslı kəndi ətrafında təsadüfi torpaq işləri və daha sonra aparılan arxeoloji qazıntılar nəticəsində aşkarlanmış bir dəfinə daha çox diqqəti cəlb edir. 1958-ci ildə üzüm plantasiyaları salmaq məqsədilə təpəlik sahədə təsərrüfat işləri aparılarkən Xınıslı yaşayış yeri yaxınlığında aşkar edilmiş 300-dən çox gümüş sikkə tədqiq olunmuşdur. Sikkələr Roma (denari), Afina (5 tetradraxma),

Frakiya (3 tetradraxma), Vifiniya (7 tetradraxma), Pont (1 tetradraxma), Selevki (76 tetradraxma), Arşaki (161 draxma) və yerli bənzətmə alban (72 ədəd) pullarından ibarətdir. Dəfinədə ən qədim pul Lisimaxın (e.ə. 323-281) Frakiyada zərb edilmiş tetrdraxma, ən sonuncu isə III Fraatın (e.ə. 70-58) Arşaki draxmasıdır. Dəfinənin e.ə. təqribən birinci əsrin III rübündə basdırıldığı ehtimal olunur. Sikkələrlə yanaşı, gümüş bəzək əşyasının bir parçası (5,52 qr), yastı gümüş lövhə (58,74 qr), gümüş külçə (29,96 qr) da tapılmışdır. Külli miqdarda bənzətmə alban sikkələri ilk dəfə Xınıslı dəfinəsində aşkar edilmişdir. Bu sikkələr əsasında əvvəllər ayrı-ayrı yerlərdən tapılmış naməlum pulları müəyyənləşdirmək mümkün olmuşdur. Xınıslı dəfinəsi hələ eramızdan əvvəl Azərbaycanda yerli sikkələrdən kəsildiyini, geniş pul-əmtəə tədavülünün olduğunu göstərir. Arxeoloji qazıntılar zamanı aşkar olunan sikkələr içərisində Makedoniyalı İsgəndərin sikkələrinə oxşadılmış yerli pullar da elmi cəhətdən böyük marağa səbəb olmuşdur.

Şamaxının adı ilk dəfə antik mənbələrdə – yunan coğrafiyaşünası Klavdi Ptolemeyin “Coğrafiya” əsərində Albaniya ölkəsinin 29 şəhəri sırasında “Mamaxiya” “Camaxeya” və ya “Kemaxeya” formasında çəkilir. Sonralar mənbələrdə şəhər “Kemaxiya”, “Əşşamaxiyyə”, ərəblər adını dəyişdirdiyi zaman qısa müddət “Yezidiyyə” və sonra yenidən bu günə kimi “Şemaxi” və “Şamaxı” adlandırılmışdır.

Qədim yaşayış məskəni yerində tədricən bir şəhər kimi formalaşan Şamaxı obyektiv səbəblər üzündən zaman-zaman sərhədlərini dəyişdirməli olsa da, bəzən hətta xarabalıqlar içindən yenidən baş qaldırsa da, erkən orta əsrlərdə də bir şəhər kimi varlığını və əhəmiyyətini qoruyub saxlaya bilmiş, xilafətin hakimiyyəti illərində isə tədricən mühüm ictimai-iqtisadi və siyasi mərkəzə çevrilmişdir.

Şamaxı Şirvanın mərkəzi hissəsində, dəniz səviyyəsindən təqribən 749 metr hündürlükdə, əlverişli coğrafi bir mövqedə yerləşir. Şamaxının cənubunda Zoğalavay, şərqində isə Pirsaat çayları axır. Şəhəri şimaldan Binaslı, Quşhan, şimal-qərbdə Pirdirəki və Qız qalası-Gülüstan, qərbdən isə Meysəri dağları əhatə edir. Bu dağları şəhərin təbii müdafiə istehkamları da hesab etmək olar. Qafqaz dağlarının ətəklərində yerləşdiyindən şəhər əhalisini və ətraf kəndləri içməli su ilə təchiz edən gözəl bol sulu bulaqları var.

IX əsrdən başlayaraq Şamaxı şəhəri haqqında mənbələrdə çox geniş məlumat verilir. Bu 918-ci ildə hərbi-strateji baxımdan çox əlverişli mövqedə yerləşən qədim Şamaxının Şirvanşahlar dövlətinin paytaxtına çevrilməsi ilə bağlıdır. Dövrün ərəb coğrafiyaşünasları, səyyahları Şamaxı şəhərini "Şəməxiyyə" adlandırırlar. Əl-Bəlazuri Şamaxı şəhərinin əş-Şammax ibn Şucanın adını daşıdığını bildirir. Ərəb müəllifi Y.Həməvi qeyd edirdi ki, sözün kökü "yüksəklik" mənasını verən "şamax"dır.

Bir sıra tədqiqatçılar isə Şamaxı sözünün “Şam” və “əxi” (Şamın qardaşı) sözündən götürülməsini güman edirlər. Şamaxı sözünün ərəblər və ya ərəb dili ilə əlaqələndirən digər mülahizələrin də mövcud olmasına rəğmən, bu şəhərin daha qədim tarixə malik olmasını nəzərə alsaq onun adının, qədim “kimak” və ya “kamak” tayfalarının adi ilə bağlı olub, qədim Alban şəhəri “Kemaxeya”dan yarandığı daha düzgündür. Başqa bir fikrə görə, bəzi mənbələrdə “Kemaxeya” kimi qeyd olunan “Şamaxı” toponimi öz mənşəyini qədim Çin mənbələrində qeyd olunan türk etnonimi “kimak”dan almışdır. Akademik V.V.Bartolda görə, “kimak” etnonimi iki türk mənşəli “iki” və “oymaq” sözlərinin birləşməsindən yaranıb. Köçəri maldar tayfa olan kimaklar qıpçaqların məskunlaşdığı İrtış və Volqa çaylarının yuxarı hissəsində yaşamış və 11 kolondan ibarət olmuşdur. Mənbələrdən məlumdur ki, qədim dövrlərdən etibarən Volqa çayı və Dərbənd yolu vasitəsilə köçərilərin şimaldan cənuba doğru köçü baş verib ki, kimakların da məhz bu köç zamanı Azərbaycana gəlməsi ehtimal olunur. Ümumiyyətlə, müxtəlif mənbələrdə “Kemaxeya”, “Mamaxeya” (Qədim yunan coğrafiyaşünsı Ptolomeyin məşhur “Coğrafiya” əsərində Albaniyanın tərkibində olan 29 yaşayış məntəqəsindən biri “Kemaxeya” və ya “Mamaxeya” kimi göstərilir), “Əşşamaxiyə” və s. kimi adı çəkilən şəhər məhz Azərbaycanın ən qədim mədəni və inzibati mərkəzlərindən olan indiki Şamaxı şəhəridir.

Onu da qeyd edək ki, orta əsr ərəb müəllifləri əl-İstəxri, İbn Havqəl, Əl-Müqəddəsi, Yaqut əl-Həməvi və başqaları Şamaxını "gözəl", "evləri daşdan tikilmiş", "axar suları, bağları və gəzməli yerləri olan şəhər" kimi təqdim edir.

XI əsrin son rübünün əvvəlində naməlum müəllif tərəfindən yazılan "Tarix-i əl-Bab" əsərinə görə Şamaxı şəhəri Şirvanşah Əbu Tahir Yezid ibn Məhəmməd tərəfindən bərpa olunaraq paytaxta çevrilmiş və onun şərəfinə Yezidiyyə adlandırılmışdır.

Orta əsrlərdə Şamaxı şəhəri Azərbaycan Şirvanşahlar dövlətinin mərkəzi kimi inkişaf etmiş, nəqliyyat yollarının əhəmiyyəti xeyli artmışdı. Ərəb müəlliflərinin məlumata görə IX-XIII əsrlərdə Şamaxı qərbdən Bərdə-Gəncə-Tiflis, şimaldan Şabran-Dərbənd, şərqdən Xəzər dənizi, cənubdan Pirsaat çayı kənarı ilə uzanan karvan yolları vasitəsilə dünyanın bir çox ölkələri ilə iqtisadi, mədəni əlaqələr saxlayırdı.

Şamaxıda tapılmış Orta Asiya şəhərlərinə məxsus basma naxışlı saxsı qablar XI-XII əsrlərdə Şamaxının Orta Asiya şəhərləri ilə iqtisadi-mədəni əlaqələri olduğunu sübut edir. XII əsrdə Şamaxı Hindistanla, Çinlə də iqtisadi-mədəni əlaqələr saxlamışdı. Arxeoloji qazıntılar zamanı Şamaxıda tapılmış mis sikkələr, Çində istehsal edilmiş çini qablar, beynəlxalq ticarət əlaqələrinə xidmət edən karvansaraylar qədim Şamaxının tarixi ipək yolundakı əvəzsiz rolunu sübut edir.

İbn əl-Əsir 1222-ci ildə Şamaxının zəbt edilib dağıdılmasını, şəhər əhalisinin monqol işğalçılarına qarşı qəhrəmancasına müqavimət göstərməsini parlaq surətdə təsvir edir. Şamaxı ətrafında arxeoloji qazıntılar aparılarkən monqol hücumu zamanı dağıdılan böyük ictimai binanın aşkar edilməsi və XIII əsrə aid təbəqələrdən aydın görünən yanğın izləri, monqol qoşunlarının Şamaxını dağıtmasına dair mənbələrin verdiyi məlumatı təsdiqləyir.

Şirvanşahlarla qohumluq münasibətlərində olan Arran hökmdarları Fəribürz ibn Saların hakimiyyəti dövründə Şəddadilərlə bir sıra müharibələr baş verdi. “Tarix-i əl-Bab” sonra xəbər verir ki: 1063-cü ilin martında Arran hökmdarı Şavur ibn Fəzl Şirvana hücum edərək Quylamiyan qalasını tutdu və orada öz qarnizonunu yerləşdirdi. Həmin il o, yenidən Şirvana hücum edərək ölkəni viran etdi, qoyun və mal-qara sürülərini qovub apardı. Şavur onun əleyhinə çıxan Şirvan əhalisini qırıb-çatdı, əyanlardan bir çoxunu əsir aldı və əmlaklarını qarət etdi. “Oradan hərəkət edən Şavur Yəzidiyyənin qapıları qarşısında düşərgə saldı, öz qızını - mərhum Saların arvadını (hərəmini) pulları, bütün mal və qiymətli şeyləri ilə birlikdə götürərək Arrana qayıtdı. Lakin həmin ilin iyul ayında o, üçüncü dəfə Şirvana gələrək Sədun kəndində dayandı, əkinləri, ətraf kənd və malikanələri yandırdı”. 1064-cü ilin yanvar ayında Arran hakimi Əbüləsvar Şavur ibn Fəzl dördüncü dəfə Şirvana basqın edib, bir sıra kənd

və məntəqələri tutdu. Sonra Şavur qoşununun bir hissəsini bəzi əmirləri ilə burada qoyub Şirvanı tərk etdi.Şirvanşah Fəribürz onunla sülh müqaviləsi bağladı. Bu müqaviləyə əsasən Şavur Şirvanşahdan 40 min dinar alıb, əvəzində Quylamiyan qalasını ona qaytardı**.** Artıq bu fakt Şirvanşahların qalalara xüsusi diqqət yetirməsi, öz dövrü üçün kifayət qədər böyük miqdarda pul vəsaitindən keçdiyini və bunun da siyasi və hərbi səbəblərinin olduğunu sübut edir.

Tarixin sonrakı dövrlərində Şamaxının ticarət dövriyyəsində oynadığı rol müxtəlif mənbələr tərəfindən təsdiqlənir. 1434-cü ildə Qaraqoyunlu hökmdarı İsgəndərin Şirvana hücumu zamanı Şamaxı şəhəri amansızlıqla qarət olunur, dağıntılara məruz qalır. Bu, monqol yürüşlərindən sonra ən dağıdıcı basqın olmuşdur.

XV əsrin 30-80-ci illərində Azərbaycanın nisbətən sabit siyasi şəraitdə olması şəhər həyatının kifayət qədər yüksək inkişafını təmin etmişdir. Qaraqoyunlu hökmdarı Cahanşahın, Ağqoyunlu hökmdarı Uzun Həsənin dövründə şəhərlərin inkişafında xeyli irəliləyiş baş vermişdir. Uzun Həsənin islahatı şəhərlərin, o cümlədən Şamaxı şəhər təsərrüfatının canlanmasında yeni mərhələnin başlanğıcı olmuşdur.

XV əsrdə Şamaxıda təqribən 30-60 min nəfər yaşamışdır. Bu şəhər orta əsrlərdə Azərbaycan miqyasında ən iri iqtisadi mərkəz olmuşdu. Kontarininin verdiyi məlumata görə Təbrizlə müqayisədə Şamaxı həyat üçün əlverişli olan məhsulların

çoxluğu baxımından Təbrizdən üstün olmuşdur. 1538-ci ildə Şirvan ərazisi Səfəvilər dövlətinə birləşdirildikdən sonra Şamaxı şəhəri Şirvan bəylərbəyliyinin paytaxtına çevrilmişdir.

Şah Abbasın Azərbaycana yürüşündə (1603-1607) iştirak edən tarixçi İ.Münşi yazırdı: "Şəhər yamacda, hökmdarların və keçmiş şahların evi isə dağın şimal yamacında, şəhərin ərazisinə nisbətən çox yüksək bir sahədə yerləşir". Onun sözlərinə görə bu iki hissədən hər biri XVII əsrin əvvəllərində türklər tərəfindən bir-biri ilə əlaqələnmiş müstəqil qalalara çevrilmişdir.

XVII əsrin birinci yarısında Azərbaycanda olmuş alman alimi Adam Olearinin Şamaxı haqqında verdiyi məlumat da olduqca maraqlıdır: "Əvvəllər onun dairəsi daha böyük idi və 5000-ə qədər ev vardı, ancaq Şah Abbasın türklərlə apardığı müharibələr nəticəsində çox kiçildi. O, hər biri divarlarla əhatə olunmuş iki müxtəlif hissədən ibarət idi. Şah Abbas gördü ki, türklər açıq yerlərdən keçərək daha çox müdafiə olunmuş və istehkamlarla möhkəmlənmiş yelərə hücum edib oraları tutmağa çalışırlar. O güman edir ki, sərhəd və keçidlərdə deyil, əksinə, ölkənin daxilində yerləşən qalalar onun üçün daha təhlükəlidir. Ona görə də o, cənub hissədəki daha möhkəm olan divarların dağıdılmasını əmr etdi. Təbriz, Naxçıvan və Gəncə kimi böyük şəhərlərdə də belə olmuşdur".

XVI əsrdə Cənubi Qafqazda ipək istehsalı və ticarətinin cəmləşdiyi şəhərlərdən biri məhz Şamaxı olmuşdur. Bu

mənada ingilis səyyahı Cenkinson Şamaxını “gözəl kral şəhəri” adlandırmışdır. Şamaxıda rus, hind, türk, fars tacirlərinə xidmət edən karvansaraylar olmuşdur. XVI əsrin II yarısında burada ingilis “Moskva şirkəti”nin daimi nümayəndəliyi açılmışdır. Moskva tacirləri Şamaxı bazarlarında Moskvada hazırlanmış sənətkarlıq məhsullarını satır, yerli malları, əsasən də xam ipəyi, ipək parçaları alırdılar.

XVII əsrin əvvəllərində Şamaxı şəhəri xeyli möhkəmləndirilmişdir. Adam Olearinin verdiyi məlumata görə, Şamaxı hər iki tərəfdən ayrıca divarlarla əhatələnmiş və iki hissədən ibarət olan bir şəhər idi. ”Şəhərin şimal hissəsi cənub hissədən bir qədər kiçik idi. Burada daşdan hörülmüş 5 qapı vardır”.

1683-84-cü ilin qışında 77 gün Azərbaycanda olmuş, Bakının və Şamaxının qrafik rəsmini çəkib önəmli qeydlər etmiş, XVII əsr səyyahı Engelbert Kempfer (1651-1716) Şamaxı şəhəri haqqında müfəssəl məlumatlar verir. O, Səfəvi hökmranlıgı dövründə Şamaxı hakimi olmuş Məhəmməd Hüseyn bəylə görüşmüş, onun evində qalmışdı. Əlyazmalarında Şamaxıda bəzi şəxslərlə keçirdiyi görüşləri, gördüyü abidələrin epiqrafik kitabələrini əlyazmalarında təsvir edir. Səhf etməsin deyə həmin kitabə mətnlərini molla taparaq ona yazdırır. E.Kempfer Şamaxının qrafik rəsmini çəkmişdir. Bu qrafik rəsm indiyə kimi heç yerdə çap olunmamışdır. O,

yazdığına görə Şamaxıdan Bakıya gələrkən iki karvansarayda qalmış, Mərəzədə Diri Baba pirini ziyarət etmişdi.

1725-ci ildə Şamaxıda olmuş ingilis Henri Bryus öz xatirələrində, Şamaxı şəhərini Cənubi Qafqazın ən məşhur ticarət mərkəzi kimi qiymətləndirirdi. Şamaxının ipək yolu üzərində yerləşməsi şəhərin iqtisadi inkişafı üçün əlverişli şərait yaratmışdır. Lakin 1192-ci ildə baş vermiş birinci və 1667-ci ildəki ikinci zəlzələ, müharibələr Şamaxının iqtisadi inkişafına müəyyən zərbə vurmuşdu. Belə ki, 1670-ci ildə Şamaxıya gəlmiş hollandiyalı səyahətçi Yan Streys qeyd edirdi ki, "məni ən çox təəccübləndirən o idi ki, şəhəri tamamilə yerlə-yeksan edən və viran qoyan həmin zəlzələdən 3 ildən də az müddət keçməsinə baxmayaraq, şəhər yenidən bərpa olunmuşdur". 1724-cü il Rusiya ilə Türkiyə arasında bağlanmış İstanbul müqaviləsi, Şirvana daxili muxtariyyətin verilməsi Şamaxı şəhərinin ticarət əlaqələrinin əvvəlki səviyyəyə çatmasına imkan yaratmışdı.

Qanlı-qadalı müharibələrə, işğallara, dağıntılara və təbii fəlakətlərin törətdiyi itkilərə baxmayaraq (1667, 1859 və 1902-ci illərdə Şamaxıda dəhşətli zəlzələlər olub), Şamaxı sənətkarlarının ucaltdığı binalar, yaşayış evləri, tarixi abidələr günümüzə qədər gəlib çatmış, bu diyarın şanlı keçmişi haqqında tutarlı mənbələr kimi çıxış etməkdədir. Belə abidələr sırasında dini-ibadət yerlərimizdən olan məscidlər, ziyarətgahlar, qalalar və s. mühüm yer tutur. Qədim Şamaxının

ən məşhur məscidlərindən Cümə məscidini, İmamzadəni, Qalabayır məscidini və s. misal göstərmək olar.

Zivərbəy Əhmədbəyovdan başqa, Şamaxının memarlıq tarixində yeri olan şəxslərin sırasında yuxarıda adını çəkdiyimiz Usta Kəli və onun şagirdi Usta Tərxanın da adlarını qeyd etmək vacibdir. Cümə məscidindəki işlərdən əlavə, Şamaxının "Laləzar", "Şah Xəndan", "Yeddi günbəz" və "Qəriblər" məzarlıqlarındakı daşların çoxunu da Usta Kəli yonub. Həmin daşların üzərində tez-tez rast gəlinən "Mən bir vaxt yaxşı bağban idim", "Mən sürücü idim", "Mən hələ məktəbdə oxumalıydım" və s. kimi yazılar böyük maraq kəsb etməklə məşhur ustanın həyatı, peşə və sənəti haqqında müəyyən fikir yürütməyə imkan verir.

Şamaxının memarlıq abidələrindən danışarkən "İmamlı hamamı", "Topal Mövsümün hamamı", "Məşədi Mursalın karvansarayı", "Gülüstan qalası", "Qəleybuğurt qalası", "Qız döyüşü istehkamı", "Govurxana sərdabəsi", "Diri Baba türbəsi", "Şeyxməhəmməd", "Pir-Mərdəkan" və onlarla tarixi abidə və qalaları, həmçinin Mir Səyid (Pirsaat. İki alim qardaş olub), Qara Sofi (yel piri də deyirlər), Ağdaş piri, Göydaş piri, Şeyx Eyyub piri, XVIII əsrdə buranın mürşidi olub), Pirsaat piri, Uzun yol piri (Xınıslı məhəlləsində), Pir küleyiş (Qəriblər piri), Yeddi günbəz piri (Kələxana kəndi), Alçalı piri (Pirqulu yaylağındakı bu pirə "Ziyil piri" də deyirlər) kimi ziyarətgahları da qeyd etmək olar.

XVII əsr məşhur Osmanlı səyyahı Evliya Çələbi Şamaxı şəhərini belə təsvir etmişdir: “qırx xanlıq, qırx səkkiz qəza olub, qırx nahiyəsi, 70 qalası, 1300-ə qədər abad kəndi var. Qədim və abad bir şəhərdir... Şəhər içində təxminən yeddi minə qədər torpaqla örtülü abad evləri var. Hər yerindən çay keçir. Bağ və bağçalarının hesabı yoxdur. 26 məhəlləsi var, Meydan və Şabran məhəllələri şəhərin çox gözəl yerində yerləşir. Evləri olduqca yaraşıqlıdır, 70-ə qədər mehrabı var”. Evliya Çələbi şəhərdə 5 böyük məscid, 7 mədrəsə, 40 məktəb, 7 hamam, 44 daş karvansay, iki yüzə qədər dükanın olduğunu qeyd edirdi.

Şamaxı şəhəri həmişə strateji məkan kimi qonşu dövlətlərin diqqət mərkəzində olmuşdu. XVIII əsrin əvvəllərində yaranmış beynəlxalq şəraitdən və Səfəvi imperiyasının zəifləməsindən yararlanan ermənilər Azərbaycan torpaqlarını ələ keçirmək üçün layihələr tərtib edərək özlərinə xaricdə havadarlar axtarmağa başladılar.

Rusiya imperatorunun Şərq siyasətində Şimal-Şərqi Azərbaycan mühüm əhəmiyyət kəsb edirdi. Hətta Şirvan üsyanından əvvəl Peterburqda qarşıda duran yürüş barədə tərtib olunan sənədlərdə bu yürüş “Şamaxı ekspedisiyası” adlandırılırdı.

Xanlıqlar dövründə Şamaxı şəhəri xanlığın mərkəzi kimi yenə də iqtisadi və siyasi əhəmiyyətini saxlamışdı. XVIII əsrin əvvəllərində Şamaxıda olmuş ingilis səyyahı Con Bel şəhəri

dağ döşündə amfiteatr şəklində tikilmiş şəhər kimi xatırlayırdı. Lakin Şamaxı şəhəri Nadir xan Əfşar tərəfindən 1734-cü ildə dağıdıldığı üçün əhalinin Yeni Şamaxıya köçürülməsi ilə əlaqədar Şamaxının adı tarixi ədəbiyyatda Köhnə Şamaxı kimi çəkilir. XVIII yüzilliyin 70-ci illərində Şamaxıda 1000-ə yaxın evdə 5-6 min adam yaşayırdı. Şəhərlər inzibati cəhətdən məhəllələrə bölünürdü. S.Qmelinin verdiyi məlumata görə, Köhnə Şamaxı doqquz məhəlləyə bölünürdü: Yuxarı qala, Sarıtorpaq, Qala bazar, Yəhudi, İmam, Meydan, Şahpəri, Gilandibli, Nar ağacı məhəllələri.

Xanlığın paytaxtı kimi özünün çiçəklənmə dövrünü yaşayan Köhnə Şamaxı sənətkarlıq mərkəzi olmaqla yanaşı, həm də böyük ticarət mərkəzi idi. 1768-ci ildə Şamaxı xanlığı qubalı Fətəli xan tərəfindən tabe edilərkən, Fətəli xan Dərbənd, Quba və Salyandan Köhnə Şamaxıya 1000 ailə köçürür. 1769-cu ilin iyulunda Yeni Şamaxı dağıdılır və əhalisi Köhnə Şamaxıya köçürülür.

1789-cu ildə qubalı Fətəli xanın ölümündən sonra, Şamaxı xanlığında hakimiyyət uğrunda daxili çəkişmələr baş verir. 1792-ci ildə həmin mübarizədə Mustafa xan qalib gəlir. Mustafa xan mərkəz kimi köhnə Şamaxını yox, yeni Şamaxını seçir. Lakin əsrin sonunda bütün əhali köhnə Şamaxıya qayıdır. Beləliklə, 1775-ci ildən xaraba vəziyyətində qalan Şamaxı şəhəri yenidən öz əvvəlki yerində bərpa edilib tikilməyə başladı.

Bu qədər dağıntı və zorakı köçürmələrə baxmayaraq, Şamaxı şəhəri xanlıqlar dövründə də sənətkarlıq mərkəzi kimi öz əvvəlki şöhrətini qoruyub saxlaya bilmişdi. XIX əsrin sonlarında Azərbaycanda olmuş rus səyyahı S.Bronevskinin təbirincə desək, "ticarət və sənətin qədim ruhu Şamaxıda hələ tamamilə sönməmişdi".

Rusiyadan İrana və Hindistana, yaxud əks istiqamətə mal aparan tacirlər çox zaman Bakı və Niyazabad limanları vasitəsilə Şamaxıya gəlir, burada mal mübadiləsi aparırdılar. Bakıdan Tiflisə gedən yol Şamaxıdan keçdiyi üçün Şamaxının ticarət dövriyyəsində oynadığı rol inkaredilməzdir. E.S.Zevakin Şamaxının hələ XVI-XVII yüzilliklərdə Rusiyanın Səfəvi dövləti ilə ticarət əlaqəsinin mərkəzi olduğunu göstərirdi. 1805-ci ilin sonlarında xeyli müqavimətdən sonra Şamaxı xanlığı daxili müstəqilliyi saxlanılmaqla Rusiya imperiyasının tərkibinə qatılır. 1820-ci ildə isə çar Rusiyası Şamaxı xanlığını tamamilə ləğv edir. 1846-cı ildə Şamaxı şəhəri quberniya mərkəzinə çevrilir. 1859-cu ildə quberniya mərkəzi Şamaxıdan Bakıya köçürülür.

1917-ci il fevral inqilabı nəticəsində çarizmin devrilməsi Azərbaycanın ictimai-siyasi həyatında ciddi dəyişikliklərə səbəb oldu. Şamaxıda da Müsəlman Milli Şurası yaradıldı. Şuranın əsas məqsədi Şamaxının azərbaycanlı əhalisini milli ideallar ətrafında birləşdirmək, onun maraq və mənafelərini müdafiə etməkdən ibarət idi. Lakin 1917-ci ilin sonları - 1918-

ci ilin əvvəllərində Cənubi Qafqazda, o cümlədən Bakıda formalaşmış hərbi-siyasi şərait Şamaxıya da təsirsiz ötüşmədi. 1918-ci ildə S.Şaumyanın fitvası ilə erməni silahlı dəstələri, Şamaxıda Sovet hakimiyyəti qurmaq adı altında, Bakıda törədikləri dəhşətli qırğından sonra ikinci qırğını Şamaxı qəzasında törətmişdilər. Şaumyan 1918-ci ilin aprelin 13-də Sovet Rusiyası Xalq Komissarlar Sovetinə göndərdiyi məktubda Şamaxıya artilleriya və pulemyotları olan "yeni dəstələr" göndərdiyini etiraf edirdi. S.Şaumyanın rəhbərlik etdiyi Bakı Soveti erməni hərbi hissələrini Şamaxıya göndərərək yerli azərbaycanlılara qarşı dəhşətli qırğınlar törətdilər.

Ermənilər Şamaxı şəhərində azərbaycanlılara məxsus 1 milyard manatdan yuxarı dəyəri olan əmlakı qarət etmiş, şəhərin azərbaycanlılara məxsus bütün evlərini yandıraraq məhv etmişlər. Şəhərdə həmçinin, 13 məscid, o cümlədən böyük tarixi abidə olan "Cümə məscidi" yandırılmışdır. M.Ə.Rəsulzadə qeyd edirdi ki, əski Şirvanşahların bu qədim paytaxtı bir həmlədə atəşə verilib, məşhur tarixi camiyə varıncaya qədər yaxıldı. Yalnız erməni məhəlləsi salamat buraxıldı.

Şamaxı şəhəri və Şamaxı qəzası 1918-ci ilin iyul ayının 18-də Qafqaz İslam Ordusu və Azərbaycan korpusunun birgə apardıqları uğurlu döyüş əməliyyatları nəticəsində azad edilənə qədər daşnak-bolşevik qüvvələrinin işğalı altında qaldı.

Şamaxı şəhəri düşmənlərdən azad edildikdən sonra sağ qalmış əhali yavaş-yavaş geri dönməyə başladı. Şəhərdə həyat tədricən öz axarına düşürdü. Az müddət ərzində qəddi-qəmətini düzəldən Şamaxı Azərbaycan Xalq Cümhuriyyətinin ictimai-siyasi, mədəni həyatında mühüm rol oynamış mərkəzə çevrildi.

1993-cü ildə ümummilli liderimiz Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Şamaxının inkişafının yeni mərhələsinə başladı. Bu dövrdə Şamaxı rayonunun daxili imkanlarından və ehtiyat mənbələrindən səmərəli istifadə olunmuş, iqtisadiyyatın sabitləşməsi istiqamətində xeyli işlər görülmüşdü. 24 noyabr 2003-cü il tarixində ölkə prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərman və dövlət başçısı tərəfindən təsdiq olunan "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" digər bölgələrlə yanaşı, Şamaxıda sosial-iqtisadi tərəqqidə, həyat səviyyəsinin daha da yüksəldilməsi və məşğulluğun təmin edilməsi sahəsində dönüş yaratmışdır.

Xalqımıza Xaqanilər, Nəsimilər, Seyid Əzim Şirvanilər, Abbas Səhhətlər, habelə onlarla digər böyük mütəfəkkirlər, maarifçilər bəxş etmiş və dahi Sabiri yetirmiş Şamaxı Azərbaycanın ən böyük mədəniyyət mərkəzlərindən biridir.

Bu gün Şamaxı özünün böyük intibah dövrünü yaşayır. Ulu Öndərin və Prezident İlham Əliyevin gündəlik qayğısı sayəsində Şamaxı özünün tarixi ənənələrini saxlamaqla müstəqil Azərbaycanın ən müasir sənaye, kənd təsərrüfatı və mədəniyyət mərkəzinə çevrilmişdir.

Şamaxının məhəllələri. Mənbələrdə Şamaxı şəhərinin məhəllələrindən bəhs olunur. XVI-XVIII əsrlərdə Şamaxı müxtəlif məhəllələrə bölünürdü. Şəhərin məhəllələrə ayrılmasının əsasını əhalinin ictimai-iqtisadi vəziyyətinin müxtəlifliyi təyin edirdi. Məhəllələrə ad verilməsində vahid prinsip olduğu nəzərə çarpır. Rayonların hər biriözünəməxsus ictimai-iqtisadi və mədəni məişət şəraitinə malik spesifikası, memarlıq siması ilə seçilirdi. Məhəllələr əsasən yerləşdiyi sahənin xüsusiyyətinə görə adlandırılırdı. Məsələn, “Sarı

topaq”, “Narağac” və s.



Şamaxının tarixi məhəllələri. XVI-XVII əsrlər

Türk səyyahı E.Çələbi göstərir ki, Şamaxı 26 məhəlləyə börünmüşdür. Onlardan ikisi – “Meydan” və “Şapuran” məhəllələri, abadlığı və zövqlə bəzədilmiş gözəl evlərin olması ilə diqqəti cəlb edirdi. Bu məhəllələrdə şəhərin varlı sakinləri yaşayırdı.

1771-ci ilin avqustunda şəhəri gəzən alman alimi S.Qmelinin məlumatına görə Şamaxı 9 məhəlləyə bölünmüşdür: “İçəri qala” “Sarıtorpaq”, “Qalabazar”, “Cuhud

məhəlləsi”, “İmamlı məhəlləsi”, “Meydan”, “Şapuran”, “Qala dibi”, “Narağac”.

XIX əsrin axırlarında şəhərdə on beş məhəllə olmuşdur: Ərəblər, Ərdəbilli, Dərə məhəllə, Cuhud məhəlləsi, İmamlı məhəlləsi, Qala bazar, Kürd, Meydanlı, Sarı torpaq, Talış, Ucarlı, Şeyx Zahirli, Şeyx Namaz, Şapirli və Yuxarı qala. Hər bir məhəllə müxtəlif küçə və dalanlara ayrılırdı. Əyri küçələr küləklərin təsirini azaldır, kölgə verir, relyefin nahamarlığı və sərtliyi ilə yaxşı əlaqələnirdi. Lakin məşhur fransız memarı Korbuziye əyri küçələri “uzun bulaqlar yolu” adlandırırdı. Əslində feodal şəhərlərinin əyri küçələri haqqında onun fikri, A.V.Buninin göstərdiyi kimi birtərəflidir; çünki düz küçələrlə yanaşı əyri küçələrin də, yuxarıda qeyd edildiyi kimi, öz estetik mənası vardır. Əlbətdə, iqtisadi və texniki imkanların məhdudluğu şəraitində daha çox məhz belə küçələrin salınması anlaşılan idi.

Bir sıra müəlliflər şəhərin diqqətəlayiq tikintiləri içərisində xan evlərini və Kələntərin evini ayrıca qeyd edirlər. Xan evləri XIX əsrin 30-cu illərinə qədər qalmışdı. Onlar fəvvarələri olan böyük bağın içərisində tikilmişdir.

Yerli sakinlərlə söhbət zamanı bizə 35-dən artıq məhəllənin adı çəkildi ki, bu da Şamaxının öz dövrü üçün kifayət qədər böyük bir şəhər olduğundan xəbər verir. Məhəllə adları etnoqrafik cəhətdən böyük maraq kəsb etməklə, şəhərin strukturu, əhalinin etnik tərkibi, təsərrüfat həyatı, məşğuliyyəti

və s. məsələlərin tədqiqi baxımından da əhəmiyyətlidir: İçəriqala, Qaladibi, Sarıtorpaq, Bərbərlər (“Barbarlar” da deyiblər. Çünki, buranın sakinləri çox davakar olublar), Garuslar, Quşçular, İmamlılar, Padarlar, Cuhudlar, Talışlar, Qəriblər, Axundlar, Laləzar məhləsi, Şaxəndan, Şıxminaz, Qarabazar, Ərdəbilli, Alaqayınlı, Qırmızı məhlə, Cırta-pırta, Aşağı Qalabazar, Yuxarı Qalabazar, Moltanı məhləsi, Ağçılar məhləsi, Ərəblər məhləsi, Bozavand məhləsi, Yuxarı İmanlı, Aşağı İmanlı, Şapuran, Şeyxsehirli, Şəhidlər, Meydan, Narağac, Pirküleyiş, Yuxarı Qala, Kövsərli, Ucarlı, Yarıslı, Qala bazar, Dərəməhəllə (S.Ə.Şirvaninin yaşadığı məhəllə), Qurdlar, Gürcübazar, Başmanbazar. Hər məhəllənin öz ibadət yeri, karvansarayı və hamamı olub.

Məhəllə adlarının etimologiyasından, həmçinin tarixi tədqiqatlardan məlum olur ki, Şamaxıda aparıcı Azərbaycan türkləri ilə bərabər zaman-zaman tat, cuhud, malakan, ukraynalı və digər etnik və etnoqrafik qrupların nümayəndələri də yaşayıblar. Bu baxımdan türkdilli padarlar (pay+dar - kömək edən, pay verən sözündən olub, həmişəlik, daimilik, sabit, davamlı, möhkəm mənalarını ifadə edir.Ehtimallara görə, onların həmişəlik köçürülməsi ilə əlaqədardır), şahsevənlər, udulular (Orta Asiyada yaşayan “dulu” tayfasından olması ehtimal edilir), şamlı (VIII əsrdə Şamdan, Dəməşqdən Azərbaycana köçən tayfa. 1945-46-cı illərdə Şamaxıda Ərəbşamlı kəndi olub) və s. böyük maraq doğurur.

Əfsanələr də bir tarixdir. Bu günün özündə də Şamaxının ayrı-ayrı yaşayış məntəqələri, yurd yerləri, toponim və tarixi abidələri haqqında xalqın mənəvi dünyasını, inam və etiqadlarını, müdrikliyini, qəhrəmanlıq tarixini və s. sözündə ehtiva edən əfsanələr dolaşmaqdadır. Böyük maraq doğuran həmin əfsanələrdən biri də Dədə-Günəş əfsanəsidir. Əfsanədə deyilir: "Məlhəm kəndində məşhur şair İbrahim Əli Nəccar Xaqaninin doğma əmisi Kafiyyəddin Ömər İbn Osman oğlu adlı bir filosof, astronom, riyaziyyatçı, kimyaçı və həkim yaşayıb. O, Xaqaninin tərbiyəçisi və hamisi olub. Kafiyyəddin Ömər İbn Osman oğlu ölərkən xalq onu özünün iqamətgahı yaxınlığında, gün düşən bir yamacda dəfn edib. Ömər İbn Osman oğlu bütün ətraf kənd əhlini müalicə edə bildiyindən, çox şəfalı, yüngül əli olduğundan, Günəş şüasının müalicəvi xüsusiyyətlərini təbliğ etdiyindən onun dəfn olunduğu yerə "Dədə Günəş" adı, yəni "Günəşin atası" adını veriblər. O, öləndən sonra da camaat şəfa tapmaq ümidilə onun qəbri istünə gəlməkdə davam edib".

Yeri gəlmişkən qeyd edək ki, burada adı çəkilən Məlhəm kəndi Şamaxının ən qədim və səfalı kəndlərindən biridir. Dünyanın ilk tibb ocağı – "Mədrəseyi-Tibb" (Tibb Mədrəsəsi) adı ilə tanınan Tibb Akademiyası XII əsrin əvvəllərində məhz bu kənddə yaradılıb və burada ilk dəfə olaraq tibb stasionarı fəaliyyət göstərib. Məlhəmdə ilk dəfə olaraq gənclərə təbabət

sənətinin sirləri öyrədilir, müalicə məqsədilə şəfalı məlhəmlər hazırlanırdı.

Digər bir əfsanə isə məhz “Məlhəm” toponiminin özü ilə bağlıdır. Həmin əfsanə isə belədir: “Qədim zamanlarda bir padşah ova çıxır. Gəzə-gəzə məmləkətdən uzaq düşür. Nədənsə özünü pis hiss edir. Qoşun əhli bir-birinə dəyir. Təbib axtarmağa başlayırlar. Bir əsrarəngiz yerə çatırlar. Sən demə, bu adamlar qədim Şirvan torpağına gəlib çatıbmışlar. Rastlarına çıxan çobandan təbib soruşublar. Çoban “təbib nədir”- deyə təəccüblənib. Onlarsa deyiblər: “Bəs sizdə xəstələri necə sağaldırlar?”. Çoban məsələni başa düşüb qonaqlara “xoş gəldiniz” edir və deyir: Bizdə heç kəs xəstələnmir. Xəstələnəndə isə bax, o bulağın suyundan içirlər. Padşah da həmin sudan içir və sağalır. “Bu ki, su deyil, məlhəmdir!” - deyir. Elə o vaxtdan da bu diyarın adı Məlhəm qalır.

Şamaxının maraqlı tarixə malik olan kəndlərindən biri də Məlhəmin yaxınlığındakı Əngəxaran kəndidir. Əngəxaran kəndi Şamaxı şəhərindən şimalda yerləşib, ondan 3 km.-lik məsafdədir. Təqribən XVII əsrin əvvəllərində bu kənd bir az daha yüksəklikdə yerləşən indiki Zarat kəndinin yanındaymış. Hal-hazırda da, Zarat kəndinin yaxınlığında “Əngəxaran yeri” adlandırılan yer qalmaqdadır. Bu kəndlər müvafiq tarixi şəraitə və məşgul olduqları təsərrüfat fəaliyyətinə görə, kənd agsaqqallarının razılığı nəticəsində yurdlarını dəyişmişlər. Öz

kəndlərinin adını saxlamaqla Əngəxaranlılər Zarata, Zaratlılar da Əngəxarana köçmüşlər. Tarixdə belə məkan dəyişmə kimi faktlar az olur. Qoca sakinlərin məlumatına görə kənd öz adını arıçılıq təsərrüfatında çox istifadə olunan bal arısının xoşladığı "Əngəbu" adlı bitkidən almışdır. Belə ki, yeni arı ailələri yarananda öz şahları ilə birlikdə köhnə arı ailəsini tərk edir, haradasa ən çox ağac budaqlarında və ya buna oxşar yerlərdə özünə məskən salır. Arıçılar yeni arı ailəsinin uçub tam uzaqlara getməsinin qarşısını almaq üçün müəyyən təcili tədbirlər görür ki, arı ailəsi onun üçün nəzərdə tutulan "səbət" - yuvaya toplasın. Və bu zaman ən çox "əngəbu" adlı müəyyən ətir verən bitkidən istifadə edirlər, yəni arının qonduğu sahəyə "əngəbu" bitkisi yarpaqları tökürlər. Arılar həmin bitkinin iyini xoşladığı üçün xeyli müddət bundan istifadə edən arıçılar arı ailəsini səbətə köçürə bilirlər.

Şamaxıdakı "Nağaraxana" toponimi də böyük maraq doğurur (ötən il Milli Məclis tərəfindən bu toponimin adı dəyişdirilib). Xalq etimalogiyası məlumatlarına görə "Nağaraxana" sözü əslində "naharxana"dır. Guya vaxtilə Şirvan meşələrində ov ovlayan Şirvan xanları günorta saatlarında bu səfalı məkanda kabab bişirib nahar edir, günəşin doğmasını seyr edirlərmiş.

Şamaxı sənətkarlar diyarıdır. Şamaxı Azərbaycanın ən qədim sənətkarlıq mərkəzlərindəndir. Burada tarixən sənətkarlığın müxtəlif sahələri inkişaf edərək diyarı bütün

dünyada məşhurlaşdırıb. Belə sənət sahələrindən biri də ipəkçilik olub. Orta əsrlərdən başlayaraq Təbriz və Şamaxı xam ipək toxuculuğunun başlıca mərkəzləri kimi tanınıb. Mənbələr göstərir ki, hələ XIII-XIV əsrlərdən başlayaraq venesiyalılar Şamaxıya gələrək ipək aparıblar. Böyük İpək Yolunun üzərində yerləşən bu şəhər bütün italyan səyahətçiləri tərəfindən ticarət və sənaye mərkəzi kimi qeyd olunur. Məsələn, italyan səyyah Kontarini yazır: "1475-ci ilin 1 noyabrında biz Şamaxıya gəldik. Burada bizdə "Talaman ipəyi" adı ilə məlum olan ipək istehsal olunur, müxtəlif ipək məmulatları, saya ipək parçalar və s. hazırlayırlar. ...Doğrudur, Şamaxı Təbriz qədər böyük şəhər deyil, lakin mənim fikrimcə, yaşayış üçün, təbii ehtiyatlar baxımından Təbrizdən qat-qat üstündür".

XVI əsrin ingilis səyyahı A.Cenginson isə yazırdı: “Tatarlar bura pambıqdan, yundan və ipəkdən hazırlanmış müxtəlif mallar gətirirlər. Məhz Şamaxıdan ipək saplar, Rusiya bazarlarında böyük tələbat olan boyaq, alabəzək ipəklər gətirirlər”.

Tarixən Şamaxı öz xalçaları ilə də şöhrət qazanmışdı. Təsadüfi deyil ki, qədim Şirvan torpağı bu gün də Azərbaycanın dörd əsas xalçaçılıq məktəbindən biri hesab olunur. Şamaxının “Şirvan”, “Şamaxı”, “Qobustan”, “Salyan”, “Qəbələ”, “Ərciman”, “Mərəzə”, “Sorsor”, “Şilyan” və s. xalçaları öz kompazisiya quruluşuna və naxışlarının incəliyinə görə geniş şöhrət qazanıb. Medalyon və xırda naxış çeşnilərindən əlavə, bu qrupa “Namazlıq”, və “Bəndi-rumi” kimi orijinal kompozisiyalı xalça çeşniləri də daxildir. Şirvan xalçalarında həmçinin buta motivli bəzək ünsürləri (gülabdan buta, çiçəkli buta, bala buta, badamı buta və b) üstünlük təşkil edir.

Bu gün Şirvan xalçaları dünyanın bir sıra məşhur muzeylərinin ekspozisiyalarını da bəzəməkdədir. İstanbulun Türk və İslam muzeyində saxlanılan “Şirvan” (XIII əsr), Berlin İncəsənət Muzeyinin Şərq bölgəsində saxlanılan “Şirvan” (XV əsr), Amerikanın Pensilvaniya muzeyində saxlanılan “Şamaxı” (XVII əsr) xalçaları deyilənələrə misal ola bilər.

Zarat-xeybəridə, Dəmirçidə, Məlhəmdə və digər kəndlərdə divar və yer hanasında xurcun, naxır torbası, çuval,

çuxa, örkən, şal, corab, fərməş, yəhərüstü və s. toxuculuğu daha geniş yayılmışdı.

Digər sənət sahələrindən dabbaqlıq, misgərlik, dulusçuluq, dərziçilik, zərgərlik, ağacişləmə, oyma sənəti, dəmirçilik (dəmirçi Alsəhab çox məşhur olub) və s. də Şamaxıda yüksək səviyyədə inkişaf etmişdi.

Şamaxı Cümə Məscidi – onüç əsrin ibadət yerii. Azərbaycan memarlığında VII əsrin ortalarından yeni dini bina tipi – məscid obrazı formalaşmağa başlamışdır. İslam dinin gəlməsi ilə bağlı Azərbaycan ərazisində inşa edilmiş ilk məscid örnəkləri, demək olar ki, qalmamışdır. Ancaq indi mövcud olan məscidlərimizin bir neçəsinin inşaat tarixini xalq rəvayətləri Azərbaycanda ərəblərin hakim olduğu illərə bağlayır. Belə məscidlərdən biri Şamaxı Cümə məsciddir.

Azərbaycanın ən qədim və ən iri məscidlərindən biri olan Şamaxı Cümə məscidinin əsası rəvayətə görə VIII əsrdə qoyulmuşdur. Əməvi xəlifəsi I Validin (705-715) qardaşı məşhur ərəb sərkərdəsi Məsləmə ibn Əbdül Malik Qafqazı və Dağıstanı işğal edərkən Şamaxını iqamətgah seçmişdir. Həmin illərdə ərəb əmirləri bu qədim və zəngin şəhərin qalasını təmir edib möhkəmləndirmiş, onun ərazisində yeni tikinti işləri aparmışlar. Bu işlərin ən sanballısı və tək şahidi olan Cümə məscidi iri ölçüləri, əzəmətli memarlığı ilə Şamaxının o zaman neçə nüfuzlu mahal məkrəzi olduğunu nümayiş etdirir.

Şamaxı Cümə məscidinin inşaat tarixi ilə bağlı xalq rəvayəti bir neçə ciddi fakt və təhlillərlə təsdiq olunur. 1902-ci ildə növbəti zəlzələdən sonra ağır dağıntıya uğramış bu qədim abidənin durumunu araşdırmaq üçün xüsusi dövlət komissiyası yaradılır. Həmin komissiyanın tərkibində Tiflisdən Şamaxıya gəlmiş Qacar şahzadəsi geoloq Şahqulu Qacar üstündəki ərəb kitabəsindən Cümə məscidinin əsasının müsəlman tarixi ilə 126-cı ildə (miladi 744) qoyulduğunu aydınlaşdırmışdır. Bu fakta əsaslanan görkəmli memarlıq tədqiqatçısı Ş.Fətullayev Şamaxı Cümə məscidinin Dərbənd Cümə məscidindən (734-cü il) sonra Zaqafqaziyanın ən qədim məscidi olması fikrini irəli sürmüşdür.

Plan quruluşu da Şamaxı Cümə məscidinin inşaat tarixinə müəyyən işıq salır. Məscidin əsas hissəsinin uzunluğu 46,5 metr, eni 17 metr olan uzunsov düzbucaq biçimli planı var.

Onun iri ibadət salonu kvadrat biçimli (13,2x13,2 metr) üç bərabər hissəyə bölünmüşdür. Bu bölümləri bir-birinə üç hündür sivri tağ birləşdirir. Hər bölümün ayrıca mehrabı və giriş qapısı var. Belə quruluşuna görə bəzi araşdırıcılar Şamaxı məscidini üç salonlu məscid də adlandırırlar.

Memarlıq tarixində üç mehrablı uzunsov ibadət salonu olan ilk məscid örnəyi xəlifə I Validin 708-ci ildə Dəməşq şəhərində tikdirdiyi və bütün islam dünyasında məşhur olan Böyük məsciddir. Bu məscidə Əməvilər məscidi də deyilir. Nəhəng Əməvilər imperiyasının siyasi, mədəni və dini mərkəzinə çevrilmiş Dəməşqin Cümə məscidi olan bu məbədin azman ibadət salonunda (uzunluğu 132 metr, eni 37 metrdən bir az çox) üç mehrab vardı və ona sonralar bir mehrab əlavə edilmişdir. Dəməşq Böyük məscidi sonrakı əsrlərdə yalnız Suriyada deyil, ondan xeyli kənarlarda da islam dini memarlığına dərin və uzun müddətli təsir göstərmişdir. Dərbənd və Şamaxı Cümə məscidləri bu təsirin Azərbaycan ərazisində də yayıldığını göstərir.

Başda Dəməşq Böyük məscidi olmaqla ərəb məscidlərinin ibadət salonları kilsələrdən fərqli olaraq dərininə deyil, daha çox eninə inkiaşf edirdi. Bunun başlıca səbəbi ərəblərin ibadətə cərgədə olduğu kimi sıraya düzülməsidir. Başqa yandan ilk ərəb islam məbədlərinin bəziləri bazilika tipli əski xristian kilsələrinin məscidlərə çevrilməsi yolu ilə yaradıldığından onların ibadət salonunun eni dərinliyindən

xeyli çox alınırdı və sonralar bu plan quruluşu ənənəyə çevrilib yeni məscid tikintisində tətbiq edilirdi. Bəllidir ki, kilsədə bazilikal ibadət salonunun uzununa yönü şimal-şərq istiqamətində oluduğundan onlar məscidə çevriləndə mehrab tağçaları Məkkənin yönünə uyğun cənub divarlarında quraşdırılırdı. Bu səbəbdən antik və Bizans memarlıq ənənələrinin çox güclü olduğu Dəməşqdə uzununa nefləri olan bazilika kompozisiyalı məscidlərin formalaşması təbiidir. Belə məscidlərdə namaz qılanların cərgə sıraları uzun olduğundan ibadət salonunda bir neçə mehrab qoyulmasına ehtiyac yaranırdı.

Geoloq Şahqulu Qacarın oxuduğu inşaat kitabəsi hələlik aşkar edilməmişdir. Ancaq tarixçi arxeoloq H.Ciddi Şamaxı Cümə məscidi ərazisində apardığı araşdırmalara əsasən bu abidənin əsasının VIII əsrdə qoyulduğunu təsdiq etmişdir. O, həmin ərazidə bir metr qalınlığı olan ən qədim mədəni qatın VIII-X əsrlərə aid olduğunu aşkar etmişdir. Şamaxının Cümə məscidi yanındakı məhəlləsinin XIX əsrin sonlarınacan "Ərəblər məhəlləsi" adlanmasını da həmin abidənin yaranmasının şəhərdə ərəblərin hakimiyyəti dövrünə bağlılığına şahidlik edən fakt saymaq olar.

1971-ci ilin yayında arxeoloqlar H.Ciddi və F.İbrahimov tərəfindən aparılan arxeoloji qazıntı işləri zamanı Cümə məscidinin həyətinə giriş baş tağının bünövrəsi aşkar edilmişdir. Böyük həyətin dərinliyində yerləşən Cümə

məscidinin yanında mədrəsə olmuşdur. Qeyd etmək lazımdır ki, orta əsrlər dövründə Azərbaycanda dini komplekslərin belə planlaşdırılma üsulu, yəni məscid və mədrəsənin bir kompleksdə birləşdirilməsi olduqca xarakterikdir. Bir zamanlar Şamaxının ticarət və ictimai mərkəzi də Cümə məscidi yaxınlığında yerləşmişdir.

Zəlzələlər və müharibələr zamanı böyük dağıntılara məruz qalmış Şamaxı Cümə məscidi dəfələrlə yenidən qurulmuş, ya da əsaslı təmir edilmişdir. Ona görə bu abidənin ilkin memarlıq həllində həcm-məkan quruluşundan danışmaq mümkünd deyil. Qədim məscid özünün yalnız plan quruluşunu bir sıra dəyişmələrlə saxlaya bilmişdir. Bir sıra tarixi qaynaqlara dayanaraq Şamaxı məscidinin bəzi özəlliklərini aydınlaşdırmaq olur.

Səlcuq dövrü tarixçisi İmadəddin İsfahaninin yazdığına görə gürcü basqınlarından qorunmaq məqsədi ilə Şirvanşah əmirləri 1123-cü ildən yardım üçün Səlcuq sultanı Mahmuda (1118-1131) müraciət etmişlər. Sultan Mahmud Şamaxıya çatan kimi Şirvanşah III Mənuçöhrü (1120-1160) həbs etdiyindən yerli əhali üsyan edib, tarixçinin dili ilə desək, “məscidi dağıdır və minarəni yıxırlar, şəhəri talan edir və onun divarlarını uçururlar”, Şübhə yoxdur ki, bu tarixi olayda Şamaxının baş dini binasından – Cümə məscidindən söhbət gedir. Tarixçinin bu məlumatından həmin məscidin təkminarəli olduğu bəlli olur.

Şirvanşah III Mənuçöhr hakimiyyətdə möhkəmləndikdən sonra dövləti gücləndirib ölkənin mühafizəsini və özgürlüyünü təmin etməklə yanaşı geniş tikinti işləri də aparmışdır. Mənuçöhr sarayının dahi şairi Əfsələddin Xaqani hökmdarın Şamaxı və Gülüstan qalalarını bərpa edib möhkəmləndirdiyini yazmış, şair Fələki Şirvani isə onun Kardman və Sədun adlı iki şəhər saldırdığı haqda məlumat vermişdi. Qalmış inşaat kitabələri III Mənuçöhr zamanı Bakıda qala divarlarının yenidən tikildiyini və Cümə məscidinin ucaldıldığını əyani göstərir.

III Mənuçöhrün 40 illik hakimiyyəti zamanı gürcülərin dağıtdığı Şamaxı şəhəri yenidən dirçəlir. Xaqani bu çağın Şamaxısını məşhur Səmərqənd şəhəri ilə müqayisə edib vurğulayır ki, “Şamaxı torpağının qüdrəti Buxaranın əzəmətini geridə qoydu”. Belə böyük işlərinə görə H.Ciddi tarixi qaynaqlar və tikinti kitabələrində III Mənuçöhrün “Böyük Xaqan” epiteti ilə təqdim edildiyini bildirmişdir. Paytaxtı Şamaxını dirçəldərkən III Mənuçöhr onun dağıdılmış Cümə məscidini də yenidən əsaslı şəkildə bərpa etmişdir. Bunu 1970-ci illərdə Cümə məscidinin həyətində aparılmış arxeoloji qazıntılar da aşkarladı.

Cümə məscidi həyətində aparılmış arxeoloji qazıntılar yarımçıq qalsa da, həyətin ölçü və biçimi haqqında dolğun təsəvvür yaradır. Məscidin baş fasadının yan divarlarının davamı kimi uzanan qalın daş divarlar həyəti yanlardan

qapayırmış. Qazıntı zamanı bu divarlarda aşkar edilən çıxıntılar onlarda məscid həyətləri üçün səciyyəvi olan sıratağlar quraşdırıldığını göstərir. Həyətin şəhərə yönələn şimal tərəfində məscidin baş fasadı ilə üz-üzə olan hissəsində isə hücrə otaqları və onların arasında simmetrik yerləşən iki minarənin alt bölümləri aşkar edilmişdir. Bu qazıntılar Şamaxı Cümə məscidinin həyətində mədrəsə hücrələrinin olduğunu və həyətə girişin möhtəşəm qoşa minarəli baştağ şəklində həll edildiyi haqda fikir irəli sürməyə imkan verir. Bu baştağ məscidin baş giriş qapısı ilə bir simmetriya oxunda yerləşirmiş.

Məscid həyətinin ortasında bu tip binalar üçün zəruri olan hovuz və su quyusu vardır. Təəssüf ki, həyətində və çevrəsində qazıntı işləri tam aparılmadığından Şamaxı Cümə məscidi kompleksinin ilkin quruluşunu dolğun aydınlaşdırmaq olmur. Ancaq indii əldə olan məlumatlar da Şamaxı Cümə məscidinin XII əsrdə Azərbaycanın dini memarlığının iri və mükəmməl əsərlərindən biri olduğunu söyləməyə əsas verir.

Bir orta əsr tarixçisinin yazdığına 1192-ci ildə "… yer titrəyişindən Şamaxının divarları və istehkamları lərzəyə gəldi və dağıldı, onda olan hər şey məhv oldu, eləcə də Şirvanşahın arvadı və uşaqları həlak oldu". Bu dəhşətli zəlzələdən, yəqin ki, Cümə məscidi də ciddi xəsarət almış, onun minarələri isə uçulmuş və bir daha bərpa edilməmişdir. Zəlzələlərdə həmişə məscidlərin vertikal minarələri ilkin dağıntıya məruz qalırdı.

Şamaxı Cümə məscidinin sonrakı tarixi haqqında əlimizdə dəqiq bilgilər yoxdur.

1656-cı ildə Şamaxıda olmuş türk alim-səyyahı Övliya Çələbi şəhərin dörd ən iri məscidinin adını sadalayır və onlardan biri olan Böyük məsciddə ibadət qılanların daha çox toplandığını vurğulayır. Övliya Çələbi həmin məscidin həyətində hovuz və şadrvan (dəstəmaz yeri), həyətin yanında isə mədrəsə olduğunu yazmışdır. Şəhərin ən iri məscidi Cümə məscidi olduğundan bəzən, Dəməşqdə olduğu kimi, Cümə məscidini Böyük məscid adlandırıblar. Övliya Çələbi Böyük məscid dedikdə, şübhə yoxdur ki, hər zaman Şamaxının ən böyük məscidi olmuş Cümə məscidindən bəhs etmişdir. Onun təsviri həmin məsciddə keçən əsrin 70-ci illərində aparılmış arxeoloji qazıntıların nəticələri ilə də uyğun gəlir. Övliya Çələbi öz əsərində Şamaxı Böyük məscidinin Səfəvilər zamanı tikildiyini də bildirmişdir. Burada söhbət həmin məscidin dəfələrlə uçulub yenidən qurulmasından gedə bilər. Şamaxı Cümə məscidinin XIX əsrdən qalmış tək rəsmi də onun Səfəvilər dövründə əsaslı şəkildə dəyişikliyə uğradığını göstərir.

Azərbaycanın müxtəlif şəhərlərində olmuş və çoxlu abidələrimizin rəsmini çəkmiş rus rəssamı Q.Qaqarin 1847-ci ildə Şamaxı Cümə məscidini də təsvir etmişdir. Həmin rəsmdə dağılıb yenidən tikilmiş və klassik kamilliyini xeyli itirmiş bir dini binanın ön fasadı əks olunmuşdur. Rəsmdə məscidin üç

salonlu iç quruluşunun fasada da çıxarıldığı aydın görünür. Mərkəzi salonun divarı yan salonlarından bir qədər hündürdür. Həm də orta salon yüksək sivriliyi olan iri tək günbəzlə örtülüdür. Yan salonlardan birinin damında dörd, o birinin damında isə bir kiçik günbəz vardır. Konstruktiv sistemi belə aydın əks etdirən rəsmdən mərkəzi salonun sütunsuz, yan salonların isə sütunlu (yəqin ki, hər birində dörd sütun) olduğu bəlli olur. Mərkəzi günbəzin sivriliyinin çoxluğu onun Səfəvilər dövründə ucaldığını söyləməyə imkan verir. Bu rəsmə əsasən Şamaxı Cümə məscidinin uzunsov iri ibadət salonunun ilk çağda Dərbənd Cümə məscidi kimi üçnefli olduğunu və sonrakı əsrlərdə yenidənqurma nəticəsində dəyişildiyini güman etmək olar. Q.Qaqarin öz rəsmi ilə orta əsr Şirvan memarlığının bizə bəlli ən iri diametrli (13,20 metr) günbəzinin görünüşünü çatdırmışdır.

Rəssam Q.Qaqarinin çəkdiyi rəsmin memarlıq tarixi baxımından önəmi bir də orasındadır ki, həmin rəsm çəkildikdən bir neçə il sonra – 1859-cu ildə Şamaxı Cümə məscidi güclü zəlzələdən dağılmış və öz xarici görünüşünü tamamilə dəyişmişdir. Ş.Fətullayevin fikrincə bu zəlzələdən sonra Şamaxı Cümə məscidinin əsaslı şəkildə yenidən qurulmasına o zaman quberniya və şəhər memarı olan Q.Hacıbabayev (1811-1874) rəhbərlik etmişdir.

1902-ci il zəlzələsi Şamaxı Cümə məscidinin yenidən uçulmasına səbəb oldu. Bu haqda “Kaspi” qazetində

yazılmışdı: “Hətta məscidin uçuqları da özünə hörmət təlqin edir, yıxılan divarlar, başqa tikililər kimi dağılıb səpələnməmişdi, onlar yalnız yıxılmışdı və elə bil bütöv bir daşdan ibarət idi”. Bu məlumat Cümə məscidinin qədim divarlarının necə dayanıqlı və keyfiyyətli tikilməsini göstərir. Zəlzələdən sonra çəkilmiş bir fotodan görünür ki, XIX əsrin sonlarında Şamaxı Cümə məscidinin günbəzləri dəmirlə örtülmüşdü və mərkəzi günbəzin təpəsində minarəni əvəz edən azan köşkü quraşdırılmışdı. Dəhşətli zəlzələdən sonra qədim məscid özülünəcən sökülür və bu özüllərin üstündə yeni məscidin tikintisinə başlanılır. Bu məscidlə yaradılmış komitə məscidin bərpasını şamaxılı memar Zivər bəy Əhmədbəyova tapşırır. Onun layihəsi üzrə tikinti işləri başlayır, ancaq müəyən tikinti işlər aparıldıqdan sonra Zivər bəylə komitə arasında anlaşılmazlıq yaranır və o, tikintini tərk edir. Bundan sonra komitə Cümə məscidinin bərpa layihəsini hazırlamaq məqsədi ilə mülki memar İ.K.Ploşkonu dəvət edir.

Memar İ.Ploşko mövcud qədim planı və yarımçıq tikintini nəzərə almaqla hazırladığı yeni məscid binasının layihəsini 1909-cu ildə komitəyə təqdim edir. Yüksək peşəkarlığı ilə seçilən bu layihədə ilkin nəzərə çarpan xüsusiyyət məscidin qədim ibadət salonunun önünə bütün baş fasad boyu uzanan eyvanın əlavə edilməsidir. Q.Qaqarinin rəsminə əsaslanıb inamla demək olar ki, qədim Şamaxı məscidinin həcmi yalnız iri üçhissəli ibadət salonundan ibarət

imiş və İ.Ploşko indiki açıq eyvanı böyük ustalıqla ona əlavə etmişdir. Təqdim olunan layihənin gözəçarpan bir yeniliyi də məscidin baş fasadının künclərində uca minarələrin təklif edilməsidir.

İ.Ploşko Şamaxı Cümə məscidi üçün müsəlman şərqində çox geniş yayılmış qoşa minarəli mərkəzi günbəzli simmetrik kompozisiyanın çox təntənəli və maraqlı bir variantını işləmişdir. Baş fasadın künclərinin minarələrlə qapanması və qoşa minarəli məscid obrazının yaranması prosesi islam ölkələri memarlığında ilk kərə Təbriz memarlıq məktəbində getmiş və XV əsrdə Təbriz Göy məscidi kimi bir sənət incisində tam zirvəyə çatmışdır. Sonrakı yüzillərdə bu mükəmməl məscid kompozisiyası qonşu müsəlman ölkələrinə yayılmış, hətta Hindistan-Moğol memarlığının monumental məscid tipinin formalaşmasında əsas olmuşdur.

İ.Ploşko çox düzgün olaraq Şamaxı Cümə məscidinin uzun baş fasadının yanlarına minarələr qoymaqla onun yayğın həcmini xüsusi dinamika və məzmunla zənginləşdirmək istəmişdir. Şamaxı Cümə məscidinin ibadət salonunun yan qanadlarında olan sütunları ləğv etməklə İ.Ploşko daha bütöv və daha monumental iç məkan yaratmışdır. Eyni ölçülü kvadrat planlı üç salonun günbəzlə örtülməsində də memar həcmlərin bədii-plastik ifadəliliyini əsas götürmüşdür. Günbəz örtüyü Şirvan zonası üçün ənənəvi daş materiallarından deyil, Varşavada düzəldilmiş metal karkasdan yığılmışdır. Memar

yan günbəzlər üçün yastı profil seçdiyi halda, mərkəzi günbəzin profilini çox sivri götürmüşdür. Kompozisiya önəmini gücləndirmək üçün müəllif mərkəzi günbəzə qabırğalı biçim vermiş və onu çox pəncərəli hündür baraban üzərinə qaldırmışdır. Q.Qaqarinin rəsmində olduğu kimi mərkəzi hissənin divarları bir qədər yuxarı qaldırılmış və bu divarların uclarında – mərkəzi günbəzin ətrafında dörd dekorativ minarə nəzərdə tutulmuşdur. Bununla da məscidin məkərzi bölümünün kompozisiya önəmi xeyli gücləndirilmişdir.

Layihədə şüşəbəndli uzun eyvan sivri sıratağ şəklində həll edilmiş, mərkəzi giriş bu eyvanın ortasında kiçik günbəzli portik kimi verilmişdir. Məscidin kürsülüyü hündür olduğundan mərkəzi və yan qapılara təntənəli pilləkənlər qalxmalı idi. Memar fasad divarlarının üstünü hərbi və saray memarlığında daha çox işlədilən dekorativ diş sıraları ilə tamamlamışdır. Baş fasada şəbəkələr, oyma daş bəzəklər və dekorativ sütunlar da nəzərdə tutulmuşdur. Bütün bunları peşəkarlıqla vahid bir ahəngdə birləşdirə bilən İ.Ploşko öz dövrünün mükəmməl bir məscid kompozisiyasını yaratmışdır. Onun layihəsində yerli – Şirvan memarlığı ənənələri ümumi "İslam memarlığı" motivləri ilə birləşərək ifadəli məbəd obrazına çevrilmişdir. Bu obrazın formalaşmasında müəllifin mənsub olduğu qərb memarlıq fəndləri də iştirak edirdi.

Məscidin tikintisinin iş icraçısı C.Sadıqbəyov idi. Ancaq maliyyə çətinliyindən layihədə nəzərdə tutulan bir sıra mühüm

elementləri – mərkəzi günbəz, yan minarələr, kürsülük, aynabənd, giriş portiki, təntənəli pilləkənlər və s. inşa edilmədi. Eyvanın sivri tağları düzbucaqlı aşırımlarla əvəz edildi.

Bütövlükdə tikintisi tam başa çatdırılmayan Cümə məscidi 1918-ci ildə erməni vəhşiliyi ilə yenidən təxribata uğradı. Bu məsciddə indiyədək dinc Şamaxı əhalisinə qarşı qırğın törətmiş erməni silahlılarının atdığı güllələrin izi qalır. Allah evinə sığınmış insanları məhv etmək məramı ilə 1918-ci ildə erməni daşnakları tərəfindən yandırılmış bu məscid xalqımıza qarşı soyqırımın, erməni terrorunun qurbanı olmuşdur. Amma məscidi dağıda bilməmişlər.

Silahsız Şamaxı əhalisi amansız erməni qırğınlarından xilas olmaq məqsədi ilə bu məscidə sığınır. Qudurmuş erməni silahlıları bu müqəddəs Allah evinə od vuraraq dinc əhalini diri-diri yandırdı. Namərd düşmənin bu ağlagəlməz vəhşiliyindən təkcə qocalar, qadınlar, uşaqlar deyil, məscidin zəlzələlərdən çıxıb salamat qalmış qədim kitabələri və divar bəzəkləri də məhv edildi. İbadət salonunun qaralmış daşları bu gün həmin hadisənin dəhşətinə şahidlik edir, erməni vəhşiliyini tarixi bir sənəd kimi sərgiləyir.

Şamaxı Cümə məscidi tariximizdə önəmli yerə malik, əsrlərin yadigarı olan ibadət məkanıdır. Bu məscid Azərbaycan dövlətçiliyinin şanlı dövrləri ilə yanaşı, ağır məqamlarına da şahidlik etmişdir. Bu gün bu məscidin yenilənmiş daha da əzəmətli binası bizim milli şüur və ənənələrimizin dirçəlişi,

iqtisadi və mənəvi qələbəmizin rəmzlərindən birinə çevrilir. Bu məscid 1270 ildən sonra artıq yenidən fəaliyyətə başlayır. Bu, doğrudan da böyük tarixi hadisədir.

Heydər Əliyev Fondunun "Tolerantlığın ünvanı: Azərbaycan" layihəsi çərçivəsində Şamaxı Cümə məscidində aparılan əsaslı bərpa və yenidənqurma işlərini dövlətimizin başçısı daim diqqətdə saxlamışdır. Prezident İlham Əliyev 2009-cu ilin noyabrında Şamaxıya səfəri çərçivəsində Cümə məscidində olmuş, böyük tarixi dəyəri və xalqımızın mənəvi dünyasında xüsusi yeri olan bu abidənin bərpasına qərar vermişdir. Bununla əlaqədar Azərbaycan Prezidentinin 2009-cu ilin dekabrında və 2013-cü ilin fevralında imzaladığı sərəncamlarla müvafiq maliyyə vəsaiti ayrılmışdır. Bundan sonra məsciddə əsaslı bərpa və yenidənqurma işlərinə başlanmış, Azərbaycan tarixinin mühüm mərhələsini təşkil edən Şirvanşahlar paytaxtının şanlı memarlıq nümunəsinin yenidən xalqımızın mənəvi dünyasına qaytarılması istiqamətində yüksək təəssübkeşlik missiyası həyata keçirilmişdir. Dövlətimizin başçısı və xanımı Mehriban Əliyeva dəfələrlə məscidə gəlmiş, burada həyata keçirilən bərpa və yenidənqurma işləri ilə yerindəcə tanış olmuşlar. Prezident İlham Əliyev işlərin yüksək keyfiyyətlə aparılmasına dair tapşırıq və tövsiyələrini vermişdir. Beləliklə, dövlətimizin başçısı milli mənəvi dəyərlərimizin qorunmasına, dini memarlıq abidələrinin bərpasına böyük diqqət göstərən Heydər

Əliyev Fondunun təşəbbüsünə dəstək olmuş, Azərbaycan-Şərq memarlığının incisi olan bu abidəyə ikinci həyat bəxş etmiş, xalqımızın əsrlərlə formalaşan zəngin irsinin və mədəniyyətinin qorunmasına, gələcək nəsillərə ötürülməsinə töhfə vermişdir.

Təməli 1268 il öncə atılmış Şamaxı Cümə məscidi indi də Qafqazın ən iri məscidlərindən biridir. Son illərin arxeoloji araşdırmaları Ağsuda və Ağsunun qədim şəhər yerində plan quruluşuna görə Şamaxı Cümə məscidi ilə bir tipli olan XVI və XVII yüzillərə ai diki məscidin qalıntılarını aşkar etmişdir. Bu tapıntılar çoxmehrablı məscidlərin Şirvan bölgəsində gələnəksəl olduğunu üzə çıxarmışdır.

Cümə məscidi konservasiyadan əvvəl

Cümə məscidi konservasiyadan sonra



Prezident İlham Əliyev Cümə məscidinin konservasiyasından sonra açılış mərasimində

1918-ci ildə Şamaxı qəzasında həyata keçirilən soyqırım. 1918-ci ildə bütün ölkə hüdudlarında həyata keçirilən cinayətkar əməllər arasında öz miqyasına, qurbanların sayına və vurduğu maddi-mənəvi ziyanın ölçüsünə görə Şamaxı qırğınları ayrıca yer tutur. İndiki Şamaxı, Ağsu, İsmayıllı, Qobustan və Hacıqabul rayonlarının ərazilərini əhatə edən Şamaxı qəzasında 1917-ci ilin əvvəlləri üçün, Şamaxı şəhəri də daxil olmaqla 161 552 nəfər əhali yaşayırdı ki, onların da 72,8 %-ni müsəlmanlar, 13,8 %-ni ermənilər, 12 %-ni ruslar (o cümlədən, sektantlar-molokanlar), qalan əhalini isə dağ xalqları nümayəndələri və yəhudilər təşkil edirdilər. Şamaxı şəhərinin özünün 27752 nəfər əhalisinin 21127 nəfəri – müsəlman, 4534 – erməni, 1737 – rus, 214- Qafqaz dağlıları, 136 nəfəri isə yəhudilərdən ibarət idi. Əhalinin bu etnik-dini nisbəti tam mənası ilə müsəlman əhalisinin xeyrinə olsa da, qəzanın və şəhərin inzibati-idarəçilik sistemində rusların, eləcə də bütün idarə strukturlarında geniş təmsil olunan və mühüm mövqeləri tutan ermənilərin mövqeyi daha yüksək idi.

Qədim Azərbaycan şəhəri Şamaxı 1918-ci ilin martında erməni-daşnak qüvvələrinin dəhşətli talan və vəhşiliklərinə məruz qalmışdır. Fövqəladə Təhqiqat Komissiyanın üzvləri tərəfindən Şamaxı şəhəri və Şamaxı qəzası üzrə ermənilərin törətdikləri vəhşiliklər haqqında 7 cild, 925 vərəqdən ibarət təhqiqat materialları toplanmışdı.

Fövqəladə Təhqiqat Komissiyanın sədri Ə.Xasməmmədovun Ədliyyə nazirinə təqdim etdiyi məruzədə deyilirdi ki, Şamaxı şəhəri iki hissədən, yuxarı və ya erməni hissəsi, aşağı və ya müsəlman hissəsindən ibarətdir. Birincidə əsasən ermənilər və molokanlar, müəyyən qədər də müsəlmanlar, ikincidə isə ancaq müsəlmanlar yaşayırdılar. Şamaxı qəzasında əhalinin əksəriyyəti müsəlmanlardan ibarət idi. Erməni və molokanlar qəzanın 6 kənddində yaşayırdılar. Keçmiş müsəlmanlar erməni və molokanlarla sülh şəraitində yaşamış, onlara heç bir ziyan vurmamış, daim mehriban qonşuluq əlaqələri saxlamağa çalışmışlar. Hətta 1905-ci ildə Cənubi Qafqazın bir çox şəhər və kəndlərində erməni-müsəlman qırğındarı baş verən dövrdə Şamaxı şəhəri və Şamaxı qəzasında müsəlmanlar ermənilər üzərində zorakılıq etməmiş, onlara qarşı düşmənçilik hərəkətləri törətməmişdilər.

1918-ci il martın 18-də (köhnə stillə–A.İ.) şəhərin müsəlmanlar yaşayan hissəsinə soxulan ermənilər qışqırırdılar: “Biz bu günü on iki ildir ki, gözləmişik. Bu Nikolayın sizə kömək etdiyi 1905-ci il deyil. İndii sizə heç kim kömək etməyəcək. Köməyə siz özünüzün müqəddəs Həzrət Abbasınızı çağırın. Şamaxılı həkim Sazanov 1918-ci il martın 19-u gecəsi Şamaxıda ermənilər müsəlmanlar üzərində rəhmsiz zorakılıqlar işlətməkdə günahlandırdıqda o, ermənilərdən belə bir cavab almışdır: “Müsəlmanlara heç bir rəhm etmək yoxdur, onların hamısı məhv edilməlidir” .

Şamaxıda azərbaycanlılara qarşı ermənilərin düşmənçilik hərəkətləri hələ birinci dünya müharibəsi başlandığı vaxtlardan özünü büruzə verməyə başlamışdır. Azərbaycanlılara qarşı onlar özlərini çox təkkəbbürlü aparır, onların milli və dini heysiyyətlərini açıqca təhqir edirdilər.

1917-ci ilin fevralında Rusiyada baş verən burjua inqilabından sonra ermənilər daha cəsarətlə hərəkət etməyə başladılar. Şamaxıda çar hakimiyyət orqanlarının ləğvindən sonra ermənilər gizli surətdə silah anbarını ələ keçirib bu haqda qəza komissiarına və yerli müsəlman Milli Şurasına məlumat vermədilər. Onlar ermənilərdən və molokanlardan ibarət hərbi qarnizon təşkil edərək oraya müsəlmanları buraxmırdılar. Azərbaycanlılar qarnizona girməyə nail olduqda isə erməni əsgərləri onlara qarşı düşmənçilik edir, onları təhqir edir və incidirdilər. Ermənilər öz kəndlərinə müxtəlif yollarla silah və sürsat gətirib, sürətlə silahlanırdılar. Silahı əsasən cəbhədən qayıdan əsgərlər gətirirdilər. Onların hərəsi özü ilə bəzən üç tüfəng gətirirdi. Ermənilərin bu hərəkətləri azərbaycanlıları bərk vahiməyə saldı. Həm Şamaxı şəhərində, həm də qəzanın kəndlərində azərbaycanlılar görürdülər ki, ermənilər onlara qarşı sürətlə silahlanırlar. Müsəlmanlar bütün qüvvəllərini sərf edirdilər ki, ermənilərlə dil tapsınlar və yaxınlaşmaqda olan qırğının qarşısını alsınlar. Ermənilər üzdə özlərini elə göstərirdilər ki, güya müsəlmanlara qarşı heç bir düşmənçilik hissləri bəsləmirlər.

Şamaxı şəhərindən 6 verst aralı Mədrəsə kəndində Cənubi Qafqazın digər qəzalarından gələn erməni əsgərləri toplaşmağa başladılar. Martın birinci yarısında məlumat alındı ki, Bakıdan Şamaxıya böyük miqdarda hərbi sursat, top və pulemyotlarla silahlanmış üç minədək erməni qoşun dəstəsi gəlir. Şamaxıdan dəstənin qabağına müsəlman və ermənilərdən ibarət nümayəndə heyəti göndərildi. Nümayəndə heyətinin dəstə ilə görüşü molokan kəndi Qozlu-Çayda (Xilimli) baş verdi. Dəstəyə silahları Şamaxı qarnizonuna təhvil vermək təklif olundu. Onlar bundan qəti imtina edərək bildirdilər ki, məqsədləri Şamaxı qəzasını quldur dəstələrindən təmizləmək, qəzada anarxiyaya son qoyub normal həyatı bərpa etməkdən ibarətdir. Dəstənin rəhbərləri Şamaxı şəhərindən yan keçərək Mədrəsə kəndinə gedəcəklərinə söz verdilər. Martın 15-də dəstə Şamaxı şəhərinin yanından keçərkən öz evlərini qoruyan müsəlmanlar dəstəsinə atəş açdılar. Tezliklə bütün şəhəri atışma bürüdü. Bu atışma nəticəsində hər iki tərəfdən ölən və yaralananlar oldu. Lakin axşama yaxın şəhərdə tam sakitlik yarandı. Elə həmin gün erməni yepiskopunun təşəbbüsü ilə Şamaxının bütün kəndlərinin ruhani nümayəndələri bir yerə yığışaraq and içdilər ki, sülh şəratində yaşayacaq və qayda-qanunu pozmayacaqlar.

Kürdəmir kəndinin sakinləri erməni rəhbərlərinə müsəlmanlarla sülh şəraitində yaşamağı təklif etdikdə və erməni yepiskopunun verdiyi andı xatırlatdıqda ermənilərdən

bu cür cavab alırlar: “Müsəlman ruhaniləri erməni ruhaniləri ilə barışa bilər, lakin erməni xalqı müsəlmanlarla müharibə istəyir və bu işdə İngiltərə onları müdafiə edəcəkdir” .

1918-ci il martın 18-də sübh çağı Şamaxı şəhərinin azərbaycanlı sakinləri top atəşlərinin səsinə oyandılar və şəhərin cənubdan ermənilər, şimal-şərqdən isə molokanlar tərəfindən mühasirəyə alındığını gördülər. Şəhərin azərbaycanlılardan ibarət aşağı hissəsi top və pulemyot atəşlərinə tutulur, şəhərin yuxarı hissəsində yaşayan ermənilər isə azərbaycanlılar yaşayan məhəllələri tüfənglərdən atəşə tutdular. Bu hücum müsəlmanlar üçün tam gözlənilməz oldu. Çünki bir gün əvvəl erməni yepiskopu Baqrat və molokanların nümayəndəsi Karabanov Xaç və İncil qarşısında azərbaycanlılarla sülh və qardaşlıq şəraitində yaşayacaqlarına və heç vaxt onlara qarşı silahlı çıxış etməyəcəklərinə and içmişdilər.

Əvvəlcədən döyüşə hazırlıq görməyən azərbaycanlılar müdafiə olunmağa təşəbbüs göstərsələr də, top və pulemyot atəşləri altında dayana bilməyib geri çəkilməyə məcbur oldular. Ermənilər və molokanlar bir neçə saatdan sonra şəhərin azərbaycanlılar yaşayan və erməni hissəsi ilə sərhəd olan “Piran-Şirvan” məhəlləsinə soxula bildilər. Onların hər bir hərəkəti azərbaycanlıların evlərinin talan edilməsi, yandırılması və mülki əhalinin qəddarlıqla qətlə yetirilməsi ilə müşayiət olunurdu. Şəhərin ən abad, varlı və tanınmış müsəlmanlarına

məxsus evlərinə od vurulurdu. Ermənilərin qarət etdiyi və yandırdığı evlər arasında Şıxəliyevlərin, Həsənovların, Cəbrayılovların, qəza müftisinin, Hüseynbəyovun, Əlimirzəyevin, Əfəndiyevin, Babayevlərin, Məhərrəmovların, Veysovların, Böyük bəy Hüseynovun, Hacı Vahab Ələkbərovun və başqalarının mülkləri var idi.

Ermənilər və malakanlar yandırılmış evlərdən çıxıb qaçan kişi, qadın və uşaqları güllələyirdilər. Ermənilər evlərə soxulur, onların sakinlərini qətl və qarət edir, sonra isə yandırırdılar. Axşama yaxın müsəlmanlar ermənilərin yanına nümayəndələr göndərib sülh xahiş etdilər. Lakin ermənilər atəşi dayandırmadılar. Yanğınlar bütün məhəllələrə yayıldı və səhərisi şəhərin ən zəngin evlərinin yalnız xarabalıqları qaldı. Yandırılmış evlərdən canını qurtarmaq isətəyən sakinlərə – kişi, qadın və uşaqlara heç bir fərq qoymayan ermənilər onları ən amansız üsullarla qətlə yetirirdilər. Şəhərin küçələrində meyitlərdən qalaqlar yarandı. Ermənilər azərbaycanlı əhalinin qətlini eşidilməmiş və ağılasığmaz qəddarlıq və işgəncə ilə həyata keçirirdilər. Küçələrdə əzab verilərək öldürülmüş qadınların meyitləri atılıb qalmışdı. Onların döşləri kəsilmiş, qarınları yırtılmış və ən çirkin üsullarla işgəncələrə məruz qalmışdı. Küçələrdə diri-diri pazlara mıxlanmış uşaq meyitləri də atılıb qalmışdı. Azərbaycanlıların evlərindən qarət və talan edilmiş əmlakları araba və furqonlarla erməni və molokan

kəndlərinə daşınırdı. Ermənilərin Şamaxı şəhərindəki bu vəhşilikləri bir neçə gün davam etdi .

Yalnız Gəncədən azərbaycanlı silahlı dəstələrinin Şamaxı şəhərinə köməyə gəlməsini eşidən ermənilər və malakanlar Şamaxı qəzasının Qozlu-çay malakan kəndinə çəkildilər. Azərbaycanlı silahlı dəstələri ermənilərin və malakanların qüvvəlləri ilə müqayisədə azlıq təşkil edirdilər. Ona görə də dörd gündən sonra azərbaycanlı silahlı dəstələri Şamaxını tərk etməyə məcbur oldular. Şamaxının şəhər əhalisi azərbaycanlı silahlı dəstələrinin köməyi ilə şəhəri tərk etdi. Ancaq çox tələsik olduğu üçün onlar hətta vacib əşyalarını belə götürə bilmədilər. Çoxlu şəhər sakini xüsusilə, yoxsullar, xəstələr, qocalar, qarılar və uşaqlar şəhərdə qaldılar. Gəncədən gələn silahlı dəstələr Şamaxını tərk etdikdən iki gün sonra erməni və malakan quldur dəstələri ikinci dəfə Şamaxıya daxil oldular. Bu dəfə şəhərin talan edilməsi və əhaliyə divan tutulması daha qəddarlıqla həyata keçirilirdi. Şəhərin bütün azərbaycanlı hissəsinə od vurulmuşdu. Şəhərdəki bütün məscidləri (on iki məhəllə məscidin və 800 illik tarixi olan böyük memarlıq abidəsi “Cümə məscidi”), onların nəzdindəki müqəddəs yerlər yandırıldı. Bir sözlə, şəhərin azərbaycanlılar yaşayan bütün məhəllələri tamamilə xarabazarlığa çevrilmiş, bir dənə də olsun azərbaycanlı evi salamat qalmamışdır.

Ermənilərin Şamaxı şəhərinə birinci və ikinci hücumları zamanı qətlə yetirilmiş azərbaycanlılar arasında təkcə

Şamaxıda deyil, bütün Azərbaycanda tanınmış nüfuzlu şəxslər və ictimai xadimlər də var idi. Ermiənilər axund Hacı Cəfərqulunu xüsusi qəddarlıqla öldürmüşdülər. Ermənilər əvvəlcə onun saqqalını yolmuş, dişlərini sındırmış, gözlərini çıxarmış, qulaqlarını və burnunu kəsmişdilər. Ermənilərin qəddarlıqla qətlə yetirdiyi nüfuzlu azərbaycanlılar arasında şəhər hakimi Teymur bəy Xudaverdov, Rusiyanın birinci dövlət Dumasına Şamaxıdan deputat seçilmiş Məhəmməd Əliyev, Hacıbaba Abbasov, Əşrəf Hacıyev, Hacı Əbdül Xəlil Əhmədov, Hacı Əbdül Hüseyn Zeynalov üç qardaşı ilə, Hacı İsrafil Məmmədov, Mir İbrahim Seidov, Hacı İbrahim Salamov, Ağa Əhməd Əhmədov, Hacı Əbdül-Qasım Qasımov, Əyyubağa Veysov, Zeynəb xanım Veysova, Əliabbas bəy İbrahimbəyov, Ələkbər Qədirbəyov, Əbdürəhim ağa Ağalarov, Məhiyyədin Əfəndizadə, Zəkəriyyə Əfəndi Mehdi Xəlil oğlu, Ziyəddin Abdullayev, Hacı Molla Həsən Zeynalov və onun arvadı, Mahmud Hacıağa oğlu, onun arvadı və oğlu və bir çox başqaları da var idi .

Ermənilər Hacı axund Cəfərqulunun evinə və həyətinə pənah gətirmiş çoxlu qadın və uşaqları da öldürmüş və ya diri-diri yandırmışdılar. Fövqəladə Təhqiqat Komissiyasının üzvləri Hacı Axundun tamamilə yandırılmış evinin həyətində çoxlu xırda insan sümükləri aşkar etdilər. Türk ordusu 1918-ci ilin yayında ermənileri Şamaxıdan qovarkən meyitlərin çürüməmiş iri sümüklərini yığıb bastırmışdılar. 1918-ci ilin oktyabr-

noyabrında komissiya üzvlərinin hazırladığı məruzədə qeyd olunurdu ki, Şamaxıda Cümə məscidinin həyətində hələ də çürümüş meyitlərin qalıqları qalmaqdadır. Habelə yandırılmış digər evlərin və məscidlərin həyətlərində çoxlu yanmış insan sümükləri də aşkar edilmişdir.

Komissiyanın sənədində qeyd olunur ki, bir neçə məscidin, evin və mağazanın xarabazarlıqlarını, habelə insan cəsədlərini təsvir edən 45 ədəd foto şəkil çəkilmişdir. Erməni hərəkatının rəhbərlərindən biri Bakıda öz tanışları qarşısında lovğalanaraq demişdir ki, Şamaxı hadisələri zamanı bu şəhərdə 10 nəfər müsəlman qızını əvvəlcə zorlamış, sonra isə onları öz şəxsi tapançası ilə güllələmişdir. Şamaxı şəhərinə hücum, onun dağıdılması, dinc azərbaycanlı əhaliyə – qadına, qocaya, uşağa qəddarcasına divan tutulması yalnız ermənilərin azərbaycanlılara qarşı milli intiqam və milli düşmənçilik hissindən irəli gəlirdi.

Şamaxı üzərinə hər iki hücum Daşnaksütyun partiyası tərəfindən əvvəlcədən hazırlanmış plan üzrə həyata keçirilmişdi. Bu əməliyyatlara Stepan Lalayev, Qavril Karaoğlanov, Arşak Gülbəndiyan, Mixail Arzumanov, Karapet Karamanov, Sedrak Vlasov, Samvel Doliev, Petrosyants, ata və oğul İvanovlar, dəllək Avanesov, şuşalı Aqamalov və b. rəhbərlik edirdilər. Yüzlərlə şahid və zərərçəkən ifadə verərkən bu qatillərin adlarını çəkmiş, onların qətl və qarətdə bilavasitə iştirak etdiklərini təsdiq etmişlər. Şahidlər yerli ermənilərdən

keçmiş qəza rəisinin müavini Qavril Karaoğlanovun, Şamaxı erməni kilsəsinin hami-ktikoru Mixail Arzumanovun, məşhur tacir E.İvanyantsın, dəllək Samvel Doliyevin və başqaları ilə bu hadisələrin iştirakçısı və icraçısı olduqlarına şəhadət vermişlər.

Toplanmış çoxlu əşyayi dəlillər, zərərçəkənlərin və şahidlərin ifadələri əsasında Fövqəladə Təhqiqat Komissiyasının üzvü A.Novatski komissiyanın sədrinə təqdim etdiyi məruzədə dinc azərbaycanlı əhaliyə qarşı cinayətlər törətmiş həmin şəxslərə qarşı cinayət işinin qaldırılmasını təklif edirdi.

1919-cu il iyulun 12-də Azərbaycan hökuməti yanında Fövqəladə Təhqiqat Komissiyasının növbəti iclasında Şamaxı şəhərinin dağıdılması və bu şəhərin azərbaycanlı əhalisi üzərində zorakılıq halları barədəki təhqiqat işi haqqında komissiyanın üzvü A.Novatskinin məruzəsini dinlədi. Məruzədə şahidlərin və zərərçəkənlərin ifadələri, törədilmiş cinayətlərin təhqiqi, yandırılıb dağıdılmış yerlərə baxış və s. əsasında Şamaxı şəhərində törədilən cinayətlərdə əslən Şamaxıdan olub Bakı şəhərində yaşayan Stepan Lalayevin, Şamaxı şəhərinin sakinləri Qavril Karaoğlanovun, Arşak Gülbəndiyanın, Mixail Arzumanovun, Karapet Karamanovun, Armenak Martirosyantsın, Aleksandr Xaçaturovun, Mixail Xaçaturovun və başqalarının, cəmi 31 nəfərin Şamaxı qırğınlarının başlıca caniləri olduqları göstərilirdi.

Komissiyanın bu məsələ ilə bağlı qəbul etdiyi qararda deyilirdi ki, bu cəlladlar Azərbaycan xalqına qarşı ədavət əsasında milli və dini zəmində əvvəlcədən öz aralarında razılaşaraq, bir neçə min nəfər erməni qüvvələrini öz ətraflarında birləşdirərək top, pulemyot, tüfəng, tapança və xəncərlə silahlanaraq Şamaxı şəhərində olan azərbaycanlı əhalini qırmaq, əmlaklarını qarət və məhv etmək məqsədi qoymuşdular.

Bu qətllər xüsusi qəddarlıqla həyata keçirilmişdir. Belə ki, qətlə yetirilənlərin qolları, qıçları, burunları, qulaqları kəsilmiş, gözləri çıxarılmış, qarınları yırtılmış, yandırılmış, və böyük işgəncələrlə öldürülmüşlər. Ermənilər təkcə Şamaxı şəhərində azərbaycanlılara məxsus o dövrün qiymətləri ilə 1 milyard manatlıqdan yuxarı dəyəri olan əmlakı qarət etmiş, şəhərin azərbaycanlılara məxsus bütün evlərini yandıraraq məhv etmişlər. Şəhərdə 13 məscid, o cümlədən böyük tarixi abidə olan “Cümə məscidi yandırılmışdır. Fövqəladə Təhqiqat Komissiyası bu qırğınların başlıca təşkilatçıları haqqında cinayət işi qaldırmaq, onları məsuliyyətə cəlb etmək və istintaq işinə başlamaq haqqında qərar qəbul etdi. Şamaxı şəhəri kimi Şamaxı qəzasının da 86 azərbaycanlılar yaşayan kəndi ermənilər tərəfindən yandıralaraq məhv edilmişdi.

Erməni silahlı birləşmələri martın 18-də sübh çağı Şamaxı şəhəri ilə yanaşı, onun 3-4 verstliyində yerləşən Əngəxaran kəndində də qəfil hücum etdilər. Müdafiəsiz kəndə soxulan ermənilərin törətdikləri vəhşiliklərlə əlaqədar təhqiqat

materiallarında həmkəndlilərinin və şahidlərin ifadələrinə görə tərtib edilmiş siyahılarda bu ermənilərin işgəncələrlə qətlə yetirdiyi 237 nəfərin adı vardır. Əngəxarana soxulan ermənilər və molokanlar kəndi mühasirəyə alaraq oradakı əhalini qırır, kəndi qarət edir, yandırır və sağ qalan əhalini isə əsir alırdı. Ermənilər əsir alınmış Əngəxaran sakinlərinin uşaqlarını azərbaycanlı kəndi olan Məlhəmə aparıb orada saxlayırdılar. Ermənilər 88 kişini isə molokan kəndi Çuxuryurda apardılar. Ermənilər kəndə çatmamış əsirləri bağda saxlayaraq bir neçə nəfərini güllələdilər. Qalan 76 nəfəri isə əsir kimi Mədrəsə kəndində yerləşən erməni qərargahının sərəncamına göndərdilər. Yolda iki nəfəri güllələyərək Mədrəsə kəndinə cəmi 74 nəfəri əsir kimi apardılar. Gəncədən gələn silahlı dəstələr Şamaxıya girdikdə Əngəxaran kəndindən olan nümayəndələr qohumlarının taleyindən xəbər tutmaq üçün Mədrəsə kəndinə gəlirlər. Onlar kəndin kənarında əngəxaranlı əsirlərin hamısının öldürüldüyünü və meyitlərinin eybəcər hala salındığının şahidi oldular. Meyitlərin qulaqları, burunları, əlləri və ayaqları kəsilmiş, bir çox ölülərin döşlərində yanıq izləri aşkar edilmişdir. Bu da sübut edirdi ki, hələ onlar sağ ikən ermənilər onların sinələri üzərində od qalamışdılar. Bundan başqa dağıdılmış kənddən qaçıb canını qurtara bilmiş Əngəxaran sakinlərinin çoxu aclıqdan, soyuqdan və xəstəlikdən tələf olmuşdular. Komissiyanın məruzəsində

göstərilir ki, qısa bir vaxtda Əngəxaran əhalisi yarıbayarı azalmışdır.

1919-cu il aprelin 3-də Şamaxı qəza rəisi Fövqəladə Təhqiqat Komissiyasına həmin qəzanın 3 polis sahəsi (Qəbristan, Mədrəsə və Kaşun) üzrə ermənilər tərəfindən dağıdılmış kəndlərin siyahısını göndərmişdi. Həmin siyahıya Qəbristan polis sahəsi üzrə 19, Mədrəsə polis sahəsi üzrə 41 və Kaşun polis sahəsi üzrə 26 kəndin (cəmi 86 kəndin–A.İ.) adı daxil edilmişdi. Fövqəladə Təhqiqat Komissiyasına göndərilən siyahıda Şamaxı qəzasının ayrı-ayrı kəndləri üzrə şahid ifadələri, zərərçəkənlərin dindirmə protokolları, rəsmi idarələrin əhalinin sayı və əmlaklarının dəyəri haqqında məlumatları, ölən və yaralanların siyahısı və s. əsasında 53 kənd üzrə tərtib edilmiş yekun aktlarında ayrı-ayrı kəndlər üzrə ölənlərin (o cümlədən kişi, qadın, uşaq) sayı və hər bir kəndə dəymiş ümumi zərərin miqdarı göstərilmişdi. Bu kəndlərdən bir neçəsində ölənlərin sayı və dəymiş zərərin ümumi məbləği aşağıdakı kimidir.

Qırğına məruz qalmış digər kəndlər üçün tərtib edilmiş aktlarda da rəqəmlər yuxarıda göstərilən qayda üzrə aparılmışdır. Bütün aktlar Fövqəladə Təhqiqat Komissiyasının üzvləri tərəfindən imzalanmış və möhürlə təsdiq edilmişlər. Bu aktlarda olan rəqəmlər üzrə Şamaxı qəzasının 53 kəndində ermənilər 8027 nəfər azərbaycanlını qətlə yetirmişlər ki, onlardan da 4190 nəfəri kişi, 2560 nəfəri qadın və 1277 nəfəri

uşaqlar olmuşdur. Hesablamalarımıza görə bu kəndlərə dəyən ümumi maddi zərər o dövrün qiymətləri ilə 339,5 milyon manat olmuşdur. Ermənilərin azərbaycanlı əhaliyə, onların evlərinə, mal-qara, əkin sahələrinə münasibətdə törətdikləri vəhşiliklər sözün əsl mənasında soyqırımı nümunəsi idi.





Ermənilərin törətdiyi soyqırım nəticəsində dağılmış abidələr.

Şamaxıda elm, təhsil və maarifçilik. XIX-XX əsrin əvvəllərində Şirvan bölgəsində – Şamaxıda yeni tipli məktəblər açılır, mədrəsələr qaydaya salınır, kitabxana və qiraətxanalar təşkil olunur, elmin müxtəlif sahələrinə aid dərsliklər nəşr olunurdu. Qabaqcıl və vətənpərvər ziyalıların sistemli fəaliyyəti nəticəsində maarif və mədəniyyət tərəqqi etmişdi. Lakin bununla belə adı çəkilən yerdə dini məktəblər də fəaliyyət göstərirdi. XIX əsrdə Şamaxıda 11 dini məktəbdə 11 müdərrisin təhsil verdiyi 356 şagird təhsil alırdı, qəzada isə 5 dini məktəb-də 5 müdərris təhsil verirdi.

1869-cu ildə Şamaxı qəza məktəbi Bakı quberniyasının Xalq Naarif Nazirliyinin tabeliyinə daxil idi. Bu məktəbdə 7 müəllim, 61 şagird var idi. Şamaxı şəhərində isə 3 müəllimin dərs dediyi və 26 şagirdin təhsil aldığı 3 sinifli şəxsi məktəb fəaliyyət göstərirdi.

Şamaxının mədəni həyatından bəhs edərkən yazıçı və məktəbdar Səid Ünsizadənin mədəniyyət sahəsindəki səmərəli əməli fəaliyyətindən, əhəmiyyətli məktəbdarlığından danışmamaq olmur. S.Ünsizadə nəinki Şamaxıda, hətta bütün Azərbaycanda əhali arasında maarifin yayılmasına çalışır, təlim və tədris sahəsində mühüm və zəruri işlər həyata keçirirdi. 1881- ci ildə onun “Təlimül − ətfal, təhzibül − əxlaq” adlı dərsliyi işıq üzü görmüşdür. S.Ünsizadənin 98 səhifəlik “Məktəb uşaqlarımız oxumaqdan ötrü sadə türkü dilində tərtib olunmuş əqaid və nəsayeh risaleyi − mənzuməsidir” adlı

dərsliyi uşaqlar üçün anlaşıqlı dildə yazılmışdır. Dərslik 1882-ci ildə tamamlanmışdır. Həm şəriət, həm də dünyəvi elmlərin tədris olunduğu "Məclis" məktəbi Səid Əfəndi Ünsizadə tərəfindən 1874-cü ildə Şamaxıda açılmışdı.

Azərbaycanda yeni üsullu orta məktəblərin yaradılması istiqamətində də quberniya mərkəzi kimi Şamaxı ön plana keçdi. Belə ki, 1854- cü ildə Şamaxıda dörd sinifli ali ibtidai məktəbin açılması buradakı gənclərin və yeniyetmələrin orta təhsil almaları üçün mükəmməl şərait yaratmışdı. Qeyd etmək yerinə düşərdi ki, görkəmli təbiətşünas alim H.B. Zərdabi məhz bu məktəbdə pərvazlanmış və inkişaf etmişdir. Quberniya mərkəzinin Bakıya köçürülməsi məsələsi bu məktəbin də istər-istəməz Bakıya köçürülməsini labüd etdi və Bakıda 1865- ci ildə bu məktəbin bazası əsasında Azərbaycanda qabaqcıl, ilk orta məktəb – gimnaziya yaradıldı. 1869- cu ildə Seyid Əzim Şirvani Şamaxıda üsuli-cədid məktəbi açmağa nail oldu. Bu məktəbdə də təlim ana dilində aparılırdı, eyni zamanda fars və rus dilləri də tədris edilirdi. S.Ə.Şirvani həm də uşaqlar üçün dərslik tərtib etmişdi. Bu dərsliyin bəzi hissələri A.Çernyayevskinin "Vətən dili" dərsliyinə daxil edilmişdi.

Şamaxıda 1847-ci ildə "Müqəddəs Nina" qız məktəbinin açılması azərbaycanlı qızların maariflənməsi, qızların geniş miqyasda təhsilə cəlb edilməsi yönündə əhəmiyyətli rol oynadı. Lakin 1859- cu ildə Şamaxıda baş vermiş zəlzələ quberniya

mərkəzinin Bakıya köçməsinə rəvac verdi, bununla əlaqədar olaraq Nina” qız məktəbi də Şamaxıdan Bakıya köçürüldü.

Azərbaycanın məktəb tarixində çox mühüm yer tutan rus−Azərbaycan məktəbinin yaradılması və inkişafı isə Şamaxılı Sultanməcid Qənizadənin və Həbib bəy Mahmudbəyovun adları ilə bağlıdır. Məktəbin Qafqaz təhsil dairəsi tərəfindən təsdiq edilmiş tədris planında rus olmayan əhali arasında ibtidai məktəbin tədris planının rəhbər tutulması və rus dilinin tədris edilməsi vacib şərt kimi qoyulmuşdu. Göstərilən dövrdə Şirvan bölgəsində yeni üsullu məktəblər açılırdı, lakin bununla bərabər köhnə məktəblərdə də islahatlar aparılır, istedadlı və qabiliyyətli mütəxəssislər dəvət olunur və tədrisin keyfiyyətini yüksəltməyə fikir verilirdi. Bununla əlaqədar olaraq bəzi məlumatlarda deyilir: “...Şamaxı Cümə məscidinin təəllüqündə (tərkibində) olan təlimin səviyyəsini yüksəltmək üçün qabil müəllimlər olmadığına görə Göyçay uyezdinin Diyallı kəndində yaşayan Hacı Əbdülməcid əfəndi Hacı Mustafa Əfəndizadəni dərs deməyə dəvət ediblər. Qəzet ümid edirdi ki, Hacı Məcid Əfəndi kimi alim, fazil bir adam şamaxılılara əlindən gələn köməyi edəcək, bunun müqabilində Şamaxı əhli də daim minnətdarlıqla onun hörmətini saxlayacaqdır. Sonralar Şamaxı qazisi kimi yüksək hörmət və nüfuz qazanan bu adamın 1880-ci ildə şəhərə yüksək ixtisaslı bir kadr kimi dəvət olunması faktı, Hacı Məcid Əfəndi Şamaxıya bir ruhani mütəxəssis kimi çağırılsa da, şamaxılıların

o dövrdə mövcud olan hər hansı tədris ocağında təlimin keyfiyyətini yüksəltməyə xüsusi fikir verdiklərini göstərməkdədir”.

Şamaxıda dünyaya göz açan Abbas Səhhət də ədəbi və pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Tibbi təhsili olmasına baxmayaraq məktəblərdə, bir qədər sonra isə realnıy məktəbdə Azərbaycan dilindən dərs demişdir. Abbas Səhhət M.Mahmudbəyovla birlikdə “Azərbaycan dilinin üç illik tədrisi üçün dərslik” kitabını hazırlamışdır.

XIX-XX əsrin əvvəlləri bütün Azərbaycanda olduğu kimi, Şamaxıda da mənəvi mədəniyyətin bir çox sahələri nəzərə çarpacaq dərəcədə inkişaf və tərəqqi ilə səciyyələnir. Tarixə nəzər saldıqda görərik ki, bölgədə ədəbiyyat və fəlsəfə, musiqi, tibb, təbabət, astronomiya və s. sahələrdə öz ağlı, elmi və müdrikliyi, istedadı ilə seçilən dünya şöhrətli hikmətli alimlər yetişmişdir.

Ədəbiyyat. Şamaxı ədəbi mühiti ümum Azərbaycan ədəbi mühitinin tərkib hissəsi olmaqla, sözün geniş mənasında milli təfəkkür, ədəbi məclis, məktəb və maarif, qəzetçilik sahələrində təkzibedilməz rol oynamışdır. Şamaxı ədiblərindən və ziyalılarından əsasən S.Ə.Şirvani, M.Ə.Sabir, M.H.Didə, M.Hadi, A.Səhhət, S.M.Qənizadə, S.Ünsizadə və C.Ünsizadə qardaşları, M.Mahmudbəyov öz fəaliyyət dairələri ilə Azərbaycanın milli − mədəni həyatında və ictimai − psixoloji sferanın tərəqqisində müstəsna rol oynamışlar. Onlar yalnız

ədəbi fəaliyyətlə, yazıb − yaratmaqla məşğul olmurdular, elmi − nəzəri və əməli şəkildə əsaslı fəaliyyət göstərir, həm də praktik olaraq yeniliyə can atırdılar.

Böyük Azərbaycan şairi Mirzə Ələkbər Zeynalabdin oğlu Tahirzadə (1862-1911) qədim Şamaxı şəhərində anadan olmuşdur. Azərbaycanın ədəbiyyat aləmində böyük xidmətləri olan mübariz ruhlu şair satira və tənqid yağan şeirlərini "İrşad", "Həyat", "Şərqi Rus", "Zənbur" və s. mətbu orqanlarında nəşr etdirmişdir. Sabirin şeirlərində daima satira görürük, lakin bununla bərabər, maarifpərvər və fəzilətli şəxslərə qarşı rəğbət və yüksək qiymətləndirmə hisslərinin əks olunduğu şeir nümunələrinə də rast gəlmək olar.

Sabirin poetikasında həm də bir yanğı görünür. Şairə görə xalqın tərəqqisi, inkişafı və mərifət kəsb etməsi üçün ancaq və ancaq elm öyrənmək və fəzilət sahibi olmaq gərəkdir. Bu meyli vətən övladlarında qüvvətləndirmək və dərk etdirmək üçün böyük şair yazırdı:

Var ümidim ki, əxtəri − iqbal
Övci məqsuddə tuta məva;
Ola bidar talei − məsud,
Aça minbəd dideyi − şəhla;
Ola kəsbi − ülumə səyi − bəliğ,
Qıla təhsili − elm sübhi − məsa.
İndi bir əsrdir ki, elm gərək!
Dolub alati − elmnən dünya.

Sabirin satira üslubu bir tərəfdən cəmiyyətin eybəcərliklərini və geriliyi açıb göstərməyə yönəlmişdisə də, digər tərəfdən də cəhalət və mövhumatın aradan qalxması, ictimai əxlaqın saflaşması, xalqın savadlanması və dünyəvi elmlərin mənimsənilməsi üçün bir çağırış, vasitə idi.

M.Ə.Sabirin satira ilə əks olunmuş şeirlərinə nəzər yetirsək, bu şeirlərdə istehzalı gülüşdən daha çox hüzn dolu qəh-qəhlərin əks olunduğunu görərik. Şeirlərdə dərin məzəmmət, kəskin istehza, cəhalət və ətalət ruhu tez-tez nəzərə çatdırılır. M.Ə. Sabir şeirlərini əsasən "Hophop" imzası ilə çap etdirmişdir.

Seyid Əzim Şirvani (1835-1888) Şamaxıda ruhani ailəsində anadan olmuşdur. Seyid Əzim Şirvanini yalnız xalqı cəhalətdən qurtarmağa çalışan istedadlı şair kimi deyil, həm də pedaqoji fəaliyyətlə məşğul olan mükəmməl məktəbdar, dərslik yazan yaradıcı alim, qabaqcıl və tərəqqipərvər çıxışları ilə mətbuatda çıxış edən ictimai xadim kimi xarakterizə etmək olar. Şairin yaradıcılığının əsas mərhələsində lirika və tənqidi satirik şeirləri üstünlük təşkil etmişdir. Azərbaycanda uşaqlar üçün ədəbi əsərlər hələ orta əsrlərdə yaradılmışdır. Yeni dövrdə bu sahədə fəal çalışanlardan biri Seyid Əzim idi. Ədəbi mühitdə istedadlı Şirvan şairlərindən M.Ə.Sabir, S.Ə.Şirvanidən başqa Nazim Şirvani və Xaksər Şirvani, Ağəlibəy Naseh, Tərrah və b. göstərmək olar.

XIX əsrdə yaradılmış və milli ədəbiyyatımızın inkişafında xüsusi rol oynamış Azərbaycan ədəbi məclisləri, onların içərisində Şamaxıdakı “Beytül−Səfa” ədəbi məclisinin fəaliyyəti xüsusi qeyd olunmalıdır.“Beytül−Səfa” ədəbi məclisi Şamaxı ədəbi mühiti nümayəndələrinin yaradıcılıqlarını birləşdirməklə demək olar ki, şəhərin mədəni həyatında fəal rol oynamışdır.

S.Ünsizadə gənc nəslin mənəvi keyfiyyətindən danışarkən ilk növbədə onlara elm oyrənməyi aşılayır, savad öyrənməyin vacibliyindən bəhs edir. Şirvan mühitində elm və mədəniyyət sahələrində baş verən müsbət dəyişikliklər, mətbuat şəbəkəsinin genişlənməsi, yeni üsullu məktəblərin yaradılması şairin gözündən yayınmamışdır:

Könül, şad ol ki, gəlmiş bu diyarə elm bəqrəti, Pəsənd etməz Şamaxi əməldə min bədəvani. XIX əsrin ikinci yarısında Şirvan, əsasən də Şamaxı ədəbi mühitindən danışarkən mütərəqqi meyilli ziyalılardan Sultan Məcid Qənizadənin adını çəkməmək olmur. Bölgənin sayılıb-seçilən ziyalılarından olan S.M.Qənizadə böyük yazıçı və maarif xadimi olmuşdur. Onun “Allahın xofu”, “Gəlinlər həmayili”, “Məktubati − Şeydabəy Şirvani” və s. əsərlərində mənəvi dəyərlər qabarıq şəkildə özünü göstərmişdir.

Şamaxıda doğulan Abbas Səhhət də ədəbi fəaliyyətlə məşğul olmuşdur. Onun “Azadlığa mədhiyyə”, “Oyanışın səsi”, “Poetik nitq” şeirləri müxtəlif qəzetlərdə nəşr

olunmuşdur. Abbas Səhhət 1912- ci ildə isə “Sınıq saz” şeirlər toplusu kitabını nəşr etdirmişdir. Elə həmin ildə “Neft fontanı” adlı bir pərdəli komediyası işıq üzü görür.

Şamaxı ədiblərindən M.Hadi yalnız ilhamlı poeziya ustası və mədəniyyət xadimi deyil, həm də nüfuzlu pedaqoq idi. Görkəmli şair bir müddət Kürdəmirdə məktəbdarlıq etmiş, müəllim işləmişdir.

Şamaxının ədəbi fikir tarixi, söz və düşüncə sistemində zəngin yaradıcılıqları ilə seçilən Əfzələddin Xaqani Şirvani, İmadəddin Nəsimi, Fələki Şirvani, İzzəddin Şirvani, Bədr Şirvani, Zülfüqar Şirvani kimi qüdrətli şair nümayəndələrin adlarını çəkmək olar.

III fəsil
Şamaxı mənbələrdə və tarixi tədqiqatlarda

Şamaxı haqqında ilk məlumat verən antik müəllif e.ə. II əsrdə yaşamış yunan alimi Klavdi Ptolemey "Coğrafi təlimnamə" əsərini 5-ci kitabının XI fəslində Albaniya ölkəsinə məxsus 29 şəhərin adını sadalayır ki, bunlardan biri də mənbədə "Mamexiya" "Camaxeya" və ya "Kemaxeya" formasında çəkilən ən qədim şəhərlərimizdən biridir.

Azərbaycan tarixinə dair ilk ümumiləşdirilmiş əsər yazan A.Bakıxanov "Gülüstani-İrəm" əsərinin müqəddiməsində Şirvan vilayəti, onun hüdudları, ölkənin ən gözəl və geniş vilayətlərindən bəhs edirdi. Şamaxı şəhərinin salınması, bu adın etimologiyası və müxtəlif toponimlərindən bəhs edərək, Ptolomeyin xatırlatdığı "Samaxeya"nın (Kamaxeya) indiki Şamaxı şəhəri olduğu qənaətinə gəlir. Əsərdə çoxsaylı mənbələri sadalayan A.Bakıxanov ərəb tarixçisi Əbülfida "Təqvimülbuldan" əsərindən iqtibas gətirməklə, Şirvanın Sasanı şahı olan Ənuşirəvanın bina etdiyini söyləyir. Erməni tarixçisi Moisey Xorenli "Tarix" əsərində bu şəhəri Şerovaner kimi təqdim edir. Əmin Əhməd Razi "Həft -iqlim" əsərində yeddi iqlimin məşhur şəhərləri haqqında danışarkən, Şirvanın əvvəlcə bir şəhər, sonra isə ölkə adı daşıdığını qeyd edirdi.

XVII yüzilliyin erməni tarıxşünaslığının nümayəndəsi Çamçyan Şirvan vilayətini "Əğvan" adlandırır, onun Alan və Dağıstan arasında yerləşdiyini qeyd edirdi.

Azərbaycanın görkəmli tarixçisi S.Aşurbəyli və Q.Qeybullayev Şamaxı toponimi haqqında danışarkən, bunu V əsrdə yaşayan erməni tarixçisi Favstos Buzandın IV əsrin birinci yarısında baş verən hadisələrlə əlaqədar adını çəkdiyi köçəri ijmax (şamake) tayfasının adı ilə əlaqədar olduğunu vurğulayırdılar. Xilafət dövrü mənbələrində bu şəhərin adı daha çox xatırladılır. Çünki, o zaman şəhər strateji baxımdan daha əhəmiyyətli mövqedə yerləşirdi. IX yüzillikdən başlayaraq, Şamaxı şəhəri haqqında mənbələrdə mütəmadi şəkildə məlumatlar verilir. Bu da 918-ci ildə hərbi-strateji baxımdan çox əlverişli mövqedə yerləşən qədim Şamaxının Şirvanşahlar dövlətinin (861-1538) paytaxtına çevrilməsi ilə bağlı idi. Bu dövrdə xilafətin mənafeyinə xidmət edərək buraya göndərilən məmurların, coğrafiyaşünas və səyyahların əsərlərində Şamaxı şəhərinin adı "Şəməxiyyə" kimi çəkilir. Əl-Bəlazuri Şamaxı şəhərinin əş-Şammax ibn Şücanın adını daşıdığını, bir sıra tədqiqatçılar isə Şamaxı sözünün iki söz birləşməsindən Şamın qardaşı anlamına gələn "Şam" və "əxi" sözündən götürülməsini güman edirlər. Şamaxı sözünün qədim kımak tayfalarının adi ilə əlaqələndirilməsinə də mənbələrdə rast gəlinir. Bu şəhərin daha qədim tarixə malik olmasını nəzərə alsaq, qədim Alban şəhəri "Kemaxeya"dan yarandığı

qənaətinə də gəlmək olar. İbn Havqəl, əl-Bəlazuri, əl-İstəxri, əl-Müqəddəsi, Yaqut əl-Həməvi kimi orta əsr ərəb müəllifləri bir sıra Azərbaycan şəhərlərindən bəhs edərək, Şamaxını "gözəl", "evləri daşdan tikilmiş", "axar suları, bağları və gəzməli yerləri olan şəhər" kimi təqdim edirdilər.

Şəhərin salınması ilə bağlı müxtəlif versiyalar da vardır. Bunlardan biri də XI yüzilliyin sonunda anonim müəllif tərəfindən verilən məlumatdır. "Tarix-i əl-Bab" əsərində verilən məlumata görə Şamaxı şəhəri Şirvanşah Əbu Tahir Yezid ibn Məhəmməd tərəfindən bərpa olunaraq paytaxta çevrilmiş və onun şərəfinə Yezidiyyə adlandırılmışdır. Ərəb müəlliflərinin məlumatlarında Şamaxının qərbdən Bərdə-Gəncə-Tiflis, şimaldan Şabran-Dərbənd, şərqdən Xəzər dənizi, cənubdan Pirsaat çayı sahilləri ilə sərhədlənən karvan yolları üzərində yerləşdiyi, bu yol vasitəsilə dünyanın bir sıra ölkələri ilə iqtisadi, mədəni əlaqələr saxladığı vurğulanırdı. Bu kimi faktları Şamaxıda aparılan arxeoloji qazıntılar zamanı tapılmış Orta Asiya şəhərlərinə məxsus saxsı qablar da sübut edir. Bu şəhərin eyni zamanda Hindistan və Çinlə də iqtisadi-mədəni əlaqələr saxladığına dair faktlar vardır ki, bunlar da Şamaxının tarixi ipək yolundakı rolunu göstərməyə imkan verir. Qazıntılar nəticəsində həm də mis sikkələrin, Çində istehsal edilmiş çini qabların tapılması bu şəhərin beynəlxalq ticarət karvanına qoşulduğundan və onun qədim karvansaralarının olmasından da xəbər verir.

Həmdullah Qəzvini “Nüzhət əl-qulub” əsərinin IX bölməsinin V hissəsində Şirvan və onun əsas şəhəri olan Şamaxının beşinci iqlimdə yerləşdiyini və daha səfalı olduğunu göstərir. Yaqut əl-Həməvi “Mucam əl-buldan” əsərinini V kitabında bu şəhərin hakimlərinin dərbəndlilərlə qohum olduğundan bəhs edərək, Şamaxı şəhərinin Şirvanın paytaxtı olduğunu göstərirdi. Fars mənbələrinin şəhadətinə görə də bu şəhərin VI əsrdə Sasani şahı I Xosrov Ənuşirəvan tərəfindən salınması da iddia olunurdu. Sonrakı mənbələrdə şəhər “Kemaxiya”, “Əşşamaxiyyə”, ərəblər dövründə qısa müddət “Yəzidiyyə”, sonra isə yenidən “Şamaxı” adlandırılmışdır. XIV əsrin tarix və coğrafiya alimi Həmdullah Qəzvini də Şirvan haqqında danışarkən, onun əsas şəhəri olan Şamaxının Sasani hökmdarı Ənuşirəvan tərəfindən tikildiyini göstərirdi. Ərəb tarixçiləri şəhərin salınmasını VIII əsrdə Şirvan hakimi olmuş Şəmax ibn Şücanın və ya ərəb şairi Əşşamaxiyyənin adı ilə bağlayır, bu şəhərin ərəb xilafətinin tabeçiliyində, eyni zamanda, xilafətin zəifləməsindən sonra yaranan Şirvanşahlar dövlətinin paytaxtı olduğunu, bir müddət bu şəhərin Yəzidiyyə adlandığını qeyd edirlər.

Görkəmli alimlərdən Y.A.Paxomov və H.Ciddinin ehtimalına görə, bu şəhər Gülüstan qalasının xarabalıqlarının həndəvərində, indiki Şamaxının 15 kilometrliyində mövcud olmuşdur.Əl-Bəlazuri yazır ki, qocaların söylədiklərinə əsaslanan Bərdə sakini Məhəmməd ibn İsmayılın dediyinə

görə, guya Şirvan vilayətindəki Şəmaxiyyə şəhərinin adı Ərminiyyə valisi Səid ibn Səlim əl-Bəhalinin vaxtında Şirvanın məliki olmuş əş-Şəmmax ibn Şücanın adından götürülmüşdür.

XIII yüzilliyin ərəb tarixçisi İbn əl-Əsir "Əl kamil-fi-t tarix" əsərində 1222-ci ildə Şamaxının zəbt edilib dağıdılmasını, şəhər əhalisinin monqol işğalçılarına qarşı qəhrəmancasına müqavimət göstərməsini təsvir edərkən yazırdı ki, "kaş anam məni doğmamış olaydı, yaxud mən bu hadisədən əvvəl ölmüş və tamamilə unudulmuş olaydım". Həqiqətən də burada monqollar elə dağıntı törətmişdilər ki, sonralar Şamaxı ətrafında aparılan arxeoloji qazıntılar monqol hücumu zamanı dağıdılan böyük ictimai binaları aşkar etmişdir ki, bu da söylənənləri bir daha sübuta yetirir. Monqol yürüşlərindən sonra ən dağıdıcı hadisə 1434-cü ildə Qaraqoyunlu hökmdarı İsgəndərin Şirvana hücumu zamanı Şamaxı şəhərinin dağıntılara məruz qalması hesab olunmalıdır. Şirvanşahların paytaxtı kimi Şamaxı şəhəri müxtəlif dövrlərdə Sacilərin və Salarilərin tərkibində olmuş, Eldənizlər tərəfindən idarə edilmişdisə də, siyasi cəhətdən müstəqil olmuş, nə Qaraqoyunluların, nə də Ağqoyunluların tərkibinə daxil olmamışdır. Qaraqoyunlu hökmdarı Cahanşahın, Ağqoyunlu hökmdarı Uzun Həsənin dövründə bu şəhərlərin inkişafına diqqət yetirdiyindən Şamaxıda xeyli irəliləyiş baş vermişdir. Hətta Uzun Həsən həyata keçirdiyi islahat nəticəsində şəhərlərin, o cümlədən Şamaxının təsərrüfat həyatı yenidən

canlanmışdır. Statistik məlumatlara əsasən XV yüzillikdə Şamaxıda 30-60 min nəfər yaşadığı da məlumdur. Bu şəhər Azərbaycan miqyasında ən iri iqtisadi mərkəzlərdən biri sayılırdı. Şəhər siyasi statusunu uzun müddət qoruya bilsə də, I Təhmasibin zamanında Səfəvi dövlətinin tərkibinə qatılmış və ilk bəylərbəyliyin mərkəzi kimi 1538-ci ildə paytaxta çevrilmişdir. Şamaxı bu kimi təsirlərə məruz qalsa da, inkişaf etmiş şəhərlərdən biri kimi daima diqqət mərkəzində olmuşdur.

Orta əsrlər dövründə Azərbaycanda öz misionerlik fəaliyyətlərini həyata keçirmək üçün bura göndərilən Avropa səyyahlarından italyan Ambrocco Kontarinin verdiyi məlumatlar maraqlıdır. Onun fikrincə, Şamaxı Təbrizlə müqayisədə həyat üçün əlverişli olan məhsulların çoxluğu baxımından daha yüksəkdə duran bir şəhər idi. A.Kontarinini Şamaxıda müşayət edən bir nəfər bələdçinin ona verdiyi məlumatları da maraq doğurur. O, Azərbaycan ipəyinin (Şamaxı ipəyi) Venesiyada çoxdan məşhur olduğunu sübut edərək yazırdı:”Bu şəhərdə bizdə “talaman” ipəyi adı ilə məşhur olan ipək hazırlanır.Bundan başqa müxtəlif zərif ipək parçalar toxunur.Şamaxı Təbriz kimi böyük olmasa da mənim fikrimcə, hər cəhətdən ondan qat-qat yaxşıdır və insana lazım olan hər şey burda boldur”

XVI yüzilliyin ingilis səyyahı və diplomatı Antoni Cenkinsonun Azərbaycanın paytaxt şəhərləri, xüsusilə Şamaxı haqqındakı fikirləri də maraq doğurur. Antoni Cenkinson

Şamaxını vəsf edərkən, onu “gözəl kral şəhəri” adlandırmışdır. Şamaxıda rus, hind, türk, fars tacirlərinə xidmət edən karvansaraylar vardır. XVI əsrin II yarısında burada ingilis “Moskva şirkəti”nin daimi nümayəndəliyi açılmışdır. Moskva tacirləri Şamaxı bazarlarında Moskvada hazırlanmış sənətkarlıq məhsullarını satır, yerli malları, əsasən də xam ipəyi, ipək parçaları alırdılar. Məhz səyyah qeydlərindən bəlli olur ki, XVI əsrdə Cənubi Qafqazda ipək istehsalı və ticarətinin cəmləşdiyi şəhərlərdən biri məhz Şamaxı olmuşdur. Şamaxı hakimi Abdulla xan Ustaclı ilə görüşü onda böyük bir təəssürat yaratdığını da göstərirdi. A.Cenkinson Şirvanın Səfəvi şahlarından asılılığının formal olduğunu göstərir, onların Rusiya ilə sərbəst ticarət etməsindən bəhs edirdi. 1725-ci ildə Şamaxıda olmuş ingilis səyyahı Henri Bryus öz xatirələrində, Şamaxı şəhərini Cənubi Qafqazın ən məşhur ticarət mərkəzi kimi qiymətləndirirdi.

Şamaxının ipək yolu üzərində yerləşməsi şəhərin iqtisadi inkişafı üçün əlverişli şərait yaratsa da, müvtəlif dövrlərdə baş vermiş zəlzələlər (xüsusilə 1192-ci və 1667-ci ildəki zəlzələlər), dağıdıcı müharibələr Şamaxının iqtisadi inkişafına müəyyən zərbə vurmuşdu. Belə ki, 1670-ci ildə Şamaxıya gəlmiş hollandiyalı səyahətçi Yan Streys qeyd edirdi ki, “məni ən çox təəccübləndirən o idi ki, şəhəri tamamilə yerlə-yeksan edən və viran qoyan həmin zəlzələdən 3 ildən də az müddət keçməsinə baxmayaraq, şəhər yenidən bərpa olunmuşdur”.

1724-cü ildə Rusiya ilə Osmanlı imperiyası arasında bağlanmış İstanbul müqaviləsinin şərtinə görə, Şirvana daxili muxtariyyətin verilməsi Şamaxı şəhərinin ticarət əlaqələrinin əvvəlki səviyyəyə çatmasına imkan yaratmışdı.

Qolşteyn Plinisi kimi tanınan alman səyyahı Adam Oleari də Şamaxı haqqında məlumat vermişdir. Onun məlumatları bu gün üçün çox aktual səslənir. Belə ki, səyyah ilk gündən belə qənaətə gəldi ki, buranın yerli əhalisi Avropalıların İran kimi tanıdıqları İran dövləti deyil, məhz türk dövlətidir. O, Şamaxı haqqında yazırdı:"Deyilənlərə görə, Şamaxı şəhərini Şirvanşah saldırıb.O. dağların belindədir...Yaxınlığına çatmamış görmək mümkün deyil. Adam Olearinin verdiyi məlumata görə, Şamaxı hər iki tərəfdən ayrıca divarlarla əhatələnmiş və iki hissədən ibarət olan bir şəhər idi. Şəhərin şimal hissəsi cənub hissədən bir qədər kiçik idi. Əvvəllər şəhər daha böyük olmuşdur. Şah Abbasın dövründə isə kiçilib. Burada daşdan hörülmüş 5 qapı vardı. Həmin dövrdə şəhərdə 700 ev və 26 məhəllə, 40 məktəb, 70 məscid, 7 hamam, 44 karvansaray, 200-ə yaxın dükan olmuşdur". Səyyah Şamaxını Leypsiqlə müqayisə edərək, buradakı mədrəsə və qalalar haqqında geniş məlumat verir, Gülüstan qalasını "güllər vadisi" və ya" güllər bitən yer" adlandırırdı.

"Türklərin ibn Bəttutəsi" ləqəbini daşıyan və XVII əsrin məşhur Osmanlı səyyahı Evliya Çələbi də Azərbaycanda olmuş və şəxsi müşahidələri əsasında "Səyahətnamə"sini yazmışdır.

Azərbaycanın gözəl şəhərləri olan Təbriz, Ərdəbil, Maku, Naxçıvan, Qarabağ, Ərəş, Şəki, Gəncə, Bakı. Şabran və Şamaxı haqqında qiymətli məlumatlar vermişdir. Bir həftəyə yaxın Şamaxıda müsafir olan Evliyə Çələbinin qədim və abad şəhər haqqındakı fikirləri maraq doğurur.O, Şamaxı sözünün etimologiyası, onun hərbi-siyasi həyatı, təsərrüfat və ticarəti haqqındakı məlumatları təqdirəlayiqdir. E.Çələbi göstərirdi ki, bu şəhəri ona görə Şamaxı adlandırırdılar ki, "guya onun ilk sakinləri Şam şəhərindən (Dəməşqdən) gəlmişlər. Səyyah eyni zamanda, bu ərazinin mülayim iqlimi olmasından, onun müdrik alimlərindən, "şöhrəti dünyanın hər yerinə yayılan gözəllərindən sevə-sevə bəhs edir. Şamaxı səhəri haqqında yazaraq, səyyah şəhəri belə təsvir etmişdir: "şəhərdə təxminən yeddi min yaxşı ev var...hər bir evin qarşısında su axır.Bağları və üzümlükləri saymaqla qurtaran deyil. Şəhərdə 26 məhəllə var. Meydan və Şaburan məhəllələri şəhərin ən gözəl yerlərindədir". Evliya Çələbi şəhərdə 5 böyük məscid, 8 mədrəsə, 40 məktəb, 7 hamam, 44 daş karvansara, iki yüzə qədər dükanın olduğunu qeyd edirdi. Şəhərdəki əmin-amanlıqdan bəhs edərək, burada istənilən bahalı malı tapmağın mümkünlüyünü də qeyd edirdi.

Şamaxı haqqında antik dövr, ərəb, fars, türk, gürcü, rus və Avropa müəllifləri ara-sıra öz fikirlərini bildirmiş, mülahizələrini söyləmişlər. Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar vaxtı antik dövrdə mövcud olmuş şəhər tipli

məskənlər sırasında Şamaxı da vardır. Əsrlər ötdükcə kiçik bir qəsəbədən şəhərə çevrilən "Şamaxı" sözünün etimologiyası haqqında müəyyən fikirlər vardır. Tarixdə Şamaxının adını ilk dəfə çəkən yunan coğrafiyaşünası Ptolomey (II əsr) öz "Coğrafi təlimnamə" adlı əsərində bu yerin adını "Samaxeya" və ya "Kemaxeya" kimi çəkir. Ərəb mənbələrində "əş-Şəmaxiyyə" kimi qeyd edilən "Şamaxı" sözünün mənası haqqında müxtəlif mülahizələr mövcuddur. Şəhərin adının tayfa adı ilə bağlı olması haqqında fikir daha inandırıcıdır.

"Şamaxı"nın məna açılımı barədə A. Bakıxanov yazır: "Şamaxı şəhəri "Kamaxı" və ya "Ksemaxı" olmuşdir.

İran alimi Məhəmməd Moinin "Fərhəngi-farsi" adlı izahlı lüğətində isə oxuyuruq: "Şamaxı – yəni Şəmaxa, yaxud Şəmaxiyyə". Qafqaziyyədə sabiqdə Şirvanşahların əyalət mərkəzi olmuşdir".

Şamaxının salındığı tarix də dəqiq məlum deyil. Arxeoloji qazıntılar nəticəsində e.ə. V-IV əsrlərə aid şəhər həyatına xas maddi-mədəniyyət qalıqları aşkar edilmişdir.

Əldə edilən Roma və Arşaki sikkələri, habelə Makedoniyalı İsgəndərin sikkələrinə oxşadılmış dirhəmlər qədim Şamaxının hələ antik dövrdə Şərq və Qərb ölkələri ilə iqtisadi əlaqədə olduğunu göstərir.

V.Minorski "Şirvan və Dərbəndin tarixi" əsərində Şirvanşahların dörd sülaləsini ayırd edir: 1. Sasanilərin dağ keçidlrini mühafizə üçün təyin etdikləri qədim Şirvanşahlar; 2.

Məzyədi ərəblər; 3. Kəsranilər; 4. Üçüncü sülalənin bir qolu olan Dərbənd Şirvanşahları”. Qeyd olunmalıdır ki, hər dörd sülalənin dövlət paytaxtı Şamaxı şəhəri olmuşdur.

Şirvanşahlar dövlətinin Səfəvi hakimiyyətinə tabe etdirilməsindən (1538) sonra da Şamaxı mühüm ticarət və mədəniyyət mərkəzi olaraq öz şəhər fəaliyyətini davam etdirirdi.

Şamaxının şimali Azərbaycanın əsas şəhərlərindən biri olmaqla sonrakı əsrlərdəki (XVII-XXI) mövqeyinə isə onlarla mənbə və tarixşünaslıq xarakterli əsərlərdə toxunulmuşdur. Son 30-40 ildə çapdan çıxmış bir sıra “Azərbaycan tarixi” kitablarında və ensiklopedik nəşrlərdə, təbii ki, Şamaxı mövzusu müəyyənn qədər işıqlandırılmışdır.

Görgəmli tədqiqatçı, AMEA-nın müxbir üzvü İlyas Babayevin e.ə. IV əsrdən başlamış miladın III əsrinədək Qafqaz Albaniyasının şəhərlərinə həsr etdiyi monoqrafiyasında Şamaxı ərazisində qədim yaşayış məskənlərinin çox olması fikri göstərilir və Şamaxının antik dövrdən tanındığı nəzərə çatdırılır. Qeyd olunur ki, qədim Şamaxı ərazisində aparılan qazıntılar zamanı vaxtı ilə orada mövcud olmuş kiçik yaşayış evləri ilə yanaşı böyük binaların da olduğu aşkar edilmişdir. Müəllif küp qəbirlər məsələsinə də toxunaraq Albaniya ərazisində, o cümlədən Şamaxıda da həmin qəbirlərin mövcudluğunu göstərir. Məlum olur ki, ərazidə keçən əsrin

ortalarında (1958) ellin dövrünə aid iki xəzinə üzə çıxarılmışdır ki, onların birində 300 ədəd gümüş pul tapılmışdır.

Akademik Ziya Bünyadovun fikrincə Arrandakı (Şirvan - Ş.F.) sikkəxanalar Bərdə, Dərbənd və Şamaxı (Yəzidiyyə) şəhərlərindəydi. Siyasi tarix məsələlərini diqqətlə araşdıran müəllif, Harun ər-Rəşidin xəlifəliyi vaxtı onun tərəfindən Azərbaycana, Şirvana və Babül-Əbvaba sərkərdə Yəzid ibn Məzyədin birinci rəsmi məlik təyin olunduğunu qeyd edir. Z. Bünyadov "Gülistani-İrəm" əsərinin bir məlumatına tənqidi yanaşaraq yazır: " A. Bakıxanov Şirvanşah Məzyədilərin ərəb sülaləsi olduğunu bilmədiyi üçün Şirvanşahların Sasani sərkərdəsi Bəhram Çubinin nəslindən olduqlarını bildirir".

Akademik Nailə Vəlixanlı ərəb coğrafiyaşünasları tərəfindən (İstəxri, ibn Həvqal, Müqəddəsi. Yaqub) Arranın əsas sərhədyanı şəhərlərindən olan əl-Bab və l-Əbvab, yəni müasir Dərbənd işıqlandırırılarkən, bu şəhərlə Bərdə arasında yerləşən Bərzənc, Şəmaxiyyə, Şirvan, əl-Abxaz, Cisr və Samirə adlı şəhərlərin də olduğunu nəzərə çatdırıldığını qeyd edir.

Müəllifin başqa kitabında isə yazılır: Ərəblərin hücumla gələn 12 minlik ön dəstəsinə başçılıq edən Salman ibn Rəbiənin əsgərləri VII əsrin ortalarında (644-653-cü illərdə) "qədim şəhər olan ...Şəmkiri ələ keçirdikdən sonra Kürün sol sahilindəki şəhər və kəndləri tutur, Qəbələnin, Şəkinin, Kambisiananın, Şirvanın (Şamaxının – Ş.F.), Şabranın,

Məsqətin, Lakzın, Təbərsaranın, yenidən əl-Babın /Dərbəndin – N.V./ və başqa yerlərin hakimləri ilə müqavilə bağlayırlar”.

Şamaxı ilə bağlı tarixşünaslıqda bir məsələnin dəqiq həll olunması zərurətdir: Şirvan və Şamaxı istilahları. Bəzi əsərlərdə hər iki toponim eyni məkanı, bəzilərində isə iki müxtəlif yer adını daşıyır. “Şamaxı xanlığı” monoqrafiyasının müəllfi Nailə Bayramova da bu haqda düşünmüşdür: “Əldə olunan yeni arxiv materialları, Şamaxı xanlığının yaranmasında, xanlığın iki adla - Şamaxı, yaxid Şirvan adlandırılmasında, elmi boşluğun aradan qaldırılmasının əhəmiyyətini zaman müstəvisində daha da artırır. Şamaxı xanlığının uzun müddət tarixşünaslıqda “Şirvan xanlığı” adlandırılması da həllini gözləyən problemlərdəndir”. Elə N. Vəlixanlının “Ərəb xilafəti və Azərbaycan” kitabında da Şamaxı və Şirvan istilahlarının hər ikisi bəzən şəhər mənasında işlənmişdir: “Azərbaycanın ərəblər tərəfindən işğalı haqqında məlumat verən mənbələr işğal dövrü üçün onlarla şəhər, qala və yaşayış yerlərinin adlarını çəkirlər. Bu şəhərlər içərisində cənubda Marağa, Məyanic /Miynə - N.V./, Ərdəbil, şimalda isə Bərdə, Beyləqan, Bərdic, Şəki, Şəmkir (Şəmkur – N.V.), Qəbələ, Şamaxı, Şabran, Şirvan və onlarla başqalarının adları vardır”.

Coğrafiyaşünas əl-Müqəddəsi tərəfindən Şamaxı “Şirvan ölkəsinin baş şəhəri” adlandırılır.

Akademik Şahin Mustafayev "Səlcuqilərdən Osmanlılara: XI-XV yüzilliklərdə türk mühitində etno-siyasi prosesler" əsərində V.Minorski və S. Aşurbəyliyə əsaslanaraq, XI yüzilliyin birinci yarısında Yaxın Şərqdə vəziyyətin gərgin olduğunu, İran, Azərbaycan, İraq, Suriya və Anadoluya axın edən oğuz-türkmənlərin "heç də hamısının" həmin dövrdə hələ səlcuq hakimiyyətinə tabe olmadıqlarını açıqlayır: "Məsələn V. Minorski hələ 968-ci ildə cənub tərəfdən Şirvan ərazisinə bir neçə güclü oğuz hücumlarının baş verdiyini yazır. Eyni müəllifə görə Şivanşah Qubad 1045-ci ildə oğuzların qorxusundan öz paytaxtı Yəzidiyyə şəhərinin ətrafında dəmir qapılı daş divar tikdirməyə məcbur olmuşdu".

Oğuz-türkmən bəylərinin Şirvana yeni axınları haqqında Ş. Mustafayevin apardığı araşdırma da diqqətəlayiqdir: Mənbələr Qaratəkinin başçılığı ilə oğuz-türkmənlərin 1066-cı ildə hücumu barədə xəbər verirlər və Şirvanşah I Fəribürzün böyük bac ödəyərək, onların ölkədən çəkilmələrini təmin etdiyini bildirir. Ancaq sərbəst şəkildə hərəkət edən bu türkmən bəylərinin Şirvana hərbi yürüşləri burada sülalə nümayəndələri arasında ortaya çıxan daxili çəkişmələr və yardım üçün türkmənlərin dəvət olunması səbəbi ilə də baş verirdi. Belə ki, Qaratəkin qısa bir müddət sonra ikinci dəfə Şirvana hücumu zamanı onu Şirvanşah Fəribürzün əmisi Məmlan b. Yəzid b. Məhəmməd müşayiət etmişdi. Bu dəfə oğuz-türkmənlər ölkənin paytaxtı Yəzidiyyə (Şamaxı) şəhərini mühasirəyə

almış, buradan Bakıya yönəlmişdilər. Mənbələr onların Şabran və Məskətə qədər bütün yerləri ələ keçirdikləri barədə xəbər verirlər. Belə vəziyyətdə Şirvanşah məşhur səlcuq sərkərdəsi Hacib Savtəkindən yardım istəmişdi. Səlcuq qoşunlarının Şirvana hərəkətindən sonra Qaratəkin böyük bir qənimətlə Kür çayını keçib ölkəni tərk etməli olmuşdu. Bununla belə, oğuz-türkmənlərin Şirvana axınları artır və onlar artıq bu ərazidə məskunlaşmağa başlayırlar. Bir tərəfdən, Dərbənd qapısından keçərək Şəki, Şirvan və Arana daxil olan qeyri-müsəlman türk tayfalarının hücumları, digər tərəfdən gürcülərin qərbdən başladıqları istila hərəkatları I Fəribürzü olduqca ağır vəziyyətə salmışdı. Şəkinin 1067-ci ildə Abxaz çarı Baqrat tərəfindən zəbt edilib Kaxetiya çarı Qakikin oğlu Əxsərtana verilməsi və sonra xristian gürcülərin Bərdəyə hücum edib şəhəri tutmaları, şirvanşahı öz dindaşları olan müsəlman oğuzların köməyinə əl atmağa vadar etmişdi. I Fəribürzün dəvəti ilə Qaratəkin və Qaymaz bəylər türkmən süvariləri ilə Şirvanın yardımına gəlmişdilər. Qaratəkin şirvanşahın qızı ilə evlənib öz adamları ilə Yəzidiyyə şəhərində məskunlaşmışdı.”

AMEA-nın müxbir üzvü Məşədixanım Nemət Azərbaycanın epiqrafik abidələrini araşdırarkən bir sıra dini-fəlsəfi fikir nümayəndələrinə, mavzoley və qəbirlərdə uyuyan məşhur şəxslərə diqqət yetirməyi də unutmur: “Sufi ordeni Qələndəriyyənin əsasını qoyan şəxslərdən biri olan Şeyx Pir Hüseyn Şirvani (1071-72-ci ildə vəfat etmişdir) olduqca

məşhur adam idi və Azərbaycanın dini-fəlsəfi fikrinin inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdi. Onun xanəgahı Şirvan paytaxtını İranla və başqa Yaxın Şərq ölkələri ilə birləşdirən köhnə Şamaxı-Salyan yolundadır”.

M.Nemət Şirvanşah Fəribürz tərəfindən 1244-cü ildə tikilmiş Pir Hüseyn xənagahına, Şamaxının Göylər kəndindəki Şeyx əl-İmam Tahir Tacəl-Xuda mavzoleynə, yenə Şamaxının Dədə Günəş kəndində inşa olunmuş ”Dədə Günəş piri”ndəki Şeyx Məhəmməd ibn Şeyx Dədə Qulunun qəbrinə də diqqəti yönəldir. Müəllif müəyyən edir ki, adı çəkilən Dədə Günəş şair Xaqaninin dayısı imiş və Məlhəm kəndində yaşayan məşhur həkim olmuşdur.

Azərbaycan tarixinin monqol dövrünün araşdırıcısı professor Vaqif Piriyev də həmin dövrdəki Şamaxı ilə bağlı araşdırmalar aparmışdır. Tarixşünaslıq baxımından onun iki kitabı önəmlidir. V. Piriyevin istifadə etdiyi mənbələrdə Şamaxı və Şirvan ayrıca olaraq biri şəhər (qala), ikincisi isə vilayət (dövlət) kimi göstərilmişdir. Məsələn, Zəkəriyyə Qəzvininin 1275-ci ildə tamamladığı “Asar əl-bilad və əxbar əl-ibad” (“Ölkədəki abidələr və Allah bəndələri haqqında xəbərlər”) adlı coğrafi əsərində də Azərbaycanın Gəncə, Təbriz, Şamaxı, Dərbənd, Bakı, Bərdə, Varsan, Beyləqan, Mərənd, Ərdəbil, Marağa, Salmas, Urmiya, Şiz, Xuveyy şəhərləri, Ruyendaz, Buqurd (Baykar) qalaları, Arran, Muğan, Şirvan, Bəzz vilayətləri, dağları, gölləri, çayları barədə

məlumat vardır. V. Piriyevin istinad etdiyi mənbələrin biri də Yaqut Həməvi adlı ərəb müəllifidir ki, yazır: “Şamaxı abad şəhərdir. Şirvanın paytaxtıdır. Arran sərhədində yerləşib və Dərbəndin əyalətlərindən biri hesab edilir. Şamaxı hakimi şirvanşah Dərbənd hakiminin qardaşıdır”. Zənnimizcə, V. Piriyev bu cümləni bir qədər izah etsəydi daha elmi və əhatəli alınardı. Necə yəni “Şirvanın paytaxtı Dərbəndin əyalətlərindən biridir? Axı o zaman Dərbəndin özü də Şirvanın əyaləti deyildimi?”

V.Piriyev habelə ibn əl-Əsir kimi məşhur ərəb müəllifinə əsaslanaraq təkcə Şamaxı barədə deyil, həmçinin şamaxılılar haqqında da məlumat verir: “Monqol sərkərdələri Cəbə və Sabutay Gürcüstandan qayıdıb Şirvana soxuldular. Şirvanşah qalaların birinə çəkilməli oldu. Şamaxı əhalisi düşmənə qəti müqavimət göstərməyi qərara aldı. Monqollar mühasirə nərdivanlarından istifadə etsələr də, şəhərə daxil ola bilmədilər. Onlar cəmdəklərdən qalalar düzəldərək üzərinə çıxıb şəhərə od vurmağa başladılar. Lakin bu üsul da şəhərin mərd müdafiəçilərini qorxutmadı. Onlar qəhrəmancasına ölməyi düşmənə əsir düşməkdən üstün tutdular... “əhali qılınca sarılmaq lazımdır, bizə qılıncdan qurtuluş yoxdur, səbr etmək və şərəflə ölmək hər şeydən yaxşıdır” deyərək düşmənə ciddi müqavimət göstərirdi. Mübarizə üç gün davam etdi, lakin sayca üstün olan monqollar şəhəri tuta bildilər. İbn əl-Əsirin dili ilə desək, şəhərdə əhalinin kökü kəsildi”.

Ərəb xilafətinin ağalığı dövründə Azərbaycan ərazisi 5 hissəyə - Azərbaycan, Arran, Muğan, Şirvan və Şəki mahallarına bölünmüşdü. İri şəhərlər sırasına Marağa, Ərdəbil, Bərdə, Təbriz, Bakı, Şamaxı, Şabran, Dərbənd, Qəbələ, Şəki, Gəncə, Şəmkir, Beyləqan, Naxçıvan. Xoy. Salmas, Urmiya, Uşniya, Zəncan, Mərənd, Sərab və s. daxil idi. Eldənizlər dövlətinin də əsas şəhərləri sırasına Təbriz, Naxçıvan, Marağa və s. ilə yanaşı Şamaxı şəhəri də daxil idi.

Monqol hakimiyyətinin süqutundan sonrakı Cəlairilər (1359-1410), Qaraqoyunlular (1410-1468), Ağqoyunlular (1468-1501) dövlətlərində də Şamaxı mühüm Azərbaycan şəhərlərindən olmuşdur. Səfəvilər dövründə isə (1501-1736) vəziyyət dəyişildi və Azərbaycanda yeni inzibati ərazi bölgüsü aparıldı, Şamaxı şəhəri Şirvan bəylərbəyliyinin paytaxtı oldu. Demək Şamaxı artıq dövlətin yox, bəylərbəyiliyin mərkəzinə çevrildi. Çox keçmədi ki, Səfəvi dövləti də süquta uğradı və bəylərbəyilik xanlıqla əvəz olundu. Şamaxı xanlığının (1748-1820) əvvəlində paytaxt bir müddət Ağsu (Yeni Şamaxı) və sonra Şamaxı şəhəri oldu. V. Piriyevin araşdırmasına görə bu xanlıq 1820-ci ildə Rusiyanın nüfuzu altına düşmüş və 1820-ci ildə çar fərmanına əsasən ləğv edilmişdir. XIX əsrin ortalarında çar Rusiyasında müəyyən islahatlar keçirildi, komendant idarəçiliyi ləğv edildi, quberniyalar və mahallar əvəzinə qəzalar yaradıldı. 1841-ci ilin yanvar ayının 1-də təsis edilmiş Kaspi vilayətinə (mərkəzi Şamaxı şəhəri olmaqla) Şimali Azərbaycan

torpaqlarının əksəriyyəti daxil olundu. Onun tərkibinə 7 qəza – Şamaxı, Şuşa, Nuxa, Lənkəran, Bakı, Dərbənd və Quba qəzaları daxil idi. Çox keçmədi ki, yeni quberniyalar yaradıldı və Şamaxı qəzası 1846-cı ildən Şamaxı, 1859-cu ildən Bakı quberniyasına daxil olmuşdur.

1917-ci ilin fevral burjua inqilabından sonra Cənubi Qafqazda vəziyyət dəyişir, Tiflisdə qanunvericilik orqanı sayılan Zaqafqaziya seymi fəaliyyətə başlayır (23.II.1918). İki ay sonra Zaqafqaziya Federtiv Respublikası elan olunur və Azərbaycandan onun tərkibinə 5 nümayəndə daxil edilir. Daha bir ay sonra seymin səbatsızlığını görən Gürcüstan onun tərkibindən çıxır. Mayın 27-də seymdəki Azərbaycan fraksiyası fövqəladə iclas keçirib Milli Şura yaradır və bir gün sonra Azərbaycanın dövlət müstəqilliyinin elan olunması barədə qərar qəbul edir. Bununla da Azərbaycan Cümhuriyyəti fəaliyyətə başlayır. Bu Cümhuriyyət fəaliyyət göstərdiyi dövrdə ölkə ərazisinin bütövlüyünü mühafizə edə bildi, onu yad ünsürlərdən təmizlədi, yeni quberniyalar yaratdı ki, Şamaxı qəzası Bakı quberniyasının tərkibinə daxil edildi.

XX əsrin 20-ci illərinin sonunda inzibati ərazi bölgüsü baxımından dəyişikliklər aparıldı və rayonlaşma sistemi həyata keçirildi. Şamaxı hazırda müstəqil Azərbaycan Respublikasının əsas rayonlarından biri sayılır.

Tarixşünas alimlər sırasında AMEAının müxbir üzvü Oqtay Əfəndiyevin də xüsusi yeri vardır. Onun da əsərlərində

başqa şəhərlərimizlə yanaşı Şamaxı tarixinə dair (XVI əsr) mənbələrdən əxz etdiyi məlumat vardır. 1500-cü ildə Gülüstan qalası yaxınlığında İsmayıl Səfəvinin Şirvanşah Fərrux Yasarla cəngi, şirvanşahın öldürülməsi və İsmayılın Şamaxıya qayıdıb şəhər əyanları ilə görüşü, 1509-cu ildə Şah İsmayılın Şirvana yeni yürüşündən sonra Şamaxıdan Bakıya yollanması, 1547-ci ildə Şah Təhmasibin Gürcüstan yürüşündən qayıdaraq Şirvana gəlməsi və Şamaxıya qoşun yollaması, yenə həmin ildə şirvanşahlar nəslindən olan Bürhanın Qaytaqdan yollanıb Şamaxını ələ keçirməsi, 1578-ci ildə baş verən yürüşdən sonra osmanlıların Azərbaycanda iki vilayət (Şamaxı və Dərbənd) yaratmaları və başqa əlaqədar hadisələrin şərhindən sonra O. Əfəndiyev kitabının "XVI əsr Azərbaycan şəhərləri" hissəsində, təbii ki, Şamaxı haqqında da məlumat verir: "Şirvanın səfəvilər tərəfindən tutulmasından sonra Şamaxı Şirvan bəylərbəyiliyinin mərkəzi oldu...XVI əsrdə Zaqafqaziyada ipək istehsalı və ticarəti Şamaxıda mərkəzləşmişdi... Şamaxıda rusların, hindlilərin, türklərin, fars və başqalarının qaldıqları karvansaralar vardı...".

Professor Mikayıl Heydərovun "XIII_XVII əsrlərdə Azərbaycan şəhərlərində sosial-iqtisadi münasibət və sənətkarlıq təşkilatları" və "Son orta əsrlərdə Azərbaycanın ticarəti və ticarət əlaqələri" adında iki diqqətəlayiq monoqrafik əsərində də, qoyulan məsələlərlə bağlı Şamaxı haqqında müəyyən məlumat az deyildir. Müəllif Şamaxının

karvansarayları (“Korneli de Bryuin yazır ki, Şamaxı karvansarasının birinin təkcə birinci mərtəbəsində 40 otaq vardı”), pambıq tarlaları (“böyük ticarət-sənətkarlıq mərkəzlərinin yaxınlığında, əsasən Təbriz, Naxçıvan, Gəncə, Şamaxı, Mərənd və Marağa kimi yerlərdə böyük torpaq sahələrində pambıq əkilirdi”), toxuculuq məmulatı ilə ticarəti (“Təbriz, Ərdəbil və Şamaxıda toxuculuq məhsulları ilə qızğın ticarət gedirdi”), iqtisadi əlaqələri (“Şamaxı...Azərbaycanın demək olar ki, bütün əsas vilayət və şəhərləri ilə - Təbriz, Ərdəbil, Naxçıvan, Gəncə, Bakı və s. ilə iqtisadi əlaqə saxlayırdı”), Şamaxı tacirləri (“bütün əsr boyu Rusiyanın müxtəlif şəhərlərində Şamaxı, Gəncə, Bakı, Əylis və Azərbaycanın başqa şəhərlərinin tacirlərini görmək olurdu”), gömrükxanası (“ticarətin ümumi həcmi göstərir ki, ən böyük şəhər gömrük məntəqələri Təbrizdə, Ərdəbildə və Şamaxıda idi”) haqqında maraqlı məlumatlar verir.

M.Heydərov Şamaxının sənətkarlıq təşkilatları haqqında (dəmirçilər, papaqçılar, çörək bişirənlər, yəhər tikənlər, toxucular və s.), onun məhəllələri (misgərlər), pambıq parça istehsalı (sadə pambıq parçalar), örtülü bazarı (çoxsaylı dükanları olan) barədə də məlumat verməyi unutmur.

Professor T.H.Nəcəfli “Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri” monoqrafiyasında Qaraqoyunlu hökmdarı Qara Yusiflə Şirvanşah İbrahimin münasibətlərinə xüsusi diqqət vermiş, qaraqoyunluların Kür sahilində 1412-ci

ilin dekabrında əldə etdiyi qələbədən sonra Şamaxını ələ keçirmələrinə aydınlıq gətirmişdir.

Bu müəllifin "Səfəvi-Osmanlı münasibətləri" kitabında 1578-1580-cı illər Səfəvi-Osmanlı müharibəsi zamanı Osmanlı ordusunun Şamaxını ələ keçirməsi, Şamaxı uğrunda Səfəvi ordusunun apardığı mübarizə, Mollahəsən döyüşündə mühüm qələbə qazanaraq Osmanlı ordusunu Dərbəndə sıxışdırması hadisəsi ətraflı şərh olunmuşdur.

Görkəmli tarixçi Həsi Abdullayevin böyük həcmli və son dərəcə faydalı kitabında tarixi şəhər və Şamaxı xanlığının ticari-iqtisadi mərkəzi olan Şamaxı haqqında (köhnə və yeni Şamaxı) olduqca geniş məlumat vardır..

Tarix üzrə fəlsəfə doktoru Sevda Süleymanova ərəbcədən tərcümə etdiyi "Car salnaməsi" əsərinin Şamaxıya aid olan səhifələrində carlıların gah Surxay xanın (Qazıqumuxlu – Ş.F.), gah da Ümmə xanın tərəfində olduqlarını, Şamaxının Surxay xanın ordusu ilə mühasirəyə alındığını, "Şamaxıdan gələn qızılbaşlarla döyüşdüyünü, Nadir-Surxay münasibətlərini oxucu nəzərinə çatdırır".

Kitabın şərhlər hissəsində belə məlumat vardır: "Nadir şahın Şamaxını döyüşlə və ya müqavimətsiz alması haqqında müxtəlif və təzadlı məlumatlar mövcuddur. Bəzi mənbələr Şamaxının iki aylıq mühasirədən sonra alınması və kəskin müqavimətə görə əhalinin Nadir şah tərəfindən köçürülməsi və şəhərin yandırılması haqqında, bəzi mənbələr isə Surxay xanın

Şamaxını tərk etməsi və şəhərin döyüşsüz təslim olması və ya İran ordusunun əvvəlcədən təşkil olunmuş plan nəticəsində şəhərə xəlvəti daxil olması haqqında məlumat verirlər.

Qeyd edildiyi kimi, bu vaxt Surxay xan Qazıqumuxda olurdu. Şamaxıda isə onun valiləri otururdu. Yeni Şamaxının salınmasını 1736-cı ilə aid edilir. Mənbələr (İ. Kaluşkin, C. Xanvey və s.) Şamaxının dağıdılmasını baş verən iğtişaşlarla əlaqələndirirlər. S. Kişmişev yazırdı ki. Surxay xanı cəzalandırmaq üçün Dağıstana girə bilməyən Nadir şah hirsini Şamaxıdan çıxdı. A. Yerevantsi, C. Xanvey, C.O. Kişmişev və s. müəlliflər və həmçinin "Армянская анонимная хроника" Nadirin Gəncədən çıxaraq Şirvana hücum etməsini və ləzgilərin hər cür üsyan və yürüşlərdə yuvaları olan Şamaxını dağıtmasını qeyd edirlər. Gəncə isə osmanlıların əlindən 1735-ci il iyulun 9-da alınmışdı. Şamaxının dağıdılması və əhalinin çox hissəsinin öldürülməsi, qalanlarının isə Yeni Şamaxıya (Ağsu) köçürdülməsi, görünür, Nadir şahın Şamaxıya ikinci yürüşündə, birinci dəfə Şamaxını döyüşsüz almasından sonra, Gəncədə olduğu kimi, şəhərin sünni əhalisi tərəfindən törədilmiş iğtişaşlar nəticəsində baş vermişdi".

Tarix üzrə fəlsəfə doktoru Nailə Bayramovanın samballı "Şamaxı xanlığı" kitabaında Şamaxının tarixşünaslığı təfərrüatla verilmişdir. Monoqrafiya XVIII yüzilliyin II yarısı – Şamaxı xanlığının mövcud olduğu dövrdən, XIX yüzilliyin I rübünə - II Rusiya-İran müharibəsinin başlanmasına qədərki

dövrü əhatə edir. Kitabda Şamaxı xanlığının yaranması, ikihakimiyyətlilik illəri, xanlığın sosial-itisadi vəziyyəti, qonşu dövlətlərlə iqtisadi-ticarət əlaqələrinə müəyyən aydınlıq gətirilmiş, əsasən xanlığın qonşu xanlıqlarla və dövlətlərlə siyasi münasibətlərinə, eləcə də XVIII yüzilliyin sonu – XIX yüzilliyin əvvəllərində Mustafa xanın Şamaxı xanlığının müstəqilliyi uğrunda apardığı mübarizəsinə də yer verilmişdir. Şamaxı xanlığının müəyyən dövrlərdə Quba xanlığının tərkibinə qatıldığını nəzərə alaraq, xanlığın müəyyən dövr tarixi ilə bağlı qeyd olunan məsələlərə məhz Şamaxı xanlığının müstəqillik uğrunda mübarizəsi kontekstindən yanaşılmalıdır.

Şamaxı şəhəri həmişə strateji əhəmiyyətli ərazi kimi qonşu dövlətlərin diqqət mərkəzində olmuşdur. XVIII əsrin əvvəllərində yaranmış beynəlxalq şəraitdən və Səfəvi imperiyasının zəifləməsindən istifadə edən satqın ermənilər çoxdankı arzuları olan Azərbaycan torpaqlarını ələ keçirmək üçün xüsusi planlar hazırlayaraq, bunları gerçəkləşdirmək üçün özlərinə xaricdə dəstək axtarırdılar. Bununla da Rusiyada danışıqlar aparan İsrail Ori adlı erməni I Pyotru yürüşə şirnikləndirmək üçün Cənubi Qafqazda olan ermənilərin sayını süni şəkildə artıraraq, çara saxta, şişirdilmiş məlumatlar verir, tarixi Azərbaycan şəhərlərindən Şamaxı, İrəvan, Naxçıvan və başqa şəhərlərimizdən azərbaycanlıları qovmaq və rus qoşunlarını burada möhkəmləndirmək kimi məkrli siyasət hazırlayırdılar. Bu layihədən başqa, 1701-ci il iyulun 25-də I

Pyotra rus qoşunlarını Cənubi Qafqaza yürüşə həvəsləndirmək məqsədi ilə 18 bənddən ibarət xüsusi hərbi müdaxilə planını da göndərmişdi. O, öz məktubunda I Pyotrdan Cənubi Qafqaza yürüş zamanı Şamaxı şəhərini xüsusi nəzarət altında saxlamağı xahiş edirdi. İ.Orinin planına görə 5 min atlı və 5 min piyadadan ibarət olan rus qoşununun gəmilərlə Niyazabada gəlməli, oradan quru yolla Şamaxı istiqamətində irəliləməli və xristian süvarisinin köməyi ilə Şamaxı şəhəri 2 saat müddətinə ələ keçirilməli idi. Rusiya imperatorunun Şərq siyasətində Şimal-Şərqi Azərbaycan mühüm əhəmiyyət kəsb edirdi. Hətta Şirvan üsyanından əvvəl Peterburqda qarşıda duran yürüş barədə tərtib olunan sənədlərdə bu yürüş "Şamaxı ekspedisiyası" adlandırılırdı.

Şamaxı şəhəri xanlıqlar dövründə həm paytaxt statusunu, həm də, iqtisadi, siyasi və mədəni əhəmiyyətini qoruyub saxlamışdır. XVIII əsrin əvvəllərində Şamaxıda olmuş ingilis səyyahı Con Bell şəhəri dağ döşündə amfiteatr şəklində tikilmiş şəhər kimi xatırlayırdı. Həqiqətən də o zamankı təsvirlərə diqqət yetirsək, bunun şahidi oluruq. Lakin şəhər Nadir xan Əfşar tərəfindən 1734-cü ildə dağıdıldığı üçün əhalinin Yeni Şamaxıya köçürülməsi ilə əlaqədar Şamaxının adı tarixi ədəbiyyatda "Köhnə Şamaxı" kimi çəkilir. XVIII yüzilliyin 70-ci illərində Şamaxıda 1000-ə yaxın evdə 5-6 min adam yaşadığı, şəhərlərin inzibati cəhətdən məhəllələrə bölünməsini də mənbələrin şəhadəti ilə öyrənirik. Bu dövrün

məşhur səyyahı S.Qmelinin verdiyi məlumata görə, Köhnə Şamaxı doqquz məhəlləyə bölünürdü: Yuxarı qala, Sarıtorpaq, Qala bazar, Yəhudi, İmam, Meydan, Şahpəri, Gilandibli, Nar ağacı məhəllələri. Məlumatlardan aydın olur ki, xanlığın paytaxtı kimi özünün çiçəklənmə dövrünü yaşayan Köhnə Şamaxı sənətkarlıq mərkəzi olmaqla yanaşı, həm də böyük ticarət mərkəzi idi. Şamaxı şəhərinin əhalisi sanki ticarət üçün yaranmışdır. Bu ərazinin iqlimi və torpağının məhsuldar olmasından irəli gəlirdi.

Qubalı Fətəli xanın birləşdirmə siyasətində Şamaxı mühüm əhəmiyyət kəsb edirdi. Belə ki, xanın bu şəhərlə bağlı xüsusi planı da vardı. Buna görə də Şamaxını tutub, buranı paytaxta çevirməyə çalışırdı. Gələcəkdə bu planını gerçəkləşdirmək üçün o, 1768-ci ildə Şamaxı xanlığını Qubaya tabe edərək, Dərbənd, Quba və Salyandan köhnə Şamaxıya minlərlə ailə köçürmüşdü. O, eyni zamanda 1769-cu ilin iyulunda Yeni Şamaxını viran qoyaraq, onun əhalisini yenidən köhnə Şamaxıya köçürmüşdü. Lakin, 1789-cu ildə qubalı Fətəli xanın ölümündən sonra, Şamaxı xanlığında hakimiyyət uğrunda daxili çəkişmələr baş vermiş, nəhayət, 1792-ci ildə həmin mübarizədə Mustafa xanın qalibiyyəti ilə başa çatmışdır. Bu zaman Mustafa xan paytaxt şəhər kimi köhnə Şamaxını deyil, Yeni Şamaxını mərkəz seçirsə də, yüzilliyin sonunda bütün əhali Köhnə Şamaxıya qayıdır.

Qəribədir ki, bu ərazidə tez-tez zəlzələ olur və dağıdıcı yürüşlər nəticəsində şəhər viran qalırdı. Lakin qısa müddətdə şəhər dirçəldilir və bərpa edilirdi. Bu cəhəti diqqətdə saxlayan və XVIII yüzilliyin sonlarında Azərbaycanda olan S.Bronevski buna əhalinin səyi və ticarətə olan marağı ilə əlaqələndirərək, qeyd edirdi ki, "ticarət və sənətin qədim ruhu Şamaxıda hələ tamamilə sönməmişdi". Şamaxı şəhərində ticarətə əhəmiyyət verildiyindən Rusiyadan İrana və Hindistana, yaxud əks istiqamətə mal aparan tacirlər çox zaman Bakı və Niyazabad limanları vasitəsilə Şamaxıya gəlir, burada mal mübadiləsi aparırdılar. Bakıdan Tiflisə gedən yol Şamaxıdan keçdiyi üçün Şamaxının ticarət dövriyyəsində oynadığı rol əhəmiyyətlidir. S.Zevakin Şamaxının hələ XVI-XVII yüzilliklərdə Rusiyanın Səfəvi dövləti ilə ticarət əlaqəsinin mərkəzi olduğunu xatırladırdı.

XIX yüzilliyin əvvəllərində Rusiyanın Şimali Azərbaycanı işğal etmək planında Şamaxı xanlığına da önəm verilirdi. 1805-ci il Qarabağ və Şəki xanlığı ilə Kürəkçay müqaviləsindən sonra oxşar müqavilə Şamaxı xanlığı ilə də bağlanmalı idi. Şamaxı xanı Mustafa xan vaxt qazanmaqla çardan müəyyən tələblər edib rus qoşunlarına müqavimət göstərsə də, sonra Şamaxı xanlığının daxili müstəqilliyi saxlanılmaqla Rusiya imperiyasının tərkibinə qatılmışdır. Lakin, tarixi hadisələrin sonrakı gedişi bu xanlığın da 1820-ci ildə tamamilə ləğv edilməsilə nəticələnir. Xanlığın ləğvindən

sonra Rusiya öz planlarını yerinə yetirmək üçün növbəti taktiki addımlarını ataraq, 1846-cı il 14 dekabr qanununa əsasən Xəzər vilayətini ləğv edərək ilk quberniyalardan biri olan Şamaxı quberniyasını təşkil edir. Şəhərin quberniya mərkəzinə çevrilməsindən sonra baş verən dağıdıcı zəlzələ yenidən paytaxtın Bakıya köçürülməsinə gətirib çıxarır. Buna baxmayaraq, Şamaxı əhalisi şəhərin bərpa edilib yenidən dirçəldilməsinə səy göstərirdilər.

Şamaxı şəhəri tarixin sonrakı dövrlərində bir maarifçilik mərkəzi kimi də diqqəti cəlb edir. Xalqın maariflənməsində məktəb şəbəkələrinin artırılmasında , o zaman üçün din xadimləri tərəfindən "kafir məktəbləri" adlandırılan "Üsuli-cədid"in təşkil edilməsi böyük hadisə idi. Bu məktəb maarifpərvər mütəfəkkir S.Ə.Şirvani tərəfindən yaradılmışdır. Yeni tipli dünyəvi məktəblərin təşkilində böyük rolu olan A.Çernyayevski. S.M.Qənizadə, M.Mahmudbəyov, A.Səhhət, M.Ə.Sabir kimi şəxsiyyətləri də məhz Şamaxı torpağı yetişdirmişdir.

Şamaxı şəhəri haqqında hələ açılmamış çox sirlər, oxunmamış xeylu mənbələr var. Qədim Şamaxının əsrlərin yaddaşından silinməyən "mədəni qatlarda" gizlənmiş sirlərini açan arxeoloji kəşfiyyat və qazıntı işləri davam etdirilir. Aparılacaq gələcək arxeoloji qazıntı-kəşfiyyat işləri və Şamaxıya aid aşкar ediləcəк yeni-yeni tapıntılar, ulu babalarımızın həyatı, məişəti və sənətкarlığı haqqında bir çox

yeniliklər verəcək, yeni-yeni kitablar yazılacaq və tariximizi daha dərindən öyrənməyə xeyli kömək edəcəkdir.

Alman alimi Dr. Lottar Veysin Şamaxıya səyahəti

Xalqımızın orta əsr həyatı ilə tanış olmaq için əvəzedilməz və son dərəcə qiymətli olan əcnəbi mənbələri tədqiq etmək, lazımı məlumat toplamaq və bunun əsasında tariximizin qaranlıq səhifələrini aydınlaşdırmaq mühüm əhəmiyyətə malikdir. Bu mənbələrin ölkəmizin paytaxtı haqqında verdiyi məlumat çox maraqlıdır və xalqımızın keçdiyi yolun öyrənilməsində əvəzsizdir.

Son orta əsr əcnəbi tarixçi, alim, təbiətşunas, coğrafiyaşunas, tacir, diplomat və səyyahları ölkəmizə səyahət edərək Azərbaycan şəhərləri, sənətkarlıq, ticarət və ticarət yolları haqqında xeyli dəyərli məlumat vermişlər.

1683-84-cü ilin qışında 77 gün Azərbaycanda olmuş, Bakının və Şamaxının qrafik rəsmini çəkib önəmli qeydlər etmiş, XVII əsr səyyahı Engelbert Kempferin külliyyatının tədqiqatçısı, alman alimi Dr. Lottar Veys 2011-ci ilin 22-31 may tarixlərində Bakıda olmuşdur.

Onun məqsədi 27-29 mayda Bakıda keçirilən Xəzər Universitetinin təşkil etdiyi Beynəlxalq simpoziumda iştirak etməklə bərabər, E.Kempferin 1683-84 cü illərdə Azərbaycanda keçdiyi yolları bir daha keçmək, Azərbaycanın

bir neçə bölgəsini səyahət etmək idi. O həm də özü ilə bərabər qədim Bakıya aid bizə məlum olmayan sənədləri, həmçinin E.Kempferin xəritələrinin, planlarının, çöl gündəliyindən qeydlərinin, şərhlərinin surətini, hətta onun haqqında çap olunmuş kitabı da gətirmişdir.

Dr. Lottar Veys E.Kempferin irsini öyrənən çox dəyərli alimdir. O, E.Kempferin küliyatını dərindən tədqiq etmək üçün onun anadan oldugu Lemqo şəhərinə köçüb orada məskunlaşmışdır. Lemqo şəhərinin mərkəzi kitabxanasında E.Kempferin arxivini yaratmış və bu günə kimi orada baş arxivarius vəzifəsində çalışır.

Alman təbiətşunası və səyahətçisi Engelbert Kempfer (1651-1716) Lemqo şəhərində anadan olmuş İsveç səfirliyinin кatibi кimi Rusiya, Azərbaycan və İrana səfər etmişdir. Avropaya qayıtmayan alim, Səfəvi dövlətinin şah sarayında tərcüməçi işləyən böyük nüfuz sahibi Rafael dü Manın (1613-1696) təкlifi və təкidi ilə İran кörfəzində olan Holland donanmasında qulluğa girmiş, on il ərzində müxtəlif Şərq ölкələrində olmuşdur.

E.Kempfer İran və Azərbaycanı gəzdikdən sonra 1685-ci ildə Bəndər Abbasda, 1689-cu ildə Kolomboda, 1690-cı ildə Banqkokda olur. O, 1690-92-ci illərdə Yaponiyayada yaşayır. Hətta tarix və mədəniyyətlərini qısqanan yaponlar onu tutub türməyə belə salırlar. Yaponiya, onun tarixi, coğrafiyası, etnoqrafiyası haqqında ilk məlumatları məhz E.Kempfer vətənə

qayıtdıqdan sonra 1712-ci ildə “Yaponiyanın tarixi” adlı kitabında çap etdirir.

E.Kempferin əsərlərində Azərbaycan haqqında geniş məlumat verilir. 1683-84-cü illərdə (dekabr-yanvar) Bakıda olmuş Kempfer şəhəri olduqca ətraflı və dəqiq təsvir etmişdir. O, həmçinin, Bakının neft və duz mədənləri, Abşeronda yanar qazın çıxması, Bakı və Abşeronun iqtisadiyatı, sosial həyatı, memarlıq və məişətinə dair bir sıra dəyərli məlumatlar vermişdir. Onun əsərinin ikinci hissəsində Abşeron, Bakı, neft quyuları haqqında məlumatlar xüsusilə maraqlıdır. E.Kempfer Kaspi (Xəzər) dənizinin xüsusiyyətləri, xəzərətrafı yerlərin bitki və heyvanat aləmi, təsərrüfatı, eləcə də Qafqaz dağlarının quruluşu, təsərrüfatı haqqında ətraflı məlumat verir. Qeyd etmək lazımdır ki, Kempfer əbədi odun ilk tədqiqatçılarındandır. Onun əsərində verilən şəkil və qravyuralar, Abşeron yarımadasının xəritəsi, Şamaxının, Bakının görüntüləri xüsusilə əhəmiyyətlidir. Qeyd etmək lazımdır ki, Bakının V.M.Sısoyevin – “Bakı keçmişdə və indi” kitabında verilən təsviri E.Kempferin əsərindən götürülmüşdür. Kempfer 1693-cü ildə vətəninə qayıtmış, 1712-ci ildə öz əsərlərini 5 cilddə latın dilində nəşr etdirmişdir.

Tanınmış alimlər F.Minorski, İ.Petruşevski, S.Aşurbəylinin tədqiqatlarında E.Kempferə xeyli istinad edilmişdir. Kempferdən xeyli sonra 1824 ci ildə Bakıda olmuş Kazan universitetinin professoru İ.Berezin onun təsvirlərini

sanki təstiqləyərək yazırdı : “Bakı qalası, doğurdan da iki cərqə hasar arsına alınmışdır. Dəniz tərəfdə isə divar yalnız bir cərqədir.”

Vaxtilə XVIII əsrdə yaşamış Slooun adlı zəngin bir şəxs öz şəxsi arxivində toplanmış E.Kempferin latın dilində yazılmış monoskritlərini Böyük Britaniya muzeyinin arxivinə vermişdi. Hal-hazırda bu materiallar muzeyin qızıl fondunda saxlanılır. Dr. Weiss bu sənədlərlə işləyə bilən yeganə şəxsdir. O, bu əlyazmaları latıncadan alman və ingilis dillərinə tərcümə, həmçinin tədqiq etmişdir. Hətta o E.Kempferin “Yaponiyanın tarixi” adlı əsərini latıncadan alman və ingilis dillərinə tərcümə edərək Yaponiyada məhşurlaşmışdır.

O, E.Kempferin Britaniya muzeyinin arxivində saxlanılan çöl gündəliyindən qeydlərini, monoskritləri, nadir sənədlərinin surətini bizə gətirdi. Bakı səfəri zamanı onun Bakını gəzməsini, həmçinin Abşeron, Qobustan, Şabran, Şamaxı, Hacıqabul istiqamətlərində səyahətini və qonağın İçəri Şəhərdə qəbulunu biz layiqincə təşkil etdik.

İlk səyahətimiz Şamaxıya oldu. Tanınmış memar, MEA-nın müxbir üzvü Cəfər Qiyasi səfərdə bizi müşayət edirdi. E.Kempfer 1683-cü ilin payızında Şamaxıda olmuşdu. O, Səfəvi hökmranlıgı dövründə Şamaxı hakimi olmuş Məhəmməd Hüseyn bəylə görüşmüş, onun evində qalmışdı. Əlyazmalarında Şamaxıda bəzi şəxslərlə keçirdiyi görüşlər haqqında geniş məlumat verir. O, gördüyü abidələrin epiqrafik

kitabələrini belə əlyazmalarında təsvir edir. Səhf etməsin deyə həmin kitabə mətnlərini molla taparaq ona yazdırır. E.Kempfer Şamaxının qrafik rəsmini çəkmişdir. Bu qrafik rəsm indiyə kimi heç yerdə çap olunmamışdır. O, yazdığına görə Şamaxıdan Bakıya gələrkən iki karvansarayda qalmış, Mərəzədə Diri Baba pirini ziyarət etmişdi. Bu karvansaraylardan sadəcə birinin qalıqlarını Mərəzənin mərkəzində xeyli axtarışdan sonra tapdıq. Diri Baba pirini ziyarət edib yolumuza davam etdik. Şamaxıda bizi t.e.d. Seyfəddin Qəniyev qarşıladı. Şəhərin tarixi haqqında məlumat verdi. İç qala divarı ətrafını, Gülüstan qalasını, "Şeyx Xəndan" və "Yeddi Günbəz" məzarliğını ziyarət etdik, E.Kempferin əlyazmalarında qeyd etdiyi yerləri birər-birər gəzdik.

İkinci səfərimiz Hacıqabul rayonuna Pir-Hüseyn xanəgahına oldu. Bizi bu səfərdə t.e.d. Seyran Vəliyev müşayət edirdi. Xanəgah qoruğunun direktoru Mübariz Əhmədov bizi yüksək səviyyədə qarşıladı. Dr. Weiss E.Kempferin xanəgah haqqında qeyd etdiyi hər bir kiçik detalı nəzərdən keçirir, onun yazdığı bütün məlumatları yoxlayırdı. O, hətta məscidin minarəsindəki pillələri heç kimə inanmayaraq özü saydı. E.Kempfer əlyazmalarında qala divarlarındakı merlonların, (şiş ucların) minarədəki pillələrin sayını, ətrafda olan hər şeyi incəliklərinə kimi təsvir etmişdi. E.Kempfer əlyazmalarında Pir-Hüseyn xanəgahının çox önəmli ziyarətgahlardan biri oldugunu özəlliklə qeyd edir. Dr. Lottar Weiss Hacıqabul

səfərindən böyük həzz aldığını dönə-dönə vurğuladı və fəxri qonaqlar kitabında öz məmmunluğunu və heyranlığını yazdı.

Üçüncü səfər Bakı-Quba yolu üzərində Gəndob kəndi yaxınlığındakı orta əsr Şabran şəhərinə idi. Bu səfərdə bizi t.e.d. Tarix Dostuyev müşayət edirdi. Tarix m. orta əsr Şabran şəhərinin tarixi haqqında qonağa geniş məlumat verdi. Dr. Lottar Weiss də bizə xatırlatdı ki, E.Kempfer Şabranda olduğu vaxt ona bu şəhərdə Aleksandrın məbədi olduğu deyiblər. O bu xəbəri duydyğu zaman çox sevinib. Çünki onun Makedoniyalı İsgəndər haqqında, eləcə də onun Azərbaycanda tanınması haqqında məlumatı var idi. E.Kempfer əlyazmalarında həmin Aleksandrın məbədinin qrafik rəsmini çəkmişdir. Əlbəttə ki, bu məlumatlar Şabran şəhərinin tarixinin öyrənilməsində əvəzsis rol oynayır.

Dördüncü səfər Abşeron ərazisinə idi. Bu səfərdə bizi t.e.n. İdris Əliyev müşayət edirdi. Əlyazmalarına görə E.Kempferin Abşeronda keçdiyi yolu izləyərək Qala Qoruğu, Atəşgah, Yanardağ, duz gölləri, Abşeron müdafiə istehkamlarını və digər abidələri də ziyarət etdik. Qeyd etmək lazımdır ki, E.Kempfer əbədi odu görüb tədqiq edən tədqiqatçılardan biridir. Onun əsərində verilən şəкil və qravyuralar, Abşeron yarımadasının xəritəsi, neft quyuları, heyvanat aləmi haqqındakı bilik və təsvirlər böyük əhəmiyyətə malıkdir. Dr. Lottar Weiss monoskritlərə əsasən qeyd edir ki, E.Kempfer Bakıdan sonra Abşeronu da 1 gün ərzində

gəzmişdir. Gecəni bir evdə qonaq qalıb yenə Şamaxıya qayıtmışdır. Binə kəndində qonaq qaldığı evi əlyazmalarında təfərrüatı ilə təsvir edir. O, evin döşəməsinə salınmış gözəl xalçalardan, taxçalardakı gümüş qablardan və insanların əyinlərindəki milli koloritli geyimlərdən söhbət açır, bir sözlə maraqlı etnoqrafik məlumatlar verir. Suraxanı kəndində, Atəşgah yaxınlığında multanı tayfasından olan bir atəşpərəst hind tacirlə tanış olub xeyli söhbət edir. O əlyazmalarında qeyd edir ki, müsəlman ölkəsi olmasına baxmayaraq burada hind tacirlərinin kolonıyaları da mövcuddur.

Altıncı səyahətimiz E.Kempferin monoskritlərində qrafik rəsmini vermiş və qeydlər aparmış Qobustana idi. Bu səfərdə bizi Qobustanın tədqiqatçısı, arxeoloq, t.e.n. Firuzə Muradova müşayət edirdi. O, qonağa Qobustanın tarixindən danışdı. Dr. Weiss Qobustan qoruğunu heyranlıqla gəzib qaya təsvirlərini əli ilə oxşadı. Lottar Weiss Qobustan haqqında E.Kempferin əlyazmalarından bizə bəzi məlumatlar verdi.

Bu səfərlərdən sonra Dr. Lottar Veys artıq İçəri Şəhəri gəzməyi təklif etdi. Onun anlatdığına görə E.Kempfer Şamaxıdan Bakıya 5 atlı ilə bərabər 2 günə gəlmiş, 1684-cü il yanvarın 6-8-də Bakı və Abşeronu gəzmişdi. O, qış fəsli və pis hava şəraiti olduğuna baxmayaraq yol boyu bütün memarlıq abidələri haqqında məlumat vermişdir. Onu müşayət edən şəxslərdən biri zənci olduğu üçün Bakıda təşvişlə qarşılanmışdır. O qeyd edir ki, Bakı hakimi o dövrdə sultan

titulu daşıyırdı. Xarici vətəndaşlara aid şəhərə icazə - girişi fərmanı olmadığı üçün E.Kempferi həbs etmişlər. Əlyazmalardakı təsvirlərə görə biz səyyahın həbs edilən yerini tapdıq. Bura Multanı karvansarayının alt mərtəbəsi idi. O, həbsdən qaçaraq şəhəri bir gün içində gəzmış və onun qrafik rəsmini çəkmişdi. Qorxu altında gördüyü bütün memarlıq abidələrini özü yazdığı kimi diz üstündə olsa belə kitabçasına qeyd etmişdi. E.Kempfer İçəri Şəhərin şimal giriş qapısı üzərində gördüklərini belə şərh edirdi: "Üzbəüz dayanan iki şir qala divarlarını, ortadakı öküz başı dövləti (iç qalanı) günəş və ay altında gecə-gündüz qoruyur."

Onu da qeyd etmək yerinə düşərdi ki, Dr. Lottar Weisslə bərabər E.Kempferin Bakı qrafik rəsmini diqqətlə araşdırarkən Qız Qalası yanındakı məscidin məhz minarəli olduğu anlaşıldı. Bu məscid İçəri Şəhərdə olan ən qədim məsciddir. Onun varlığı 1998-ci ildə Qız Qalası ətrafında F.İbrahimovun rəhbərliyilə aparılan arxeoloji qazıntılardan sonra aşkara çıxmışdı. IX əsrə aid edilən məscidi və onun minarəsini E.Kempfer XVII əsrdə tərtib etdiyi qrafik rəsminə salmışdı. Amma bu günə kimi biz qrafik rəsmdə minarəni görmürdük. Daha doğrusu minarə işarətini biz Qız Qalasına aid bir atribut kimi qəbul edirdik. Bu ərazidə minarənin aşkar edilməsi qədim Bakının tarixinin araşdırılmasında çox böyük rol oynayır.

Alman səyyahı və həkimi Engelbert Kaempferin Şamaxıya səfəri

Engelbert Kaempfer kimdir. Alman təbiətşunası və səyahətçisi Engelbert Kempfer (1651-1716) Lemqo şəhərində anadan olmuş İsveç səfirliyinin кatibi кimi Rusiya, Azərbaycan və İrana səfər etmişdir. Avropaya qayıtmayan alim, Səfəvi dövlətinin şah sarayında tərcüməçi işləyən böyük nüfuz sahibi Rafael dü Manın (1613-1696) təкlifi və təkidi ilə İran кörfəzində olan Holland donanmasında qulluğa girmiş, on il ərzində müxtəlif Şərq ölкələrində olmuşdur.

E.Kempfer İran və Azərbaycanı gəzdikdən sonra 1685-ci ildə Bəndər Abbasda, 1689-cu ildə Kolomboda, 1690-cı ildə Banqkokda olur. O, 1690-92-ci illərdə Yaponiyayada yaşayır. Hətta tarix və mədəniyyətlərini qısqanan yaponlar onu tutub türməyə belə salırlar. Yaponiya, onun tarixi, coğrafiyası, etnoqrafiyası haqqında ilk məlumatları məhz E.Kempfer vətənə qayıtdıqdan sonra 1712-ci ildə “Yaponiyanın tarixi” adlı kitabında çap etdirir.

E.Kempferin əsərlərində Azərbaycan haqqında geniş məlumat verilir. 1683-84-cü illərdə (dekabr-yanvar) Bakıda olmuş Kempfer şəhəri olduqca ətraflı və dəqiq təsvir etmişdir. O, həmçinin, Bakının neft və duz mədənləri, Abşeronda yanar qazın çıxması, Bakı və Abşeronun iqtisadiyatı, sosial həyatı, memarlıq və məişətinə dair bir sıra dəyərli məlumatlar vermişdir. Onun əsərinin ikinci hissəsində Abşeron, Bakı, neft quyuları haqqında məlumatlar xüsusilə maraqlıdır. E.Kempfer Kaspi (Xəzər) dənizinin xüsusiyyətləri, xəzərətrafı yerlərin bitki və heyvanat aləmi, təsərrüfatı, eləcə də Qafqaz dağlarının quruluşu, təsərrüfatı haqqında ətraflı məlumat verir. Qeyd etmək lazımdır ki, Kempfer əbədi odun ilk tədqiqatçılarındandır. Onun əsərində verilən şəkil və qravyuralar, Abşeron yarımadasının xəritəsi, Şamaxının, Bakının görüntüləri xüsusilə əhəmiyyətlidir.

Qeyd etmək lazımdır ki, Bakının V.M.Sısoyevin – "Bakı keçmişdə və indi" kitabında verilən təsviri E.Kempferin əsərindən götürülmüşdür. Kempfer 1693-cü ildə vətəninə qayıtmış, 1712-ci ildə öz əsərlərini 5 cilddə latın dilində nəşr etdirmişdir.

Vaxtilə XVIII əsrdə yaşamış Slooun adlı zəngin bir şəxs öz şəxsi arxivində toplanmış E.Kempferin latın dilində yazılmış monoskritlərini Böyük Britaniya muzeyinin arxivinə vermişdi. Hal-hazırda bu materiallar muzeyin qızıl fondunda saxlanılır. Dr. Weiss bu sənədlərlə işləyə bilən yeganə şəxsdir.

O, bu əlyazmaları latıncadan alman və ingilis dillərinə tərcümə, həmçinin tədqiq etmişdir. Hətta o E.Kempferin "Yaponiyanın tarixi" adlı əsərini latıncadan alman və ingilis dillərinə tərcümə edərək Yaponiyada məhşurlaşmışdır.

O, E.Kempferin Britaniya muzeyinin arxivində saxlanılan çöl gündəliyindən qeydlərini, monoskritləri, nadir sənədlərinin surətini bizə gətirdi. Bakı səfəri zamanı onun Bakını gəzməsini, həmçinin Abşeron, Qobustan, Şabran, Şamaxı, Hacıqabul istiqamətlərində səyahətini və qonağın İçəri Şəhərdə qəbulunu biz layiqincə təşkil etdik.

E.Kempfer 1683-cü ilin payızında Şamaxıda səyahət etmişdi. O, Səfəvi hökmranlığı dövründə Şamaxı hakimi olmuş Məhəmməd Hüseyn bəylə görüşmüş, onun sarayında qalmışdı. Əlyazmalarında Şamaxıda bəzi şəxslərlə keçirdiyi görüşlər haqqında geniş məlumat verir. O, gördüyü abidələrin epiqrafik kitabələrini belə əlyazmalarında təsvir edir. Səhf etməsin deyə həmin kitabə mətnlərini molla taparaq ona yazdırır. E.Kempfer Şamaxının qrafik rəsmini çəkmişdir. Bu qrafik rəsm indiyə kimi heç yerdə çap olunmamışdır. O, yazdığına görə Şamaxıdan Bakıya gələrkən iki karvansarayda qalmış, Mərəzədə Diri Baba pirini ziyarət etmişdi.

Yalnız onun Şamaxıya səfəri haqqında təfsilatlı məlumat hələ də naməlum olaraq qalır. E.Kempferin apardığı gündəlik (*beş dildə yazılmış və beş hissədən ibarət olan kitab*) müxtəlif nominasiyalar üzrə və millətlərin nümayənələrindən ibarət

yeddi yerli və xarici hərbçi, diplomatların adlarını və əlaqə məlumatlarını özündə əks etdirir. Onun əlaqələrinin və bu şəxsiyyətlərin həyatı haqqında təfərrüatlı məlumat E.Kempferin "Amoenitates" və Avropa və İran səyyahları - Şarden, Taverniyer və İbn Məhəmməd İbrahim - kitablarında öz təsdiqini tapır. Bütün bunlar Şamaxının mədəniyyətlərarası əlaqələrin mövcud olduğu mühüm bir şəhər olduğunu göstərir.

E.Kempfer on il ərzində (1683-1692) Rusiya, İran, Hindistan, Siam, Yaponiya və Cənubi Afrikanın müxtəlif yerlərinə səyahət etmişdir.

İsveç nümayəndə heyətinin katibi vəzifəsində olaraq əvvəlcə o Persiya Şahı Süleymanın sarayına, daha sonra Hollandiyanın *"Verenigde Oostindische Compagnie"* ticarət şirkətində qulluq edərək Yaponiyaya gedir. 1727-ci ildə Londonda E.Kempferin *"Yaponiyanın tarixi"* adlı nəşr olunmuş əsəri bir əsrdən çox olaraq Yaponiya haqqında məlumat kitabçası kimi qalaraq əhəmiyyət daşıyıb.

Xəzər dənizi sahilində olarkən Niyazabad şəhərində və onun ətraf ərazilərində üç gün qalmışdı. Bu səfərin hesabatını *"Amoenitatum exoticarum"* adlı əsərinin bir hissəsi kimi olan *"Exotic Pleasures"* adı altında nəşr etdi. E.Kempferin bu əsərindən Azərbaycan və Rusiya ədəbiyyatında geniş istifadə edilib. Bu kitablar və məqalələr arasında E.Kempferin məlumatlarından ən geniş Sara Aşurbəylinin *"Bakının tarixi"*

(Bakı, 1998) əsərində istifadə edilib. Müəllif E.Kempferin əsərindən 30 istinad verib.

E.Kempferin 1712-ci ilə təsadüf edən Bakı haqqında baxışları tez-tez reproduksiya olunub.

Antoni Cenkinson. Şamaxı. Qrafik rəsm. 1564-cü il

Engelbert Kempfer. Şamaxı. Qrafik rəsm. 1683 dekabr.

Adam Oleariy. Şamaxı. Qrafik rəsm. 1656-cı il.

Naməlum rəssam. Şamaxı. Qrafik rəsm. Son orta əsrlər.



Engelbert Kempfer. Bakı. Qrafik rəsm. 1683 dekabr.

Lottar Veysin Bakı səyahəti. Şirvanşahlar sarayı.

Lottar Veysin Şamaxı səyahəti. Ə.Xaqaninin heykəli önündə

Lottar Veysin Hacıqabul cəyahəti. Pir Hüseyn xanəgahı.

Xəzər Universitetində konfrans zamanı.

Lottar Veysin Abşeron səyahəti. Qala qoruğu.

Lottar Veysin Qobustan rayonu səyahəti.

Mərəzə kəndi. Qədim karvansaray

Professor Lotar Veyslə E.Kempferin səyahəti haqqında müzakirə.

Mərəzə kəndi. E.Kempferin 1684-cü il yanvarın 2-də qaldığı qədim karvansaray qalıqları.

E.Kempfer Şamaxıda. Bakı haqqında yazılarından fərqli olaraq o, Şamaxıda 1683-cü ilin dekabr ayından - 1684-cü ilin yanvar ayına qədər bu şəhərdə qaldığı dövr ərzində yazdıqları məlumatları çap etdirməmişdi. Lakin o, Gülüstan qalasının yerləşdiyi dağın geoloji xüsusiyyətlərini izah edərkən, Şamaxı şəhərinin 1712-ci ilə təsadüf edən və az məlum olan görüntüsünu təsvir edir. Hər zaman olduğu kimi, tarixi abidələrə böyük maraq göstərən E.Kempfer Gülüstan qalasını və onun sağında yerləşən köhnə dəfn yerləri mövcud olduğu dağı da ziyarət etmişdi.

E.Kempferin Şamaxıda keçirdiyi dövrə aid məlumatları müfəssəl şəkildə əks etdirən səyahət gündəliyi müasir zamanda Londonun Britaniya kitabxanasında qızıl fondda saxlanılır. Bu gündəlik qarışıq latın və alman dillərində yazılıb, yüngül zədələnmiş vəziyyətdə olduğu üçün onun müəyyən hissələrinin oxunması mümkün deyil. Gündəlik bir sıra tikililərin və kitabələrin eskizlərini əhatə edir. Azərbaycana səfərləri zamanı o maraqlı müşahidələr aparmışdır. E.Kempferin gündəliyinin böyük hissəsi Karl Meyer-Lemqo tərəfindən oxunub və 1968-ci ildə alman dilində nəşr etdirilib.

E.Kempferin Şamaxı haqqında hesabatı Adam Oleariynin kitabı kimi ətraflı olmasa da, şəxsi müşahidələri və qubernator tərəfindən iqamətgahında verilmiş naharın təsvirini əks edir. O, dörd karvansaray haqqında məlumat verir və onların birində qul bazarının mövcud olduğunu təsvir edir. Onun Gülüstan qalası və köhnə dəfn yerləri haqqında təsvirləri kifayət qədər ətraflıdır.

O, Şamaxıda qaldığı müddət ərzində bir neçə nəfər nüfuzlu şəxsiyyətlərlə, o cümlədən diplomat, din xadimi və dövlət adamlarıyla görüşmüşdür. Xristian olduğu üçün Şamaxıda erməni məhəlləsində qalmağa məcbur olur və əslən erməni olan keşiş Arakel, həmçinin yepiskop Martirosla görüşür. Xatirələrini "yol qeydləri" kitabında yazmışdır.

Mahib Əli Molla ilə görüş. Şamaxı şəhərini tədqiq edərkən E.Kempfer məscid və məktəbləri də ziyarət etmişdir. Onun gündəliyində apardığı qeydlər qarışıq latın və alman

dillərində olduğundan bu ziyarətlərin biri haqqında yazdığı məlumat İngilis dilinə tərcümə olunmuşdur:



4. Maheb Aali Molla in Kaempfer's diary 1683/1684 and in Olearius' book 1663

Mahib Əli Molla haqqında E.Kempferin gündəliyindən (1683-1684) və A.Oleariynin kitabından (1663) qeydlər.

"Mən təxminən 70-80 yaşında, çevik və şux bir insanla danışdım, adını da mənim mücrümə yazdı. A.Oleariyə ərəb dilinin əsaslarını öyrətdiyini və "Olcarsın" (onu belə adlandırırdı) cəsarətli bir insan olduğunu, lakin ərəb dilinin əsaslarını hələ mükəmməl başa düşmədiyini söylədi. A.Oleariy onu xatırlayırdı ..."

E.Kempfer İsfahana səyahət edərkən, A.Oleariynin kitabını özü ilə aparmışdı. Ehtimal etmək olar ki, bu 1665-ci ildə nəşr edilmiş variantı olub. A.Oleariy 1637-ci ilin fevral ayında (21 fevral 1638-ci ildə) Şamaxıda olarkən yazırdı:

"Bu məktəbin Mollasının (müəllim) adı Mahib Əli idi. O, gənc, xoşməramlı və dindar bir insan idi və mənim dil öyrənməyimdə mənimlə çox gözəl dostluq etdi və xidmət göstərdi."

Hər iki səyyahın bu molla haqqında verdikləri informasiya, onun yaşı, eləcə də görüşlərinin baş tutduğu yerə dair təsvirləri tamamilə uyğun gəlir və bu bizə imkan verir ki, hər ikisinin Molla Mahib Əli ilə görüşdüklərini güman edək, lakin E.Kempfer təxminən 47 ildən sonra onunla tanış olmuşdu.

A.Oleariy bir neçə sətrdən sonra *"onların dilini"* öyrəndiyini, E.Kempfer isə *"ərəb dilini"* qeyd edir. Burada bir anlaşılmazlıqmı var? A.Oleariy və E.Kempfer Şamaxı şəhərinə gəldikdə hər ikisi ərəb qrafikası tipli dilləri bilmirdilər. Bir müddətdən sonra A.Oleariy ərəb, türk və fars dillərini fərqləndirə bilirdi. E.Kempfer fars dilində danışmağı öyrənmişdi və onun türk qrammatikası kitabı, həmçinin alman, fransız, latın, türk və fars sözlərindən ibarət lüğəti var idi.

Əslində A.Oleariy *"onların dilini"* öyrəndiyini qeyd etməklə, 1637-ci ildə Azərbaycan dilinin əsaslarına yiyələnməsini təsdiqləyir.

Keşiş Arakel ilə görüş. E.Kempfer səyahət etdiyi 20 il (1674-1694) ərzində "liber amikorumu" (*avtoqraf kitabı*) kitabını özü ilə gəzdirirdi. Hal hazırda bu kitab Detmoltda Lippe Dövlət kitabxanasında (*Lippische Landesbibliothek Detmold)* saxlanılır. Tədqiqatların başlanğıcından Avropaya qayıdana qədər o, tanış olduğu insanlara bu avtoqraf kitabını təqdim edərək xatirə bir yazı yazmaqlarını xahiş edirdi. Belə ki, kitab 25 qrafika və dildə yazılmış 130-dan çox qeydlərdən

ibarətdir. Karl Meyer-Lemqo 1952-ci ildə bir çox dilçilərin köməkliyi nəticəsində kitabın Alman dilinə tərcüməsini redaktə etməyə nail olmuşdur.



5. Entry into Kaempfer's liber amicorum by the priest Arakhel, Christmas 1683. (75 %) %) © LLB Detmold

Bu qiymətli kitab bilavasitə Şamaxıda yazılmış və beş hissədən ibarətdir. Birinci qeyd özünü "Arakel" kimi təqdim edən bir erməni keşişi tərəfindən yazılmışdır.

Fərqli təqvimlərin istifadədə olduğundan E.Kempfer burada bir qayda olaraq köhnə stil təqvimindən - Yulian təqvimindən istifadə edir. Qeyd edilmiş tarix Yulian təqviminə çevrildikdə 27 dekabr 1683-cü ilə təsadüf edir. Bu tarix Yulian təqviminin 6 yanvar 1684-cü ili ola bilməz, çünki həmin günü E.Kempfer Bakıda idi. Belə qənaət etmək olar ki, E.Kempfer erməni ibadətinin şahidi olmuşdur, hərçənd E.Kempfer Protestant məzhəbinə qulluq etmiş çox dini bir insan olmuşdur və Miladda xristian ibadətində iştirak etmişdir.

Arakelin yazdığı misralar əsasən xristianlığın ən mühüm dualarından biri olan “Ave Maria”, “Hail Mary” təqdimindən ibarətdir.

“Allah, bizi əzablarımızdan qurtar” duasını da ehtiva edir. Bu qeydlər bir keşişin təmsil edilməsinə bənzəyirmi? Digər tərəfdən isə Arakel “*Doktor Engelbert Kempferi gördüm*” yazır. Əslində isə Arakelin qeyd etdiyi əzablar, həkim və qeydinin xüsusiyyəti onun xəstə bir adam olduğuna istinad edir və E.Kempfer onu bir xəstəsi kimi muayinə etdiyini ifadə edir.

E.Kempferin gündəliyində onun səfər boyu tibb peşəsini tətbiq etdiyi digər hallar da öz əksini tapmışdı.

Murad xanın oğlu Martirosla görüş. Ehtimal etmək olar ki, sözügedən Martiros Meysar erməni monastırının episkopu və baş keşişi, 40 ildən sonra 1724-ilin fevral-mart tarixlərində Dərbəndin rus komandanlığına Osmanlı-Türk əsgərlərinə qarşı çıxış etməyə çağıran məktublar yazmış Martirosla eynilik təşkil edir.

Martiros, son of Murad Chan

The next entry (see ill. 6) [17] has a number of pecularities.

6. Entry of Martiros, son of Murad Chan 1683/1684 (75 %) © LLB Detmold

Məhəmməd Hüseyn Bəylə görüş. E.Kempfer Şamaxıdan Bakıya getdiyi günü, "liber amicorum"a üçüncü qeyd daxil edilir.

Qeydin müəllifi özünü səfir Məhəmməd Hüseyn Bəy kimi təqdim edir. E.Kempfer öz növbəsində əlavə edir: *"İranın Polşa kralığındakı səfiri"*. Qeydin tarixi səfər ayının 1-i, yəni Yulian təqviminin 9 yanvar 1684-cü ilinə aiddir. Məhəmməd Hüseyn E.Kempferə bir sıra tərifler söylədiyindən sonra öz sağlamlığının yaxşı vəziyyəti barəsində məlumat verir və ona dərin hörmət bəslədiyini ifadə edir.



7. Entry of Mohammed Hossein Beg, Jan. 9th 1684 j. (75 %) © LLB Detmold

Buradan aydın görünür ki, E.Kempfer Bakıya səfəri haqqında hesabatının əvvəlində qeyd etdiyi kimi, Məhəmməd Hüseyn Bəy Şamaxıda bir çoxları kimi E.Kempferin xəstəsi olmuşdur.

Məhəmməd Hüseyn Bəy haqqında məlumat müasir ədəbiyyatda da mövcuddur. Məşhur səyyah və cavahirat taciri olan J.Şarden, 1675-ci ilin may ayında İsfahandan Qəzvinə Şahın iqamətgahına gedir. Bu səfər zamanı onu "*Məhəmməd Hüseyn bəy*" müşayiət edirdi. Bu gənc, Bəhreyndən gəlmişdir, onun atası Məhəmməd Poquerbek Sultan Bahreynin qubernatoru idi. J.Şarden onu yüksək ruha malik və çox nəzakətli bir insan kimi təsvir edir.

Məhəmməd Hüseyn Bəyin sonrakı taleyi onun katibi İbn Məhəmməd İbrahimin İran səfirliyinin Ayutthayada Siam/Tailand kralı Narainin sarayına 1685-ci ildə göndərdiyi hesabatından bəlli olur. Həmin dövrdə *"Məhəmməd Hüseyn*

Bəy” Şahın mülkiyyətinin idarəçiliyində *xaşşa* vəzifəsini icra edirdi. O həmin heyyətin səfiri təyin olunur və sonra 1685-ci ilin iyun ayında Fars körfəzinin çıxış limanı olan Bəndər Abbasda xəstələnir. Dəniz səyahəti zamanı Məhəmməd Hüseyn Bəy çox əziyyət çəkir və muasir Myanmar-Burma sahilinə çatdıqda ödem xəstəliyinə tutulur. Siam padşahının göndərdiyi iki həkim ona kömək edə bilmir. Məhəmməd Hüseyn Bəy 19 dekabr 1685-ci il Tenasserim (müasir Myanmar) şəhərində vəfat edir.

Konstantin Xristoforovla görüş. Ertəsi günü E.Kempfer 4 səhifədən ibarət olan növbəti qeydlərini kitabına daxil edir. Onların biri yunan və üçü isə rus dillərində yazılmışdı.

Qeydin müəllif özünü Konstantin Xristoforov kimi təqdim edir. O zadəgan idi və Rusiya İmperiya Əlahəzrətlərinin elçisi, yunan və italyan dillərinin tərcüməçisi qismində xidmət göstərmişdi. “Bu sətrləri şərəfli həkim Engelbert Kempferə dostluq əlaməti olaraq yazıram. Qeydin tarixi Somakiya [Şamaxı], 10 yanvar 1684-ci il, Yulian təqvimi.”

8. Entry of Konstantin Christophorov, Jan. 10th 1684 j.; 3rd page of 4 (75 %) © LLB Detmold

Yunan mətni və Rus mətninin əsas hissəsi Bibliyadan gətirilmiş sitatlardan ibarətdir: *"Həkimin bacarığı onun başını uca edəcək və böyük şəxsiyyətlər ona pərəstiş edəcəkərlər"*. Başqa cümlədə deyilir: "*Biz həkimə müraciət edəndə belə gərək Allahdan ümidimizi üzməyək"*. Bu qeydlərdə E.Kempferin həkim peşəsinə təkrarən istinadlar Rusiya İmperiyasının elçisi K.Xristoforovun da E.Kempferin xəstəsi olduğundan bəhs edir.

E.Kempfer ilk dəfə K.Xristoforovla Rusiya və İsveç nümayəndə heyətlərinin Niyazabad şəhərinə eyni gündə gəldiklərində görüşürlər. Hər iki heyət üç həftə gözləmək məcburiyyətində olduğundan onlar birlikdə Şamaxıya yollanırlar. Görünür Şamaxıda hər iki heyət dörd həftə ərzində erməni məhəlləsində ermənilərin evlərində qalıblar. E.Kempfer və K.Xristoforov birlikdə 16 dekabr 1683-cü ildə (Julian təqvimi) qubernator tərəfindən verilmiş ziyafətə qatılırlar. Bu

dövrdə onların arasında dostluq münasibətləri yaranır. Onlar eyni dildə ünsiyyət qururlar, K.Xristoforov yunan dilini bilirdi, E.Kempfer isə məktəbdə yunan dilini öyrənmişdi. Şamaxını tərk etməzdən son günün axşamı onlar birlikdə qonaqlığa qatılırlar. E.Kempferin özünün yazdığına görə bu qonaqlıqda o çox sərxoş olubmuş.


Idem con- Legati Ali-
gruit de officiosis dicere *Legationibus Ruthenorum*, quibus fubindè hæc aula molestatur. Noviſſimè dimiſſus urbe nondum exceſſerat, dum appelleret cum comitatu triginta ſervorum *Conſtantin Chriſtophorowitz*, natione Græcus, ejusdemque linguæ in aulâ Magni Ducis interpres. Hic poſt Tartaros introductus, ſalutatâ Majeſtate, ad convivandũ permanſit. Siniſtra illi in Legationibus fata erant; nam ante triennium cum magno comitatu ad Imperatorem Turcicum miſſus, in Ponto Euxino quinquaginta ſupra centum ex ſuis amiſerat, malignitate morbi extinctos. Hic verò ipſe per ſuum à ſecretis ſublatus veneno fuit; quod cum lentiùs in interſtina ageret, detecto crimine, vivum parricidam intra horti ſui pomœria rogo impoſitum, cum ephebo, ſceleris conſcio, combuſſit pridiè, quàm ipſe anno ætatis quadrageſimo exſpiraret. Vir Græce doctiſſimus, & longioris ævi dignus mihi Amicus.

9. Kaempfer's printed report of Christophorov's life (1712) (75 %)

Daha sonra onlar 1684 və 1685-ci ildə İsfahanda görüşərək, Şah Süleyman tərəfindən verilmiş qəbulda iştirak ediblər. E.Kempfer kitabının fars dilində olan hissəsində həmin möhtəşəm "Yeni il qəbulu" (çox guman ki, dekabr 1684-cü il) haqqında ətraflı məlumat yazır.

İlk sətrlərdə E.Kempfer K.Xristoforovun bu auditoriyaya təqdimatını təsvir edir və sonra davam edir:

"Onun diplomatik missiyalarına pis tale nəticəsində zərbə vuruldu. Üç il bundan əvvəl o, Türk imperatorluğuna göndərilmişdi və Qara dənizdə səfəri zamanı ölümcül bir xəstəlik nəticəsində 150 yoldaşını itirmişdi.

Daha sonra o katibi tərəfindən zəhərlənərək öldürülmüşdü. Bu insana uzun müddət ərzində təsir edən bir zəhər olduğundan cinayəti aşkar etmək mümkün olmuşdur. Onun qatilinin cinayət ortağı olan bir oğlanla bərabər bağçasının divarı önündə diri-diri yandılımışdılar. Bu hadisə onun ölümündən bir gün əvvəl baş vermişdi. O qırx yaşında vəfat etdi. O yunan dilində yüksək səviyyədə biliyə malik olan bir insan idi və daha uzun ömür yaşamağa layiq idi, dostum mənim". ***13 yanvar 1684-cü il, E.Kempferin gündəliyi və onun 25 noyabr 1687-ci il tarixli məktubu.***

Hafiz Saburcanla görüş. *"Şamaxıdan Moçan əyalətinə"* başlığı altında yazılmış hissədə o, 1684-cü ilin yanvar ayında Şamaxı şəhərində keçirdiyi son üç gündən bəhs edir. İlk sətırın birinci hissəsi belə tərcümə olunur *"13 yanvarda mənim xəstəm Navi Yüzbaşı Butari olmuşdur".* Yalnız E.Kempfer sözlərin sonunda qısaltmalardan istifadə etməsi səbəbindən bu yazı bir və ya daha çox xəstəyə aid olub-olmadığını başa düşmək mümkün deyil. Görünür, *"Nawi"* şəxsi addır, *"Yüzbaşı"* hərbi rütbəli kapitandır, *"Butari"* coğrafi bir termin ola bilər. Yanvarın 23-də E.Kempfer Talışda *"Butari"* adlı kiçik bir çayı keçir. Beləliklə, demək olar ki, Butari yaxınlığında doğulan kapitan Navi.

Nawi Jusbascy butari ... Hafi Saburjan

Kaempfer's diary has another passage which is of special interest to us (see ill. 10).[27]



10. Kaempfer's diary of Jan. 13th 1684 j. and his letter of Nov. 25th 1687 g.

Sonrakı yazı *"shengfiflauten"* kimi oxunur və bu günə qədər şərh edilməmiş olaraq qalır.

Bu sətrin sonuncu hissəsi *"Hafiz Saburcan səfərdə 80-100 Reichstaler dəyərində ağ atı təqdim etdi"*. Yazının əsas hissəsi aydındır: E.Kempferə yüksək dəyərli bir at verilmişdi. Lakin *"Hafi Saburjan"* qeyri-müəyyən olaraq qalır: bəlkə *"Hafiz"* fars adı Hafisdir, *"Saburcan"* fars bir ailənin adıdır? *"Hafiz Saburcan"*, *"Navi Jüzsbaşı Butari"*-ə əlavədirmi ya ikinci bir şəxsin adını qeyd edib?

Bəlkə də bu həll olunmayaraq qalacaq? E.Kempfer özü bu hadisəni təxminən üç il sonra, 25 noyabr 1687-ci ildə (Qriqorian təqvimi), Bəndər-e 'Abbasdan qardaşı İoaximə yazılmış bir məktubunda xatırlayır.

Məktubda deyilir: "... [*Şamaxıdan*] 100 Taler nəğd pulla və eyni dəyərdə olan hədiyə edilmiş bir ağ atla ayrıldım".

Şamaxıda E.Kempferin “liber amikorum”una yazılmış beşinci və son qeydi var.

İlk iki misra Türk dilində yazılmışdır, sonra isə qeyd farsca davam etdirilir. Tərcümədə yazı belə oxunur: “Şamaxı şəhərində Səfər ayının 8, 1095-ci ildə (donuz ilində) çərşənbə axşamı Şirvan əyalətinin Şahı Süleymana açınacaqlı vəziyyətdə bir qulluqçusu/qulu Əli Kuli/Qulu Xan gətirildi.”

Bu yazıda Hicri təqviminə uyğun qeyd edilmiş tarix Yulian təqviminin 16 yanvar 1684-cü ilinə təsadüf edir, bu isə E.Kempferin Şamaxını tərk etdiyi günə aid verdiyi məlumatla üst-üstə düşür. O, həm də çərşənbə günü olduğunu qeyd edir. Mürəkkəblə yazılmış *“Şamaxıda”* adlı səhifəyə E.Kempfer qələmlə Alman dilində bəzi məlumatları əlavə edib.

“Liber amicorum”a daxil edilən məlumatın hər bir müəllifin öz əli ilə yazılması nəzərdə tutulmuşdur (bu onun digər yazıları ilə müqayisə edilməlidir). Beləliklə, aşağıda sözü gedəcəyi qeyd müəllifin öz əli ilə yazılmışdır. Qeydin xüsusiyyətləri bunlardan ibarətdir: “Türk və Fars dillərində yazılmışdır”. Qeydin müəllifi yalnız adını yazıb, vəzifəsini və icra etdiyi funksiyaları yazmağı, göründüyü kimi, zəruri hesab etməyib. Yəni qeydin müəllifini Xan və Şirvan əyalətinin qubernatoru kimi təsbit edə bilərik.

E.Kempfer K.Xristoforovla görüşdüyü günü qubernator tərəfindən verilmiş ziyafət haqqında ətraflı məlumat verir. O qubernatorun malikanəsinıi, iştirak etmiş insanları və

yeməkləri təsvir edir. O, qısaca qubernatoru “Xan” ya “Sərdar” adlandırır və onun adını, yaşını və görünüşünün detallarını vermir. E.Kempfer yalnız Xanın Avropa kürsüsündə bardaş quraraq oturduğunu diqqətəlayiq olduğunu qeyd edir.

Əli Kuli Xan ilə görüş. O özünü *“Şah Süleymana qulam”* adlandırır. *“Qulam”* sözünün xidmətçi, qul ya kölə kimi tərcüməsi bu sözün tam mənasını əhatə etmir. Şəxsən özü tərəfindən özünü *qulam* müəyyən edərək, bununla şaha böyük sayda güclü və davamlı sədaqətlə bağlı olan insanlara məxsus olduğunu sübut edir. Onların əksəriyyəti hərbi qulluqçulardan və çüzi bir hissəsi İranın yüksək səlahiyyətli idarə rəhbərlərindən ibarət idilər.

Ali Kuli Chan

There is a fifth and last entry in Kaempfer's liber amicorum written in Schamachi (see ill. 11). [11]

11. Entry of Ali Kuli Chan, Jan. 16th 1684 J. (75 %) © LLB Detmold

Qulam kimi özünü siyahıda qeyd etmiş bir sıra kişilər arasında İran ordusunun baş komandiri də var idi. Onun adı II Şah Abbasın hakimiyyəti dövrünə aid 1666-cı ilin siyahısında

İranın şimal-şərq əyaləti olan Mərvin qubernatoru qismində 1645-ci ildə və ikinci dəfə Təbriz ətrafında yerləşən "Azərbalğan" əyalətinin qubernatoru kimi qeyd edilib. İkinci siyahının tərtib edildiyi il göstərilməyib, lakin *"sipahsalar"* rütbəsi, yəni İran ordusunun baş komandiri əlavə edilib.

Təxminən 40 illik böyük vaxt fərqi olduğuna baxmayaraq bunu müəyyən etmək üçün göstərdiyimiz cəhdə zidd deyil, lakin burada, Şamaxıda biz 70 yaşındakı bir insanı nəzərdə tutmalıyıq.

Sipahsalar vəzifəsinin böyük əhəmiyyət kəsb etdiyi Qərb səyyahlarının diqqətini cəlb etmişdi. J.Şarden II Şah Abbas tərəfindən Əli Qulu Xanın vəzifəsindən kənarlaşdırılması və yenidən onun varisi Şah Süleymanın hakimiyyətində vəzifəyə təyin edilməsi hadisələrini ətraflı təsvir edir. Yenidən baş komandir vəzifəsini icra edərək o Azərbalğanda yerləşən Mədienin qubernatoru təyin edilir. Həmin 1667-ci ildə Jan Baptist Tavernye də İsfahanda səfərdə olmuş və Əli Gulu Xan ətrafında baş verən hadisələrin bir az fərqli təsvirini verir və onun Gürcüstan əslili olduğunu qeyd edir.

Hesabatlarda verilən məlumatlara ehtiyatla yanaşmaq lazımdır, lakin yenə də hər iki səyyah yuxarıda qeyd olunan siyahıda eyni adam haqqında danışırlar. Lakin 1684-cü ildə Şamaxı qubernatorunun kimliyini araşdırmaq mümkün deyildir.

Səyyah Engelbert Kempfer - İsveç diplomatik

xidmətində olan Alman xristianı məhz burada, Şamaxıda ilk dəfə olaraq müsəlman mədəniyyəti ilə təmasda olur.

Akademik təhsilli həkim olaraq, o peşəsindən xeyirxahlıqla istifadə edir, belə ki, yəqin ki, Azərbaycan da anadan olmuş Navi Yüzbaşını, Məhəmməd Hüseyni və, ehtimal ki, Martirosu, bəlkə də Hafi Saburcanı da müayinə edir.

O xristian olduğundan Şamaxıda erməni məhələsində yaşayır və digər xristianlarla - keşiş Arakel, artıq yuxaıra qeyd edilən Martiros və, bəlkə də Hafi Saburcanla görüşür.

Erməni rahibi Arakel ilə yanaşı o, çox güman ki, Azərbaycanda doğulmuş və Şamaxıda yaşayan başqa din xadimləri Mahib Əli və müsəlman mollası ilə də tanış olur.

Bir diplomat kimi fəaliyyət göztərərək, o digər millətlərin nümyəndələrindən olan diplomatlarla, məsələn, Persiyanın Polşa kralığındakı səfiri Məhəmməd Hüseyn və xüsusilə Rusiya İmperatoruna xidmət etmiş Yunanıstandan olan dostu K.Xristoforovla gözəl münasibətlər qurur.

E.Kempfer hərbi qulluqçularla da əlaqələr qurmağa nail olur. Onların arasında yuxarıda adı çəkilən Navi və ehtimal ki, Gürcü mənşəli və bütün həyatını İran imperiyasının iki şahının hakimiyyəti dövründə baş komandir vəzifəsində xidmət etməyə həsr etmiş 1684-cü ildə isə Şirvan əyalətinin qubernatoru Əli Qulu Xan olmuşdular.

Bir tərəfdən, şübhəsiz ki, bütövlükdə E.Kempferin Şamaxı təmasları sonrakı Hindistan, Siam və Yaponiyaya səfərləri zamanı xarici mədəniyyətlərin öyrənilməsi və anlaması istiqamətində göstərdiyi cəhdlərdə gözəl bir başlanğıc olur. Digər tərəfdən isə, Şamaxının tədqiq edilən dövrdə böyük imperiyaların görüş nöqtəsi və Avropa-Asiya sərhədində mədəniyyətlərarası əlaqələrin mübadiləsində böyük əhəmiyyət kəsb edən bir məkan olduğu görünür.



AMŒNITATUM
EXOTICARUM
POLITICO-PHYSICO-
MEDICARUM
FASCICULI V,
Quibus continentur
VARIÆ RELATIONES, OBSERVATIONES
& DESCRIPTIONES
RERUM PERSICARUM
&
ULTERIORIS ASIÆ,
multâ attentione, in peregrinationibus per universum Orientem, collectæ,
a
AUCTORE
ENGELBERTO KÆMPFERO, D.

2·12·–

LEMGOVIÆ,
Typis & Impensis HENRICI WILHELMI MEYERI, Aulæ Lippiacæ Typographi, 1712.

E.Kempferin 1712-ci ildə ölümündən sonra çap olunan kitab. Bu kitabda Şamaxı və ətraf yaşayış yerləri haqqında maraqlı faktlar və məlumatlar var.



1. *Engelbert Kaempfer from Sweden to Japan (1683 - 1692)*

E.Kempferin dünya səyahəti. 1683-1692.

2. *In Azerbaijan 1683/1684*

E.Kempferin Azərbaycan səyahəti. 1683-1684.

IV FƏSİL

Şamaxının Əngəxaran kəndi və ətraf ərazilərin tarixi abidələri

Əngəxaran yaşayış yeri. Əngəxaran kəndi Şamaxı şəhərindən şimalda, ondan 3 km-lik məsafdə yerləşir. Kənd Şamaxıdan Çuxuryurd qəsəbəsinə gedən şosse yolunun sol kənarındadır. Əngəxaran Quşqana və Binaslı dağlarının cənub ətəyində yerləşir.

Kəndin cənub və cənub qərbində 2-3 km. məsafədə isə Pirdirəki və Gülüstan dağları yüksəlir. Bu dağları bir-birindən sıldırım qayalı bir dərə ayırır. Qeyd etməliyik ki, Şirvanşahların vaxtilə qərargahı və möhkəm hərbi istehkamı olmuş məşhur Gülüstan qalası da Gülüstan dağının zirvəsində tikilmişdir.

Kənd qərb tərəfdən Zoğalavay çayı, şərqdən isə Şirəlik çayları arasında yerləşir. Kəndin ətrafı müxtəlif dövrlərə aid tarixi-arxeoloji abidələrlə zəngindir. Hansı ki, bu abidələr Əngəxaranın tarixi və maddi-mədəniyyətinin tədqiqi cəhətdən çox maraqlıdır. Həmin abidələrdən bir neçəsi qismən də olsa tarixi və arxeoloji cəhətdən öyrənilmişdir.

Əngəxaran kəndinin ətrafında sıx yaşayış məskənlərinin olması, xüsusilə XI-XIII əsrlərdə Şamaxı şəhərinin şimal, şimali-qərb və şimal-şərq hissələrində məskunlaşmanın güclü

olduğunu göstərir.

XIII əsrin sonu və XIV əsrin əvvəllərində abidəyə çevrilən bu yaşayış məntəqələrində görünür monqol qoşunlarının Azərbaycana hücumu nəticəsində həyat kəsilmişdir Onların bəzilərində yaşayış sonrakı əsrlərdə bu və ya başqa şəkildə bərpa olunmuş, bəziləri isə abidə kimi saxlanılmışdır.

Əngəxaran kəndi ərazisindən IX-XIII əsrlərə aid maddi-mədəniyyət nümunələrinin tapılması da təsadüfi hal olmayıb. Şübhəsiz işğalçı hücumların nəticəsidir. Kəndin ərazisində yaşayış XIV əsrdən etibarən bərpa olunmağa başlamış və sonrakı əsrlərdə köçüb bu əraziyə gələn əhalinin adı ilə "Əngəxaran" termini saxlanılmışdır. Aparılan bütün müşahidələr, toplanan sorğular və tapılan maddi-mədəniyyət qalıqları bunu təsdiq edir.

Yaşlı sakinlərin dediyinə görə ilkin olaraq bu yerdə köçən bir neçə ailə əvvəlcə Şirəlik dərəsi çayı yaxınlığındakı "Kavanı" deyilən yerdə məskən salmışlar. Bundan sonra köçüb gələnlərin yeni dəstəsi Zoğalavay çayı yaxınlığındakı "Çayqovuşan" deyilən ərazidə məskunlaşıb. Daha sonra köçənlər isə indiki Əngəxaran kəndinin yerləşdiyi ərazidə məskən salmışlar. Bu ərazi özünün coğrafi mövqeyinə görə daha əlverişli, hərtərəfli münasib olduğu üçün kənd əhli nəhayət bir yerə toplaşmışlar Əngəxaran kəndi bax beləcə yaranmışdır. Əlbətdə, Əngəxaran kənd əhalisinin bu əraziyə nə

vaxt köçməsi və daimi olaraq bu ərazidə məskunlaşması ilə əlaqədar bir çox məsələlərin elmi cəhətdən lazımdır.

Əsas məsələlərdən biri kəndin nə vaxt köçməyə başlaması tarixidir. Bunun üçün faktik materiallardan biri kənd qəbiristanlığıdır. Əlbətdə, qəbiristanlığındakı yazılı daşlarda göstərilən dəfn tarixi bütövlükdə Əngəxaranın tarix barədə fikir söyləmək baxımından çox əhəmiyyətlidir.

Yalnız bu yolla təxmini də olsa kəndin tarixini söyləmək mümkündür. Qeyd etməliyik ki, kəndin qəbiristanlığında belə müşahidələr aparılmışdır. Buradakı başdaşlarında fars-ərəb əlifbası ilə yazılmış kitabələrdə XIII əsrin II yarısından qədimə aid tarixi olan qəbr yoxdur.

Əngəxaranlıların erkən məskunlaşdığı ərazi arıçılıq təsərrüfatının inkişafı üçün çox əlverişli olmuşdur. Yerli əhalinin söylədiyinə görə, köhnə kənd çay qırağında hər tərəfi meşə ilə əhatə olunmuş dağın döşündə yerləşirmiş. Arıçılıq təsərrüfat üçün əlverişli olan bu ərazi əhalinin erkən məskunlaşması üçün çox münasibdir. Bu mənada güman etmək olar ki, kəndin adı da elə bu təsərrüfat sahəsi ilə əlaqəli olub.

Azərbaycanda orta əsrlərdə əhalinin əsas məşğuliyyəti ilə adlanan kənd adları çoxdur. Belə ki, əsas məşğuliyyəti dəmirçilik olan bir neçə kənd indi də Dəmirçi, Dəmirçilər adını saxlamaqdadır. Xüsusilə Şirvan zonası bu cəhətdən daha zəngindir.

Deyilənlərdən belə nəticə çıxarmaq olar ki, əhalinin

məşğuliyyəti ilə əlaqədar yaranan köhnə Əngəxaran kəndinin adı onun əhalisinin təx. XVII əsrin sonu – XVIII əsrin əvvəllərində indiki yerə köçməsi ilə əlaqədar olaraq yeni kəndə də verilmişdir. Maraqlıdır ki, yeni kənddə də köhnə peşə-arıçılıqla məşğul olanlar çox olmuşdur və iş indi də davam etdirilir.

Orta əsrlərə aid maddi-mədəniyyət nümunələri tapılan müasir Əngəxaran kəndi Şamaxıdan Çuxuryurda gedən şose yolunun qərb tərəfində, şərq-qərb istiqamətində yanaşı ucalan Quşqana və Binaslı dağlarının cənub ətəyindədir. Kəndi qərb tərəfdən Zoğalvay çayı, cənub və cənub-şərq tərəflərdən isə yeni salınmış üzüm və alma bağları əhatə edir. Əngəxaran orta əsr yaşayış yeri şimal tərəfindən yerləşən Quşqana və Binaslı dağlarından fərqli olaraq çökəklikdə yerləşir. Quşqana dağı Şamaxı Qız qalası dağı ilə təxminən eyni hündürlükdədir. 1963-cü ildə bu dağın şərq hissəsində orta əsr abidəsi aşkar edilmişdir. Buradan aşkar olunan və biləvasitə yaşayışla əlaqədar olan tikinti-inşaat qalıqları, təndirlər, su tüngləri (saxsı su boruları) və müxtəlif maddi-mədəniyyət nümunəklərinə əsasən bu yer yaşayış yeri adlandırılmışdır. Lakin abidənin coğrafi mövqeyi nəzərdən qaçmamış, onun əlçatmaz yerdə olmasına görə Şirvanşahların müdafiə qalaları ilə əlaqədar olduğu sübut olunmuşdur.

Kəndin qocaman sakinlərindən Məhmədalı Tağıyev, Məhəmməd Baxşıyev və b. dediklərinə görə əvvəlcə buraya,

bir neçə ailə köçmüş və sonra bütün Əngəxaran kəndinin əhalisi bu kəndə yığışmışlar. Hazırda köhnə kəndin yeri də Əngəxaran adlanır.

Qoca sakinlərin məlumatına görə kənd öz adını arıçılıq təsərrüfatında çox istifadə olunan bal arısının xoşladığı "Əngəbu" adlı bitkidən almışdır. Belə ki, yeni arı ailələri yarananda öz şahları ilə birlikdə köhnə arı ailəsini tərk edir, haradasa ən çox ağac budaqlarında və ya buna oxşar yerlərdə özünə məskən salır. Arıçılar yeni arı ailəsinin uçub tam uzaqlara getməsinin qarşısını almaq üçün müəyyən təcili tədbirlər görür ki, arı ailəsi onun üçün nəzərdə tutulan "səbət" - yuvaya toplasın. Və bu zaman ən çox "əngəbu" adlı müəyyən ətir verən bitkidən istifadə edirlər, yəni arının qonduğu sahəyə "əngəbu" bitkisi yarpaqları tökürlər. Arılar həmin bitkinin iyini xoşladığı üçün xeyli müddət bundan istifadə edən arıçılar arı ailəsini səbətə köçürə bilirlər.

Qoca sakinlərin məlumatına görə kənd öz adını arıçılıq təsərrüfatında çox istifadə olunan bal arısının xoşladığı "Əngəbu" adlı bitkidən almışdır. Belə ki, yeni arı ailələri yarananda öz şahları ilə birlikdə köhnə arı ailəsini tərk edir, haradasa ən çox ağac budaqlarında və ya buna oxşar yerlərdə özünə məskən salır. Arıçılar yeni arı ailəsinin uçub tam uzaqlara getməsinin qarşısını almaq üçün müəyyən təcili tədbirlər görürlər ki, arı ailəsi onun üçün nəzərdə tutulan "səbət" - yuvaya toplansın. Bu zaman ən çox "əngəbu" adlı

gözəl ətir verən bitkidən istifadə edirlər, yəni arının qonduğu sahəyə və yerləşəcəkləri səbətə “əngəbu” bitkisi yarpaqlarını iyi çıxsın deyə əzərək tökürlər. Arılar həmin bitkinin iyini xoşladığı üçün xeyli müddət bundan istifadə edən arıçılar arı ailəsini səbətə köçürə bilirlər.

Əngəxaran sözünün etimologiyası haqqında söylənilən fikirlər də maraqlıdır. Belə bir fikir vardır ki, Əngəxaran farsca üzüm mənası daşıyan “əngur” sözündən əmələ gəlmiş və məna etibarilə “üzüm yeyənlər” və yaxud “üzüm bol olan yer” deməkdir. Lakin son illərdə aparılan tədqiqat nəticəsində məlum olmuşdur ki, keçmişdə kənd əhalisinin əsas məşğuliyyəti arıçılıq olmuşdur. Buna görə çox güman ki, Əngəxaran sözünün birinci hissəsi farsca bal mənasında qəbul edilmiş “əng” və ya “əngəbin” sözündən formalaşmışdır. Sözün iknci “xar”, “xaran” hissəsi isə farsca “yeyən”, “içən” və ya “yeyənlər”, “içənlər” mənasında işlənir. Belə olduqda Əngəxaran sözünü “bal yeyənlər” və yaxud “bal çox olan yer” mənasında qəbul etmək lazım gəlir. Sonuncu “an” şəkilçisi “Yer-məskən” mənası da daşıya bilər.

Başqa bir maraqlı fikir də yenə arıçılıqla əlaqədardır. Qoca sakinlərin məlumatına görə kənd öz adını arıçılıq təsərrüfatında çox istifadə olunan bal arısının xoşladığı “Əngəbu” adlı bitkidən almışdır. Belə ki, yeni arı ailələri yarananda öz şahları ilə birlikdə köhnə arı ailəsini tərk edir, haraasa ən çox ağac budaqlarında və ya buna oxşar yerlərdə

özünə məskən salır. Arıçılar yeni arı ailəsinin uçub tam uzaqlara getməsinin qarşısını almaq üçün müəyyən təcili tədbirlər görür ki, arı ailəsi onun üçün nəzərdə tutulan “səbət” - yuvaya toplasın. Və bu zaman ən çox “əngəbu” adlı müəyyən ətir verən bitkidən istifadə edirlər, yəni arının qonduğu sahəyə “əngəbu” bitkisi yarpaqları tökürlər. Arılar həmin bitkinin iyini xoşladığı üçün xeyli müddət bundan istifadə edən arıçılar arı ailəsini səbətə köçürə bilirlər.

Bəzi məlumatlara görə kəndin adı Əngəbuxaran olmuşdur. Əng-arı, buxaran isə yer deməkdir. Yəni, arı saxlanılan yer deməkdir. Əngəbuy sözü də arıçılıqla əlaqədardır.

Əngəxaran termini Əngəxaran və ya Əngixaran şəklində yazılır. Bunlardan hansının daha düzgün olmasına gəldikdə, şübhəsiz sözün mənşəyi ilə əlaqədar olan termin – Əngəxaran kimi yazılması daha doğrudur.

Kəndin adı haqqında digər bir ehtimal var ki, o, “ahəngəran” – “ahən” (fars dilində dəmir deməkdir) sözündən olub, “dəmirçilər” mənasını daşıyır. Toponimi tat dilindəki “əng” (arı) sözündən və an şəkilçisindən ibarət “arı saxlanılan yer” mənasında da yozurlar.

Əngəxaran sakinləri müxtəlif vaxtlarda ev tikmək üçün bünövrə yeri qazılarkən bir çox maddi mədəniyyət nümunəsi tapılmışdır. Onlardan abidənin dövrü üçün xarakterik olan və nisbətən yaxşı saxlanılanlar haqqında məlumat verəcəyik.

Gili qırmızı rəngdə bişirilmiş çırağın gövdəsinin bir hissəsi. Onun qulpunun bir tərəfi gövdəsinə yapışdırılmış, digər hissəsinin isə qabın boğazına yapışdırılması aydın bilinir. Çırağın oturacağı düzdür. Çiyin hissəsinə qazma üsulu ilə batıq xətlər çəkilmişdir. Çırağın üzəri qəhvəyi rənglə şirələnmişdir.

Boşqab tipli qabın qırağı (I tablo, 2). Gili qırmızı rəngdədir. İçərisinə qəhvəyi rəng çəkilərək ağ şirlə müxtəlif istiqamətdə paralel zolaqlarla naxışlandıqdan sonra üzəri şəffaf şirlə örtülmüşdür. Qabın içərisində üçayağın izləri saxlanılmışdır. Bəhs etdiyimiz çıraq və boşqab tipli qabların analogiyası Şamaxı və Bakıda çoxlu miqdarda tapılmışdır. Onlar əsasən XVI-XVII əsrlərə aid edilir.

Tapıntıların içərisindən gildən düzəldilmiş yarımboğaz formasında ayaqqabı fiquru diqqəti daha çox cəlb edir (I tablo, 3). Çox zərif görkəmə malik olan bu ayaqqabı fiqurunun uc tərəfi şişdir. Üstündəki tikiş yerləri nöqtələr vasitəsilə elə ustalıqla düzəldilmişdir ki, o sanki fiqur deyil, əsil ayaqqabıdır. Tikiş yerləri həm də ayaqqabının bəzəyini təşkil edir. Ayaqqabının üstündə beş cərgə bağ yeri vardır. Onun içərisinə tünd anqob çəkilmiş, sonra yaşıl rəng və şəffaf şirlə örtülmüşdür.

Gildən düzəldilmiş ayaqqabı fiqurlu qablara Mingəçevir və Naxçıvanın tunc dövrü abidələrində də təsadüf olunmuşdur. Lakin həmin gil ayaqqabı fiqurlu qablar əsasən uzunboğaz çəkmə formalıdır. Digər fərqli cəhət Əngəxarandan tapılan

ayaqqabı fiqurunun qab deyil, yarımboğaz ayaqqabı (kiçildilmiş) şəkildə olmasıdır.

Maddi-mədəniyyət qalıqları içərisində mis və dəmir əşyalar da vardır. Misdən düzəldilmiş kiçik tərəzi gözü maraqlıdır. O, təbəqə misdən döymə üsulu ilə hazırlanmışdır. Onun dörd tərəfindən ip keçirilərək tərəzinin qolundan asmaq üçün kiçik deşikləri vardır. Tərəzi gözünün ağızının diametri 11,5 sm, ortadan dərinliyi isə 3 sm-dir. Tərəzi gözünün içəridən ağzının kənarı və ortadan mərkəz hissəsi cızma texnikası ilə qoşa paralel dairələrlə naxışlanmışdır. Arxeoloji qazıntılar zamanı Beyləqan, Bakı və Qəbələdən XII-XIII əsrlərə aid mədəni təbəqədən belə tərəzi gözləri tapılmışdır. Həcminə görə kiçik olan bu tərəzi çox ehtimal ki, kiçik əşyalar çəkmək üçün zərgərlikdə və əczaçılıqda işlədilmişdir.

Azərbaycan xalqının məşətində bu formalı həm kiçik və həm də böyük tərəzilərdən indi də geniş istifadə edilir. Belə tərəzilər həm metaldan və həm də ağacdan düzəldilir.

Dəmir bıçağın tiyəsi (II tablo, 2). Onun ucu və dəstəyə birləşən hissəsi korroziyaya uğramışdır. Bıçağın tiyəsi arxadan (kəsər olmayan hissədən) düz, kəsər hissədə isə ucu getdikcə arxaya doğru əyilmişdir. Çox işlədildiyindən bıçağın dəstəyə yaxın hissəsi nazilmişdir. Onun dəstəyi çox güman ki, sümükdən olmuşdur.

Digər bir bıçağın isə tiyəsinin uca yaxın yarısı tapılmışdır (II tablo, 3). Korroziyaya uğramasına baxmayaraq, formasını

müəyyən etmək mümkündür. Bıçağın tiyəsi hər iki tərəfdən uca doğru getdikcə sivriləşir. Belə bıçaqlar bir növ xəncərə oxşayır. Görünür, belə bıçaqlardan soyuq silah kimi də istifadə edilmişdir. Hər iki bıçağın oxşarı Şamaxı və Beyləqandan da əldə edilmişdir.

Həmin sahədən üç ədəd sikkə tapılmışdır. Onlar aşağıdakılardan ibarətdir:

I Abbasın adına XVII əsrdə kəsilmiş, bir üzündə "Abbasın zərbi", digər tərəfində isə islamiyyətdə geniş yayılmış "Allah, Məhəmməd və Əli" sözləri yazılmış gümüş sikkə. Sikkələri numizmat, professor M.Ssyfəddini təyin etmişdir.

1. Bir tərəfində zərb, digərində isə at təsviri olan XVII əsrə aid mis sikkə.

2. Parfiyanlar dövrünə aid gümüş sikkə. Onun bir üzündə qabarıq yarımbədən formalı şəkil vardır. Digər tərəfinə isə qədim yunan əlifbası ilə Aramey dilində yazı həkk edilmişdir.

Ərazidən tapılan maddi-mədəniyyət qalıqlarının analoji müqayisəsi və pullar buranın XVI-XVII əsrlərdə yaşayış yeri olduğunu ehtimal etməyə əsas verir.

Əngəxaran kəndi. 1980-ci illər.

Pirdirəki dağının ətəklərində yaşayış məskəni. 2017.

Pirdirəki dağının zirvəsi. 2017.
Əngəxaran kəndi uzaqdan görünür.

Əngəxaran kəndi. 2017.

Əngəxaran kəndinin mərkəzində Eyğır bulağı. 2017.



Tablo I



Tablo II



Tablo III

Tablo IV

Tablo V



Tablo VI



Tablo VII

Tablo VIII

Tablo IX



Tablo X

Tablo XI

Əngəxaran ətrafında aşkar edilmiş orta əsr yaşayış yerləri

Quşqana. 1961-ci ilin avqust ayında Şamaxı rayonunun şimal-qərbində, təxminən 3 km. məsafədə yerləşən Əngəxaran kəndinin yaxınlığındakı Quşqana dağı üstündə təsərrüfat işləri zamanı maddi-mədəniyyət qalıqları aşkar edilib. Məlumat əsasında oraya gələn arxeoloqlar xeyli yerüstü maddi-mədəniyyət qalıqları toplamışlar.

Həmin yerdən ondan təxminən 1-2 km. aralıda Qalaça adlanan başqa bir abidə yerləşir. Qalaca yaxınlığında Xanyurdu adlı başqa bir yaşayış yeri də vardır. Kənd əhalisinin dediyinə görə, təsərrüfat işləri zamanı bu ərazidən çoxlu bardağ, çıraq, qazan və başqa saxsı məmulatı qırıqları tapılmışdır.

Maddi-mədəniyyət qalıqlarının aşkar edildiyi Quşqana dağı üç tərəfdən uçurum qayalarla əhatə olunmuşdur. Görünür, bu dağın adı Quşqana deyil. Quşqonan olmuşdur. Quşqana dağının qərb tərəfi uzun illərdən bəri əkin yeri üçün istifadə olunmuşdur. Hər dəfə ora şumlanarkən çoxlu şirli və şirsiz saxsı məmulatının qalıqları üzə çıxır.

Quşqana dağı hündürlük etibarilə onun təxminən 4-5 km cənub-qərbində yerləşən Gülüstan qalası ilə eyni səviyyədədir. Kənd camaatının məlumatına əsasən, kənddəki evlərin bir hissəsinin daşı həmin yerdən gətirilmişdir. 1960-cı ildə buldozerlə daş axtarışı zamanı bir neçə bina qalıqları da aşkar edilmişdir. Təəssüf ki, bu bina qalıqlarının daşı sökülüb

aparılmış, torpağı isə qarışdırılmışdır. Sökülən bina qalıqlarının yerində aydın olur ki, divar hörülərkən kirəc məhlulundan istifadə olunmuşdur. Orada çoxlu miqdar kərpic qırıqlarına və digər maddi-mədəniyyət qalıqlarına təsadüf edilmişdir.

Əldə edilən materiallar içərisində şirsiz, şirli, fayans qab qırıqları, tüng parçaları, qazan qulpu və s. bu kimi tapıntılar diqqəti daha çox cəlb edir.

Tapınlan saxsı məmulatı içərisində üç ədəd şirsiz qab qulpu vardır. Qulplar qırmızı rəngdə olub tərkibində xırda qum dənələri nəzərə çarpır. Bunlardan biri çubuq formalı yarımdairəvi olub bardağa məxsusdur (III tablo, 1). Üzərində basma nöqtələrdən ibarət naxışları var. Belə qab qulpu Örənqala qızantılarından da tapılmışdır. Qalan iki ədəd qulp isə lentvaridir. Onlardan biri enli (5 sm), digəri isə nisbətən ensizdir (3,5 sm). Hər ikisi səhəng tipli qaba məxsus olan bu qulpların birinin üzərində basma nöqtələr olduğu halda (III tablo, 3), digərinin üzəri cilalanmışdır (III tablo, 2).

Əldə edilən şirsiz qab qırıqları içərisində kiçik qazan qulpu da vardır. O, yarımdairə formasında olub üstünü his basmışdır. Qulp qara rəngdə bişirilmişdir. Tərkibinə xırda daş ovuntusu qatılmışdır. Onun eni 2,5 sm-dir (III tablo, 4).

Bunlardan əlavə, bir neçə küp qırıqları da tapılmışdır. Onun saxsısı qırmızı rəngdədir. Gilinin tərkibində daş ovuntusu nəzərə çarpır. Qab dulus çarxında hazırlanmışdır. Küpün üzərinə cızma xətlərlə dalğavari naxış olan və qırmızı rəngdə

bişirilən qablara qədim Gəncə və Şamaxı (Gülüstan qalası) qazıntılarında da təsadüf edilmişdir.

Tapıntılar içərisindəki qırmızı rəngli su tüngü (keramik boru) parçaları daha maraqlıdır. O, dulus çarxında hazırlanmışdır. Başqa tüngə keçirilmək üçün düzəldilən hissəsinin üstünə batıq xətlə yanaşı iki dairə çəkilmişdir. Divarı nisbətən nazik olub gilinin tərkibinə xırda qum qatılmışdır (III tablo, 6). Saxsı tünglərdən çəkilmiş su kəmərinə adətən Azərbaycanın orta əsr şəhərlərində daha çox təsadüf edilir. Bu isə yerli əhalnin özlərini su ilə təmin etmək üçün tünglərdən istifadə etməsinə işarədir.

Əngəxarandan gətirilən materialın əksəriyyətini şirli qab məmulatı təşkil edir. Bunlardan biri xeyrə tipli qabın oturacaq hissəsidir. Saxsı tünd qırmızı rəngdə olub dulus çarxında hazırlanmışdır. Oturacağının altında dairəvi çıxıntı vardır. Qabın içərisi əvvəlcə ağ anqobla (dekorativ keramika örtüyü. Saxsı məmulatların rəngini, yaxud səthinin kələ-kötürlüyünü örtmək və bədii tərtibatını zənginləşdirmək üçün istifadə edilir) şirlənmiş, sonra isə marqansla 4 paralel nazik xətt çəkilmişdir. Bu xətlərin arasında iki yerdə ərəb əlifbası ilə eyni sözün təkrarı verilmişdir. Yazılar arasındakı boş sahəyə isə seyrək yaşıl rəng vurulmuşdur. Sonra üzəri şəffaf şirlə örtülmüşdür. Qabın şiri bəzi hissələrdə töküldüyündən yazını oxumaq mümkün olmadı. Onun oturacağının diametri 11 sm-dir (IV tablo, 1).

Əldə edilən digər qabın oturacaq hissəsi daha maraqlıdır. Saxsısı qırmızı rəngdədir. Üstündəki nişanələr qabın dulus çarxında hazırlandığını göstərir. Gilinin tərkibi qarışıqdır. İçərisi əvvəlcə ağ anqobla örtülmüşdür. Sonra ortadan dörd tərəfə getdikcə enlənən iki xətt çəkilmiş və o xətlər arasına marqans vurulmuşdur. Həmin qabın oturacağının altında sahibkara məxsus damğa vardır (IV tablo, 2). Mütəxəssislər saxsı qaba vurulan damğaları həmin qabı hazırlayan ustaların və yaxud müəyyən emalatxananın xüsusi nişanı kimi izah edirlər. Onun hansı istehsal müəssəsinə aid olduğunu şübhəsiz gələcək tədqiqat işləri müəyyənləşdirəcəkdir.

Tapıntılar içərisində anqob və marqansla naxışlanmış bir neçə qab qırıqları da vardır. Belə ki, saxsı üstündən əvvəlcə ağ anqob vurulmuş, sonra üzərinə marqans və mis oksidindən müxtəlif naxışlar çəkilmişdir. Qabların üzəri rəngsiz şəffaf şirlə örtülmüşdür.

Əldə edlən qablar içərisində şirli boşqab qırığı da diqqəti cəlb edir. Divarının qalınlığı 1 sm olub qırmızı rəngdədir. O, dulus çarxında hazırlanmışdır. Qabın ağzının yana qatlanmış hissəsinin eni 4 sm-dir. Onun üstündə bir-birindən 4 sm aralı ellips formalı naxış çəkilmiş, içərisi isə yaşıl və sarımtıl rənglərlə örtüldükdən sonra ətrafı marqansla haşiyələnmişdir. Onlar arasında yayşəkilli naxışlar vardır. Qabın ağzının kənarında cızma üsulu ilə çəkilmiş üç dairəvi xətt vardır. Onun qırağına isə 1 sm enində yaşıl rəng vurulmuşdur. Bütün

bunlardan sonra qabın içərisi rəngsiz şirlə örtülmüşdür (IV tablo, 3).

Tapılan bu tip qabların başqa xüsusiyyətlərə malik olanları da vardır. Boşqaba məxsus belə bir qab qırmızı rəngdə olub, dulus çarxında hazırlanmışdır. Oturacağından başlayaraq yanlara doğru getdikcə enləşir. Onun ağzının qırağı 2,5 sm yuxarıya qatlanmışdır. İçərisinə yaşıl-sarı rəngdə zolaqlar çəkilmişdir. Bu zolaqların arasındakı batıq xətlərin üstünə isə marqans vurulmuşdur. Yuxarıya qatlanan hissənin içərisinə çəkilmiş anqobun üstündə dalğavari xətt cızılmışdır. Sonra qabın içərisi rəngsiz şirlə örtülmüşdür (IV tablo, 4).

Belə qablardan bir ədədinin formasını müəyyən etmək mümkün olmadı. Saxsısı qırmızı rəngdə olan bu qab dulus çarxında hazırlanmışdır. Onun hər iki üzü yaşıl rənglə şirlənmişdir. Qabın çölünə əvvəlcə ağ anqob çəkilmiş, sonra qazıma üsulu ilə nəbati rəsm cızılmışdır. Bütün bunlardan sonra qabın hər iki tərəfi rəngsiz şəffaf şirlə örtülmüşdür.

Saxsı məmulatı içərisində fayans və şüşə qab qrıqları da vardır. Bunlardan biri alçaq dabanlı fayans qabın oturacağıdır. Ağ kaolin gilindən hazırlanmışdır. Qabın divarının qalınlığı 1,5 sm-dir. Gilinin tərkibində xırda qum dənələri nzərə çarpır. Qabın hər iki tərəfinə kobaltla müxtəlif naxış çəkilmişdir. Sonra üzəri qalın rəngsiz şəffaf şirlə örtülmüşdür (IV tablo, 6).

Bundan başqa, hər iki tərəfi qalın kobalt və firuzəyi rənglə örtülmüş qab parçaları da əldə edilmişdir. Bu qab

qırıqlarının gili ağ rəngdə olub tərkibinə xırda qum qatılmışdır. Şamaxı Gülüstan qalası və Beyləqan şəhər yerindən də belə fayans qab qırıqları çox tapılmışdır. Əldə edilən şüşə qab parçası isə qalın divarlı olub şəffafdır. İçərisində qabın qopmuş olan digər hissəsinin izi qalmışdır.

Quşqana yaşayış yerindən məlum olan saxsı məmulatının Şamaxı, Gülüstan Qalası, Beyləqan və Gəncə şəhər yerlərində əldə edilən materiallarla oxşarlığını nəzərə alaraq onları XI-XIII əsrlərə aid etmək olar.

Quşqana dağında əldə edilən və yuxarıda təsvir etdiyimiz maddi-mədəniyyət qalıqları, həmçinin oradan bina qalıqlarının aşkar edilməsi, şübhəsiz, həmin abidənin yaşayış yeri olduğunu söyləməyə əsas verir. Üç tərəfi uçurum qayalarla əhatə olunmuş hündür dağ üstündə yaşayış yerinin olması isə maraqlı məsələdir. İ.P.Meşşaninov orta əsr müdafiə qalası kimi feodal istehkamlarını xarakterizə edərək, yazır ki, adətən belə qalalar yüksək qayalı dağlarda tikilirdi. Göründyü kimi, bu abidənin coğrafi mövqe cəhətdən möhkəm və əlçatmaz yerdə olması onun Şirvanşahların müdafiə xarakterli başqa qalaları ilə əlaqədar olduğunu ehtimal etməyə imkan verir.

Pirdirəki. Pirdirəki Şamaxı şəhərinin şimal-qərbində, Əngəxaran kəndinin təxminən 1 kilometrliyində, daha doğrusu kəndin “başının üstündə” yerləşən uca bir dağdır. Dağın zirvəsində pir var. Pirin adı Rəkidir. “Pir Rəki” ifadəsi yüz illər boyu dəyişərək Pirdirəki formasına düşmüşdür. Gülüstan qalası

Pirdirəki dağının qərb tərəfində yerləşir.

Sıldırım qayalı bir dərə Pirdirəki dağını Gülüstan qalasının yerləşdiyi Qız qalası dağından ayırır. Bu dərə hər iki tərəfdən şaqulu şəkildə qarşı-qarşıya dayanmış nəhəng qayalarla əhatə olunur.

Beçarə. Şamaxının şimal-qərbində Əngəxaran kəndinin yaxınlığında yerdən qaynaqlanıb çıxan gözəl suyu olan bir bulaqdır. Xalq etimalogiyasına görə bu bulağın suyunu uzun müddət şəhərə gətirmək istəsələr də bacarmamışlar. Ona görə də onu boş, lazımsız, çarəsiz mənasını ifadə edən "bekara" və ya "beçarə" adlandırmışlar.

Eyğır (Ayğır). Əngəxaran yaxınlığında pir yeridir. Burada yerin dərinliklərindən qaynayan çox gözəl suyu olan bulaq vardır. Deyilənə görə qədimdə kənd əhalisi bu bulaqdan su daşıyırmış. "Eyğır" sözünün etimologiyasına gəlincə fərz etmək olar ki, bu söz "Ayğır" sözündən formalaşmışdır. Şamaxı əhalisi "e" hərfindən çox istifadə etdiyinə görə "Ayğır" sözü "Eyğır" sözünə çevrilmişdir.

Azərbaycanda "Ayğır" atları özünəməxsus şöhrət tapmış at növüdür. Bu atlar digər növlərə nisbətən daha iri olurlar. Bu atlar çox işlək olub məişətdə insana daha yaxın köməkçidirlər. Nəsil artırmaq qabiliyyəti olmayan bu atlar çox güclü və dözümlü olur. Ehtimal etmək olar ki, kənd əhalisi bulaqdan suyu aparmaq üçün Ayğır atından və burulğan tipli sistemdən istifadə edib, atı su çıxan yerin başına fırlatmaqnan su

çəkərlərmiş. Yəqin ki, “Eyğır” bulağının adı da “Ayğır” sözündən formalaşmışdır.

1951-ci ildə Azərbaycanın görkəmli şəxsiyyətlərindən biri olan Əngəxaranlı Ağamirzə Əhmədov “Eyğır” bulağının suyunu kəndə çəkdirmiş, kəndin mərkəzində gözəl bir bulaq tikdirmişdir. 2000-ci illərdə isə Ağamirzə Əhmədovun oğlu Nuru Əhmədov həmin bulağı zövqlə təmir etdirmişdir.

Əsrlər boyu Şirvanın mərkəzi olmuş Şamaxı şəhərinin ətrafı müxtəlif abidələr, o cümlədən orta əsr yaşayış yerləri ilə zəngindir. Bu abidələrin tədqiqi orta əsr şəhərətrafı məişətin, xüsusilə kənd tipli yaşayış yerlərinin öyrənilməsi üçün zəruri olmaqla bərabər, Şamaxı şəhərinin tarixini tədqiq etmək cəhətdən də maraqlıdır. Lakin indiyə qədər bu ərazinin qədim və ilk orta əsr yaşayış yerləri qismən öyrənilsə də orta əsr, xüsusilə IX-XII əsrlərə aid yaşayış yerləri, demək olar ki, tədqiq olunmamışdır.

Kənd yeri. Orta əsr Şamaxısının yerləşdiyi ərazini öyrənmək məqsədi ilə 1966-1968-ci illərdə həmin rayonda F.Ə.İbrahimovun iştirakı ilə arxeoloji tədqiqat işləri aparılarkən ətraf ərazidə bir sıra orta əsr yaşayış yerləri aşkar edilmişdir. Bunlardan birisi Kənd yeri adlı abidədir.

Kənd yeri Şamaxının şimalında, 2-3 kilometr məsafədə, Pirdirəki dağının şərq ətəyində, Şamaxıdan Çuxuryurda gedən şosse yolunun sağ tərəfində yerləşir. Abidə kiçik bir təpə üzərindədir. Onun qərb tərəfdən qeyd etdiyimiz şosse yolu,

şimaldan Əngəxaran kəndinin üzüm bağları, şərq və cənub tərəfdən dərə-təpəli geniş sahə əhatə edir. Təpənin şərq tərəfində suyu olduqca sərin içməli bulaq vardır. Yerli əhali onu “Sarıbulaq” adlandırırlar.

1966-cı ildə arxeoloji tədqiqat zamanı oradan XI-XIII əsrlər üçün səciyyəvi olan yerüstü saxsı məmulatı toplanmışdı. 1967-ci ildə abidənin stratiqrafiyasını (tortaq və ya süxur laylarının yatım ardıcıllığını, qarşılıqlı əlaqələrini, ilkin yatım formalarını, nisbi və mütləq yaşını tədqiq edən elm sahəsi) müəyyənləşdirmək üçün iki yerdə kəşfiyyat qazıntısı aparılıb. Birinci qazıntı sahəsi təpənin şərq qurtaracağında yerləşir. Burada 6x3 metr ölçüdə başqa bir sahə qazıldı. Bu sahə 1,8 metr dərinliyə qədər qazıldıqdan sonra xam torpaq və onun üzərində yonulmamış daşlarla tikilən bina qalıqları aşkar olundu. Tikintidə əhəng, qarışdırılmış palçıqdan istifadə edilmişdir.

Qazıntı zamanı ədldə edilən arxeoloji materiallar abidənin iki mədəni təbəqədən ibarət olduğunu aydınlaşdırdı. Birinci mədəni təbəqə (alt təbəqə) xam torpaqdan, yəni 1,8 metr dərinlikdən başlayaraq 1 metr hündürlüyə qədər, ikinci mədəni təbəqə (üst tbəqə) həmin hündürlükdən yerin indiki səviyyəsinə qədər davam edir. Arxeoloji materiallar əsasən şirli, şirsiz saxsı məmulatı, şüşə qab qırıqları və zinət şeylərindən ibarətdir. Başqa arxeoloji tapıntılara nisbətən şirli qabların dövrünü müəyyənləşdirmək asan olduğu üçün ilk

növbədə onların haqqında məlumat verməyi məqsədəuyğun hesab edirik.

I mədəni təbəqədən əldə edilən şirli saxsı məmulatı əsasən anqobla naxışlanmış, bəzən qəhvəyi rənglə (marqansla) həndəsi formada bəzədilmiş birrəngli şirli kasa və xeyrə tipli qab qırıqlarından ibarətdir (VIII tablo, 3-4). Bu təbəqədə üstdən yaşıl və ya mavi şirlə boyanmış, bəzən qəhvəyi rənglə ləkə formasında bəzədilmiş saxsı qab parçalarına da təsadüf olunmuşdur. Bunlar piyalə, kasa və xeyrə tipli qabların ağız və oturacaq hissələrini təşkil edir (VIII tablo, 2, 5, 6).

Bu tip qablar sırasında silindr formalı boğazı, yuvarlaq gövdəsi olan, nazik divarlı, təkqulplu şirli qab qırıqları da vardır (VIII tablo, 1) Azərbaycanın orta əsr şəhərlərindən məlum olan bu qabları mütəxəssislər VIII-X əsrlərə aid edirlər. Bu qabların oxşarı Gülüstan qalası, Dağkolanı yaşayış yerlərində də tapılmışdır.

İkinci mədəni təbəqədən əldə edilən şirli saxsı məmulatı isə əsas etibarilə çoxrəngli şirlə boyanmış kasa, xeyrə (kasa) formalı qab parçalarıdır (IX tablo, 1-5). Bu tip qabların çoxu qrafik xətlərlə həndəsi və nəbati şəkildə naxışlanmışdır. Həmin şirli qablar sırasında dəniz bitkisi formasında qrafik xətlərlə naxışlanmış qab parçası diqqətəlayiqdir. Burada müxtəlif rənglər qrafik xətlərin əhatə dairəsi ilə uzlaşır (IX tablo, 2). Qeyd etdiyimiz şirli qabların tam oxşarı Örənqala və Bakı (İçərişəhər) qazıntılarından, XI-XIII əsrlərə aid mədəni

təbəqədən məlumdur.

Kənd yerində arxeoloji tədqiqat zamanı damğalı (möhürlü) şirli qablara da təsadüf edilmişdir. Bunlar həndəsi və nəbati formalı damğalardan ibarətdir. Həndəsi formalı damğalar içərisində Azərbaycanın orta əsr şəhərlərində geniş yayılmış şüa və torşəkillilər əsas yer tutur. Nəbati formalı damğaların bəzisinə ilk dəfə Kənd yerində təsadüf edilmişdir ki, bunların da Şamaxıya xas olduğunu ehtimal etmək mümkündür. Misal üçün yarımdairə içərisinə salınmış yarpaq formalı damğanı göstərək. Yarımdairənin yuxarı hissəsi sünbüləoxşar diş-diş naxışla əhatə edilmişdir (IX tablo, 3).

Qeyd etdiyimiz mədəni təbəqələrdən şirli saxsı məmulatı ilə yanaşı, çoxlu miqdarda şirsiz qab parçası da tapılmışdır ki, bunlar da IX-XIII əsrlər üçün xarakterik olan darboğaz və süzgəcli qab hissələri (XI tablo, 1, 2, 3), üzəri basma üsulu ilə naxışlanmış qab gövdəsi qırıqlı (XI tablo, 4), çubuq lent və burma formalı qab qulpları, gil qazan parçaları və s. ibarətdir. Şirli qablarda olduğu kimi bunların da oxşarına Azərbaycanın bütün orta əsr abidələrində, xüsusilə Örənqala və Bakıda çox təsadüf olunmuşdur.

Qeyd etmək lazımdır ki, istər şirli və istərsə də şirsiz saxsı qabların istehsal texnikası sənətkarlıq cəhətdən olduqca yüksəkdir. Qabların hamısı dulus çarxında hazırlanmışdır.

Arxeoloji materiallar içərisində şüşə qab və bilərzik qırıqları da vardır. Şüşə qab qırıqları Azərbaycanın orta əsr

şəhərlərində geniş yayılmış içəriyə doğru batıq olan oturacaqlardan ibarətdir (X tablo, 6; 8). Bu tip şüşə qablar Örənqala qazıntılarından, IX-XIII əsrlərə məxsus mədəni təbəqədən məlumdur. Onların tam oxşarı Gülüstan qalsından eyni dövrə aid mədəni təbəqədən də tapılmışdır. Bunlar üfürmə yolu ilə istehsal edilən şüşə qablar sırasına daxildir. Şüşə qab parçaları sırasında tökmə üsulla hazırlanmış kiçik oturacaqlar da vardır. Bunların ətriyyat qabları olduğu ehtimal edilə bilər (IV tablo, 10).

Şüşə bilərziklər rəngarəngdir; en kəsiyi dairəvi, yarımdairəvi və eşmə formalı bilərziklər vardır. Bəzən inkrustasiya edilmiş şüşə bilərziklərə də təsadüf edilir (X tablo, 1, 2, 3, 4). XI-XIII əsrlərdə Azərbaycan şəhərində geniş yayılmış həmin şüşə bilərziklər qeyd olunan dövrdə Kənd yeri abidəsində şəhər həyatı ilə əlaqədar yaşayış olduğunu göstərir.

Beləliklə, qeyd etdiyimiz arxeoloji materialları nəzərdən keçirdikdə Kənd yeri abidəsində IX-X əsrlərdən başlamış XIII əsrə qədər yaşayış olduğu müəyyənləşir. Tədqiqat nəticələri göstərir ki, IX-X əsrlərə nisbətən XI-XIII əsrlərdə Kənd yerində yaşayış sahəsi genişlənmişdir. Bunu yuxarıda qeyd etdiyimiz kimi, abidənin şərq qurtaracağında mədəni təbəqənin yalnız üst hissədən (XI-XII əsrlərə aid təbəqədən) ibarət olduğu sübut edir.

Sahənin kiçikliyi və heç bir istehkamla müdafiə edilmədiyini nəzərə alaraq, abidənin orta əsrlərdə Şamaxı

yaxınlığında kənd tipli yaşayış yeri olduğunu söyləmək mümkündür. Bu fikri abidənin hazırkı adı (Kənd yeri) və qazıntılar zamanı orta əsr şəhər həyatına xas olan fayans, çini və seladon tipli qab qırıntılarına təsadüf olunması da təsdiq edir.

Qalaça. Əngəxaran kəndindən 1 km. aralı Yazdağ deyilən yerin qərbində xalq arasında Qalaça adı ilə tanınan yaşayış yeri olmuşdur. Hal-hazırda həmin yerdə bəzi tikinti qalıqları qalmışdır. Divarının eni təqribən 1 m olan düzbucaqlı formada inşa olunmuş qala divarları qalıqları aydın görünür. Əngəxaran kənd sakinləri ev inşa edərkən həmin ərazidəki bina qalıqlarından yonulmuş daşları gətirib istifadə etmişlər. Məlum olur ki, tikintilər zamanı əhəng məhlulundan daşları birləşdirici məhlul kimi istifadə olunmuşdur. Müxtəlif vaxtlarda həmin yerdən kənd sakinləri xeyli miqdarda keramika məmulatı da tapmışlar.

Xan yurdu. Əngəxaran kəndinin şimalında yaşayış yeri. Bu abidə indiki Şamaxıdan təqribən 8 kilometr, Kənd yeri abidəsindən isə 6 kilometr məsafədə, hündür bir təpə üzərində yerləşir. Təpəni cənub tərəfdən Binaslı (yəni – “bina basdım”) və Quşqana (yəni – “quş qonan”) dağları, şərq tərəfdən Qatıryeri adlı düzənlik, şimaldan Çuxuryurda söykənən dağların ətəkləri, qərbdən isə Qalaça abidəSİ əhatə edir. Quşqana dağı kəndin şimalındadır. Arxeoloji tədqiqat zamanı onun zirvəsində daşla tikilmiş bina qalıqlarına, və XI-XIII

əsrlərə aid saxsı məmulatına təsadüf edilmişdir.Təpənin üzərində yonulmuş daşlarla ilə hörülmüş tikinti qalıqları vardır. Tikintidə qum və əhəng qarışığından düzəldilmiş məhluldan istifadə edilmişdir. Bu ərazinin qərb hissəsində indiyə kimi yonulmuş daşlardan düzəldilmiş və üzəri ovulmuş bir neçə qəbir daşı qalmaqdadır. Xan yurdunun yaxınlığında "Qatır yeri" kimi tanınan digər sahə var. Rəvayətə görə xanın qatırları bu yerdə otlayırmış.

Arxeoloji tədqiqat zamanı abidə yerləşən ərazidən XI-XII əsrlər üçün xarakterik olan şirli, şirsiz saxsı məmulatı toplanıb. Məmulat öz forma və hazırlanma texnikasına göpə Kənd yeri abidəsinin üst təbəqəsindən əldə edilən materiallarla həmdövrdür (V tablo). Xan yurdu abidəsində qazıntı aparılmadığı üçün burada nə zamandan bəri yaşayış olduğunu hələlik söyləmək mümkün deyildir. İlk tədqiqatın nəticələri və abidənin hazırkı adı bu yerin XI-XIII əsrlərdə xırda feodal malikanəsi olduğunu söyləməyə imkan verir.

Haqqında danışdığımız abidələr göstərir ki, IX-XIII əsrlərdə Şamaxının şimalında biri digərindən çox az məsafəsi olan yaşayış yerləri mövcud imiş. Bu abidələrin tədqiqi Şamaxı şəhərinin tarixi və mədəniyyətini öyrənməyə də müəyyən dərəcədə kömək edir.

Tədqiqat nəticələrindən məlum olur ki, XIII əsrdə bu yerlərdə yaşayış dayanmışdır. Ehtimal etmək olar ki, bu hal monqolların Azərbaycana hücumu ilə əlaqədardır. Yəqin ki,

Şamaxı əhalisi monqol işğalçılarına qarşı mübarizə apardığı dövrdə müdfiə istehkamı olmayan ətraf kəndlər, o cümlədən haqqında bəhs etdiyimiz abidələr qarətə məruz qalıb dağıdılmışdır.

Əngəxaran ətrafındakı müdafiə istehkamları

Buğurd qalası. Buğurt qalası Şirvanın orta əsr müdafiə tipli qalalarından biridir. Bu qala əsrlər boyu Şamaxı şəhəri və onun şimal-qərb Gülüstan qalası ilə sıx əlaqədar olmuş, Şirvanın müdafiəsində böyük rol oynamışdır. Buna görə Şamaxı və Şirvanın orta əsrlər tarixinin öyrənilməsində Buğurt qalasının tədqiqi mühüm əhəmiyyət kəsb edir. Lakin indiyədək Buğurt qalası tarixi, xüsusilə arxeoloji ədəbiyyatda öz əksini tapa bilməmiş, tədqiqatçılar Şirvan tarixindən danışdıqda onun yalnız adını çəkməklə kifayətlənmişlər.

Buğurt qalası Şamaxının şimal-qərbində, 20 kilometr məsafədə, Qafqaz sıra dağlarının cənub qoynunda Əngəxaran kəndinin şimal-şərqində hündür bir dağın zirvəsində yerləşir. Tənə, Siyədahar, Ülgüc, Cənqu, Çağan və Qız qalası dağları qalanı dörd tərəfdən əhatəyə almışdır. Belə ki, bu dağları keçmədən Buğurd qalası yerləşən dağı müşahidə etmək mümkün deyildir. Bu isə qalanın hərbi sığınacaq cəhətdən möhkəm bir nöqtədə yerləşməsi üçün əlverişli təbii şərait hesab olunur. Qala yerləşən dağın şərq tərəfində Qaleybuğurt, qərb

tərəfində Qaladərəsi və Tonxana, Cənub tərəfdə Keşmadin və Çaqan kəndləri yerləşir. Bu kəndlərin adlarının necə əmələ gəlməsi barədə xalq arasında bir sıra rəvayətlər vardır ki, bu da ayrıca tədqiqat mövzusudur. Buğurt sözünün etimologiyası barədə nə demək olar? Deyilənlərə görə keçmişdə bu ərazidə Bığır adlı döyüşkən tayfa yaşamışdır. Bu tayfa sonralar həmin yerdən Göyçayın yaxınlığına köçüb. Hazırda Göyçay rayonu ərazisində Bığır adlı kəndin olması keçmişdə Şirvanda belə bir tayfanın varlığına dəlalət edir. "Buğurt" ya "bığır" sözünün kökü çox güman ki, türk dilində qartal mənası daşıyan "berkut" sözündəndir. Bu izah Bığır tayfasının döyüşkənliyi və Buğurt qalasının əlçatmaz yerdə yerləşməsinə uyğun gəlir.

Tarixi mənbələrdə XV əsrin axırları XVI əsrin əvvəllərindən başlayaraq Böuğurt qalasının adına rast gəlmək olur. Mənbələrdə qeyd edilir ki, 1500-cü ildə I İsmayıl ilə Fərrux Yasər arasında müharibə gedərkən Şirvanşah Buğurt qalasına qaçmaq istəyir. Lakin o, buna müvəffəq ola bilməyib Cabanı adlı yerdə baş vermiş vuruşmada öldürülür. Bu hadisədən sonra Şah İsmayıl Bakını almaq üçün Abşerona yollanır. Bu zaman Şirvanşahın oğlu II İbrahim (Şeyx-şah) Şirvan ordularını toplayıb İsmayıla qarşı döyüşə hazırlaşır. Mənbələr bu vaxt Şirvan ordularının Gülüstan və Buğurt qalalarında yerləşməsini baxdırır. I İsmayıl Bakı qalasını aldıqdan sonra yenidən Şamaxıya qayıdır. Lakin o, Gülüstan və Buğurt qalalarını ala bilmir. 1509-cu ildə Şah İsmayıl ikinci

dəfə Şirvana hücum etdikdə Şirvanşah Şeyxşah yenə də özünü müdafiə etmək üçün Buğurt qalasına pənah aparır. “Tarix-e aləm-araye Abbasi”də bu hadisə belə qeyd olunur. “Şirvandan xəbər yetişdi ki, yenə də Şeyxşah baş qaldırıb bac-xərac verməkdən boyun qaçırır... Şah (yəni I İsmayıl) Şirvana hərəkət etmək qərarına gəldi... Şirvanşah müqavimət göstərə bilməyib Buğurt qalasına qaçdı”.

Buğurt qalası 1537-ci ildə baş verən daxili vuruşmalar zamanı da Şeyxşah və oğlu Şahruxun əsas müdafiə məntəqəsi oldu. Eləcə də Alqaq (Əlqas) Mirzə Şirvana hücum edən vaxt Qızılbaşlarla Şahruxun qoşunları arasında kəskin vuruşma baş verir. Şahrux və onun vəkili Hüseyn bəy Buğurt qalasında özlərini müdafiə edirlər. 7 ay mühasirədə olur. İskəndər Münşinin yazdığına görə Şahrux yalnız I Təhmasib özü gəldiyi təqdirdə təslim olmağa razılıq verir. Təhmasib həmin qalanın ətəyinə gəlir. Bu zaman Şahrux və onun vəkili Hüseyn bəy qaladan enib təslim olurlar. Lakin başqa mənbələrin yazdıqlarına görə, Alqas Mirzə qalanı ala bilmir. Təhmasib böyük bir ordu ilə Buğurt qalasına gəlmək məcburiyyətində qalır. O, Müqavilə bağlamaq adı ilə Şahruxu qaladan çıxarıb öldürür. O.Ə.Əfəndiyev “Tarix-elçi Nizamşahın” verdiyi məlumata əsaslanaraq yazır: “Qala sakinləri Qızılbaşların qarşısında mərdanə dayanıb vuruşurdular. Bu zaman I Təhmasib böyük ordu ilə Buğurt qalasının yanına gəlir. O, qalanı top atəşinə tutur. Həmin müəllif Buğurt qalasını

Şirvanşahlar xəzinəsi saxlanılan yer adlandırıb göstərir ki, burada olan mal və dövlətin sayı-hesabı yox idi”.

Burada qalanın Təhmasib tərəfindən top atəşinə tutulması və Şahruxun müqavilə bağlamaq adı ilə tutulub öldürülməsi diqqəti cəlb edir. Çox güman ki, qalanın qərb tərəfində olan topxananın və onun şərq ətəyində yerləşmiş Keşmədin kəndinin adı bu iki hadisə ilə əlaqədar meydana gəlmişdir. Səfəvi tarixçisi İsgəndər Münşinin yazdığına görə bu müharibələr zamanı Təhmasib Buğurt qalasını dağıtmışdır.

XVII əsr boyu Səfəvilərlə Osmanlı qoşunları arasında baş verən müharibələrdə Buğurt qalasından hərbi dayaq məntəqəsi kimi istifadə olunmuşdur. Bu hadisələr sırasında Səfəvilər tərəfindən Şirvana hakim təyin edilmiş Abdulla xan ilə Osmanlı nümayəndəsi Qasım bəy arasında müharibələri göstərmək olar. Bu barədə “Əhsən-ət-təvarix”də belə yazılmışdır: “...Qasım bəy Buğurt qalasına gəldi və 40 gün orada qaldı. Sonra bir sıra qısafikirli adamlarla həmin qaladan çıxıb, Gülüstan qalasına doğru getdi. Abdulla xan burada idi. Hər ikisi arasında müharibə başlandı...”.

Buğurt qalasının tarixini dəqiq öyrənmək məqsədi ilə 1966-1967 və 1970-ci illərdə qalaya arxeoloji səfərlər təşkil edilmişdir. Tədqiqat zamanı dağın qala yerləşən əsas hissəsi nəzərdən keçirilmiş, tikinti qalıqlarının ölçüləri və foto-şəkilləri götürülmüşdür.

Bir çox orta əsr qalaları kimi Buğurt da iki hissədən – ön

istehkamlar və Narınqaladan ibarətdir. Ön istehkamlar dağın qərb döşü və qalaya çıxmaq üçün əlverişli olan digər yerlərdə tikilmişdir. Hazırda burada bir çox divar, bürc və bina qalıqlarına rast gəlmək olur. Həmin tikintilər əsasən qum və əhəng növlü irihəcmli yonulmuş daşlarla hörülmüşdür. İstehkamın arxasında tavanları yonma daşlarla tağ formasında tikilmiş evlər vardır. Onların içərisi torpaqla dolmuşdur.

Qalanın şimal tərəfində üzü Qaladərəsinə baxan yarımdairəvi bürcün arxasında eni 1,40, hündürlüyü 4 və uzunu təqribən 6 metr olan dəhliz formalı yer vardır. Onun tavanının əsas hissəsi tökülmüşdür. Qaladərəsinə baxan divarda deşiklər vardır. Bu isə həmin yerin gözətçi məntəqəsi olduğunu göstərir.

Ön istehkamdan ötdükdən sonra dağın zirvəsində, sıldırım qayaların qoynunda yaxşı yönulmuş daşlarla tikilmiş başqa bir binanın qalıqlarına təsadüf edilmişdir. Yerli əhali buranı “şah evi” adlandırır. Narınqala vəzifəsini ifa etmiş bu binanın qərb tərəfi dağın sıldırım təbii qayaları ilə əhatə olunmuşdur. Cənub şərq və şimal tərəfi uçurumdur. Bina qayaların arxasında gizlənmişdir. Belə ki, dağın zirvəsinə qalxmayınca orada tikinti olduğunu müəyyənləşdirmək mümkün deyildir. Qeyd etdiyimiz kimi, dağın zirvəsinə çıxmaq da olduqca təhlükəlidir. Burada istiqaməti şimal-qərbə doğru tikilən bir-birinə bitişik üç otaq qalığı vardır. Otaqların tavanları və şimal-qərb divarları dağılmış, içərisində meşə ağacları bitmişdir. Yalnız cənub tərəfə (Qaladərəsinə) baxan

müştərək divar və qərb, şərq, eləcə də arakəsmə divarların bir hissəsi salamat qalmışdır. Hər üç evin cənub tərəfə baxan müştərək divarının qalınlığı (aşağı hissədə) 1,50 metr, yuxarı hissədə 80 santimetrdir. Hazırkı divarın ən hündür yeri 4,5 metrdir. Cənub-qərb tərəfdə yerləşən ən böyük otağın eni 10 metrdir. Digər iki otağın hər birinin eni isə 8 metrdir. Qeyd etdiyimiz kimi otaqların divarları şimal-qərbə doğru bir qədər uzandıqdan sonra dağılmışdır. Buna görə də onların uzununu müəyyənləşdirmək mümkün deyildir. Otaqların salamat qalmış divarlarında bir-birinə keçid yolu yoxdur. Çox ehtimal ki, bu keçidlər divarların dağılmış hissələrində olmuşdur. Birinci və üçüncü otağın cənub tərəfdəki künc divarları oval formada tikilmişdir. Bu otaqların quruluşu yaşayış üçün deyil, təhlükə vaxtı əsas hərbi qüvvələrin sığınacaq yeri kimi istifadə olunduğunu göstərir.

Beləliklə, Buğurt qalasında iki tip tikinti vardır: ön istehkam, onun arxasında olan tikintilər və Narınqalanın (şah evinin) tikinti quruluşu. Ön istehkam öz tikinti üslubu cəhətdən çox mürəkkəbdir. Burada çaydaşı və az yonulmuş daşlarla tikilmiş istehkamlarla yanaşı, böyükhəcmli yonma daşlarla hörülmüş divarlara da təsadüf edilir. Ön istehkamının tikintilərində müxtəlif formalı daşlarla bərabər bəzən bişmiş kərpicdən də istifadə olunmuşdur. Bu tip tikinti üslubu Gülüstan qalası, İsmayıllı Qız qalası və digər istehkamlarda da nəzərə çarpır. Narınqalanın divarları isə yaxşı yonulmuş

daşlarla mükəmməl formada tikilmişdir. Ön istehkama nisbətən bu tikintinin cavan olduğu ehtimal edilə bilər. Bu hissə bəzi xüsusiyyətlərinə görə Şirvanın XV əsr tikintilərinə oxşayır.

Arxeoloji səfər zamanı Buğurt qalası ərazisindən bir sıra maddi mədəniyyət qalığı (şirli, şirsiz, saxsı məmulatı, şüşə bilərziklər, metal zinət şeyləri və s.) toplanmışdır ki, bunlar qalanın tarixini bir qədər dəqiqləşdirməyə kömək edir.

Şirli saxsı məmulatı əsasən anqob üstdən yaşıl şirlə boyanmış və bəzən marqansla naxışlanmış qab hissələri (V tablo, 1, 2) və anqob üstdən qazıma üsulu ilə həndəsi, nəbati formada bəzədilmiş bir və çoxrəngli qab parçalarından ibarətdir (V tablo, 3; 8). Bunlardan üzərində quş qanadı təsvir olunmuş qab parçası diqqəti cəlb edir. Şirsiz saxsı məmulatı isə ağımtıl və qırmızımtıl gildən hazırlanmış çıraq, müxtəlif qab qulpu, həmçinin gilinin tərkibində çoxlu qum, daş ovuntusu olan qazan və nimçə qırıqlarından ibarətdir (VI tablo, 1, 2, 3, 4, 5). İstehsal texnikası və analoji xüsusiyyətlərinə görə həmin tapıntıları XI-XIII əsrlərə aid etmək olar. Bu isə XI-XIII əsrlərdə Buğurt qalasında yaşayış olduğunu sübut edir.

Arxeoloji tədqiqat zamanı Buğurt qalası ərazisindən bir sıra şüşə bilərzik qırığı da əldə edilmişdir. Onlar müxtəlif rəngli, en kəsiyi dairəvi və yarımdavirəvi olan eşmə formalı bilərziklərdən ibarətdir. Bəzən gözəllik üçün inkrustasiya edilmiş bilərziklərə də təsadüf olunmuşdur. (VII tablo, 10, 11). Bu tip şüşə bilərziklərin oxşarları Azərbaycanın bütün orta əsr

şəhərlərindən, o cümlədən Qəbələ, Örənqala, Bakı və s. məlumdur. Tədqiqatçılar bu tip şüşə bilərzikləri XI-XV əsrlərə aid edirlər.

Zinət şeyləri içərisində dəvəgözü daşından hazırlanmış, qazıma üsulu ilə çox orjinal bir şəkildə muncuq və düymə vardır. Muncuq üzüm giləsi formasında olub, üzərində qazıma üsulu ilə zolaqlar açılmışdır. Düymə isə rəngli daşdan hazırlanmışdır, üzərində zoloq və dairəvi formalı naxışlar vardır (VII tablo, 4, 5).

Tədqiqat zamanı tuncdan düzəldilmiş eşmə bilərzik (VII tablo, 9) və asma tipli döş bəzəyinə təsadüf edilmişdir ki, bunlardan sonuncu daha artıq diqqətəlayiqdir. Asmanın yuxarı dairəvi hissəsi eşmə formasında olub (VII tablo, 3), dairənin içərisindəki boşluğa iki xırda yarımkürəcik lehimlə bərkidilmişdir. Ətrafına xırda halqalar yapışdırılmışdır. Bu halqaların ikisindən unuzsov, nazik tunc lövhələr asılmışdır.

Arxeoloji ədəbiyyatda tunc asmalar ən qədim dövrlərdən məlumdur. Orta əsrlərdə belə asmalardan qadın geyimlərini bəzəmək üçün istifadə edilirdi. Zinət şeylərinə dair tapıntılar göstərir ki, tədqiq etdiyimiz dövrdə Buğurt qalası təkcə hərbi qüvvələrin sığınacağı deyil, həm də onların ailəvi yaşayış yeri olmuşdur.

Qeyd etdiklərimizdən əlavə, Buğurt qalasından tapılmış, hazırda Azərbaycan Dövlət Tarix Muzeyində və Çuxuryurd orta məktəbinin muzeyində saxlanılan saxsı məmulatı və s.

maddi-mədəniyyət qalıqları da vardır. Bunlar XI-XV əsrləri əhatə edir.

Yuxarıdakı Qalaybuğurt kəndi çox güman ki, qala ilə əlaqədar meydana gəlmiş və Bığır tayfasının məskəni olmuşdur. Bu kəndin ərazisində də yonulmuş daşla tikilmiş orta əsr bina qalıqlarına və saxsı məmulatına təsadüf edilir.

Yeri gəlmişkən, Qaleybuğurt kəndi yaxınlığındakı Təmaməddin adlı orta əsr piri haqqında da məlumat verməyi lazım bilirik. Pir kəndin cənubunda, meşəlikdə yerləşir. Burada çaydaşları tikilmiş günbəz formalı tikintinin xarabaları diqqəti cəlb edir. Tikintinin qarşısında yonma daşla hörülmüş, üzərində böyük başdaşı olan qəbir vardır. Daşın bir tərəfində Quran ayələri və mərhumun ölümü münasibəti ilə fars dilində yazılmış şer, digər üzündə isə qazıma üsulu ilə at və gülabdan təsvirləri həkk edilmişdir. At və gülabdan təsvirlərinin ortasında ərəbcə hicri 874 tarixi yazılmışdır ki, bu da 1469-1470-ci ilə bərabərdir.

Qeyd etmək lazımdır ki, bu pirin yaxınlığında qədim bir qəbristanlıq vardır. Yerli əhali bu qəbirstanlığın yaxınlığında əkin işləri apararkən içərisndə sklet olan böyük küplər və saxsı qablar aşkara çıxarılmışdır. Biz həmin qablardan bir neçəsini əldə etməyə müvəffəq olduq. Onlardan biri şar gövdəli qabdır (VI tablo, 6). Qab qırmızımtıl gildən, əldə hazırlanmışdır. Onun lent formalı qulpu vardır. Digər qab isə tərkibində çox qum olan bozumtul gildən düzəldilmişdir (VI tablo, 7). Qabda

qulpu əvəz edən çıxıntılar vardır. Analoji xüsusiyyətlərinə görə bu qablar ilk orta əsrlərə aid ola bilər. Həmin qablar və qəbristanlıqda aşkar olunmuş digər kütlə haqqında yerli əhalinin məlumatına əsasən daha qədim dövrlərdə yaşayış olduğunu söyləmək mümkündür. Çox güman ki, yuxarıda təsvirini verdiyimiz pir və həmin qəbristanlıqla əlaqədar daha qədim dövrlərdə mövcud olmuşdur. Beləliklə XV əsrdən başlayaraq yazılı mənbələrdə Buğurt qalası adına təsadü edilsə də arxeoloji tədqiqat nəticələri hələ XI-XIII əsrlərdə burada yaşıyış olduğunu göstərmişdir. Bəlkə də XI-XIII əsrlərdə Buğurt qalası XV-XVI əsrlərdəki əzəmətdə deyilmiş, lakin həmin dövrdə burada istehkama əlaqədar yaşayış olması şübhəsizdir.

Qeyd etdiyimiz kimi XIII-XVII əsrlərdə Buğurt qalası təkcə təhlükə zamanı müdafiə qalası deyil, eyni zamanda Şamaxı ilə əlaqədar yaşayış yeri və Şirvanşahların ehtiyat hərbi qüvvələrinin yerləşdiyi əlverişli məkan olmuşdur. Bunu qalanın ön istehkam arxasında hazırda xarabaları qalmış çoxlu bina qalığı da təsdiq edir. Təhlükə zamanı Şamaxı ilə Gülüstan qalası və Buğurt arasında hərbi əlaqə, orta əsr mənbələrində qeyd edildiyi kimi, hündür dağlar başında tikilmiş gözətçi məntəqələrində gecələr od və gündüzlər tüstü vasitəsilə həyata keçirilirdi. Şamaxı ilə Buğurt qalası arasında belə bir gözətçi məntəqələrindən biri Quşqana dağı ola bilərdi. Bu dağın zirvəsində orta əsrlərə aid tikinti və digər məişət qalıqlarının

tapılması da bunu təsdiq edir.

Gülüstan qalası. Gülüstan qalası Şamaxı şəhərinin şimal-qərbdə, 1,5-2 km məsafədə sıldırım qayalı bir dağın zirvəsində, tikilmişdir. Əngəxaran kəndinin yanında yerləşir. Vaxtı ilə Şirvanşahların qərargahı və hərbi istehkam məntəqəsi olmuş bu qala tarix boyu baş verən vuruşmalar və zəlzələlər nəticəsində tamamilə uçulub dağılmış, indi onun yalnız bəzi bürc, divar və binalarının xarabalıqları qalmışdır.

Gülüstan qalası şimal, şərq və cənub-şərq tərəfdən sıldırım qayalı və uçurumlu dərə, qərb, cənub-qərb və cənub tərəfdən isə dik enişlə əhatə olunub. Gülüstan qalasının şimal tərəfində geniş və uçurumlu bir dərə vardır. Bu dərədən 6-7 km məsafədə Məlhəm və Əngəxaran kəndləri yerləşir.

Qalanı şərq tərəfdən Pirdirəki dağı əhatə edir. Sıldırım qayalı bir dərə Pirdirəki dağını Gülüstan qalasının yerləşdiyi dağdan ayırır. Bu dərə hər iki tərəfdən şaqulu şəkildə qarşı-qarşıya dayanmış nəhəng qayalarla əhatə olunur.

Gülüstan qalasının yerləşdiyi dağın cənub ətəyində Xınıslı kəndi, qərb tərəfində 6-7 km məsafədə Meysər dağı və Meysəri kəndi yerləşir. Gülüstan qalasında tikilmiş istehkamlar, əsas etibarı ilə, iki hissədən ibarətdir:

- Birinci, qalanın yerləşdiyi dağın yuxarısındakı keçmiş şəhər yerini əhatə edən və qonşu Xınıslı kəndindən aydın görünən ön istehkamlardır.

- İkincisi isə dağın ən yüksək zirvəsində tikilən və

uzaqdan kəsilmiş konusa oxşayan iç qalanın – “Narın qalanın” istehkamlarıdır.

Qeyd etdiyimiz kimi, qalanı şimal, şərq və cənub-şərq tərəfdən uçurumlu dərə və sıldırım qayalar əhatə etdiyi üçün burada istehkam tikilməsinə ehtiyac olmamışdır. Buna görə də ön istehkamın bürc və hasarları dağın cənub tərəfindən başlayıb, qərb və şimal-qərb tərəfə, yəni sıldırım qayalar və uçurumlu dərə başlanan nöqtəyə qədər uzanır. Qalaya əlverişli çıxış yolu cənub tərəfdəndir. Burada onun əsas bürcləri və baş qapısı yerləşmişdir. Bürc qalıqlarından onların dairəvi olduqlarının söyləmək olar. Qalanın ikinci böyük bürc və baş qapısı isə şimal-qərb tərəfdədir. Bu isə dördküncdür.

Bu iki əsas bürcün arasındkı təqribən 500 m məsafədə ön istehkamın hasarı çəkilmişdir. Bu hasar və onun bürcləri tamamilə dağılmışdır. 1703-cü ildə Gülüstan qalasını gəzmiş və onun xarabalarının təsvirini vermiş Hollandiya səyyahı və rəssamı Le Briun (Le Brioun) həmin hasarın bürcləri arasındakı məsafələrin 70 və bəzən 80 addım olmasını qeyd etmişdir.

“Narın qala” ön istehkamın arxasında, qərb tərəfdə, dağın ən yüksək zirvəsində tikilmişdir. O, üç tərəfdən - şərq, cənub, qərb tərəfdən ikinci bir qla hasarı və bürcləri, şimal tərəfdən isə “Qala dalı dərə”nin sıldırım qayaları ilə əhatə olunur. “Narın qala”nın ətraf hasar və bürclərinin qalıqlarından məlum olur ki, onun 10 bürcü olub. Bürclər arasında məsafə təqribən 8 m-dən 15 m-ə qədərdir. Onun əsas bürcləri və baş qapısı şərq

tərəfdədir. Hasarın içərisində bir sox bina xarabaları aydıncasına müşahidə olunur.

Şamaxıda 1683-cü ilin dekabr ayından - 1684-cü ilin yanvar ayına qədər səyahət edən alman səyyahı və təbiətşunası Engelbert Kempfer Gülüstan qalasının yerləşdiyi dağın geoloji xüsusiyyətlərini izah edir. O, Şamaxı şəhərinin 1712-ci ilə təsadüf edən və az məlum olan görüntüsünu də təsvir edir. Hər zaman olduğu kimi, tarixi abidələrə böyük maraq göstərən E.Kempfer Gülüstan qalasını və onun sağında yerləşən köhnə dəfn yerlərinin mövcud olduğu dağı da ziyarət etmişdi. Qeyd etdiyimiz kimi, qalanı şimal, şərq və cənub-şərq tərəfdən uçurumlu dərə və sıldırım qayalar əhatə etdiyi üçün burada istehkam tikilməsinə ehtiyac olmamışdır. Buna görə də ön istehkamın bürc və hasarları dağın cənub tərəfindən başlayıb, qərb və şimal-qərb tərəfə, yəni sıldırım qayalar və uçurumlu dərə başlanan nöqtəyə qədər uzanır. Qalaya əlverişli çıxış yolu cənub tərəfdəndir. Burada onun əsas bürcləri və baş qapısı yerləşmişdir. Bürc qalıqlarından onların dairəvi olduqlarının söyləmək olar. Qalanın ikinci böyük bürc və baş qapısı isə şimal-qərb tərəfdədir.

Beləliklə, Gülüstan qalası coğrafi mövqe cəhətdən möhkəm və əlçatmaz yerdə tikilmişdir. Xüsusi ilə “Narın qala” Gülüstan qalasının yerləşdiyi dağ və ətraf mətəqələrə nisbətən ən əlverişli, strateji yerdədir. Belə ki, buradan nəinki tək qalanın yerləşdiyi bütün sahə, hətta ətraf kəndlər, xüsusi ilə

Şamaxı şəhəri aydın görünür.

Gülüstan qalasının tikildiyi dövr haqqında hələlik dəqiq məlumat yoxdur. Tarixi mənbələrdə, ərəb istilası dövründə Şirvanda yaşayan əhalinin dağlara çəkilib, müqavimət göstərmələri haqqında məlumatlara təsadüf olunsa da, Gülüstan qalasının adına rast gəlinmir. Bu barədə XII əsrin əvvəllərindən başlayaraq aydın məlumat vardır. Məsələn, 1123-cü ildə Səlcuq Sultan Mahmud (1118-1131) Şamaxını tutan zaman gürcü çarı David (1089-1125) Sultan Mahmudun yazdığı hədələyici məktuba cavab olraq böyük ordu ilə Şamaxıya hücum edir, çar David birinci növbədə "Şirvanşahın iqamətgahı olan Gülüstan qalasını" ələ keçirir.

Bu dövrdə Gülüstan qalasının əzəmətli və mükəmməl bir qala olması Xaqaninin (1120-1199) əsərlərində də inikasını tapmışdır. O, öz şerlərinin birində Gülüstan qalasının yerləşdiyi dağı Məkkənin şərq və cənub tərəfində olan Buqbeys dağına, Şamaxı şəhərinin isə müsəlmanların müqəddəs hesab etdikləri Kəbəyə oxşadaraq yazır: "Bizim Gülüstan qalamız Buqbeys dağına oxşayır. Kəbə Buqbeys ətəyində olduğu kimi, Şamaxı da Gülüstanın ətəyindədir".

Gülüstan qalası monqol istilası dövründə də alınmaz bir qala olmuşdur. İbn əl-Əsir monqolların Şirvana basqın etmələrindən bəhs edərək yazır: "...Sonra Azərbaycandan və Arandan qurtarıb, Dərbənd və Şirvana gedərək o tərəfdəki şəhərləri aldılar. Oranın padşahı yaşayan qaladan başqa heç bir

yer salamat qalmadı...”

Mənbələrin verdiyi məlumata görə, “Monqollar Şamaxını mühasirə etdikləri dövrdə Şirvanşah alınmaz qalalarının birində gizlənmişdir”. Monqolların bu dövrdə Şirvanşaha sülh təklif etmələri Şirvanşahın gizləndiyi qalanın möhkəm olduğunu sübut edir. Çox güman ki, bu qala Gülüstan qalası olmuşdur.

Elxanilər dövründə (XIII-XIV əsrlərdə) Şirvanşahlar monqollardan asılı idilər. Hülakuxan Bağdadı aldıqdan sonra Şirvana tərəf gəldikdə Şirvanşah (Kəştasib) çoxlu tərəflərlə onun yanına gedib, özünün tabe olduğunu bildirir. Buna görə də bu dövrdə Gülüstan qalsı və onun ətrafında gərgin hadisələr baş vermir.

Elxanilər dövründən sonra Gülüstan qalası yenə də Şirvanşahların hərbi iqamətgahı olmuşdur. Şirvanşah Keyqubadın dövründə Azərbaycanı tutmuş Məlik Əşrəf Şirvanşahın qızına elçi göndərib rədd cavabı adıqdan sonra öz vəziri Xacə Əbdülxanı çoxlu qoşunla Şirvanın üzərinə göndərir (1347-1349). Tarixi mənbələrdə bu vuruşmalarda Keyqubad və oğlu Kavusun dağ üzərində olan qalaya çəkilərək müdafiəyə başmaları qeyd olunur. Eləcə də 1366-cı ildə Cəlayiri Sultan Üveys Bağdadda Xacə Məcanın qiyamını yatırmaqla məşğul olan zaman Şirvanşah Kavus Qarabağ və Təbrizi tutur. Aran və Qarabağ əhalisindən çoxlu adamı Şirvana köçürür. Buna görə də Sultan Üveys Bağdaddan qayıdandan sonra hadisədən xəbər tutub Bayram (Piram) bəyin başçılığı ilə böyük bir qoşunu

Şirvana göndərir (1367). Bayram bəyin qoşunları üç ay Şirvanı talayır. Tarixi mənbələrdə bu hadisələrdə Şirvanşahın yenə də "yaxşı müdafiə oluna bilən" bir qalada gizləndiyi qeyd olunur. Nəhayət, Şirvanşah yerli ruhani və şeyxlərin vasitəsiliyi ilə həmin qaladan çıxıb təslim olur.

Ehtimal etmək olar ki, Məlik Əşrəf və Bayram bəy Şirvana hücum edən zaman Şirvanşahın və oğlunun gizləndiyi qala Gülüstan olmuşdur. Çünki bu dövrdə Gülüstan qalası əzəmətli hərbi istehkam idi. Bunu həmin dövrün şairlərindən Arif Ərdəbilinin Gülüstan qalası haqqında yazdığı şerdən də görmək olar.

Tarixi və ədəbi mənbələrdən məlum olur ki, Cəlayiri Şeyx Üveys cənubi Azərbaycanda hökmranlıq etdiyi vaxt Şirvanşah Keykavus ibn-Keyqubadın dəvəti ilə Arif Ərdəbili Şirvana gəlir. Keykavus öz oğlunun tərbiyə ediməsini ona tapşırır. Arif Şirvanda yaşadığı müddətdə Şirvanşahın tərifinə "Fərhadnamə" adlı poema yazır. Həmin poemada o, Şamaxının və Gülüstan qalasının adını aydın çəkərək yazır: "Şamaxı Gülüstanında bir qala vardır ki, möhkəm qalalar onun qarşısında alçaq görünər. Onda (qalada) daşdan bir neçə surətin rəsmini gördüm ki, yaxşılıqda dünyada misli, bərabəri yox idi".

Bu şerdən aydın surətdə məlum olur ki, Arif Ərdəbilinin yaşadığı dövrdə (XIV əsrin əvvəllərində) Gülüstan qalası əzəmətli və möhkəm bir qala olmuş və orada daşdan yonulmuş surətlər var imiş. Həmin daş surətlər qala hasarının üstündə

imiş.

XVII əsrin əvvəllərində Gülüstan qalasının və eləcə də Şamaxının hasar və bürclərinin xarabalarını təsvir edən Adam Oleari şəhərin divarı üzərində daşdan yonulmuş iki kişi başının olduğunu qeyd edərək yazır: “Mən divarın üzərində daşdan yonulmuş bu kişi başlarının nə demək olduğunu soruşduqda, heç kəs bir söz deyə bilmədi”.

1946-cı ildə İ.M,Cəfərzadənin rəhbərliyi ilə Bakı limanında aparılan arxeoloji qazıntılar nəticəsində aşkar edilmiş Bayıl daşlarında qazma formasında ərəb əlifbası ilə yazılmış sözlərlə yanaşı, insan başı şəkli də vardır. Bu daşların üzərində hicri 632 (1234/5) tarixi yazılmışdır.

Görünür, şəhər və qaya qala divarlarında daşlar üzərində insan surətləri təsvir etmək orta əsrlərdə Azərbaycanda bir qayda olaraq mövcud imiş. Daşlar üzərində müxtəlif naxışlar çəkmək, hətta böyük Nizaminin əsərlərində də öz inikasını tapmışdır. Belə ki, Nizami özünün “Xosrov və Şirin” əsərində Fərhadı təsvir edərkən onu “daşlar üzərinə dəmirlə Çin naxışı çəkən” bir ustad adlandıraraq yazır: “Qızıl bir rəng alır işindən güllər, daşlarda dəmirlə Çin nəqşi çəkər”.

Göstərilən bu faktlar Gülüstan qalasının hasarıda daşda insan surətinin nəqş olunması barədə Arif Ərdəbili tərəfindən verilən təsviin düzgün olduğunu təsbit etməklə bərabər, orta əsrlərdə Azərbaycan memarlıq və incəsənətinin nə dərəcədə yüksəldiyini göstərir.

Arif Ərdəbili həmin poemanın başqa bir yerində öz əsərinin qəhrəmanı Fərhadı Gülüstan qalasını tikənlərə oxşadır. Və bu qalanı Əxistan qalası adlandırıb yazır: “Bunların hünərləri haqqında dastanlar var. Bu hünərlərin nümunələrindən biri şah Əxistanın qalasıdır”.

Göründüyü kimi, şerdə Gülüstan qalası Əxistanın qalası adlanır. Buradan Əxistan dövründə Gülüstan ən mükəmməl bir qala olması bir daha aydınlaşır. Gülüstan qalasının Əxistan dövründən əvvəl mövcud olduğunu nəzərə aldıqda, belə ehtimal etmək olur ki, bəlkə də qalanın əsas istehkamları Əxistan zamanı tikilmiş və yaxud bərpa edilmiş, buna görə də həmin qala onun adı ilə şöhrətlənmişdir.

XV əsrin axırlarında Səfəvi şeyxləri ilə Şirvanşahlar arasında gedən mübarizədə Gülüstan qalası yenə də Şirvanşahların hərbi müdafiə məntəqəsi idi. Səfəvi şeyxi Cüneyd (1447-1456) I Xəlilullah (1417-1462) ilə müharibədə məğlub olub öldürülədən sonra Şeyx Heydər (1456-1488) atasının qanını almaq üçün 10 min atlı ilə Şirvana hücum edir. Bu müharibədə Fərrux Yəsar (1462-1501) məğlub olduqdan sonra Gülüstan qalasına pənah aparır. Şeyx Heydər öz qoşunlarına qalanı almaq göstəişi vermiş və 7 ay həmin qalanı mühasirədə saxlamışdır. “Həbibüssiyər” də qeyd edilir ki, “...bu yerin əhalisi qala hasarının möhkəmliyinə arxalanıb ... darvazları bağladılar və oradan ox, daş atmağa başladılar”. Buna görə də Şeyx Heydər Gülüstanı ala bilməyib, Dərbənd

qalasına tərəf gedir. O, əvvəlcə Dərbənd qalasını, sonra isə Gülüstanı tutmaq və Şirvanşahı məğlub etmək qərarına gəlir. Lakin bu zaman Səfəvi şeyxləri müridlərindən olan Qara Piri Qacar Şeyx Heydərə xəbər gətirir ki, Ağqoyunlu Sultan Yaqub 4 min atlı ilə Şirvanşaha köməyə gəlmişdir. Şeyx Heydər Dərbənddən qayıdıb Sultan Yaqubun göndərdiyi Süleyman Türkmənin qoşunları ilə vuruşur və bu vuruşmada ona nizə dəyib ölür. Beləliklə, istər Dərbənd və istərsə də Gülüstan qalalarını almaq cəhdi baş tutmur.

XVI əsrin əvvəllərində Şah İsmayıl Səfəvinin Şirvana hücumu zamanı (1500) Gülüstan qalası yenə də möhkəm hərbi istehkam rolunu oynamışdır. Şah İsmayıl ata-babasının intiqamını almaq üçün 8 min qızılbaş ilə Şirvana doğru hərəkət edir. Bu dövrdə Şirvanşahın 20 min atlı, 8 min piyada qoşunu var idi. Tarixi mənbələrdə qeyd edilir ki, İsmayılın qoşunları Şamaxıya çatdıqda şəhərin əhalisi qaçıb, üzərində qala tikilmiş bir dağın zirvəsinə qalxdılar. Qızılbaşlar Şamaxını tutduqdan sonra İsmayıla xəbər çatır ki, Şirvanşah Gülüstan qalası ilə Buğurd qalası arasında olan meşədə gizlənmişdir. İsmayılın qoşunları həmin meşəyə gəlir və Şirvanşah Fərrux Yəsarın qoşunlarını oradan qovur. Tarixi mənbələrdə bu vuruşmada Şirvanşahın məğlub olub Gülüstan qalasına çəkilmək cəhdi qeyd olunur. Lakin o, özünü qalaya çatdıra bilmir və Cəbani adlı yerdə vuruşmada öldürülür. Bu qələbədən sonra İsmayıl qışlamaq üçün Mahbudabada gedir və

sonra Bakı qalasına doğru hərəkət edir.

İsmayıl Bakı qalasını aldıqdan sonra Gülüstan qalasını almaq üçün Şamaxıya tərəf hərəkət edir. “Həbibüssiyər”də yazıldığına görə, bu zaman Şirvanın çoxlu hərbi qüvvəsi Gülüstan qalasında yerləşirdi. Şirvanlılar qalanın möhkəmliyinə və ehtiyatlarının çoxluğuna arxalanaraq təslim olmurdular. Bu isə Gülüstan qalasının təkcə passiv müqavimət qalası deyil, eyni zamanda, Şirvanlahların hərbi istehkam məntəqəsi olduğunu da nişan verir.

İsmayılın qoşunları Şamaxı yaxınlığında “Gələxana” adlı yerə çatdıqda ona xəbər verirlər ki, Şirvanşah möhkəm bir qalada gizlənmiş, Şamaxı əhalisi isə Gülüstan qalasına çəkilmişdir. İsmayılın qoşunları Gülüstan qalasını mühasirə edib onun ətrafında çadırlar qurur. O, öz qoşunlarını bir neçə dəstəyə bölüb, qalanı almaq üçün hazırlıq görür.

“Tarixi-aləm-arayi-Abbasi”də və eləcədə, başqa tarixi mənbələrdə qeyd olunur ki, bu zaman guya Şah İsmayıla qeybdən Azərbaycan hakimi olmaq xəbəri yetirişir və buna görə də o, öz əmirlərini çağırıb “...Sizə Gülüstan qalası lazımdır, yoxsa Azərbaycan taxtı” deyə qalanın mühasirəsindən əl götürür. Şübhəsiz ki, İsmayıla qeybdən xəbər yetişmək fikri Səfəvi şahlarının saray tarixçisi olan İskəndər Münşinin uydurmasıdır. Əsl həqiqət bu dövrdə Gülüstan qalasının yenə də möhkəm və alınmaz bir istehkam olunmasından ibarət idi. İsmayıl qalanın alınmaz olduğunu

görüb geri qayıtmaq məcburiyyətində qalmışdır. Bu məsələni "Həbibüssiyər"in müəllifinin yazdığından daha aydın görmək olur. Həmin mənbədə qeyd edilir ki, "...Şah İsmayıl Gülüstan qalasını mühasirə etdiyi vaxt bir gün qalanın kənarında bir ağacın kölgəsində dayanıb qalanı necə almaq haqqında düşünürmüş. Bu zaman qalanın hasından bir nəfər başını bayıra çıxarıb ondan geri qayıtmağı xahiş edir". Buradan bir nəfərin baş qaldırması uydurma olsa da, İsmayılın qalanı almaq haqqında fikirləşməsi həqiqətəuyğundur. Görünür, Gülüstan qalasının möhkəm və alınmaz bir qala olması Şah İsmayılı düşünməyə məcbur etmişdir.

Şirvanşah Fərrux Yasər öləndən sonra onun varisləri arasında hakimiyyət uğurunda kəskin mübarizə başlanır. İki il ərzində Fərrux Yasərin canişinləri Bəhram və Qazi bəy, sonra isə Sultan Mahmud Şirvanda hakimiyyət sürürlər. 1502-ci ildə Şirvan əyanları Mahmudu qovub, Şeyx şahı hakimiyyət başına keçirirlər (1502-1524). Bu zaman sultan Mahmud Şah İsmayılın yanına qaçır, onun köməyi ilə yenidən Şirvan hakimiyyətinə yiyələnmək istəyir. Şeyx Şah ilə Sultan Mahmud arasında gedən vuruşmalarda Gülüstan qalası Şeyx şahın sığındığı əsas istehkam məntəqəsi olur. Sultan Mahmud Gülüstan qalasını 3 ay mühasirədə saxlayır. Nəhayət, Sultan Mahmud öz qulluqçusu tərəfindən öldürüldükdən sonra mühasirə dayanır və Şeyx şahın qoşunları Gülüstan qalasından aşağı enir. Şeyx şah Sultan Mahmudu Məğlub etdikdən sonra

Şah İsmayıla xərac verməkdən boyun qaçırır. Buna görə də Şah İsmayıl 1509-cu ildə ikinci dəfə Şirvana qoşun yeridir. Bu dəfə Şeyx şah Buğurd qalasına qaçır.

1538-ci ilin yazında I Təhmasib Şirvanda baş verən ixtişaşlardan istifadə edərək, qardaşı Alxas Mirzəni 20 min ordu ilə Şirvana göndərdikdə, Şahrux və onun vəkili Hüseyn bəy Buğrud qalasına qaçırlar. Alxas Mirzə "Surxab" və "Qəbələ" hasarını aldıqdan sonra Buğrud qalasını mühasirə edir. Mühasirə 4 ay davam edir. Şirvan əyanları yalnız Şah özü gəldiyi təqdirdə təslim olacaqlarını bildirirlər. Nəhayət, şah özü Şirvana Buğrud qalasının ətəyinə gəlir. Sabahı gün Hüseyn və Şirvanın başqa əyanları Şahrux ilə bərabər Buğrud qalasından çıxıb təslim olurlar. Buğrud qalası təslim olandan sonra "Gülüstan qalasının qala bəyisi hasardan çıxıb qalanın açarlarını təhvil verir".

1548-1549-cu illərdə Türk qoşunları I Təhmasibə yağı olmuş Alxas Mirzə ilə birlikdə Şirvana hücum edən zaman yenə də Buğrud və Gülüstan qalalarının adı çəkilir. Belə ki, bu vuruşmalarda türk qoşunları Buğurd qalasında, səfəvi qoşunları isə Gülüstan qalasında yerləşirdi.

1562-ci ildə Şamaxıya gəlmiş ingilis tacir və səyyahı Antoni Cenkinsonun yazdığından məlum olur ki, bu vuruşmalar zamanı I Təhmasib Gülüstan qalasını dağıtmışdır. O yazır: "...Şamaxı şəhərinin yaxınlığında məhv edilmiş Gülüstan adlı qədim bir qala vardır. Bura dünyanın ən qədim

qalalarından sayılırmış...”.

Tarixi mənbələrdə Sultan Məhəmməd Xudabəndə dövründən başlamış I Şah Abbas dövrünün sonuna qədər (1578-1629) Şirvanda gedən müharibələrdə yalnız Şamaxı qalasının adı qeyd olunur. Məsələn, 1578-ci ildə türk sərkərdəsi Lalə Paşa ilə səfəvi bəylər bəyi Ərəs xan arasında gedən müharibələrdə yalnız Şamaxı qalasının tutulmasından söhbət gedir.

Eləcə də 1606-1607-ci illərdə türklərlə I Şah Abbas (1588-1629) arasında gedən müharibələrdə Şamaxı qalasının mühasirəsi qeyd olunur. Lakin I Şah Abbas Şamaxı şəhərini mühasirə edən zaman tarixi mənbələrdə şəhərin istehkamı və səngərləri təsvir olunarkən onun şimal-qərb tərəfində yüksək dağın üzərində daş və əhəng ilə hörülən və möhkəm bürclərə malik bir qalanın adı çəkilir. “Tarixi-aləm-arayi-Abbasi”də bu barədə yazılır: “...Bu qala elə ucadır ki, fikir kəməndi onu tutmaqdan acizdir. Möhkəmlikdən buraya yol tapmaq mümkün deyil. Buna görə də şəhərin şimal tərəfində bu möhkəm bürclərin qarşısında səngər qurmaq olduqca çətin idi”.

XVII əsrin əvvəllərindən tarixi mənbələrdə Gülüstan qalasının bir hərbi istehkam məntəqəsi kimi təsvirinə təsadüf olunmur. Yazılı mənbələrin verdiyi məlumata görə Gülüstan qalası “bir zaman Şamaxı hakimlərinin istidən qorunmaq üçün müvəqqəti yaşayış yeri olmuşdur”. Belə ehtimal etmək olar ki, Gülüstan qalası özünün hər bir istehkam əhəmiyyətini

itirdikdən sonra uzun müddət bir yaylaq kimi də istifadə edilmişdir. Şamaxı şəhəri və Gülüstan qalası orta əsr Avropa və rus alim və səyyahlarının nəzər-diqqətini özünə cəlb etmişdir. XV əsrdə Avropa səyyahı Şildberger, 1467-ci ildə Hindistana gedən rus taciri Afanasi Nikitin, 1562-ci ildə inxgilis taciri Antoni Cenkinson, XVI əsrdə Avril Filip, 1523-cü ildə rus taciri Fedot Kotof, 1636-cı ildə Hollandiya səfarətinin üzvü Adam Oleari, 1670-ci ildə hollandiyalı Stueus, 1682-ci ildə Kempfer, 1703-cü ildə Korrnel Briun, 1739-cu ildə iki nəfər ingilis, 1769-cu ildə akademik Qmelin Şirvana və Şamaxıya gəlmiş, bunların bəziləri isə Gülüstan qalası haqqında öz müşahidələrini yazmışlar.

Gülüstan qalasında arxeoloji tədqiqat işləri aparmaq üçün indiyə qədər Azərbaycan EA Tarix İnstitutu tərəfindən bir neçə elmi heyyət Şamaxı rayonuna göndərilmişdir. Bunların içərisində Nizami Gəncəvinin yubleyinə hazırlıq məqsədi ilə 1939-cu ilin iyul ayında prof. Y.A.Paxomovun başçılığı ilə göndərilən ekspedisiyanın tədqiqatlarının əhəmiyyətini xüsusi ilə qeyd etmək lazımdır. Həmin ildə qalanın yeraltı yolunda tədqiqat işləri aparılmışdır.

Yeraltı yol qalanın şərq tərəfindədir. Onun qala xaricindəki çıxış yolu Pirdirəki dağı ilə üz-üzə olan sıldırım qayaların qoynunda 32 m hündürlükdədir. Burada yolun giriş hissəsi mağara ağzına oxşayır.

XIX əsr rus etnoqraf və topoqraflarının Gülüstan qalası

В прошлом, когда армяне и большевики делали первое наступление на Шемаху, спустя 7 дней после “Новруз-Байрама” на наше селение было сделано нападение молокан, действовавших заодно с армянами. Нападение было утром и напавших было около 150 человек. Все почти они были вооружены огнестрельным оружием. Только некоторые были вооружены дубинами и кинжалами. Напавшие в большинстве были молодые, но попадались и старики. У стариков огнестрельного оружия не было. Среди этих 150 человек, нападавших на наше селение было человек 20 армян. Все армяне были вооружены огнестрельным оружием. Старики были в своей штатской зимней одежде, молодые, как армяне, так и молокане, были все в военном. Офицера с ними не было. Напавшие сначала окружили наше селение и вошли в селение одновременно почти с разных сторон по семи дорогам, ведущим в наше селение. Они пришли с целью увести из селения всех молодых мусульман. Поэтому-то они разделились на группы по 3-4 человека в каждой, ходили от дома до дома и по именам вызывали всех, кого хотели увести. Когда напавшие находили нужного им мусульманина они преимущественно выводили его перед

дом и там его убивали. Таким образом, в деревне нашей было убито более 100 человек. При этом были убиты в селении же две молодые женщины за то, что защищали своего мужа и брата. Имена этих женщин Миная

Али Баба кызы (защищала своего мужа Кемаладдина Бала-Мамед оглы) и Хаджар Ахмед кызы (защищала брата Кафара). У меня дома были тоже два взрослых сына – Баграм и Али-Нур. Баграму было лет около 30, Али-Нуру – лет 17-18. Ко мне пришли тоже четыре молоканина, из которых один был стар, трое других- молодые. Старший в штатском и был вооружен только дубиной, на конец которой был прикреплен штык винтовочный, которым он добивал тех, в кого уже был пропущен выстрел и кто упал на землю, но не был убит наповал, а еще мучился. Я сама видела как этот старый молоканин таким образом добил сына моей соседки, дом которой находится рядом с моим, Каракишия Гаджи Баба оглы. Молоканин этот после того как был произведен выстрел в Каракишия каким-то солдатоммолоканином, которого я не знаю, добил Каракишия, воткнув ему штыков в спину в то время, когда он раненый упал на землю. Всю эту картину я видела своими глазами. Совершив вот это убийство Каракишия, старый молоканин со своими солдатами-молоканами пришли к моему дому и потребовали выдачи Баграма. Я начала умолять его взять все наше имущество и не убивать

Баграма. Старик было согласился и получил с меня – три мужских серебряных пояса (первый - казачий, узкий, весь из литого серебра; второй – состоял из ряда серебряных шариков, шарики эти были на всем поясе на небольшом друг от друга расстоянии; третий – старый, серебряный, широкий, женский серебряный пояс, широкий, передняя часть из литого серебра, задняя из серебреных монет в 20 – ах, малый кинжал с серебряной ножной, шелковую большую чадру, пестрого цвета, заграничное шелковое покрывало для одеяло шелковые темно синего цвета, большую шелковую чадру, 300 руб.николаевскими деньгами, 2 билета сторублевыми кредитками, 100 руб. мелкими кредитками (3-х, 5-ти, 10-ти и 25-ти рублевого достоинства) и драгоценные вещи на сумму 6000 руб. Другой мой сын Али-Нур был в это время болен тифом и его молокане не требовали. Муж мой – старик лет 80 тоже не подвергся никакому нападению со стороны молокан в тот день. Когда вещи были отданы молоканам, старик сказал, что все же сына моего Баграма, как молодого, он не может оставить дома, потому что имеет приказ убивать молодых мусульман или же брать их плен. Поэтому то он вывел моего Баграма вместе еще с шестнадцатью молодыми мусульманами за сел. Ангехаран на местность Чильдашлык и там эти несчастные 17 ангехаранцев в числе которых был и Баграм и еще два молодых

мусульман из сел. Калей-Бугурт, были окружены молоканами и убиты из винтовок и берданок. Нас – женщин и стариков тоже увели из селения на место расстрела, где мы и присутствовали при смерти своих сыновей и мужей.

Местность Чильдашлык отстоит от Ангехарана на расстоянии не более одной версты. Молокане ушли на расстрел не все. Многие остались в Ангехаране, где зарезали наших баранов и угощались. Старый молоканин, отобравший мои вещи и уведший моего сына Баграма из дома, при расстреле присутствовал и видно было, что он пользуется среди молокан какой-то властью, потому что распоряжений перед расстрелом давал он именно. Когда экзекуция была окончена, женщин и стариков отпустили, но похоронить трупы убитых не позволили. Мы похоронили трупы убитых спустя дня два после расстрела на том же месте, по несколько человек в каждой могиле. В то время, когда все почти селение было угнано молоканами на место расстрела, оставшиеся в селение молокане стали поджигать наши дома, и много из домов моих односельчан в тот день сгорело. Мой дом счастливо уцелел, потому что я успела вернуться в селение с места казни и потушить пламя. Перед вечером все молокане из нашего селения ушли.

Баграм получил две раны из огнестрельного ружья в спину и восемь штыковых ран в бока, ноги, спину. Огнестрельные раны в спину он получил потому, что молокане, построив всех 19 человека, в один ряд начали по ним стрелять, многие пустились бежать, в том числе этих последних был и Баграм и вот, когда он повернулся затылком к молоканам, желая бежать, тогда то и попали ему в спину пули. Троим таким образом удалось спастись. Это Джаннатали Нахмат оглы, Садраддин Джаби оглы и Шукюр Ибад оглы. Из них Джаннатали Нахмат оглы остался жив и поныне, но находится где-то в кишлаке, потому, что в селении голод. Садрадин и Шукюр умерли от болезней. Муж мой Кадыр Дадаш оглы спасся в этот день, был убит месяца два спустя, но не знаю кем и за что, его я нашла около Шемахи на расстоянии 2-х верст по дороге в сел. Ангехаран в кустах, неподалеку от самой дороги. На трупе была огнестрельная рана в живот с выходным отверстием в спине. Левая рука чуть пониже локтя была отрезана почти совершенно. Больше показать не имею. Неграмотная.

Переводил: Касимбеков (подпись). Следователь: подпись.

С соблюдением 443 ст. У.У.С.

Герай Бабаш оглы, жит. сел. Ангехаран, 28 лет, мусульманин, крестьянин, неграмотен, не судился, посторонний.

Я был очевидцем, как четыре молоканина – один старик с бородой и трое молодых пришли в день нападения на Ангехаран молокан из окрестных селений в дом Ирейхан Ага кызы и потребовали у них денег. Я это время я и Мамед-Хан Искендер оглы сидели, спрятавшись в конюшне Джаннатали Нахмат оглы, нашего односельчанина, которая находится напротив дома Ирейхана, совсем близко от него (конюшня от дома Ирейхана находится на расстоянии не более 10 сажени). В конюшне этой находится одно окошко, предназначенное для того, чтобы через него выбрасывать навоз. Через это окошко я и видел как эти четыре молоканина гнали перед собой прикладами Ирейхану и ее сына Баграма в дом и затем слышал, как они требовали от нее денег и вещи, за что старик обещал не убивать ее сына Баграма. Старый молоканин был вооружен палкой, на конце которой был винтовочный штык, все другие три молоканина были вооружены 3-х лин. винтовками. Я опознал этого старого молоканина. Это – Михаил Юрин, житель сел. Чухур-Юрт. Трех молодых я не знал и сейчас не мог бы их опознать. Все эти молокане затем ушли, уводя с собой Ирейхан и Баграма, притом на бывшую с ним лошадь они погрузили

два больших хурджуна, другие два хурджуна они взяли с собой, причем хурджуны несли молодые молокане. Что было в этих хурджунах, я не знаю, не знаю также, где был убит Баграм, но о том, что он убит я знаю. В конюшне мы с Мамед-Ханом остались до ночи, ночью же мы убежали в селение Арчиман. В этот день на Ангехаран напало очень много молокан из окрестных сел, среди них большинство было в военной форме, армян я в этот день не видел. Нападение было совершено на 6-ой - 7-ой день после “Новруз-Байрама”. В этот день было молоканами перебито до двухсот молодых мусульман в нашем селении, наше имущество было совершенно расхищено и почти все дома были подожжены. Уцелели лишь дома, крытые землей – землянки, но таких в нашем селении не больше двадцати.

Больше показать не имею. Неграмотен.

Переводил: Касимбеков (подпись).

Следователь: подпись.

Дополнительное показание Ирейханы Ага кызы:

В числе четырех молокан, бывших у меня дома и взявших мои вещи и деньги, и затем уведших сына моего Баграма и меня на место, где было расстреляно 19 молодых мусульман, был житель сел. ЧухурЮрт Михаил Юрин. Это тот самый, который был вооружен палкой, на конце которой находился штык и который распоряжался казнью мусульман.

Переводил: Касимбеков
(подпись). Следователь: подпись.

Мамед-Хан Искендер оглы, жит. сел. Ангехаран, 25 лет, мусульманин, крестьянин, неграмотный, не судился, посторонний.

Я был очевидцем, как во время нападения молокан на сел. Ангехаран в марте месяце прошлого года (дней 6 после “Новруз Байрам”) четыре молоканина, из которых один старый, вооруженный палкой, на конец которой был прикреплен штык и трое молодых вооруженных винтовками, вошли вместе с Ирейханой и ее сыном Баграмом в дом Ирейханы и требовали от нее выдачи денег и имущества. В это время я вместе с Гераем Бабаш оглы сидел, спрятавшись в конюшне Джаннатали Нахмат оглы, находящийся в 10 саженцах от дома Ирейханы. В конюшне имеется окно, через которое выбрасывают навоз и вот через это окно я и видел все происходившее в доме Ирейханы, потому что дверь ее дома, которая осталась открытой, выходит как раз напротив слухового окна конюшни. Потом, когда молокане вошли вглубь комнаты Ирейханы, я уже их потерял из своих глаз. Зато слышно было весь разговор, который молокане вели с Ирейханой. Я слышал, как старый молоканин обещал Ирейхане, что если она ему укажет где находятся деньги и отдаст ему все

ценные вещи, то ее сына Баграма не будет убить. Старика я опознал – это житель сел. Чухур-Юрт Михаил Юрин (или Йорин).Точно фамилии его не знаю. Потом я видел, что эти четыре молоканина вышли из дома Ирейханы с 4 – мя полными хурджунами, причем два из них погрузили на бывшую с ними лошадь гнидой масти, а два других понесли с собой в руках. Хурджуны несли молодые молокане, которых я не знаю. Старый молоканин был в своей штатской одежде и папахе, молодые же были в военных фуражках и одежде, похожей на солдатскую. Вместе с молоканами вышла также и Ирейхан с Баграмом и их куда-то увели эти молокане. В этот день на наше селение напало очень много молокан из окрестных селений, они расхитили все наше имущество, убили около двухсот молодых мусульман из нашего селения и подожгли наши дома, которые почти все сгорели. Я с Гераем сидел в конюшне до ночи, ночью же ушли в сел. Арчиман. Больше показать не имею. Неграмотный.

Переводил: Касимбеков (подпись). Следователь: подпись.

С соблюдением 307 и 443 ст.ст. Улож.Уг. Суд.:

Али-Нур Кадыр оглы, жит. сел. Ангехаран, 16 лет, мусульманин, крестьянин, неграмотный, не судился.

Я был дома, когда в прошлом году дней 6-7 дней после “Новруз-Байрама” к нам пришли старый молоканин и три молодых молоканина. Старый был вооружен палкой, на конце которой был штык, трое молодых были вооружены винтовками. В это время я лежал в постели, будучи болен тифом. Тогда было утреннее время. Старик молоканин, которого я раньше видел несколько раз дома у нас, когда он по делам приезжал к отцу моему, по имени Михаил Юрин, требовал у матери денег. Мать сказала, что отдаст деньги и имущество, но чтобы он не убивал Баграма. Старый молоканин обещал это матери, но сердился и требовал скорее денег. Потом же, увидев меня больного в постели, подошел ко мне и вместе с постелью выбросил меня на двор, причем я, падая, сломал себе правую ногу, и теперь могу ходить только опираясь на палку. (Свидетель действительно не владеет правой ногой). Что было потом, я уже не помню. Больше показать не имею. Неграмотен.

Переведено.

Переводил: Касимбеков (подпись). Следователь: подпись.

ГА АР, ф. 1061, оп. 1, д. 110, лл. 100-103.

Документ № 285.

Постановление *1919 года, мая 30 дня. Город Шемаха.*

Следователь Шемахинского Уездно-Городского Следственного Уч., рассмотрев настоящее дело, нашел: в прошлом году в марте месяце, спустя 7 дней после “Новруз-Байрама”, молокане Шемахинского уезда, воспользовавшись, общей разрухой и отсутствием власти, вооружившись, кто огнестрельным, кто холодным оружием, совершили в числе несколько сот человек нападение на сел. Ангехаран с целью открытой силой расхитить имуществоангехаранцев и лишения жизни молодых мусульман. Нападение было совершено утром, причем напавшие окружили Ангехаран со всех сторон и вошли в селение по 7 дорогам. Вошедшие в Ангехаран молокане разделились на отдельные группы в числе 3 или 4 человека и стали ходить по мусульманским домам, где убивали молодых мусульман и расхищали имуществоангехаранцев. Одна из таких групп в числе 4-х человек пришла к дому Ирейханы Ага кызы. Ирейхана, опасаясь за жизнь своих сыновей Баграм и Али-Нура, предложила пришедшим деньги, прося даровать жизнь сыновьям. Один из молокан- старик, который и раньше был в доме Ирейханы, ведя дела с ее покойным мужем – житель сел. Чухур-Юрт Михаил Юрин заверил Ирейхану,

что если она отдаст им все имущество, то жизнь сыновей ее будет пощажена. Забрав имущество, Михаил Юрин, вооруженный палкой, на конец которой был прикреплен винтовочный штык, вместе с другими тремя молоканами – молодыми, вооруженными огнестрельным оружием, вывели из дома Ирейханы ее самое и сына ее Баграма и повели их на местность Чильдашлык, находящийся на расстоянии версты от Ангехарана. Там они отделили Баграма от матери и, поставив вместе с другими 18-ю молодыми мусульманами в одну шеренгу, расстреляли, причем действиями и приготовлениями, предшествовавшими экзекуции, руководил опять таки Михаил Юрин. На основании изложенного и руководствуясь 396 ст. Уст. Уг.Суд. **Постановил:** жит. сел.Чухур-Юрт Михаила Юрина привлечь в качестве обвиняемого по сему делу, предъявив ему обвинение в том, что он в марте месяце прошлого года, спустя 7 дней после “Новруз-Байрама” утром, будучи вооружен палкой, на конце которой был прикреплен винтовочный штык, по взаимному согласию с тремя другими, вооруженными огнестрельным оружием молоканами, ворвавшись в дом жит. сел. Ангехаран Ирейханы Ага кызы, открытой силой похитили у нее имущество и деньги на сумму 6000 руб., затем выпроводив из дома Ирейханы ее сына Баграма Кадыр оглы, убили его в числе других 18 молодых

мусульман на местности Чильдашлык, т.е. по. Пр. пр. 13, 1629 ст. и 2 ч. 1459 ст. Улож. о Наказ.

Следователь: подпись.

Надпись: 31.У. 1919. № 505.

Матрасинскому Пр.-ву о задержании Юрина. **ГА АР, ф. 1061, оп. 1, д. 110, лл. 108-109.**

Документ № 357.

Протокол допроса *1919 года июля 29 дня, гор. Шемаха.*

Член Чрезвычайной Следственной Комиссии при Азербайджанском Правительстве Новацкий, допрашивал нижепоименованного в качестве потерпевшего с соблюдением ст. 307 и 443 Уст. Уг. Суд., который показал следующее:

Я, **Ширин-Бегум Насир кызы, 20 л., жит. сел. Ангехаран Шемахинского уезда, не судилась, неграмотная.**

Когда молокане напали на наше селение Ангехаран и начали громить его, я, мой муж Шах Керам Гани оглы, наши дети: Бейбала, Нариман, Агазада и Ханум-зада, а также Михек Халаф кызы, Зинят Сафали кызы, Мардан Гани оглы, Гариб Гани оглы, Джаваншир Гюльмали кызы, Камар и Ханум Насир кызы спрятались в конюшне. Туда

ворвались к нам четверо молокан, вооруженные ружьями, шашками и кинжалами. Они без всякого повода набросились на нас с обнаженными шашками и стали рубить и колоть находящихся там. Таким образом они зарубили и закололи моего мужа, сына Бейбалу и дочь Ага-заде, а также Мардана и Гариба. Мы, оставшиеся в живых, видя, что нас постигнет такая же участь, бросились на колени и умоляли молокан пощадить нас, обещав им принять их веру. Молокане выругали нас по вере, и повели из конюшни, а затем вместе с другими женщинами и детьми отправили в сел. Мельгам, а мужчин в сел. Матрасы (армянское селение). Этих четырех молокан я хорошо знала в лицо, а двух из них даже по именам, именно: Чухур-Юртца Николая и Джобанинца Василия. Дело в том, что Чухурт-Юртцы и Джобанинцы наши ближайшие соседи и постоянно встречаемся с ними, кроме того мой тесть Гаджи Баги Мазан оглы был богатый человек и давал молоканам деньги взаймы. Молокане часто приходили к нему, и я многих знаю в лицо, а некоторых по именам. Во время погрома нашего селения молокане сожгли тестя со всем его семейством в его собственном доме.

Сегодня утром я встретила в Шемахе на улице одного из упомянутых четырех молокан, именно Джобанинцы Василия, которого сразу опознала. Просила

полицию задержать его, вот это тот самый человек (указала на присутствующего при допросе Василия Щетинкина). Я не ошибаюсь в его личности и категорически заявляю, что он был в числе упомянутых четырех молокан, находился он, и он лично убил моего сына Бейбалу на моих глазах. Его лицо так сильно запечатлелось в моей памяти, что я никогда не забуду его. Я могу опознать и остальных трех, двое из них Чухур-Юртцы и один Козлы-Чайский. Убийцу я опознала в присутствии нашего старшины Мешади Гадима.

Более показать не имею. Читаю. Неграмотна.

Переводил: С.Касимов (подпись).

Член Чрезвычайной Следственной Комиссии: А.Новацкий

(подпись).

ГА АР, ф. 1061, оп. 1, д. 110, лл. 26-27.

Документ № 401.

Постановление *1919 года августа 7 дня, гор. Шемаха.*

Член Чрезвычайной Следственной Комиссии Новацкий, допросив жит. сел. Чухур-Юрт Михаила Васильевича Юрина, 57 лет, обвиняемого в том, что вследствие побуждений, проистекших из вражды религиозной и племенной к мусульманскому населению, действуя по предварительному соглашению с другими

лицами он составил шайку из нескольких сот человек, вооруженных огнестрельным и холодным оружием, которая, поставив своею целью истребление мусульманского населения, похищения и уничтожения его имущества 18 марта 1918 года, на рассвете, напав на мусульманское селение Ангехаран Шемахинского уезда, и громя его в течение целого дня, убила до 200 человек мусульман - мужчин, женщин и детей, причем убийства эти сопровождались особенными жестокостями, как-то: расстрелами в ряд по несколько человек, отрубанием конечностей, ушей, носов, выкалыванием глаз и т.п., похитила у населения все движимое имущество, состоявшееся из домашней обстановки, ковров, постели, посуды и проч., а также похитила весь крупный скот и путем поджога уничтожила все селение с приходской мечетью, и в частности в том, что он лично тогда же там же и при тех обстоятельствах убил Баграма Кадыр оглы и Каракишия Гаджи Баба оглы, и принимая во внимание, что хотя обвиняемый не признал себя виновным в означенных преступлениях, однако вполне изобличается в таковых показаниями потерпевших: старшины Ангехаранского общества Мешади Кадыма Мешади Надир оглы, Агаджана Мехти оглы, Джабара Али Мамед оглы, Насраддина Ибрагим оглы и др., удостоверивших на следствии факт нападения на сел. Ангехаран шайки разбойников, которая

убила до 200 жителей, похитила все движимое имущество и путем поджога уничтожила все селение с приходской мечетью; что уничтожение селения путем поджога констатировано осмотром его; что потерпевшие Ирейхан Ага кызы, Герай Бабаш оглы, Мамед Хан Искендер оглы и Али-Нур Кадыр оглы показали, что между разбойниками, нападавшими на их селение. Видели обвиняемого, вооруженного штыком, прикрепленным к концу палки, что этим штыком обвиняемый добивал раненных и что, между прочим, он на их глазах таким образом добил раненных пулями Баграма Кадыр оглы и Каракишия Гаджи Баба оглы, и что за совершение означенных преступлений обвиняемому угрожает наказание по 13, 129, 922, 927, 1630, 1633, 1634, 1456, 1607 ст. Ул. о Наказ. влекущие за собой лишение всех прав состояния и ссылку в каторжные работы, а потому, руководствуясь 416, 419 и 421 ст. У.У.С., **Постановил:** мерою пресечения способов уклониться от следствия и суда против обвиняемого жит. сел. Чухур-Юрт Шемахинского у. Михаила Васильевича Юрина, 57 л., избрать безусловное содержание под стражей в Ганджинской тюрьме.

Член Комиссии: А.Новацкий (подпись).

Справка: 8 августа 1919 г., № 38

Начальнику Ганджинской тюрьмы с обв. Юриным и копией постановления.

ГА АР, ф. 1061, оп. 1, д. 110, лл. 159-160.

Документ №402.

Протокол допроса *1919 года августа 7 дня, гор. Шемаха.*

Член Чрезвычайной Следственной Комиссии при Азербайджанском Правительстве Новацкий, допрашивал нижепоименованную с соблюдением 307 и 443 Уст. Уг. Суд., которыя показала следующее:

Я, **Камар Микаил кызы, 30 л., жит. сел. Ангехаран Шемахинского у. мусульманка, не судилась, неграмотна.**

Молокане напали на наше селение в марте месяце, несколько дней спустя после праздника “Новруз-Байрама”. Молокане убивали людей, расхищали имущество и затем подожгли селение. В селении на моих глазах молокане убили моего двоюродного брата Каракишия Гаджи Баба оглы и за селением убили также Мусу Курбан оглы, Баграма Кадыр оглы и его отца Кадыра. Затем молокане отправили оставшихся в живых женщин и детей в сел. Мельгам, а молодых мужчин в сел. Матрасы, где их впоследствии убили армяне. Во время этого нападения было также между разбойниками несколько неизвестных мне армян. Знаю, что в нападении принимали участие молокане соседних селений Чухур-Юрт, Джобани и др., но

никого из них не знаю и опознать не могу. Меня с другими женщинами увели в сел. Мельгам, оттуда чрез дня три молокане привели нас в наше селение, которое почти целиком было сожжено.

Спустя месяца четыре или пять после разгрома нашего селения во дворе односельца Камбая Сафар оглы, где находилась и я и много моих односельцев и односельчанок, ворвались четверо армян, вооруженных ружьями. Двое были пешком, в двое верхом на лошади. Они убили Зияду Мирза кызы, ее дочь Бирджу, Юсуфа Ширин оглы и других. Армяне эти требовали от нас денег, но у нас денег не было. Они похитили разные вещи из дома Ших-Мамеда. Одного из этих разбойников я несколько дней тому назад опознала в городе Шемахе.

Более показать не имею. Читано. Неграмотна.

Переводил: С.Касимбеков (подпись).

Член Комиссии: А.Новацкий (подпись).

Справка. 7 августа 1919 г. № 36.

Следователю Шемахинского уч. с перепиской и копией показания потер. Камары Микаил кызы.

ГА АР, ф. 1061, оп. 1, д. 110, лл. 161-162.

Əngəxaranlıların soyqərəmə haqqında mülahizələr. Əngəxaranlıların malakanlar tərəfindən soyqırıma məruz qalması haqqında arxivlərdə 100-lə səhifə sənəd var. Biz onlardan yalnız seçilmiş bəzi materialları (şahidlərin və müttəhimlərin sorğu-sualları) təqdim edirik.

Bu soyqırım faktlarını arxiv materilları əsasında ilk dəfə mükəmməl olaraq görkəmli tarixçi alim, tarix elmləri doktoru, professor, Solmaz Rüstəmova-Tohidi araşdırmışdır. II cildlik "Şamaxıda soyqırım" adlı rus dilində çap olunmuş kitablarda da soyqırım haqda olan bütün materiallar öz əksini tapmışdır.

Bu sənədləri ürək ağrısıyla vərəqlədikcə Əngəxarana yaxın ətraf kəndlərdə yaşayan malakanların, müsəlman xalqına qarşı necə acımasızcasına qətliam törətdiklərinin şahidi oluruq. Qətliama şahidlik edən sağ qalmış əngəxaranlilar iddia edirdilər ki, kəndə hücum edən malakanların əksəriyyəti hərbi geyimdə olan gənclərdən ibarət olub. Amma aralarında mülki geyimdə olan yaşlılar da var imiş. Şahidlərin sözünə görə malakanların əlində kənddə yaşayan əhalinin siyahısı var idi. Onlar evlərə girir, siyahı ilə bir-bir insanları çağırır, elə yerindəcə güllələyirdilər. Əsas məqsəd kişilərin hamısını qırmaq idi. Öz ərlərini və qardaşlarını müdafiə edən qadınları amansızlıqla öldürürdülər.

Fövqaladə Təhqiqat Komissiyası tərəfindən törədilən cinayət araşdırılmış, sağ qalmış əngəxaranlı şahidlər, həmçinin vəhşiliklə cinayəti törədən malakanlar dindirilmiş, gərəyi

yerinə yetirilərək onlar həbs olunmuşdular. Maraqlıdır ki, dindirilmiş malakanların əksəriyyəti bu cinayətdə özlərini müqəssir və ya günahkar bilmir, hadisə yerində olmadıqlarını sübut etməyə çalışırdılar. Həbs olunmuş malakanlar cəzalarını çəkmək üçün Gəncə həbsxanasına göndərilmişdir.

Bundan başqa dağıdılmış kənddən qaçıb canını qurtara bilmiş Əngəxaran sakinlərinin çoxu aclıqdan, soyuqdan və xəstəlikdən tələf olmuşlar. Əngəxaranda malakanların törətdikləri vəhşiliklərlə əlaqədar təhqiqat materiallarında həmkəndlilərinin və şahidlərin ifadələrinə göre tərtib edilmiş siyahılarda bu kənddən malakanların böyük işgəncələrlə qətlə yetirdiyi 235 nəfərin adı da var. Bunlardan 176-sı kişi, 28-i qadın, 31-i uşaq idi. Əngəxaran əhalisini amansızlıqla qətlə yetirərkən malakanlar həm də onların evlərini talamış, əmlakını dağıtmış, evlərdən zinət əşyalarını oğurlamışdılar. Fövqaladə Təhqiqat Komissiyası tərəfindən soyqırım zamanı əngəxaranlılara dəyən maddi zərər isə 5.833.630 rubl olaraq hesablanmışdı.

Şamaxı faciələrini Azərbaycanın digər bölgələrindəki qırğınlardan fərqləndirən daha bir cəhət qəzanın molokan-rus əhalisinin bu hadisələrdə ermənilər tərəfində fəal iştirakıdır. Daşnaq erməni millətçilərinin müsəlman əhali əleyhinə rusdilli malakanlar arasında apardıqları təbliğat zatən bəlli idi. Lakin bu vaxta qədər müsəlman əhali ilə dinc-əminamanlıq şəraitində yaşayan rus və malakanların nədən bu qədər qəddar və qaniçən

cəlladlara dönməsi hələ də sual altındadır. Ayrıca mövzu olan bu məsələ Azərbaycan Hökuməti Fövqəladə Təhqiqat Komissiyasının Şamaxıya dair tədqiqatlarında xüsusi diqqət mərkəzində olsa da, ona dəqiq cavab tapılmamışdır.



Solmaz Tohidi-Rüstəmovanın II cildlik Şamaxı qırğınına həsr olunmuş kitabının üz qabığı

1918-ci il. Əngixaran kəndindəki məscid.

Əngixaran kəndi. 1918-ci il. Məşədi Qədim Məşədi Nadir oğlunun evi.
(İstintaq materiallarından)

VI FƏSİL
Əngəxaranın yetirmələri

Əngəxaran aşıqları. Aşıq musiqisi şifahi ənənəli Azərbaycan musiqi mədəniyyətinin ən qədim sahələrindən biridir. Aşıq sənətində musiqi, poeziya, təhkiyə, rəqs, pantomim, teatr sənəti elementləri üzvi şəkildə birləşmişdir.

XV-XVI əsrlərdə uzun təkamül prosesi nəticəsində oğuznamələrə xas olan şeir tərzi aşıq sənətində heca vəzni ilə əvəz olundu. Lakin heca vəzninin ("barmaq hesabı") ən qədim nümunələrinə xalq bayatılarında, orxon-yenisey abidələrində (VI-VIII əsrlər), Mahmud Qaşqarinin "Divani-Lüğəti-türk" (XI əsr), Yusif Balasaqunlunun "Qutatqu biliq" (XI əsr), "Dastani-Əhməd Hərami" (XIII əsr), Molla Qasımın (XVI əsr) gəraylı və qoşmalarında rast gəlmək mümkündür.

İlk əvvəl bayatı, gəraylı və qoşma şeir formaları ilə təmsil olunan heca vəzni zaman keçdikcə istedadlı aşıqların səyi nəticəsində məzmun və forma etibarilə rəngarəng şeir şəkilləri ilə zənginləşir, aşıq şeirinin bütün şəkilləri təmsil olunan aşıq Alı, Şəmkirli aşıq Hüseyn, aşıq Ələsgər, Molla Cümə və digər ustad aşıqların kamil əsərləri (XIX əsr) yaranır. Bu dövrdə aşıq yaradıcılığı yazılı ədəbiyyata da təsir göstərərək, Vaqif ədəbi məktəbinin təşəkkülündə önəmli rol oynayır.

Çoxəsrlik təkamül yolu keçmiş aşıq yaradıcılığı özündə xalq şeirinin qanunauyğunluqları ilə klassik ədəbiyyatın ənənələrini üzvi şəkildə birləşdirmişdir.

Aşıq şeir nümunələri quruluş və ölçülərinə görə sadə, mürəkkəb və düzəltmə şəkillərə bölünür. Sadə şəkillərə bayatı, gəraylı, qoşma, divani, müxəmməs və s. şeir formaları aiddir. Mürəkkəb şeir şəkilləri (qoşma-bayatı, ayaqlı təcnis, qoşma-müstəzad) iki və ya üç sadə şəklin çarpazlaşmasından yaranmışdır. Aşıq şeirinin düzəltmə şəkilləri (əlif-lam, əvvəl-axır, dodaqdəyməz, dildönməz, nəfəsdərmə və s.) isə əsasən fonetik, leksik vasitələrin tətbiqi nəticəsində meydana gəlmişdir.

Sadə şeir şəkillərinin bəziləri həm də aşıq şeirinin ilkin nümunələridir. Ehtimal olunur ki, sadə şeir formalarının bəziləri (gəraylı, qoşma) ilk əvvəl bir bəndli, sonra inkişaf yolu keçərək üç və daha artıq bənddən ibarət olmuşdur. Müəllifin adını özündə əks etdirən aşıq şeirinin sonuncu bəndi möhürbənd adlanır.

Qafiyələr üzərində qurulmuş təcnisin ən gözəl nümunələri Azərbaycan ədəbiyyatının incilər sırasına daxildir. Azərbaycan dilinin zəngin bədii-linqvistik imkanlarını özündə əks etdirmiş təcnis şeir formasının dodaqdəyməz təcnis, ayaqlı təcnis, cığalı təcnis, əvvəl-axır təcnis və s. leksik və fonetik növləri yaranmışdır. “Əsil təcnisləri-bədii siqləti, məna və mündəricəsi, estetik emosional təsiri, fəlsəfi yükü, məntiqi

axarı qabarıq nəzərə çarpan sənət incilərini ancaq fitri istedada malik olan kamil sənətkarlar yarada bilər – Qurbani, Abbas Tufarqanlı, Xəstə Qasım, Aşıq Alı, Aşıq Ələsgər kimi söz sərrafları”.

Sadə şeir formalarına aid olan divani və müxəmməs aşıq şeirinə klassik poeziyadan keçmişdir. Aşıq sənəti tarixindən məlum olduğu kimi, divani şeir formasının təşəkkülündə aşıqlar tərəfindən tez-tez oxunan Xətai qəzəllərinin son dərəcə önəmli rolu olmuşdur. Tarixi qaynaqlara əsasən qeyd etmək olar ki, XVI əsrdən etibarən əksər aşıq məclisləri məhz “Baş divani” havası ilə başlamışdır. Sinkretik səciyyəli aşıq sənətində şeir formaları üzvi şəkildə sazın quruluşu, ənənəvi havaların sintaksisi ilə bağlıdır. Belə ki, ifa zamanı on beş hecalı divaninin hər misrası iki hissəyə bölünərək birinci misra səkkiz, ikinci misra isə yeddi hecalı olur. Yeri gəlmişkən qeyd edək ki, müxəmməs şeir forması da sazın müşayiəti ilə ifa olunarkən onun da hər misrası iki yerə bölünərək bir beyt əmələ gətirir. Bu zaman onun “Müxəmməs” havasının metr-ritmik xüsusiyyətlərinə uyğun olaraq birinci misrası yeddi, ikinci misrası isə səkkiz hecalı olur.

Şirvan aşıq məktəbi qədim köklərə söykənən şərəfli bir yol keçib: “XIII yüzilliyə söykənən mənbələrdə adları keçən Şirvanlı Molla Qasım, bir qədər sonralar aşıq Paşa, XVIII-XIX yüzilliklərdə aşıq İbrahim, aşıq Oruc, Kolanlı Mustafa, XX yüzilin əvvəllərində Şirvan aşıq məktəbinin atası sayılan,

repressiya qurbanı Mirzə Bilal kimi ustad ozanlar həqiqətən Şirvan aşıqlığının sarsılmaz sütunlarıdır. Bu ölməzlər haqqında zaman-zaman araşdırıcılarımızın yazdıqlarından oxumuşuq. Ancaq Şirvan aşıqlığının tarixi mənzərəsini daha aydın təsəvvür etmək üçün çox işlər görmək gərəkdir. Repressiya qurbanı Salman Mümtazın başladığı, ancaq obyektiv səbəbdən axıra çatdıra bilmədiyi bu mövzu aktuallığını bu gün də itirməyib.

Aşıq İbrahim (1840-1914). Atamın babası İbrahim Şirvan bölgəsinin tanınmış ustad-aşığı olmuşdur. Atam babası haqqında hələ XX əsrin 60-cı illərində yaşlı adamlardan xatirələr toplamışdır. Lakin vaxtsız ölüm bu işin də başa çatdırılmasına imkan verməmişdir.

Odur ki, mən atamın arxivində, babası Aşıq İbrahim haqqında olan bu əlyazmaları incələyib işlədikdən sonra, həm aşığın nəticəsi kimi, həm də onunla fəxr edən bir insan kimi bu materialı qələmə almağı özümə borc sayıram.

Görkəmli ictimai xadim, akademik Rafael Hüseynov 1988-ci ildə qələmə aldığı “Min ikinci gecə” adlı kitabında Aşıq İbrahim haqqında ilk dəfə geniş məlumat vermiş, onun yaradıcılığını yüksək qiymətləndirmişdir.

Əngəxaran kəndində son iki yüz il ərzində bir neçə aşiq yetişmişdir. Əbəs yerə bu kəndi aşıqlar kəndi adlandırmırlar. Əngəxaranlı usdad aşıqlardan aşıq Xəlil, aşıq Nurəddin, aşıq Daşdəmir, aşıq Sədrəddin aşıq İslam və digərlərinin adını

çəkmək olar. Xalqımızın mənəvi yaddaşının söz naxışlı ulu sənətkarlarımızın nurlu ömür yolu bu günümüzə də işıq saçır. Əngəxaranlı aşıq İbrahim də məhz bu aşıqların usdadı, həmçinin el sənətkarı olub.

Şirvanda əhalinin mənəvi yaddaşında ulu söz ustası kimi şöhrət qazanmış, aşıq İbrahim adı ilə tanınan Güliyev İbrahim Hacı Gülü oğlu 1840-cı ildə Əngəxaran kəndində anadan olmuşdur. Aşıq İbrahimin babası Ağaxan ağa (1756-1835) Şamaxının zəngin adamlarından biri və Ağaxanlılar nəslinin yaradıcısı olmuşdur.

Aşıq İbrahim uşaq vaxtlarından yetim qalmış, dayıları Xəlil və Pənahın himayəsində böyümüşdür. Dayısı aşıq Xəlil onun çox mülayim səsini uşaqlıqdan müəyyənləşdirmiş və özü ilə məclislərə aparmağa başlamışdır. İbrahim ustad sənətkar yanında püxtələşərək dövrünün adlı-sanlı aşıqlarından olmuşdur. Aşığın məlahətli səsi, gözəl avazı və hazırcavablığı ona böyük şöhrət gətirmişdir. Böyük sənətkar kimi püxtələşən aşıq tez bir zamanda Şirvanda məşhurlaşdırmışdır.

Aşıq İbrahim Azərbaycan ellərini oymaq-oymaq gəzib dolaşmış, Naxçıvandan tutmuş Tiflisə, Mərənddən tutmuş Dərbəndə qədər təşkil olunan məclislərin mənəvi tələbatına xidmət etmişdir. Aşıq İbrahim özünə layiq şagirdlər yetişdirmişdir. Onlardan Daşdəmir, Sədrəddin və Muraddin kimi aşıqların adı indiyə kimi xalq arasında hörmətlə çəkilir.

Aşıq İbrahimin sənətkarlıq fəaliyyətində öz dəsti xətti var

idi. O, məclisə girəndə bəstələyib öz adı ilə adlandırdığı "İbrahim" havası ilə məclis əhlini salamlayırdı. Bundan başqa onun xalq yaddaşında saxlanılmış xeyli əsərləri məlumdur. Onun "Üç gül" qoşması çox məşhurdur. Qoşmada deyilir:

Yarın bağçasında üç gül açılmış,
Ağ gül, qırmızı gül, bir də sarı gül,
Hər biri də bir-birindən sevməli
Ağ gül, qırmızı gül, bir də sarı gül.

Ağ gülə yar gözüylə baxmalı,
Qızıl gülü dəstə tutub qoxmalı
Sarı gülü tər qönçə tək taxmalı
Ağ gül, qırmızı gül, bir də sarı gül.
Ay aman gözəl yarım, ahu ceyranım

Ağ gülü bənzətdim göydə laçına
Qırmızı gülü düzdüm yarın saçına
İbrahim qurbandır gülün üçünə
Ağ gül, qırmızı gül, bir də sarı gül.
Ala göz yarım, mənim ceyranım.

Aşıq İbrahimin şerlərindən çox az qalmışdır. Onlardan biri oğlunun ölümünə həsr olunandır. Deyildiyinə görə təsadüf nəticəsində gözü qarşısında Surxay adlı oğlu dünyasını dəyişmişdir.

Surxay çox qabiliyyətli, mərifətli və əməksevər bir oğlan imiş. Elə buna görə də aşıq Surxayı o biri oğlanlarından çox istəyirmiş. Payız fəsli imiş. Qonşu qadınlar aşığın üstü çardaqlı təndirində çörək bişirirlərmiş. Qadınlardan biri təndirüstü dəstəyə söykənibmiş. Bu zaman necə olursa, dəstək yana əyilir, pərdi dəstəkdən çıxır. Təndirin üstü qadınların başına çökür. Bunu görən Surxay tez özünü yetirir, pərdini çiyninə alıb qaldırır və qadınları xilas edir. Pərdini çiyinlərindən buraxarkən başqa bir pərdinin paslı mismarı onun peysərinə keçir. Surxay huşunu itirib yıxılır. Kənddə şivən qopur. Paslı mismarın təsirindən Surxay çox yaşamır, nakam ölür. Bu dəhşətli hadisə aşığı sarsıdır.

Aşıq bu münasibətlə "Oğluma" adlı şer yazmışdır. Şerdə ata yanğısı belə ifadə olunub:

Qəlbim daha heç açılmaz,
Dəhanından dürr saçılmaz,
Bundan müşkül kədər olmaz,
Pünhan-pünhan yanar könlüm.

Qonşuların harayını,
Qohumların ah-vayını,
Nakam ölən Surxayımı,
Yana-yana anar könlüm.

Belə yara qaysaq tutmaz,
Oğul dağı unudulmaz,
Ay İbrahim, qəlbinə yaz,
Günlərini sanar könlüm.

Aşığın qızı Ümgülsümün nənənin bir xatirəsi məlumdur. Onun bacısı Nisbət Cabanı kəndində ərdə olub. Xəstəlinb öləndən sonra Əngəxarana gətirilib. Aşığın onun ölümünə həsr etdiyi oxşamadan bir kuplet yaddaşlarda qalıb:

Mən aşıq bala, budu
Baxt budu, bəla budu.
Bəlalar çəkən başım
Kəl indi bəla budu.

Aşıq İbrahim məşhur Mahmud ağanın məclisində ən hörmətli sənətkar sayılırmış. Rəvayət olunur ki, Aşıq İbrahim oxuyanda hər tərəfdən bülbüllər uçub onun qarşısına qonarmış. Məlahətli səsi, şirin avazı, zənguləsi, bədahətən şeir deməsi, getdikcə bir sənətkar kimi püxtələşməsi onu tez bir zamanda Şirvan mahalında məşhur edir. Sonralar onun sorağı Qarabağdan, Muğandan, Naxçıvandan, Arazboyu ellərdən, dəmir qapı Dərbənddən gəlir. Aşıq İbrahimin şagirdlərindən Sədrəddin, Nurəddin və Daşdəmir ustadlarının adına layiq aşıq kimi xalq arasında tanınmış və sevilmişlər.

Şöhrəti bütün Azərbaycana yayılan sənətkar ömrünün son günlərinə kimi saz çalıb, söz qoşmuş, el şənliklərində iştirak etmiş, xalqın dağlar qədər uca, ümman təki geniş və

dərin məhbəbətini qazanmışdır. Deyilənlərə görə, aşıq İbrahimin nəslində ümumiyyətlə bədahətən şeir demək istedadı olmuşdur.

Əngəxaranlı Bayəddin əminin söylədiklərinə görə aşıq İbrahimin 9-yaşındakı qızı Ümgülsüm Avaxıl kəndinə, Əsbət nənənin qardaşı üçün qaçırılır. Ümgülsümün əri onu döyüb incidirmiş. Aşıq bunu eşidib Avaxıl kəndinə gəlir və Əsbət nənənin qardaşını töhmətləndirərək deyir:

Aşıq yelin olarmı
Duman çisgin olarmı
Kor olasan gözlərim,
Bundan pis gün olarmı?

Aşıq İbrahimlə bağlı el yaddaşındakı xatirələrdən iki yarpaq:

Ustad Həmyə kəndində Musa adında bir cavanın toyunda məclis yola verirmiş. Məclisin dastan söyləyən "guşəsində" aşığın vaxtsız həyatdan köçmüş sevimli qızı Nisbətin oğlu Səməd mağara girir. Aşığın güləş çöhrəsinə "qəm" enir, gözlərinə titrək şehin gilələri qonur. Aşıq şikəstə harayıyla sinədən gələn bayatılarını avazla kökləyir:

Mən aşıq belə işlər,
Fələk yatmaz hey işlər.
Düşman başına gəlsin
Başıma gələn işlər.

Narıncı doğradılar,
Yaylığa bağladılar.
Mən səndən ayrılmazdım
Zulmnan ayırdılar.

Narınca bax, narınca,
Saxlaram saralınca.
Kaş ölüb qurtaraydım,
Belə günə qalınca.

Bir yarpaq söyləmədə deyilir ki, aşıq İbrahim dəstəsiylə birgə Ərəbşalbaş (Cəbirri) kəndindən toydan qayıdırmış. Xəbər tutur ki, qarşıda, Pirsaat körpüsünün ətəyində yolkəsənlər onları gözləyir – "xeyir xəbərlə". Balabançısı Əliyə işarə edir ki, "qara nəri" şikəstə üstündə "yerit", sonrası mənim boynuma. Dəmkeşin barmaqları qara zurnanın "belini" sıxdıqca aşıq İbrahimin zənguləsi uzaqlardan əks-səda verirmiş... Beləcə, gəlib çatırlar deyilən yerə. Qabaqdan bir dəstə atlı çıxır. Dəstə başçısı ustadın əlindən, ayağından öpür və bağışlanılmasını ondan təvəqqe edir...

Daha bir yarpaq. Aşığı Quba mahalına toylara aparırlar. Qubada olmasından istifadə edib onu başqa toylara da dəvət edirlər. Bununla əlaqədar aşığın evə qayıtması 1 aya qədər çəkib. Toydan qayıdarkən Çanıt meşəsindən keçəndə qaçaqlar yolu kəsirlər. Aşıqdan xəbər çıxmadığını görən qohum-əqraba

belə qənaətə gəlir ki, yəqin onu və dəstəsini öldürüblər. Kənddə aşığa ehsan belə verməyə başlayıblar. Qohumlar yığılıb aşığın evində oturublarmış. Bu vaxt uzaqdan aşıq İbrahimin səsi eşidilir. Evdəkilərə xəbər verirlər. Onlar da bu səsin aşığın səsi olduğunu təsdiqləyirlər. Atını minən həmin səmtə çapır. Xeyli vaxt keçir gəlib çıxmırlar. Sən demə aşıq kənddən xeyli uzaqda oxuyurmuş. Sonradan məlum olur ki, qaçaqlar onu soymaq üçün deyil, oxutdurmaq, səsini dinləmək üçün saxlayıblarmış. 3-gün sonra özləri də xeyli "xələt" verib yola salıblar.

Şirvan aşıqlarının atası Aşıq Bilal (1872-1942), babası isə Aşıq İbrahim (1860-1914) hesab olunur. "Min ilinci gecə" əsərinin müəllifi Rafael Hüseynov yazır: "Aşıq Bilalın ilk ustadı Şamaxının Əngəxaran kəndindən aşıq İbrahim olub. İlk müəlliminin yanında dərs alıb öyrənmələri öyrəndikdən sonra ayrılıq günü çatır. O vaxt da qayda beləymiş ki, ustad öz şəyirdini tamam eləyəndə ustad şilləsi vurmalı imiş. Ancaq aşıq Bilalın oxuması Əngəxaranlı İbrahimin o qədər xoşuna gəlir ki, deyir "Sənə aşıqlığın ustad şilləsini mən vururam. Ancaq səndə xanəndəlik irsi də var".

Vaqif Yusifli Şirvan aşıqları haqqında bir məqaləsində yazır ki, Ağsu şəhərində yaşayan balabançı ustad Əli Kərimovun (1874-1962) nəvəsi Fikrət Əliyev danışır: "Babam deyərdi ki, o dövrdə bütün Şirvanda Aşıq İbrahim kimi gözəl səsli bir sənətkar olmayıb. Zili-zil, bəmi bəm yerində elə

oxuyarmış ki, hamı nəfəs belə çəkməzmiş. Qocalanda da o aşıqlığı atıb azan verirmiş. Mirzə (aşıq Mirzə Bilal nəzərdə tutulur) ilə babamın (Əli Kərimov nəzərdə tutulur) dostluğu on üç-on dörd yaşlıranda başlayıb. On yeddi -on səkkiz yaşlarında aşıqlığın bir çox sirlərilə bələd imişlər. Sözü bir yerə qoyubdular ki, Əngəxarana Aşıq İbrahimin yanına getsinlər, görsünlər ki onlardan sənətkar çıxarmı? Axşam tərəfi imiş, kənddə toy mağara qurulubmuş. Ortalıqda gəzən toybəyiyə deyirlər ki, əgər icazə versəniz Aşıq İbrahimə sözümüz var. Aşığa deyirlər bunu, o da icazə verir. Keçirlər içəri. Toy qurtarana kimi ustada qulaq asırlar və heyrətlənirlər. Hətta peşiman olurlar ki, birdən uğursuzluğa düçar olarlar. Toy qurtarır və ustad soruşur ki, kim idi məni axtaran? “Biz idik” – deyirlər. “Bala, hardansınız?” Mən Qəşəd kəndindən. Mustafanın oğlu, adım Bilal, mən də Kalva kəndindən. Gəlmişik, bizi yoxlayasınız. Görək bizdən aşıq çıxar, yoxsa yox”. Sonra ustad onların qabiliyyətini yoxlayır, görür ki, hər ikisi mahir çalğıçıdır. Əlini kürəklərinə vurub deyir ki, əhsən, bu vaxtaçan belə yetişmiş sənətkar görməmişəm. Gedin, sizə tay olmayacaq.

Aşıq İbrahim oğlu Surxayın ölümündən sonra qəhərindən aşıqlıqdan imtina edir. Onu Cümə məscidinə azan verməyə dəvət edirlər. Kəndin adamları Şamaxıdan 10 km. aralı Pərdili adlanan yerdə kotan sürərkən belə aşığın azanının səsini eşidib namaz qılarlarmış.

Söylənilənlərə görə aşığın 6 qızı (Əcəb, Nisbət, Cəmilə, Minayə, Ümgülsüm və Sabi) və 6 oğlu olub: (Etibar, Surxay, Umbay, Nüsrəddin, Abdulxalıq və Əlibaba).

Aşıq İbrahim 1914-cü ildə 74 yaşında, doğma kəndində vəfat etmiş və kənd qəbristanlığında dəfn edilmişdir. Şirvan aşıq məktəbinin görkəmli nümayəndəsi olan Aşıq İbrahim bütün həyatını xalqa xidmətdə keçirmiş, bununla da xalqın iz salan yaddaşı kimi saxlanmışdır.

Aşığın nəvəsi, arxeoloq Fərhad Əlibaba oğlu İbrahimov Azərbaycan Dövlət Pedaqoji İnstitutunun tarix-filoloji fakültəsini bitirmişdir. 1959 ildən Azərbaycan EA Tarix İnstitutunun arxeologiya şöbəsində elmi işçi vəzifəsində çalışmışdır. Örənqala və Şirvan arxeoloji ekspedisiyasının Şamaxı, Ağsu, İsmayıllı dəstələrinin çöl-tədqiqat işlərində yaxından iştirak etmişdir. 1969 ildən Bakı arxeoloji ekspedisiyasında dəstə rəisi, rəis müavini işləmiş və 1976 ildən bu ekspedisiyanın rəhbəri olmuşdur. 6 kitabın və 100-dən çox elmi məqalənin müəllifidir. 6 kitabı və 60 məqaləsi bilavasitə Bakının orta əsr arxeologiyasına həsr edilmişdir. Şəhər həyatı, şəhər sənətkarlığı, xüsusilə metalişləmə, saxsı məmulatı, fayans qablar, bədii incəsənət və s. sahələrə aid əsərlər yazmışdır. Bakı, Moskva, Leninqrad, Kiyev, Livov, Səmərqənd, Daşkənd, Tbilisi, Buxara, Minsk və b. şəhərlərdəki konfrans və simpoziumlarda məruzələrlə çıxış etmişdir. Uzun illər Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində

“Arxeologiya”, “Orta əsr Azərbaycan şəhərlərinin tarixi” kurslarına dair mühazirələr oxumuşdur.

Aşıq İbrahimin nəticəsi, Fərhad İbrahimovun ortancıl oğlu Rasim İbrahimov böyük musiqi istedadına malik olub, ulu babasının yolunu davam etdirmişdir. O, Konservatoriyanın Bəstəkarlıq fakültəsini bitirmişdir. Hal-hazırda Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, Böyük Britaniya Musiqi Akademiyasının fəxri üzvüdür. Dəfələrə Ümumittifaq müsabiqələrin laureatı olub və bir çox klassik musiqi əsərlərinin müəllifidir. Rasim İbrahimov hal-hazırda Amerikada yaşayır. Evlidir iki övladı var.

Əngəxaranlı aşıq İbrahimin bizə çatan və çap olunmayan bəzi əlyazma şeir, qəzəl və deyişmələrini təqdim etmək yerinə düşərdi:

Deyişmə: (aşıq İbrahimlə aşıq Xəlil arasında)

Aşıq İbrahim:

Səndən xəbər alım ay aşıq Xəlil,
Allı-güllü yaylaqların necədir?
Laləli-nərgizli tər ormanların,
Başı qarlı şiş dağların necədir?

Aşıq Xəlil:

Gəl sənə söyləyim aşıq İbrahim,
Bir cənnətdir, yaylaqlarım gözəldir.
"Taxta" yaylağında hava udmuşam,
Can sağlamdır, hal-əhvalım gözəldir.

Aşıq İbrahim:

Şair, gördüm Minə adlı qızını,
Əqlini, təbini, xoş avazını.
Kim kökləyib onun könül sazını.
Sənə qarşı övladların necədir?

Aşıq Xəlil:

Kimi qurdalasan bizim Şirvanda,
Atmaca, gülməcə, eyham var onda.
Özün şahidsən ki, Əngəxaranda,
Çox razıyam balalarım gözəldir.

Aşıq İbrahim:

Bizim yerlər üzü Zaratdan bəri,
Bir yan Baba dağdı, elim köçəri.
Sıra ilə yad et hər qonşu kəndi,

Söylə mənə bulaqların necədir?

Aşıq Xəlil:

Bilmək istəsən ki, tapım çaramı,
Gəl seyr elə Çuxuryurdu, Məlhəmi.
Nəfəs al qayıtsın cavanlıq dəmi,
Sir-sehrdir, bilaqlarım gözəldir.

Yoxdur

Nur paylanır günəş yansa,
Namərddir kim haqqı dansa,
Kim axirəti qazansa,
Bil ki, ona ölüm yoxdur.

Şirvandır əziz məkanım,
Ona fədadır bu canım,
Ocağım Əngəxaranım,
Onsuz mənim günüm yoxdur.

İbrahiməm haqq yolunda,
Halallıq axır qanımda,
Təmiz fikrim, amalım da,
Ayrı bir əməlim yoxdur.

Məhəbbət

Sədaqət, həqiqət doğma qardaşdı,

Sanma ki, quruca səsdi məhəbbət.
Həqiqi aşiqə, qədir bilənə,
Ömür yollarında bəsdi məhəbbət.

İbrahim məhəbbət pərvanəsidir,
Onun məcnun kimi divanəsidir,
Bu nəğmələr ürəyimin səsidir,
Qananlara müqəddəsdir məhəbbət.

İnan

Yaxşı nəzər yetir Şirvan elinə,
Bura yetişdirir cəvahir inan.
Pirsaat boyunca çıx Baba dağa,
Buralarda titrəyir hər yer inan.

Qonaq olsan dərk edərsən hörməti,
Səmimi ülfəti, saf məhəbbəti,
Müqəddəsdir duz çörəyin qiyməti,
Ərk edib deginən "süfrə sər" inan.

Gəlmişəm

"Nəzər haqdı",- doğru deyib atalar,
Nurlu yay idim gözə gəlmişəm.
Vurğunuyam bu müqəddəs sənətin,
Ülfət qılıb saza sözə gəlmişəm.

Uca zirvələrdə mən davar idim,
Fələk vurdu qətrə-qətrə əzildim.
Öz mülkümdə bir istəkli yar idim,
Dağlardan enmişəm düzə gəlmişəm.

İbrahiməm getməz könlüm qubarı,
Vədəsiz itirdim vəfalı yarı.
Bir də görə bilsəm o vəfadarı,
Sanaram dünyaya təzə gəlmişəm.

Yazır

Bilmirəm fələyin bu qəsdi nədir,
Bəzən hal-əhlini nadana yazır.
Armudun yaxşısın ayılar yeyir,
Maralı, ceyranı yovşana yazır.

Hərdən qismət olur qıza, gəlinə,
Gedib düşür dilbilməzin əlinə.
Gah uğrayır ehtiyacın felinə,
Ah-nala çəkməyi qanana yazır.

Yaxşı deyib, gözəl zənən yorga at,
Nəfsə hədəf olan tapmayır nicat.
İbrahimi qınamayın camaat,

Ölümü da sütül canına yazır.

Şirvanın

Məğribdən məşriqə dolanıb gedir,
Əzəldən müqəddəs yolu Şirvanın.
Ağır kəsavəsi, qəflə-qətrəsi,
Urumda, Şamdadı qolu Şirvanın.

Ariflər elidir, şairlər yurdu,
Yaddan çıxam çox saysız bir ordu.
Yola salıb İsgəndəri, Davudu,
Yaradandı qızı, oğlu Şirvanın.

İbrahim, bu yurda nəsibdir bahar,
Burda nə istəsə axtaran tapar.
Şamaxının tarixində nələr var,
Möcüzədir sağı, solu Şirvanın.

Dünya

İstəyirəm vay-vay deyim üzünə,
Səndə bir ədalət görmədim dünya.
Üzün çox söyuqdur mərhəmətin yox,
Heç vaxt doğru halət görmədim dünya.

Görünür zalımdan sən də qorxursan,
Onun arzusuna qəhmər çıxırsan,
Acizi, məzlumu yorub yıxırsan,
Məramında qeyrət görmədim dünya.

İbrahim ağadı, sənsə cəlladsan,
Gidisən, rəzilsən, mərdimazarsan,
Əməldə hər şeyə vədə xilafsan.
Xeyirxah əlamət görmədim dünya.

Aşıq İslam (1808-XIX əsrin sonları**).** İslam Bayram oğlu 1808-ci ildə Əngəxaran kəndində dünyaya göz açmışdır. Aşıq sənətinin bütün incəliklərinə bələd olan Aşıq İslam əsasən Orta Asiyada və Dərbənddə məşhur olmuşdur. Aşıq İbrahim və aşıq Sədrəddin aşıqlıq sənətinin sirlərini ondan öyrənmişlər. Deyilənə görə o, XIX əsrin sonlarında dogma kəndində dünyasını dəyişmişdir. Xalq etimalogiyası dilində onun bəstələdiyi bir neçə şeiri qalmışdır:

Vətən

Bülbüllər öz nəğmələrin,
Oxuyarlar insanlara.
Xəyal gedir ilk bahara,
Qışda belə oxusa da.

Qatar-qatar, pərdə-pərdə,
Hopub qalır ürəklərdə,

Məhəl qoymayıb bu dərdə,
Qul edirlər otaqlarda.

Hər canlıya vətən gərək,
Həyatda ömür şən gərək,
Aşıq İslam bilmən gərək,
Arzu hara insaf hara.

Tərəf

Müdam uçur könül quşu,
Seyr eyləyir yara tərəf.
Tülək tərlan ovçusuyam,
Müylim getməz sara tərəf.

Hərə öz tayını tapar,
Məhəbbətdən qala yapar,
Canımda qiyamət qopar,
Gül uyanda xara tərəf.

İslam uç göydən enmə sən,
Öz ilqarından dönmə sən.
Sənə badə verib verən,
Yol al cəfakara tərəf.

Olmuşam

Get-get vəfasızsan səni sınadım,
Bağrıma daş basıb talan olmuşam.
O günümə necə dönə bilərəm,
Sınıb qəlbim indi xəzan olmuşam.

Can tükənib acı dil arasında,
Azdım qaldım iki yol arasında.
Çıxıb şux gəzərdim el arasında,
Necə daldalarda qalan olmuşam.

Aşıq İslam işim qalıb Xudaya,
Ünlu tüstüm rəvan olub səmaya,
Əyilib qamətim dönübdür yaya,
Qarabəxt bəndə tək elan olmuşam.

Aşıq Xəlil (XIX əsrin 30-cu illəri-1918**).** Aşıq Xəlil XIX əsrin 30-cu illərində Əngəxaran kəndində anadan olub. Aşıq sənətinə mükəmməl bələd olan Xəlil zil səsli ustad sənətkarlardan olub. Dastanlarımızın gözəl bilicisi və ifaçısı imiş. O 1918-ci il soyqırımına məriz qalmış və düşmənlər tərəfindən qətlə yetirilmişdır. Aşıq Xəlilin qızı Minə də el aşığı olmuşdur. Aşıq Xəlil Aşıq İbrahimlə dost olmuşlar. Onların deyişmələri xalq arasında məşhur olmuşdur. Onun yaddaşlarda qalan bir neçə şeirini təqdim edirik:

Olar

Əyər baxmayasan şeytan sözünə,
Heç vaxt peşmançılıq düşməz izinə,
Dari cənnət açıq olar üzünə,
Nicat qapıları taybatay olar.

Hər kim ki, pirana dönüb baş əyməz,
Onun insanlığı quruşa dəyməz.
Yüz çalışsa həyatda xoş gün görməz,
Bir şagird ki? ustadına lay olar.

Halalın kamalı başdan əksilməz,
Bəd əsil boy atıb mənzilə yetməz.
Zay toxum torpaqda məhsul bitirməz,
Zinadan törəyən övlad zay olar.

Qənaət gözəldir bacarsan əyər,
O da bir qazancdır, öyməyə dəyər,
Artırdığın dövlət harama gəlməz,
İstəsən gəlirin axar çay olar.

Atanın ananın qədrini bilsən,
Yerində ağlayıb, yerində gülsən,
Haqqın dərgahına daim baş əysən,
Xoşbəxtlik xudadan sənə pay olar.

Aşıq Xəlil çox öyünmə qəmin kəm,
Əzəldən möcüzə yaranır aləm.
Kimisi kef çekər, kimi udar qəm,
Kimi bəd əməldən urusvay olar.

Məni

Mən o yara çox yalvardım,
Atdı tez kənara məni,
Bir vurmuşdu usanmışdı,
Oxladı dübarə məni.

İltica etdim ərəndən,
İçirib badə verəndən,
Günəş camalın görəndən,
Edib günü qara məni.

Xəliləm, ona mailəm,
Yaxasında həmailəm,
Ondan əl çəkən deyiləm,
Çəksələr də darə məni.

Güvən sən

İnsan onda xoşbəxtdir ki,
Dostdur sag-sol gəl güvən sən,

Saxla dostlar üzvətini,
Sev onları gəl güvən sən.

Şeir qoşur qızım Minə,
Deyir, bir verdir mənə,
Əhsən söylədim fikrinə,
Şadam qızım, gəl güvən sən.

Haşa nadanlar əlindən,
Xəlil uzaşmaz elindən,
Düz işindən əməlindən,
Arxayın ol, gəl güvən sən.

Bizim arvad (zarafatyana)

Dindirməyin küsüb gedər,
Şıltaqdır, bil bizim arvad.
Bizi rüsvay-cahan edər,
Böhtançıdır bizim arvad.

Qonşular yığılıb cana,
Məsləhət kar etmir ona,
Küy-kələk salır cahana,
Böhtançıdır bizim arvad.

Yeyir bir qazan bozbaşı,

Dörd fətir, yeddi lavaşı,
Salıb başımıza daşı,
Yalançıdır bizim arvad.

Xəlil qalıb yana-yana,
Baxmır ağına bozuna,
Qəsd edir un çuvalına,
Lap korçudur bizim arvad.

Aşıq Nurəddin (1860-1927). Aşıq Nurəddin Sadıq oğlu 1860-cı ildə Əngəxaran kəndində anadan olmuşdur. Aşıq Nurəddin Aşıq Daşdəmirin müasiri olmuşdur. Yaradıcı və nəğməkar aşıq 1927-ci ildə dünyasını dəyişmişdir. Aşığın xalq etimalogiyası dilində qalan bir neçə şeiri təqdim olunur:

Qızlar

Yenə səfə düzülübdür,
Bölük-bölük yola qızlar.
Bulaq üstü dönüb toya,
Bala dönüb bola qızlar.

Arzular baş verir canda,
Gəzir dağda gah aranda,
Elçi gəlib "hə" alanda,
Düşür haldan-hala qızlar.

Söz ötəndə pərdə-pərdə,
Son qoyur hər dərdə qəmə.
Dedim ya rəb, məclislərdə,
Mənə mehman ola qızlar.

Nurəddin demə ki, bəxt yatıb,
İndi sənə növbə çatıb.
Naz-qəmzəylə şivə satıb,
Az qala can alar qızlar.

Qurban olum

Elə baxma nazlı dilbər,
Qara gözə qurban olum.
Danışanda canlar alan,
Şirin sözə qurban olum.

Arada hörmət saxlayaq,
Bir gülək, bir də aglayaq.
Gəl əhdi-peyman bağlayaq,
Gəlim sizə qurban olum.

Səni mənə yazıb tanrı,
Evimin dövləti, varı,
Nurəddinin etibarı,
Gülər üzə qurban olum.

Eləyir

Biri var bizim qonşuda,
Milçəyi ulduz eyləyir.
Yığıb dilinə zəhəri,
Balımızı, duz eyləyir.

Əllini adlayır yaşı,
Qovğadadır hər gün başı,
Dəng edib qohum-qardaşı,
Elə bilir, düz eyləyir.

Nurəddin Əngixaranlı,
El içində yeri bəlli,
Kasad olsa bir gənc əli,
Toyunu pulsuz eyləyir.

Nədir

Allah xəlq edibdir cəmi bəşəri,
İnsan olan qanar hər insan nədir.
Hər can oxunmamış min bir kitabdır,
Ona qiymət qoyan bilər can nədir.

Haqqa bədnam çıxmaz əsilli bir kəs,
Heç kimi bəyənməz nanəcib, nakəs,

Xain, xoflu, paxıl, cinsi müxənnəs,
Bilməz divan nədir, ya insan nədir.

İnni-cinni, şəri-şeytan, günahgar,
Şər üçün əlləşər, tələ, tor qurar,
Batmaz kimin dilində bissimillahı var,
Dərk edər din nədir, ya quran nədir.

Nurəddin qayıldır haqqın işinə,
Hökmü kərəm-kanna, həm gərdişinə,
Bəd əməli məhəl qoymaz guşinə,
Bilər qəza-qədər, yol-ərkan nədir.

Gərəkdir

Çox söz-söhbət olar el arasında,
Sözün baldan şirin dadı gərəkdir.
Söz qılıncdan iti, ləldən xas ola,
Söz uca qaldıra, - adı gərəkdir.

Köhlən deyə yabı çekmə meydana,
Qabın doludursa buyur mərdana,
Boşsa sözün, xələl vermə lisana,
Söz mülkünün öz ustadı gərəkdir.

Nurəddinəm ustadımdan dərs aldım,
Məclislərə ayaq açdım, ucaldım,
Bir vaxt el içində çəkilər adım,
Sənətkara el muradı gərəkdir.

Olmaz

Cəhl olan adamdan kənar gəz, dolan.
Əbləhdə, ədnada, ağıl huş olmaz,
Hər yetənin tayı, yönü, babı var,
Naxələfdən sənə heç tay-tuş olmaz.

Soydan, kökdən gəlir halallıq, paklıq,
Hər uçara nəsib olmur ucalıq,
Sərçə bülbül olmaz, sağsağan kəklik,
Sardan, torağaydan, tərlan quş olmaz.

Nurəddin mərdlərlə müdam çörək kəs,
Nadanlara qayğı əbəsdir, əbəs,
Cinsi yabı olan məqsədə yetməz,
Nurəddin tikəsi cana nuş olmaz.

Var mənim

Zamanın əlindən, dövrün qəhrindən,
O Abbasa şikayətim var mənim,

Müxənnətin, dilbilməzin əlindən,
Ürək dolu, yüz möhnətim var mənim.

Görmüşəm dünyanın azın, çoxunu,
Ağasın, qulunu, acın, toxunu,
Fələk döndərəndə tərsə çarxını,
Onda başqa əlamətim var mənim.

Nurəddinəm çox sınaqdan çıxmışam,
Haqqın piyaləsin dolu içmişəm,
Həyatımda sevinc, qəm də biçmişəm,
Hələ çox-çox hekayətim var mənim.

Yazma

Yalvarıram sənə qadiri-qüdrət,
Mənim bu arzumu gönaha yazma.
Hər kəsin qədərin özünə çəkdir,
Mərdin işlərini fənaya yazma.

Sənsən hökmdarı külli aləmin,
Sınama çörəklə bəşərin çəmin,
İtiləyib ehtiyacın, qələmin,
On beş yaşlı qızı qocaya yazma.

Nurəddinəm, haqqın pak bəndəsiyəm,
Gecə-gündüz onun pərvanəsiyəm,
Nadanların əməlindən dəliyəm.
Mənim də bəxtimi gəl zaya yazma.

Aşıq Daşdəmir (1868-1928). Aşıq Daşdəmir Bayram oğlu 1868-ci ildə Şamaxının Əngəxaran kəndində anadan olmuşdur. O, Şamaxıda mollaxanada təhsil almış, gənc yaşlarında saza-sözə bağlanmışdır. Bir müddət Şamaxıda, Mahmud ağa sarayında şeir-musiqi məclisində yaxından iştirak etmişdir. Deyilənə görə aşıq Daşdəmir çox yaraşıqlı olmuş, həm dastanlarımızın bilicisi, həm də saz havalarının kamil ifaçısı kimi ad çıxarmışdı. Aşığın kiçik şeirləri ilə yanaşı "Daşdəmir və Əsmər xanım" adlı dastanı olduğu da deyilir. Aşıq 1928-ci ildə doğma kəndində dünyasını dəyişib. Aşığın xalq etimalogiyası dilində qalan bir neçə şeiri təqdim olunur:

Bəsdir mənə

Mən yurdumun sədasıyam,
Halal barı bəsdir mənə.
Özğə yerdə yoxdur gözüm,
Öz diyarım bəsdir mənə.

Tez açılıb solmamışam,
Vədə xilaf olmamışam,
Eldən geri qalmamışam.

Düz ilqarım bəsdir mənə,

Ruhumdadır xudakərim,
Varsa gəlsin bərabərim,
Yüz düşməndən yox çəkərim,
Döstum, yarım, bəsdir mənə.

Saz götürüb gütdim hara,
Hörmət gördüm sənətkara,
Uymadım dövlətə mala,
Könül varım bəsdir mənə.

Daşdəmirəm, tanı, mənəm,
Namərdlərə baş əymərəm,
Vəfasızı bəyənmərəm,
Vəfadarım bəsdir mənə.

Gedərəm

Hər kəs əsiridir doğma yerinin,
Yad el cənnət ola, dad verməz şirin,
Qırıb zəncirini daş qəfəslərin,
Bir quş olub mən yurduma gedərəm.

Nadan məclisində tutmaz qərarım,
Kamillər içində artar vüqarım,

Bərkdə, boşda qibləgahdır dostlarım,
Üzüm tutub ərk çatana gedərəm.

Daşdəmirəm sazım əldən üzülsə,
Qan ağlaram, durmam səfdən üzülsə,
Yarın əli əllərimdən üzülsə,
Gündoğandan günbatana gedərəm.

Şamaxım

Müqəddəs məbədsən yox bərabərin,
Həqiqətim bir ümmandı Şamaxım.
Ahın tutdu, gözlərinə qan gəldi,
Kim ki, sənin haqqın dandı Şamaxım.

Dağ çəkdi yağılar, nə qandan doydu,
Bir tərəfdən zəlzələlər kor qoydu,
Bir tərəfdən xanlar, xaqanlar soydu,
Necə yol talandı, sındı Şirvanım.

Daşdəmirəm çox dağım var sinəmdə,
Bir gün köçsəm, gedər qübar sinəmdə,
Göl olubdur sellər, sular sinəmdə,
Yandı canım, hər vaxt yandı, Şamaxım.

Getdi

Bu əmanət ömrün nə vəfası var?
Bir də görürsən ki, var idi getdi,
Sidqim bağladım, xali-peymana,
Həmdəmim, munisim, var idi, getdi.

Dedim, bəlkə yatan bəxtim oyandı,
Tale bir vaxt zamanında dayandı,
Canım atəşlərə şam kimi yandı,
Əridi vədəsiz, qar idi, getdi.

Gözüm nə Rumdadı, nə Yəməndədi,
Sanardım ki, ərş də, gürş də mənimdi.
Sənət dolu hər səriştə məndədi,
Bağımda müyvələr var idi, getdi.

Daşdəmirəm, daş yaddaşım var idi,
Mərd dostlarım, məsləkdaşım var idi.
Şirvanımda uca başım var idi.
Beş arşın ağ idi, sarıdı getdi.

Deyil

Çaylar daşıb məcrasından çıxanda,
Yalvarıb-yaxarsan, sustalan deyil.
Bədniyyət, bədqılıq bir də bədnəzər,
Qiyamət qopsa da düzələn deyil.

Yar inciyib, görən meyli haradır,
Bir şirin söz bu mərəzə çərəzdir.
Söz yarası elə ağır yaradır,
Yüz il keçsə yenə sağalan deyil.

Daşdəmir, ayıq ol, çəkmə hər dərdi,
Ruzi gəlib çatar, o müqərrərdi,
Halal bərəkətə xaliq nəzərdi,
Hərdən üzülsə də azalan deyil.

Bənzəməz

Yurdumuz sənətkar, sənət yurdudur,
Böyük dahiləri sanki ordudur,
Xaqani, Nəsimi, Seyidi vardır,
Heç bir diyar bu məkana bənzəməz.

Burdan əxz ediblər elmi, həm dini,
Övliyadır, Ənbiyadır dörd yanı,
Duy Seyidi, həm Sabiri, Hadini,
Külli aləm bu Şirvana bənzəməz.

Mahmud ağa məclisinə gələydin,
Məhəmməd Həsəni bir dinləyəydin,
Möcüzəni öz gözünlə görəydin,

Nə İrana, nə Turana bənzəməz.

Daşdəmir də bu elin övladıdır,
Hələ neçə sinədəftəri vardır,
Hər biri məcrasız, elmi dəryadır,
Bu bənzərlik yad ümmana bənzəməz.

Aşıq Sədrəddin (XIX əsrin ortaları - 1918). Aşıq Sədrəddin İlyas oğlu XIX əsrin ortalarında Şamaxının Əngəxaran kəndində doğulmuşdur. O, ilk dərsini kəndlisi Aşıq İbrahimdən alıb. Bir müddət sonra aşıq Sədrəddin ustadının məsləhəti ilə məclislərə ayaq açır. Deyilənə görə o çox gözəl saz çalar və oxuyardı. Məclislər yaraşığı olan aşıq yadda qalan, mənalı şeirlər bəstələyərmiş.

O, 1918-ci ildə erməni soyqırımının qurbanı olmuşdur. Aşığın xalq yaddaşında qalmış bir neçə şeiri təqdim olunur.

Düşdü

Məhəbbətdən dən vuranda,
Əzəl yada ana düşdü.
Hər kim ki, çox qeyrət çəkdi,
Qada tutdu, qana düşdü.

Alçaqlara yemdi dünya,
Çünki üzündə yoxdu həya,

Mərd zəhməti gedir zaya,
Oda yana-yana düşdü.

Sədrəddini bir sal yada,
Vəfa görmədim dünyada,
Cavan ömrüm getdi bada,
Sübutsuz divana düşdü.

Məni

Sənətimdə qoca dağam,
Yıxa bilməz sellər məni,
Mənə badə verib ağam,
Sevər pak könüllər məni.

Başımda dağ havası var,
Yağılarla davası var,
Nakamların nəbası var,
Unutmaz bu ellər məni.

Sədrəddindən söz qalacaq,
Demirəm ki, yüz qalacaq,
Məna dolu üz qalacaq,
Yad edər aqillər məni.

Dəyişər

Gəl uyma bəzəyə, mala, dövlətə,
Çoxaldıqca xişmi-halın dəyişər,
Var-dövlət artdıqca ar kasadlaşar,
Kobudlaşar, hər əhvalın dəyişər,

Demirəm ac dolan sən bilə-bilə,
Nədən yön ver gəl, xeyir əmələ,
Əl tut, kömək elə, şilə, əlilə,
Əskik olar, qeyri qalan dəyişər.

Səndə qorxun olsun yazı yazandan,
Günah etsən məhrum edər azandan,
Qəfil külək əsər, qəhri qəzandan,
Varın əldən çıxar, yolun dəyişər.

Sədrəddinəm mən sözümə ağayam,
Sanmaginan bələkdəyəm, çağayam.
Nəsihət bəhriyəm, sözün sağıyam
Eşitməsən nur kamalın dəyişər.

Yoxdur

Mən öz ceyranımın haqq səyyadıyam,
Özgə ağuşunda, maragım yoxdur.
Dərd əhliyəm, qəm sərgəştəsiyəm,
Günüm-güzəranım, növrağım yoxdur.

Bəzən şeytan çıxır gözəl sənət də,
Bunun təqsiri yox, mən də, nə səndə,
Müxənnət nadandan yanan sinəmdə,
Necə deməyim ki, yüz dağım yoxdur.

Sədrəddin nifrətim var sənə nəsə,
Nə deyim duyğusuz, qayğısız kəsə,
Qeyri-qal yığnağı olan məclisə,
O yığnağa gedən ayagım yoxdur.

Nə var ki...

Xoş gündə xəlq edib səni yaradan,
Hər insana candan gözəl nə var ki...
Secilirsən yüz gözəlin işindən,
Aşiqə canandan gözəl nə var ki...

Mənə sən deyərsən titrəyir canım,
Hər insana candan gözəl nə var ki...
Sənsən qibləgahım, dinim, imanım,
Canına olmağa qurban nə var ki...

Bəyənmişəm o nurlu kəmalını,
Bir də ağ üzündə qoşa xalını,
Xudam xub yaradıb xoş camalını,

Sədrəddinə bundan gözəl nə var ki...

Yoxdur

Duyursan dünyanın etibarını,
Ondan bəndələrə bir əlac yoxdur,
Madam ki, belədir, təşviş nə lazım,
Ona yalvarmağa ehtiyac yoxdur.

Həyat muğamatdı, “Şur”-du, “Segah”-dı,
Qəm üstə köklənmiş, nalədi, ahdı,
“Şikəstəmiz” açılmamış sabahdı,
Halı bitməz, ondan bir inam yoxdur.

Sədrəddin hərdən bir qəhərlənir,
Məcnun kimi çöl-bayırda fırlanır,
Zəmanənin atı çılpaq hərlənir,
Ona yəhər qoyan bir sərrac yoxdur.

Aşıq Ramazan (XIX əsrin II yarısı - 1918**).** Aşıq Ramazan Eyvaz oğlu XIX əsrin II yarısında Şamaxının Məlhəm kəndində anadan olmuşdur. Əslən Əngəxaranlı olan Aşıq Ramazan sənətin sirlərini Aşıq İbrahimdən öyrənmişdir. O, 1918-ci ildə dünyasını dəyişmişdir. Xalq etimalogiyasında qalan şeirləri ilk dəfə təqdim olunur.

Yoxdur

Xudam, mənə kömək elə,
Kimsəsizəm, kimim yoxdur,
Mənim sözüm aşikardır,
Gizlin him-cimim yoxdur.

Tək yarandım bu dünyada,
Yetsin dadıma tək xuda,
Qoymaz ömrüm gedə bada
Arxam – dayım, əmim yoxdur.

Yar – yara vəfa etməsə,
Övlad düz yola getməsə,
Müşgül işlərin bitməsə,
Bundan ağır zülüm yoxdur.

Allahın düz bəndəsiyəm,
Ustadların qönçəsiyəm,
Ramazanam, haqq səsiyəm,
Başqa şeylə işim yoxdur.

Bilim

Əgər xilaf olsa sözüm,
Dilim-dilim olsun dilim,
Bir an sənətə xor baxsam,
Xoş keçməsin ayım, ilim.

Arxam ilə çalma təbil,
Sansan əməlim düzgün deyil,
Üzümə dur, halımı bil,
De, öz günahımı bilim.

Ramazanam itməz zəndim,
Həmişə elə güvəndim,
Məlhəmdi bil doğma kəndim,
Mənə qanad verən elim.

Bu sənətin aşiqiyəm

Bu sənətin aşiqiyəm ürəkdən
Bilmirəm ki, axırımdı əzəlim,
Elə billəm külli aləm mənimdir.
Sazım-sözüm ola, bir də gözəlim.

Haqq darda sıxılar, sınmaz, üzülməz,
Məskənim oldusa o gedər, gəlməz.
Mənə dayaq durdu o gözə gönünməz,
Qadiri-qüdrətim var ki, ölmədim.

Mən meylimi saza, sözə salmışam,
Ölənəcən ona sadiq qalmışam,
İlhamımı el obadan almışam,
Budur etibarım, həm pak əməlim.

Ramazanam mənim öz şair babam,
Pir Dədə Günəşə söz deyib müdam,
İbrahimin sənətinə vurğunam,
Odur cəfakeşim, həm müqabilim.

Əngəxaran ziyalıları və görkəmli şəxsiyyətləri. Gündəlik və elmi leksikonda istifadə edilən mühüm, işlək kateqoriyalardan biri də ziyalı və ziyalılıqdır. Ziyalı anlayışı bəzi hallarda müxtəlif terminlər, bir çox hallarda isə ümumi kateqoriyalarla ifadə edilsə də, özündə ehtiva etdiyi məna çalarları etibarilə konkret sosial statusa malik olan müəyyən təbəqəni bildirməkdədir. Ərəb sözü olan "ziyalı" anlayışı etimoloji mənada "aydın", "nurlu" kimi sinonim sözlərlə ifadə olunsa da, semantik olaraq konkret bir sahədə müəyyən elmi biliklərə dərindən yiyələnmiş, öz fəaliyyət mexanizmi ilə adekvat elmi istiqamətdə fundamental töhfələr bəxş edən şəxs kimi səciyyələndirilir. Başqa sözlə, sosioloji terminlə ifadə etsək, ziyalı funksional vahiddir. Yəni onun sosiumdakı mövqeyi və mövqeyinə müvafiq funksional fəaliyyəti

sayəsində yeni ictimai dəyərlər təşəkkül tapır, ziyalının intellektual potensialı istiqamətləndirici və tənzimləyici mexanizm qismində çıxış edir.

Bütün bunlarla yanaşı, zaman-zaman "ziyalı kimdir", "ziyalı ilə intellektual şəxsin fərqi nədən ibarətdir" kimi suallar da səsləndirilir və bəzi hallarda bu istiqamətdə verilən cavablar müəyyən fikir dolaşıqlıqları meydana gətirir. Və çox zaman "müəyyən elmi istiqamətdə konkret biliklərə malik olan hər bir şəxs ziyalıdır" fikri səsləndirilir. Amma qeyd etmək lazımdır ki, ziyalılıq anlayışına fəlsəfi substratlar əsasında yanaşmaqla belə bir aksiomatik reallığı ortaya çıxara bilərik ki, konkret elmi istiqamətdə müəyyən biliklərə yiyələnmiş hər bir şəxs ziyalı deyildir.

Ziyalı yiyələndiyi elmi biliklərə və bunun sayəsində əldə etdiyi sosial statusuna müvafiq davranış və fəaliyyətə malik olan şəxsdir. Antik yunan filosofu Sokrat qeyd edirdi ki, hər bir ziyalı adlandırılan şəxs əldə etdiyi biliklərə, fəlsəfi-intellektual potensialına müvafiq surətdə davranmırsa, o zaman həmin şəxs ziyalı adlandırılmamalıdır. Sokratın bu fikrini modern sosioloji terminlərlə ifadə etsək, qeyd edə bilərik ki, fərd o zaman ziyalı adlandırıla bilər ki, o əldə etdiyi bilikləri, mövcud intellektual potensialını özünün sosial statusu və daşıdığı dəyərlərlə uzlaşdırsın və müvafiq davranış forması sərgiləsin. Ən əsası odur ki, ziyalı adlandırılan şəxsin fəaliyyəti və dəyərləri ictimai

dəyərlərlərlə uzlaşsın, ictimai və ümummilli əhəmiyyət kəsb etsin.

Bu, bir reallıqdır ki, hər bir cəmiyyətdə sosial statusundan asılı olmayaraq fərdlərin fəaliyyəti o zaman səmərəli və faydalı olur ki, o, ictimai əhəmiyyət kəsb etsin və hansısa korporativ maraqlara yox, toplumun ümumi dəyərlərinə və ali mənafeyinə tam cavab versin. Cəmiyyətşünaslıq elminin əsasları sübut edir ki, funksional vahid olan ziyalının da fəaliyyət mexanizminin səmərəlilik səviyyəsi onun ictimai dəyərlərlə və maraqlarla uzlaşmasından asılıdır. Əgər ziyalı adlandırdığımız şəxsin intellektual məhsulu fərdi və ictimai dəyərlərlə uzlaşırsa, eləcə də innovativ səciyyə daşıyırsa, deməli, cəmiyyətin milli maraqlarına və dəyərlərinə adekvat surətdə cavab verir. Bu isə cəmiyyətdə fərdlərin və institutların fəaliyyətinə yeni istiqamət və təkan verməklə stimulverici xarakter daşıyır.

1934-1939-cu illər ərzində Azərbaycan ziyalıları repressiyaya məruz qaldı. İnsanların “əksinqilabçı”, “trotskiçi”, “casus “millətçi”, “üsyançı” kimi müxtəlif ittihamlarla kütləvi şəkildə öldürülməsi Stalin, Beriya və onların ətrafındakılarının bütün SSRİ-də həyata keçirdikləri dəhşətli bir siyasət olmuşdur. SSRİ-də 1575259 adam həbs olunmuşdur. Bunlardan 173382 nəfəri guya “əksinqilabi” iş apardığına görə cəzaya məruz qalmışdır, 1344923 nəfər məhkum edilmiş, 681692 nəfər isə güllələnmişdir.

Azərbaycan da bu cəza prosesindən kənarda qalmamışdı. Həmin illərdə xalqımız faktiki olaraq millətin intellektual sərvətini təşkil edən parlaq simalardan, bütöv bir nəsildən məhrum edilmişdi. Bu, həm də millətin on illərlə formalaşan genefondunun məhvi, nəsillər arasında əlaqələrin kəsilməsi idi.

Arxiv məlumatına görə, 1934-cü ildən 1939-cu ilə qədər 27458 nəfər əksinqilabi və "antisovet" fəaliyyətinə görə cəzalandırılmışdır. Ümumiyyətlə, repressiya illərində respublika ərazisindən 100 minə yaxın Azərbaycan ziyalısı, sovet və partiya işçisi, hərbçi, mədəniyyət və incəsənət xadimi, alim, yazıçı, müəllim, din xadimi Sibirə, Qazaxıstana və digər yerlərə sürgünə göndərilmişdir. Əslində, Azərbaycan cəmiyyətinin ağıllı, elmli, istedadlı, əməksevər, mənəviyyatlı təbəqəsinin çox böyük hissəsi məhv edilmişdir. Ürəkağrıdıcı faktdır ki, əhalinin hər min nəfərinə düşən repressiya qurbanlarının sayına görə Azərbaycan keçmiş sovet sosialist respublikaları içərisində birinci yerdə durmuşdu.

Mirələm Hacıbaba oğlu Tarıverdiyev 1905-ci ildə Əngəxaran kəndində sadə kəndli ailəsində doğulub. Kolxoz quruculuğu illərində ən fəal vətəndaşlardan biri olub. Rayonun kəndlərinin təxminən əlli faizində

kolxoz yaradılması işində bilavasitə iştirak edib. Təsərrüfat işinin istedadlı bilicisi kimi tanınırmış. Rayonun torpaq şöbəsində maldarlıq üzrə mütəxəssis işləyib. Və axırda Əngəxaran kəndindəki "Qırmızı Oktyabr" kolxozuna başçılıq edirmiş. 1937-ci ildə, 32 yaşında ikən həbs edilmiş, 1944-cü ildə, 39 yaşında... doğma el-obadan uzaqlara, Komi MSSR-də gözlərini dünyaya yummuşdur.

Vətənini, torpağını, onun şəhər və kəndlərini abad görmək istəyənlər və bu yolda daima fədakarlıqla çalışanlar xoşbəxt adamlardır. İşi-peşəsi tikmək, qurmaq, yaratmaq olanlar, şəhərini, kəndini gözəlləşdirmək, gülüstana çevirmək eşqilə yaşayanlar, öz canlarını bu məqsəd üçün fəda edənlər əsl vətən övladıdır. Belələrinin adı əbədi olaraq həmişə xalq arasında yaşayır və xoş əhval ruhiyyə ilə yad edilir.

Onlar hətta həyatdan köçüb getsələr də xalqın yaddaşında şirin arzular kimi qalır, ədəbiyyatda, şerdə, sənətdə öz izlərini saxlayırlar. Ağamirzə Əhmədovda bax belə insanlardan biri olub.

30-cu illəri daha dərindən duymaq olur. Xüsusilə şəxsi faciələr fonunda ictimai faciələr daha aydın görünür. Əngəxaranlı Mirələm Tarıverdiyev də repressiyaya məruz qalmış belə insanlardan olub.

Mirələm Tarıverdiyevin 1937-ci ildə məşhur "Şamaxı prosesi" üstündə gedər-gəlməz yola əsassız olaraq necə göndərilməsi, ona və onun həmkəndlilərinə, eləcə də bu

uydurma siyasi repressiyanın digər qurbanlarına tutulan nahaq divan bu gün adama daha çox təsir edir. Bəli, “Şamaxı prosesi” kimi ifrat bir uydurma ortalığa çıxanda cəzaya məhkum edilən, taleyi pozulan həmin o 14 nəfərin içərisində Mirələm də olub.

Mirələm Tarıverdiyev kasıb ailədə doğulmuşdu. 1918-ci ildə atası Hacıbaba kişi qaniçən daşnaklar tərəfindən öldürülmüşdü. O, həyatın hər üzünü görmüşdü. Mirələm o qədər səviyyəli ziyalı və ailə başçısı idi ki, rayonda birincilər sırasında çadranı götürənlərdən biri onun yoldaşı Turə xanım olmuşdu. Yəni, onun ailəyə də ziyalı münasibəti o dövrə görə çox müasir idi. Ali təhsili olmasa da Turə nənənin qısa və faciəli həyatı bir məktəbdir, onun həyat yolu bu günkü gənclərə örnəkdir.

O, 1932-ci ildən S.İKP üzvü olub. Həyat yoldaşı tutulandan sonra dərhal partiyadan xaric edilib. Ailənin bütün zülmünü, əziyyətini o çəkib. Əvvəlcə kolxozda sağıcı işləyib. Göz verib, işıq verməyib bəzi ağzı göyçəklər. Kolxozdan çıxıb Şamaxı xalça idarəsində işə düzəlib. Qızları da yanında çalışıb. Hər məktub gələndə qəhərini gizlədə-gizlədə oxuyardı məktubu. Körpələr nağıl əzbərləyən sayağı o məktubların məzmununu əzbərləyərdi.

Mirələm Tarıverdiyevin oğlu Siyavuş müəllimin dediklərindən:

– “Atam tutulanda mənim cəmi 1 yaşım olub. Bacılarım Rəhilə, Nəzihə, Tamilla, Solmaz da körpə olublar. Böyüyünün

7 yaşı varmış o vaxt”.

Bu illərdə Ağamirzə Əhmədov tez-tez anamla görüşür, ona səbirli olmağı və övladlarını oxutdurmağı tövsiyə edir. Anam onun məsləhətlərinə qulaq asaraq ağır şəraitdə yaşasalar da, övladlarını oxutdurmağı özünə borc bilir. 1956-cı ildə həqiqət aşkara çıxdıqdan sonra, ilk dəfə Ağamirzə Əhmədov bizə gəlib anama atam haqqındakı qanunsuzluğun ləğv olunmasını və onun bəraət olduğunu dost və qardaş kimi xəbər verib sevindirmişdir.

Ürək ağrısı ilə onu demək istəyirəm ki, Mirələm Tarıverdiyev mənim babamdır. Onun haqqında nənəm çox danışardı. Nənəmin söylədikləri indiyə kimi yaddaşımda həkk olunub.

Nənəm danışardı ki, “Bəlkə də bir maşın dövlət adamı tökülmüşdü evimizə və nəyisə axtarırdılar. Guya silah gizlədibmiş atam. Evin zirzəmisini 1937-ci ildə silah axtaranda necə qazıblarsa eləcə də durur. Heç nə tapmasalar da Mirələmi aparıblar. Sonra da uzun işgəncələrdən sonra 15 il iş kəsiblər. Əmlakımız müsadirə olunub (sonralar 1957-ci ilin 23 mayında respublika maliyyə nazirinin müavini İ.M.Hüseynovun imzasıyla müsadirə edilən əmlakın köhnə pulla 1636- manat 70 qəpik dəyəri ödənilib). Evimizin ikinci mərtəbəsini məktəb etmişdilər. 4 il burada məktəb oldu. Qəribədir, həmin məktəbə nənəmi heç xadimə də götürməyiblər. Aclıq illərində uşaqlar hamı kimi sünbül başağına gedirlərmiş. Yığdıqlarını əllərindən

alıb yerə tökürdülər ki, xalq düşməninin uşaqlarına haramdır. Onlara heç nə satmırdılar, “olmaz”! deyirdilər. Bir qardaş, dörd bacını da komsomola üzv götürməyiblər: “ataları xalq düşmənidir” deyə onları damğalayıblar”.

Represiya qurbanları bəraət qazanandan sonra müsadirə olunan əmlakın dəyərini dövlət geri ödəyərkən nənəm bu pulu almamışdır.

Respublikamızda bütün represiya qurbanları kimi, Mirəlim Tarıverdiyevin ailəsi də, böyük acılar çəkmişdir. Lakin onun həyat yoldaşı bütün bunlardan sarsılmamış, böyük çətinliklərlə övladlarını böyüdüb, ərsiyə gətirmiş, onları doğma vətənimizə layiqli övladlar kimi böyütmüşdür. Bu böyük insanın gördüyü işlər, etdiyi xeyirxah əməllər onu tanıyanların qəlbindən heç zaman silinməyəcək.

Ağamirzə Mirzalı oğlu Əhmədov 1905-ci ildə Şamaxı rayonunun Əngəxaran kəndində doğulmuşdur. On dörd yaşında ikən atasını itirmişdir. O, öz əməyi ilə bütün ailəni – anasını, kiçik qardaşını və bacısını dolandırırmışdı. 1921-1925-ci illərdə əmək fəaliyyəti ilə yanaşı kənd məktəbində oxumuşdur. Ağamirzə Əhmədov Şamaxıda məsul vəzifədə işləyən həmkəndlisi və dostu Mirələm

Taryerdiyevin təqdimatı əsasında 1926-1929-cu illərdə oxumağa göndərilmişdir. O, partiya məktəbini müvəffəqiyyətlə bitirdikdən sonra 1929-1932-ci illərdə Şamaxı rayonunda əvvəlcə komsomol komitəsinin katibi, sonra təhsil şöbəsinin müdiri və Şamaxı təşkilat şöbəsinin rəhbəri vəzifələrində işləmişdir.

1932-ci ildən 1934-cü ilədək o, Bakıda Marksizm-Leninizm institutunda oxuyur. 1934-cü ildə Kürdəmir rayonundakı Mollakənd MTS-nə siyasi şöbə rəisi təyin olunur. 1935-ci ildən başlayaraq Lənkəran, Zəngilan və Şamxor rayon partiya komitələrinin katibi işləyir. Bundan sonra 1939-cu ildə Azərbycan KP MK-nın qərarı ilə Ağamirzə Əhmədov Moskvaya Ali Partiya məktəbinə oxumağa göndərilir.

Respublikaya qayıtdıqdan sonra Azərbaycan partiya təşkilatlarında rəhbər vəzifələrdə çalışır. Əli Bayramlı partiya komitəsinin katibi, Zaqafqaziya dəmir yolları siyasi şöbəsinin rəis müavini, Naxçıvan vilayət, Quba rayon, Gəncə və Bakı şəhər partiya komitəsinin katibi işləmişdir.

1944-cü ildə Bakı Vətən müharibəsinin alovlandığı bir vaxtda Sovet Ordusu tərkibində İrana göndərilir və 1946-cı ildə qədər orada hərbi-istismar şöbəsinə rəhbərlik edir. Həmin illəri şair belə xatırlayır:

O məni özünə dost, qardaş bildi...,
Çox yerdə onunla kəsdik duz-çörək,
Gah onlarda olduq, gah bizdə olduq,

Hərbin qızğın çağı Təbrizdə olduq.

1952-1954-cü illərdə Bakı Vilayət İcraiyyə komitəsinin sədr müavini, sonra 1959-cu ilə qdər Bakı şəhər İcraiyyə Komitəsinin sədri olmuşdur. 1959-cü ildən 1963-cü ilə qədər Ticarət Naziri işləmişdir. Həyatının son ilində Nazirlər Sovetində Baş İdarəyə rəhbərlik etmişdir.

Onun doğma Azərbaycan xalqı, yurdu Şirvan, yuvası Şamaxı, məskəni Əngəxaran üçün gördüyü işlər indi də həmyerliləri tərəfindən minnətdarlıq hissiylə yad edilir.

Azərbaycanın adlı-sanlı söz-sənət adamları Süleyman Rəhimov, Süleyman Rüstəm, Nəriman Həsənzadə, Ənvər Nəzərli və neçə-neçə başqaları Ağamirzə Əhmədovun həyatı və əmək fəaliyyəti ilə olduqca maraqlı qeydləri var.

Xalq şairi Süleyman Rüstəmin Ağamirzə Əhmədova ithaf etdiyi "Yaşıllıqlar Məcnunu" adlı ("Azərbaycan" jurnalı №10, 1985) şerində onun əməyini, fədakarlığını, fəaliyyətini böyük ruh yüksəkliyi ilə qiymətləndirir və onu həsrətlə yad edərək yazır:

Dostlar, həm fərəhli, həm qəmliyəm mən,
Bir dostum yadıma düşdü bu axşam.
İllər keçdisə də göçdüyü gündən,
Mən əziz dostumu unutmamışam.
Onu tanıyanlar təsdiqlər məni,
Unutmaq çətindir Ağamirzəni.

Bəli, həqiqətən də abad etdi Bakımızı, çox iş gördü

paytaxtımız üçün, təbiətini dəyişdirdi, yaşıllıqlara bürüdü onun küçələrini, bağlarını, həyat verdi şəhərimizə Ağamirzə Əhmədov. O, Bakı şəhər Soveti İcraiyyə Komitəsinin sədri olduğu dövrdə paytaxtımızın mədəniyyətini, təsərrüfatını, təhsilini, mədəni-maarifini, ümumiyyətlə, şəhər həyatının bütün sahələrini inkişaf etdirmək istiqamətində yorulmadan çalışıb və böyük uğurlara imza atıb. Ağamirzə Əhmədov vətənin hər yerində, harada olursa-olsun, belə həyat eşqilə yaşadı və yaratdı. İstər Şamaxıda, istərsə də Qubada, Gəncədə, Naxçıvanda demək olar ki, Azərbaycanın hansı guşəsində işlədisə də yorulmadı. Bütün bunları öz gözləri ilə görmüş və şahidi olmuş xalqımızın gözəl şairi Süleyman Rüstəm onun həyatını, işini böyük məhəbbətlə qələmə almışdır.

Şair yazır:

Məsul vəzifələr başında oldu.
Abadlıq naminə fikri səbirsiz,
Vətən torpağında, daşında oldu.
Yaşıllıq görürdü yuxusunda da,
Nə həyatdan doydu, nə işdən doydu.
Öz qızıl vaxtını vermədi bada,
Sözünün əvvəli-axırı buydu:
Abadlıq, abadlıq, yenə abadlıq!
Abadlıq dostumçun şadlıqdı, şadlıq...

Bir vəzifə və əmək adamı kimi şəhərlərə, kəndlərə su çəkdirir, ağac əkdirir, bağlar saldırır, inşaat işləri gördürürdü.

İşlədiyi rayon və şəhərlərdə onun şərəfinə salınmış park, küçə və meydanlar bu böyük insana olan məhəbbətdən irəli gəlir. Bax, belə övlad idi Azərbaycan üçün Ağamirzə Əhmədov. Anadan olduğu baba yurdunu, evini də kənd məktəbinə hədiyyə verdi, bağışladı. Kəndin təsərrüfatı, təhsili, mədəni həyatı üçün çox əmək sərf etdi.

Torpağa sevgisi dərindi, dərin,
Harda olurdusa azdan o yerin,
Çılpaq küçələri çinarlanardı.
Dilində həmişə bu sözdü əzbər:
Yaşıla bürünsün gərək hər şəhər.
Sanki baş əydirdi budaqlar ona.
Başqa bir şəhərə köçəndə dostum,
Sanki əl çalırdı yarpaqlar ona.
Sanki o Məcnundu, yaşıllıq Leyli,
Qoymazdı bir ağac baxımsız qala.
Az qaldı damlarda ağac əkdirə
Göldənmi, çaydanmı su da çəkdirə.
Yorulma deyirdi özünə hər gün,
Əzmi qanadlıydı arzusu kimi.
Görünürdü onun gözünə hər gün,
Ağaclar doğmaca ordusu kimi,
Qoymazdı biri də saralsın, solsun,
Bu uğurlu yolda bəxtiyardı o.

Şair onun həyatı boyu gördüyü görkəmli işlərin nəsillərə

necə yadigar qaldığını, onun öz xalqı üçün necə yaşadığını, hər şeyini elinə verib, həyatdan tez getdiyini belə tərənnüm edir:

Çalışdı qeyrətlə, illər boyunca,
Heyhat, yaşamadı dostum doyunca.
Könül sərvətini verib elinə,
Alnı açıq köçdü son mənzilinə.
Ağaclarsa hər gün qalxdı, ucaldı,
Ondan nəsillərə xatirə qaldı.

1951-ci ilədək Əngəxaran camaatı su problemindən çox əziyyət çəkirdi. Kənd əhli hətta suyuda çox böyük çətinliklə uzaq məsafədən gətirməli olurdu. Ağamirzə Əhmədov bu problemi də həll etdi. Onun təşəbbüsü ilə kənddən aralıda yerləşən "Ayğır bulağı"ndan kəndə su xətti çəkdi. Hal-hazırda kəndin mərkəzində hamının diqqətini cəlb edən dördgözlü gözəl bir bulaq var. Bu bulaq nəinki kənd camaatına, hətta ətraf kəndlərə və Şamaxı şəhəri əhalisinə də xidmət edir.

Kənd əhalisi və Şamaxıdan su aparmağa gələn hər kəs bir anlığa da olsa, Ağamirzə Əhmədovu yad edir, ona rəhmət oxuyur. Kənd üçün gördüyü xeyirxah işlər bunula bitmir. 1955-ci ilə qədər kənddə işıq problemi vardır. Evlərdə lampa, çıraq yandırırdılar. Həmin il Ağamirzə Əhmədovun təşəbbüsü ilə kənddə yarımstansiya tikildi, elektrik motoru qoyuldu və kənd nura qərq oldu. Bu böyük insanın ən böyük prinsipi insanlara xidmət etmək olmuşdur. Ona görə də, bu keyfiyyət onu

tanıyanların qəlbində dərin kök salmışdır. Məhz buna görə də, xalq ona ən yaxşı insan kimi səmimi və ülvi münasibət bəsləyir. O, hər bir həmkəndlisinin qayğısına qalmış, hər cür kömək etmiş və bunu özü üçün insanlıq borcu hesab edirdi. Xalqın maddi vəziyyəti ilə yaxından maraqlanan, özünü onlardan biri hesab edən bu böyük insan kasıb və imkansız ailələrə əl tutardı. Ağamirzə Əhmədov kənddə oxumaq istəyən hər bir gəncə maddi və mənəvi kömək edərdi.

Vətənini, torpağını, onun şəhər və kəndlərini abad görmək istəyənlər və bu yolda daima fədakarlıqla çalışanlar xoşbəxt adamlardır. İşi-peşəsi tikmək, qurmaq, yaratmaq olanlar, şəhərini, kəndini gözəlləşdirmək, gülüstana çevirmək eşqilə yaşayanlar, öz canlarını bu məqsəd üçün fəda edənlər əsl vətən övladıdır. Belələrinin adı əbədi olaraq həmişə xalq arasında yaşayır və xoş əhval ruhiyyə ilə yad edilir.

Onlar hətta həyatdan köçüb getsələr də xalqın yaddaşında şirin arzular kimi qalır, ədəbiyyatda, şerdə, sənətdə öz izlərini saxlayırlar. Ağamirzə Əhmədovda bax belə insanlardan biri olub.

Ağamirzə Əhmədov Şamaxıda zəhmətkeşlər arasında

Şərəfli əməyinə görə Ağamirzə Əhmədov iki dəfə qırmızı Əmək Bayrağı ordeni, 1-ci dərəcəli Vətən müharibəsi ordeni, eləcə də bir çox medallarla təltif olunmuşdur. Xalq ona dəfələrlə yüksək etimad göstərmişdir. O, beş çağırış Azərbaycan Ali Sovetinə, üç çağırış isə SSRİ Ali Sovetinə deputat seçilmişdir. Onun həyatında yüksək ölçü meyarı vicdanla çalışmaq, xalqının etimadını doğrultmaq olmuşdur. Ağamirzə Əhmədov 1964-cü ilin may ayının 12-də, ömrünün 59-cu baharında dünyasını dəyişmişdir.

Ağamirzə Əhmədovun Azərbaycan Xalqı qarşısında xidmətləri həmişə böyük ehtiramla yad ediləcəkdir. Bəli, onun

xatirəsi, Əngəxaran üçün, şamaxılılar üçün, bakılılar üçün, bütövlükdə Azərbaycan xalqı üçün həqiqətən çox əzizdir.

Kamal Ağababa oğlu Qəhrəmanov 1 iyun 1908-ci ildə Əngəxaran kəndində anadan olub. O, orta təhsil aldıqdan sonra partiya işində işləməyə başlayıb. Şamxorda RTS-də partkom, Gədəbəydə Partiya Komitəsində ikinci katib, müharibə illərində birinci katib işləməyə başlayıb. Cəbrayıl rayonunda və Lerikdə birinci katib olub, Ali partiya məktəbini bitirdikdən sonra isə Mərəzə rayonunda birinci katib işləmişdir. Ümumiyyətlə, 25 ilə qədər birinci katib işləmişdir. Yaşayıb işlədiyi dövrün ən təmiz partiya işçisi kimi tanınmışdır. Bacarıqlı partiya işçisi kimi həmişə nümunə göstərilirdi. Mərkəzi Komitəyə gedəndə orqanın işçiləri deyərlərmiş ki, “peyğəmbər” gəldi. İşlədiyi dövrdə bir çox orden və medallarla mükafatlandırılmışdır. İki dəfə Azərb SSR Ali Sovetinə deputat seçilmişdir. 1962-cü ildə vəfat etmişdir. Yeddi övladı var.

Kamal Qəhrəmanov(sağdan üçüncü) keçmiş partiya fəalları ilə bir arada.

Əliağa Şahsəddin oğlu Rüstəmov 1 yanvar 1921-ci ildə Şamaxının Əngəxaran kəndində anadan olmuşdur. O, doğma kəndində ibtidai, Məlhəm kəndində natamam orta təhsil almışdır. Elə bu illərdə atası Şahsəddin kişi "xalq düşməni" adı ilə həbs olunmuşdur. Anasının təkidi ilə Ə.Rüstəmov Şamaxı pedaqoji məktəbinə daxil olur, 1941-ci ildə həmin məktəbi bitirir... və pedaqoji aləmə qədəm qoyur. Əliağa müəllim bir müddət Sabirabad rayonunun Qaralər kəndində, daha sonra Şamaxı rayonunun Boyat, Əngəxaran kəndlərində müəllim işləyir.

O, 1942-ci ildə Böyük Vətən müharibənsinə yollanır. 1943-cü ildə Krımda gedən qanlı döyüşlərin birində ağır yaralanır və hərbi qospitala düşür. O, 1944-cü ilin may ayına kimi qospitalda müalicə olunur və ikinci qrup əlil kimi geri dönür. Tez bir zamanda məktəbdə pedaqoji fəaliyyətə başlayır. Pedaqoji aləmə olan sonsuz istəyi onu ali təhsil almağa vadar edir. Əliağa müəllim 1949-cu ildə N.Tusi adına APİ-nin dil-ədəbiyyat fakültəsinə daxil olur və institutu fərqlənmə diplomu ilə başa vurur. Rayon rəhbərliyi Əliağa müəllimin bacarığı, ali təhsilli kadr olmasını nəzərə alıb onu Şamaxı Maarif şöbəsində

işə dəvət edir.

Onun pedaqoji fəaliyyəti müxtəlif mükafatlara “Oktyabr İnqilabı” ordeni, “SSRİ Maarif əlaçısı” “Qabaqcıl Maarif xadimi”, və fəxri fərmanlara layiq görülmüşdür. 2001-ci ildə dünyasını dəyişmişdir. 6 övladı var.

Nəcməddin Xələf oğlu Əhmədov 12 mart 1923-cü ildə Şamaxı rayonunun Əngəxaran kəndində anadan olmuşdur. 1943-46-cı illərdə, ordu sıralarında olmuşdur. Hərbi xidməti bitərəndən sonra 1946-1953-cü illərdə Azərbaycan dəmir yolunda müxtəlif vəzifələrdə işləmişdir. 1954-1958-ci illər 4 illik Bakı ali partiya məktəbində oxumuşdur. 1958-1964-cü illər Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində məsul təşkilatçı, şöbə müdirinin müavini, sektor müdiri vəzifələrində çalışmışdır.

1964-cü ildə Nazirlər Soveti yanında Xarici turizm idarəsinə rəis vəzifəsinə göndərilmiş və 1970-ci ilə qədər orada işəlmişdir. 1971-dən 1981-ci ilə qədər Bakı Şəhər Nərimanov rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində işləmişdir.

1981-1986-cı illər Bakı şəhər xalq deputatları soveti icrayyə komitəsinin sədri olmuşdur. Təqaüdə çıxandan sonra o şəhər icra hakimiyyəti başçısının baş müşaviri olmuşdur.

O, VIII-XI çağrışlarda Ali Sovetinə deputat seçilmişdir. 20 ilə yaxın müddətdə xarici ölkələrlə dostluq və mədəni əlaqələr cəmiyyəti rəyasət heyətinin üzvü, respublika sülh fondunun sədri, beynəlxalq qardaşlaşmış şəhərlər federassiyasının vitse prezidenti olmuş, Oktyabr İnqilabı, Qırmızı Əmək bayrağı ordenləri Laos ölkəsinin baş ordeni “Z

fil və çətr” -lə təltif edilmişdir. 13 dəfə respublika Ali Sovetinin, 3 dəfə isə SSRİ-nin Xarici ölkələrlə Dostluq, Əməkdaşlıq və mədəni əlaqələr cəmiyyətinni fəxri fərmanları ilə təltif olunmuşdur. Əhmədov Nəcimeddin dünyasını dəyişmişdir. 3 övladı var.

Baba Ağabala oğlu Xəlilov 1 yanvar 1926-cı ildə Əngəxaran kəndində anadan olub. 1944-cü ildə Lenin adına Pedaqoji İnstituta daxil olub. 1950-ci ildən Şamaxı rayonunun Cabanı, Məlhəm kənd orta məktəblərində direktor işləyib. 1962-ci ildən ömrünün sonuna kimi Şamaxı fəhlə gənclər məktəbində direktor vəzifəsində çalışıb. 1982-ci ilin iyulunda dünyasını dəyişib. 5 övladı var.

Xalq şairi Qabilin Baba müəllimin ölümünə həsr etdiyi şerin bir kupleti belə səslənir:

... Qayğılar selində axdı rüzgarın
İnsana yaxşılıq oldu şüarın
Sən ki, bir nur çeşməsiydin
Qəlbinin nuruyla dolsun məzarın.

Şerdən də göründüyü kimi, Baba müəllim qısa ömür yaşamışdır. Lakin onu tanıyanların qəlbində silinməz izlər buraxmışdır. Baba müəllim gözəl insan olaraq, böyüklə – böyük, kiçiklə – kiçik kimi davranırdı. Özəlliklə uşaqları daha çox sevərdi. Görünür elə bu səbəbdən də ömrünü pedaqoji fəaliyyətə həsr etmişdir. Baba müəllimin gördüyü xeyirxah işlər yaddaşlardan heç zaman silinməyəcək. 1982-ci ildə dünyasını dəyişmişdir. 6 övladı var.

Sədi Şahsəddin oğlu İmanov 14 aprel 1926-cı ildə Şamaxının Əngəxaran kəndində anadan olmuşdur. Pedaqoji elmləri doktoru, professor, Pedaqoji Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi, N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetində fizikanın tədrisi metodikası kafedrasının müdiri və əmək veteranı olmuşdur. Azərbaycan prezidentinin fəxri təqaüdünə layiq görülmüşdür. 3 övladı var.

Soltanpaşa Əzizxan oğlu Vəliyev 25 sentyabr 1926-cı ildə Şamaxı rayonunun Əngəxaran kəndində dünyaya göz açmışdır. 1944-45-ci illərdə Azərbaycan Dövlət Pedaqoji İnstititutunun Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirmişdir. Şamaxı rayonunun Qaleybuğurt və Sis kəndlərində müəllim işləmişdir. Quba və Gəncə ali məktəblərində müəllim kimi çalışmışdır. 1959-cu ildən etibarən Azərbaycan Dövlət Xarici dillər İnstitutunun Azərbaycan dilçiliyi kafedrasında müəllim işləmişdir. O, burada müdafiə edib, tarix elmləri namizədi alimlik dərəcəsini almış və dosent vəzifəsində çalışmışdır. Həmin institutda kafedra müdiri və Avropa dilləri fakültəsinin dekan müavini vəzifəsində işləmişdir. İxtisası üzrə - yəni Azərbaycan dilinin tarixi qrammatikası üzrə çoxlu sayda elmi əsərlər və monoqrafiyalar çap etdirmişdir. 1988-ci ildə dünyasını dəyişib. 4 övladı var.

Bünyad Cənnət oğlu Əhmədov 10 sentyabr 1926-cı ildə Şamaxı şəhərinin Əngəxaran kəndində anadan olub. O, Erkən yaşlarında valideynlərini itirmişdir. Orta təhsilini Əngəxaran kəndind məktəbində almış, buranı bitirdikdən sonra, ali təhsilini Azərbaycan Pedaqoji Universitetində davam etdirmiş və həmin Universitetin fizika–riyazityyat fakültəsini müvəffəq qiymətlərlə başa vurmuşdur. Təhsilini başa vurduqdan sonra əvvəlcə Şamaxı şəhərinin bir sıra ucqar kəndlərində uzun müddət müəllimlik fəaliyyətinə başlamış, sonra isə ən yaxşı pedaqoq kimi ictimai işlərdə fərqləndiyinə görə Rayon Təhsil Şöbəsinə (RXMŞ) inspektor vəzifəsinə təyin edilmişdir. Təhsil sahəsindəki xidmətlərinə görə Təhsil nazirliyinin fərqlənməyə görə döş nişanları ilə təltif olunmuş və uzun müddətli fəaliyyətindən sonra 1980-ci ildə Şamaxı Şəhər Peşə məktəbinə direktor vəzifəsinə təyin edilmiş və 2004-cü ilə qədər bu vəzifədə çalışmışdır. O, 04 mart 2004-cü ildə 77 yaşında vəfat etmişdir. 7 övladı var.

Hacı Gülabba Ağafəndi oğlu Qəhrəmanov 1 yanvar 1930-cu ildə Əngəxaran kəndində anadan olmuşdur. İlk təhsilini doğma kəndində başa vurduqdan sonra Şamaxı pedaqoji məktəbinə qəbul olaraq sinif müəllimi ixtisası almışdır. 42 ilə qədər müəllim işləmiş Qəhrəmanov dərs dediyi uşaqların və valideynlərin içərisində böyük hörmət qazanmışdır. O, məktəbdə müxtəlif dərnəklər təşkil edərək uşaqların estetik bacarıq və qabiliyyətlərini inkişaf etdirmişdir. Onun rəhbərlik etdiyi dərnəklərdəki uşaqların əl işləri hətta Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri sərgisində nümayiş etdirilmişdir. Həmin dərnəklərdə yetişmiş şagirdlər hal-hazırda da yiyələndikləri peşələri davam etdirirlər.

Gülabba müəllimin qabaqcıl iş təcrübəsi respublika mətbuatında geniş işıqlandırılmış, yüksək qiymətləndirilmişdir. Gülabba müəllim, müəllimliklə yanaşı yaxşı təsərrüfatçı idi. O, gözəl bağban, yaxşı arıçı idi. Kəndin abadlaşdırılmasında və bütün təşkilati işlərində daim öndə gedən olmuşdur və şəxsən bu işlərə rəhbərlik etmişdir. Hacı Gülabba xalq təbabətini çox gözəl bilirdi. O, topladığı dərman bitkiləri ilə kənd camaatına və onu tanıyanlara təmənnasız xidmət göstərmişdir.

Hacı Gülabba Kəbəni ziyarət etdikdən sonra qısa bir vaxtda Ərəb əlifbasını öyrənmiş, islam dininin, təbliğində və əhalinin maariflənməsində yaxından iştirak etmişdir. Kənd camaatı tərəfindən ağsaqqal kimi tanınmış Hacı Gülabba 2002-ci ildə 72 yaşında dünyasını dəyişmişdir. 4 övladı var.

Fərhad Əlibaba oğlu İbrahimov 25 sentyabr 1931-ci ildə Şamaxı rayonunun Əngəxaran kəndində anadan olmuşdur. 7 illik məktəbi bitirdikdən sonra 1945-1948-ci illərdə M.Ə.Sabir adına Şamaxı şəhər pedaqoji texnikumunda təhsilini davam etdirmişdir. Gənc yaşlarında atasını itirmiş F.Ə.İbrahimov tələbə ikən həm də işləməyə məcbur olmuşdur. 1949-1951-ci illərdə ordu sıralarında xidmət etmiş, hərbi hissənin və Respublika Gənclər İttifaqının fəxri fərmanlarına layiq görülmüşdür. Ordudan tərxis olunduqdan sonra o, Şamaxıya rayon prokrorluğunda və rayon komsomol komitəsində çalışmış, şəhər uşaq evində müəllim-tərbiyəçi işləmişdir.

F.Ə.İbrahimov 1959-cu ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutun tarix-filoloji fakültəsini bitirmiş və həmin ildə Azərbaycan EA Tarix İnstitutunun Arxeologiya şöbəsinə elmi işçi vəzifəsinə qəbul olunmuşdur. Örənqala arxeoloji

ekspedisiyasının çöl qazıntı işlərində fəal iştirak etməsi onda arxeologiyaya böyük həvəs oyatmışdır. 1965-1968-ci illərdə SSRİ EA Leninqrad bölməsinin tanınmış alimi A.L.Yakobsonun rəhbərliyi ilə arxeologiya ixtisası üzrə institutun aspiranturasında oxumuşdur. Onu ən çox metalişləmə sənətkarlığı maraqlandırmışdır. O, "IX-XIII əsrlərdə Azərbaycan şəhərlərində metalişləmə sənəti" (arxeoloji və etnoqrafik materiallar əsasında) adlı namizədlik dissertasiyası yazmış və 1969-cu ildə müvəffəqiyyətlə müdafiə etmişdir. Sonralar o, həmin dissertasiyanı daha geniş işləyərək monoqrafiya şəklində nəşr etdirmişdir.

Azərbaycan Respublikası Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi Fərhad Əlibaba oğlu İbrahimov 40 ilə yaxın Azərbaycanın orta

əsrlər arxeologiyası problemlərinin tədqiqilə məşğul olmuşdur. Beyləğan, Şamaxı və Bakıda aparılmış arxeoloji qazıntıların fəal iştirakçılarından və rəhbərlərindən biri kimi neçə-neçə yeni abidənin aşkar olunmasında bilavasitə iştirak etmişdir.

F.Ə.İbrahimov Örənqala arxeoloji ekspedisiyasının yetişdirməsidir. O, qazıntı işlərinin texnikasını burada öyrənmiş, zəngin təcrübə qazanmış və 1959-cu ilən başlayaraq müstəqil qazıntı aparmağa başlamışdır. Onun Örənqalanın şimal-qərb qala divarında və qala xəndəyinə apardığı qazıntılar çox uğurlu olmuşdur. Burada şəhərin qala darvazası və xəndəkdə bir dulus kürəsi aşkara çıxarılmışdır.

F.Ə.İbrahimov 1968-ci ildən Şirvan arxeoloji ekspediisyasının Şamaxı, Ağsu və İsmayıllı dəstələrinin çöl-tədqiqat işlərində yaxından iştirak etmişdir. 1969-cu ildən o, Bakı arxeoloji ekspedisiyasında dəstə rəisi və rəis müavini işləmiş, 1976-cı ildən isə O, 4 monoqrafiya və 100-dən çox elmi məqalənin müəllifidir. Elmi əsərlərindən 3 kitabı və 60 məqaləsi bilavasitə Bakının orta əsr arxeologiyasına həsr edilmişdir. Onun elmi maraq dairəsi genişdir. Şəhər həyatı, şəhər sənətkarlığı, xüsusilə metalişləmə, saxsı məmulatı, fayans qablar, bədii incəsənət və s. sahələrə aid əsərlər yazmışdır. O.Ş.İsmizadə ilə şərikli yazdığı “Bakının basma naxışlı bədii keramikası”. “Bakıda metalişləmə tarixi” və S.B.Hüseynova ilə şərikli yazdığı “İçəri şəhərin arxeoloji abidələri” adlı əsərləri bilavasitə Bakının orta əsrlər tarixinə

aiddir.

F.Ə.İbrahimov 1970-1974-cü illərdə SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri sərgəsinin iştirakçısı olmuş, sərginin 4 diplomuna layiq görülmüş, Arxeologiya və Etnoqrafiya institutunda sosializm yarışının qalibi döş nişanı (1977) və uzun müddət qüsursuz işinə görə Tərifnamə ilə təltif olunmuşdur.

F.Ə.İbrahimovun xeyli məqaləsi Azərbaycan Sovet Ensiklopediyasında nəşr olunmuşdur. O, Azərbaycan EA Arxeologiya və Etnoqrafiya İnstitutunun çapa hazırladığı çoxcildli "Azərbaycan arxeologiyası" əsərinin orta əsrlərə həsr olunmuş VI cildinin müəlliflərindən biridir. Fərhad müəllim müxtəlif elmi sessiya, konfrans və simpoziumlarında Azərbaycan elmini layiqincə təmsil etmiş, Bakı, Moskva, Leninqrad, Kiyev, Livov, Səmərqənd, Daşkənd, Tbilisi, Buxara, Minsk və b. şəhərlərdə keçirilən sessiya və konfranslarda məruzələrlə çıxış etmişdir. Fərhad İbrahimov YUNESKO-nun 1990-cı ildə Buxara şəhərində keçirdiyi Beynəlxalq konfransda uğurla iştirak etmişdir.

Fərhad müəllim elmi işini pedaqoji fəaliyyətlə əlaqələrindən alimlərimizdən olmuşdur. O, uzun illər Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində "Arxeologiya", "Orta əsr Azərbaycan şəhərlərinin tarixi" kurslarına dair mühazirələr oxumuş, məşğələlər aparmışdı. O, gənc nəsli qədim tariximiz, incəsənətimiz və xüsusilə maddi

mədəniyyətimizin zəngin ənənələri ilə tanış edirdi.

F.Ə.İbrahimov tarix və arxeoloji abidələrimizin fəal təbliğatçılarından idi. Tez-tez mətbuatda, kütlə qarşısında, radio və televiziyada çıxış etmiş və uzun müddət Azərbaycan tarix və mədəniyyət abidələri mühafizə cəmiyyəti Bakı şöbəsinin üzvü olmuş, Bakı qazıntıları haqqında müntəzəm olaraq, abidələrin dağıdılması qarşısını almaqda və onların qorunmasında qətiyyətlə çıxış etmiş, mübarizə aparmışdır. F.Ə.İbrahimovun Bakının İçərişəhər hissəsində Azərbaycan Arxeologiya və Etnoqrafiya Muzey-sərgisinin yaradılmasında muzeyin təşkilində fəaliyyəti xüsusilə təqdirə layiqdir. O, 1984-1986-cı illərdə bu muzeyə rəhbərlik etmişdir.

Bu nailiyyətlər Fərhad müəllimin nəcib və təmiz xislətli insan olmaqla yanaşı həm də yaradıcı təfəkkürə malik alim olması ilə bağlı idi.

2001 – ci ildə F.Ə.İbrahimovun 75 illiyi ilə əlaqədar onun əziz xatirəsinə həsr olunmuş və həyatını, elmi yaradıcılığını əks etdirən, həmçinin elmi və elmi-publisistik əsərlərindən bəhs edən İçərişəhər adlı kitab işıq üzü gördü.

Məhsuldar alim-arxeoloq 2001-ci ildə dünyasını dəyişdi. 4 övladı var. Fərhad müəllimin keçdiyi ibratamiz həyat yolu gənc arxeoloq kadrlar üçün həmişə örnək olacaqdır.

Tamilla Mirələm qızı İbrahimova 1 iyun 1930-ci ildə Şamaxı rayonunun Əngəxaran kəndində anadan olmuşdur. Ömrünün 55 ilini uşaqların təlim tərbiyəsinə həsr etmiş İbrahimova Tamilla Mirələm qızı lap kiçik yaşlarından müəllimə olmaq və körpələrlə bağlı şərəfli bir ömür keçirmək həvəsi ilə yaşayıb.

1947-cı ildən əmək fəaliyyətinə başlayan Tamilla müəllimə daima şagirdlərin, müəllimlərin və valideynlərin sevimlisi olmuşdur. O, öz işini dövrün tələblərinə cavab verən yüksək elmi-pedaqoji və metodiki səviyyədə qurmaqla, həmişə bilikli və bacarıqlı şagirdlər yetişdirmişdir. Onun tərbiyə edərək yetişdirdiyi şagirdlər respublika səviyyəsində tanınmış şəxslərə çevrilmişlər.

Tamilla müəllimə 55 illik əmək fəaliyyəti dövründə öz vətənini və xalqını sevən, təvazökar, özünə və şagirdlərə tələbkar yanaşan təcrübəli bir müəllimə kimi tanınaraq, xalq arasında yüksək hörmət qazanmışdır.

Səmərəli əmək fəaliyyətinə görə bir sıra fəxri fərmanlarla təltif edilmişdir. O cümlədən, 1961-ci ildə Nərimanov Rayon Sovetinə deputat seçilmiş, 1974-cü ilin yanvarında "Sosializm Yarışının Qalibi" olmuş, 1987-ci ilin noyabrında isə "Baş Müəllim" adına layiq görülmüşdür. 1996-cı ildə Tamilla müəllimənin əmək fəaliyyətinin 50 illiyi yüksək səviyyədə qeyd edilmişdmir. İbrahimova Tamilla Mirələm qızı hal-hazırda təqaüddədir.

Tamila müəllimənin pedaqoji fəaliyyətinin 50 illiyinə şair-alim, professor Hikmət Mahmudun həsr etdiyi bu kupletlər diqqəti cəlb edir:

Min hikmət var hər qiymətli sözündə
Bir zirvəsən müdriklərin gözündə.
Xeyirxahlıq müjdəsi var üzündə,
Hamıya mehriban Tamila müəllim,
Səni sevir bütün mahalım, elim.

Əlli illik ömrü başa vurmusan,
Körpələrə hər an dayaq durmusun.
Güzaranı kamalınla qurmusan,
Fəxrlə çəkilir hər yanda adın,
Zəhmətilə pillə-pillə ucaldır.

Kimsəsizin oldun qolu-qanadı,
Unutmadın nə yaxını, nə yadı.
Öz zəkanla qazandın sən bu Adı,
Dörd oğlu böyüdən ey müdrik ana,
Ad-san da, şöhrət də halaldır sana.

Qəlbində arzular qoy çin eyləsin
Tanrım hər yoluna uğur söyləsin.
Görüb eşidəsən nəticə səsin,
Bu gün necə vurur sinəndə ürək,
Yüz yaşda da səni belə gənc görək

İbrahimova Tamilla Mirələm qızı 2016-cı il avqustun 19-da 85 yaşında dünyasını dəyişmişdir. 4 övladı var.

Siyavuş Mirələm oğlu Tarıverdiyev 21 fevral 1936-cı ildə Şamaxı rayonunun Əngəxaran kəndində anadan olmuşdur. Atası Mirələm Tarıverdiyev 1937-ci ildə repressiyaya məruz qaldığı və həbs olunduğu üçün uşaqlığı və gəncliyi çətin keçib. O, 1943-cü ildə Əngəxaran kənd orta məktəbinə birinci sinifinə daxil olmuşdur. 1950-ci ildə 7-ci sinifi bitirib Şamaxı rayonunun 1№-li məkətbində təhsilini davam etdirmişdir. 1953-cü ildə həmin məktəbi bitirərək, Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. 1957-ci ildə həmin institutu bitirmiş və təyinatı üzrə Şamaxı rayonunun Çarhan orta məktəbinə müəllim təyin edilmişdir. Üç il orda işlədikdən sonra, Şamaxı rayonunun Kürdəmic kənd orta internat məktəbinə direktor təyin olunmuşdur. Üç il sonra, ailə qurduğu üçün Əngəxaran kənd məktəbinə müəllim vəzifəsinə təyin edilmişdir. 1962-ci ildən etibarən Əngəxaran orta məktəbində fizika-riyaziyyat fənnini tədris etmişdir. İşlədiyi dövr ərzində “qabaqcıl maarif xadimi” döş nişanı və müxtəlif medallarla təltif olunmuşdur. O, nümunəvi müəllim olmuş, Əngəxaran kəndində yeni ziyalı-müəllim nəslinin yetişməsində əvəzsiz rol oynamışdır. Siyavuş Tarıverdiyev 14

avqust 2006-cı ildə dünyasını dəyişdirmişdir. 4 övladı var.

Tahir Tanqah oğlu Əsgərov 29 iyun 1937-ci il tarixdə Şamaxı rayonunun Əngəxaran kəndində müəllim ailəsində anadan olmuşdur. Heç bir yaşı olmamış atasını itirmişdir. Bir çox Şamaxı ziyalıları kimi, o da 1937-ci il represiyasının qurbanlarındandır. O vaxtdan əmisi Ağakişi Əsgərov öz himayəsi altına almış və böyütmüşdür. Tahir Əngəxaran kənd məktəbində oxumuş, 1952-ci ildə Bakı Balıq Sənaye texnikumuna daxil olmuş, oranı müvəffəqiyyətlə bitirərək, 1956-cı ildə Moskva Yeyinti Sənayesi institutunun "İxtialogiya" fakültəsinə daxil olmuşdur.

O, 1963-cü ildə İnstitutu müvəffəqiyyətlə bitirmiş, aspiranturaya daxil olmuş, 1969-cu ildə aspiranturanı bitirmişdir. 1970-ci ildə müdafiə edərək biologiya elmləri namizədi alimlik dərəcəsini almışdır. 1971-ci ildən başlayaraq Azərbaycan Nərə Balıqları artırma elmi-tədqiqat institutunda baş elmi işçi, daha sonra isə şöbə müdiri işləmişdir. Bir çox kitabların və elmi əsərlərin müəllifidir.

1980-ci ildə Azərbaycan Balıqçılıq Nazirliyində nazir müavini vəzifəsinə təyin edilmişdir. Dövlət tərəfindən dəfələrlə mükafatlandırılmışdır. 1986-cı ildən yenidən elmə qayıtmış və Nərə Balıqlarının Artırılması Elmi-Tədqiqat İnstitutunda şöbə müdiri işləmişdir. 2000-ci ildə dünyanı dəyişmişdir. 3 övladı var.

Tofiq Kamal oğlu Qəhrəmanov 15 dekabr 1938-ci ildə Şəmkir şəhərində anadan olmuşdur. 1957-ci ildə Mərəzə rayonunun Nərimankənd orta məktəbini bitirmişdir. 1957-58-ci illərdə Mərəzə rayonunda texnik vəzifəsində işləyib. 1958-62-ci illərdə ordu sıralarında qulluq

edib. 1962-68-ci illərdə Sabir adına üzümçülük savxozunda normalaşdırıcı və iqtisadçı vəzifələrində çalışıb. 1965-70-ci illərdə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun xalq təsərrüfatının planlaşdırılması fakültəsində qiyabi ali təhsil almışdır. 1970-71-ci illərdə S.Ə.Şirvani adına üzümçülük savxozunda baş iqtisadçı vəzifəsində işləyib. 1971-76-cı illər ərzində ŞRPK-də məsul vəzifələrdə çalışıb. 1976-80-ci illərdə ŞRPK-də sənaye şöbəsinin və ümumi şöbənin müdiri vəzifələrində işləyib. 1980-91-ci illər ərzində Şamaxı rayon XDS İcraiyyə Komitəsi sədrinin iqtisadi işlər üzrə müavini işləyib. 1992-2011-ci illər ərzində rayon Məşğulluq Mərkəzində, Əmək və Əhalinin Sosial Müdafiəsi Mərkəzində, Şamaxı Poçtampında, Şamaxı Rayon Ərazi Kənd Təsərrüfatı İdarəsində, Dövlət Arxivi Şamaxı Rayon Filialında məsul vəzifələrində çalışmışdır. Hal-hazırda pensiyadadır. Evlidir, 4 övladı var.

Əvəz Seyfi oğlu Mikayılov 10 sentyabr 1939-cu ildə Şamaxı rayonunun Ərçivan kəndində anadan olmuşdur. 1948-ci ildə Ərçiman kənd ibtidai məktəbinin 1-ci sinfinə daxil olub. 1952-ci ildə ailəsi ilə birlikdə ana babasının kəndinə - Əngəxaran kəndinə

köçmüşdür. 1959-cu ildə S.M.Qənizadə adına Şamaxı şəhər 1 saylı orta məktəbi əla qiymətlərlə bitirmişdir. 1959-62-ci illərdə Baltikyanı ölkələr sahilində dənizçi kimi hərbi xidmətdə olub. Hərbi xidmət zamanı komandanlıqdan dəfələrlə tərifnamə və təşəkkürnamələr alıb. 1963-65-ci illərdə Şamaxı M.Ə.Sabir adına Şamaxı şəhər pedaqoji texnikomunda oxuyub. 1965-68-ci illərdə Şamaxı rayon Kürdəmic kənd 8-illik məktəbində rus dili müəllimi kimi fəaliyyət göstərmişdir. 1969-75ci illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Müəllimlər İnstitutunun rus dili və ədəbiyyatı fakültəsində qiyabı ali təhsil almışdır. 1968-ci ilin sentyabr ayından Əngəxaran kənd orta məktəbində əvvəl rus dili müəllimi kimi, sonra isə həm də təlim-tərbiyə üzrə direktor müavini vəzifəsində çalışmışdır. O, həmişə rayonun ictimai həyatında daim aktiv fəaliyyət göstərmiş, rəhbərlik tərəfindən hər zaman yüksək qiymətləndirilmişdir. 2003-cü ildə xəstəliyi ilə əlaqədar pensiyadadır. Evlidir, 4 övladı var.

Nuru Ağamirzə oğlu Əhmədov 28 iyun 1942-ci ildə Gürcüstan Respublikasının Tbilisi şəhərində anadan olub.

1965-ci ildə Azərbaycan Politexnik İnstitutunu bitirib. Dövlət Plan Komitəsinin “AzETİETM” sənaye, rabitə və nəqliyyat şöbəsinin rəisi, Azərbaycan SSR Rabitə Nazirliyinin MTİ-nin rəisi, Bakı Rabitə Kollecinin direktoru, Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin rəisi və 1995-2011-ci illər ərzində “Az Euro Tel” Birgə Müəssisəsinin baş direktoru vəzifələrində işləyib.

2015 il martın 30-dan aprelin 10-dək Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində Beynəlxalq Telekommunikasiya İttifaqı (BTİ) tərəfindən təşkil olunan Telekommunikasiyanın İnkişafı üzrə Ümumdünya Konfransın plenar iclasında BTİ-nin Baş katibi Hamadun Ture Azərbaycanın nümayəndəsi Nuru Əhmədovu Beynəlxalq Telekommunikasiya İttifaqının işinə verdiyi töhfələrə görə

i

İttifaqın qızıl medalı və sertifikatı ilə təltif edib.

13 iyul 2017-ci ildə Prezident İlham Əliyev Nuri Əhmədova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb. Azərbaycanda rabitə sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Nuri Ağa Mirzə oğlu Əhmədov Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü ilə mükafatlandırılıb. Hal-hazırda fəxri təqaüddədir. 2 övladı var.

Fəxrəddin Cümşid oğlu İbrahımov 3 iyul 1951-ci ildə Əngəxaran kəndində anadan olmuşdur. 1968-ci ildə orta məktəbi bitirdikdən sonar APİ-nun coğrafiya fakültəsinə qəbul olunmuşdur. 1972-ci ildə ali təhsilini başa vurduqdan sona Əngəxaran orta məktəbində coğrafiya ixtisası üzrə müəllim işləmişdir. İbrahımov Fəxrəddin baş müəllim, daha sonra ali dərəcəli müəllim adına laiq görülmüşdür. 2014-cü ildən pensiyadadır. Ailəlidir, 2 övladı var.



Sabir Ağaqardaş oğlu Əhmədov 1954-cü ildə Əngəxaran kəndində anadan olmuşdur. ADPU-nun filologiya fakültəsini bitirmişdir. 1976-cı ildə Şamaxı rayonunun Məlhəm kəndində Azərbaycan dili və ədəbiyyat müəllimi işləmişdir. 2 illik fəaliyyəti dövründən sonra Bakı şəhərinə köçmüş və 8 saylı dəmir-beton zavodunda mülki müdafiə şöbəsinə işə düzəlmişdir.

Bu dövrdə Vətən sevgisi mövzusunda, vətənpərvərlik ruhunda şeirlər yazmışdır. "Bilmirəm", "Vətənimi Sevirəm", "Sənə", "Sənsiz", "Oyan", "Yalan doğru, doğru yalan", "Ölmək- Unudulmaq demək" kimi onlarla şeirlər yazmışdır.

Xocalı soyqırımından sonra 1992-ci ilin mart ayında cəbhəyə yollanmış, 1992-ci ilin iyun ayının 28-də Füzuli rayonu Qırmızıbazar qəsəbəsi uğrunda gedən döyüşlərdə şəhid olmuşdur.

Sabir Əhmədovun 2007-ci ildə ölümündən sonra "Mən ölmədim Mən diriyəm" adlı şeirlər toplusu çap olunmuşdur. Doğulduğu Əngəxaran kəndindəki tam orta məktəbə onun adı verilmiş və məktəbin həyətində büstü ucaldılmışdır.

Vasif Əliağa oğlu Rüstəmov 1956-cı ildə Əngəxaran kəndində anadan olub. O, kənd orta məktəbini bitirib, APİ-nin (indiki N.Tusi adına ADPU) fizika fakültəsinə daxil olmuşdur. O, institutu qurtarıb Şamaxı rayonunun Məlhəm kənd orta məktəbinə fizika müəllimi təyin edilmişdir. Vasif müəllim 1979-cu ildən S.Əhmədov adına Əngəxaran kənd orta məktəbində ixtisası üzrə müəllim işləmişdir. Hal-hazırda həmin məktəbin direktoru vəzifəsində çalışır. Ailəlidir, 3 övladı var.

Vasif müəllimin doğma Əngəxaran kəndinə həsr etdiyi "Şeriyyatım Əngəxaran" adlı şeiri tədqirəlayiqdir.

Hər tərəfin vüqarlı dağ,
Gözəl diyar, gözəl məkan.
Mərkəzində gur bir bulaq,
Füsünkarsan – Əngəxaran.
Dəvə belli "Qızqalası",
"Pidrəkin" karvana duran.
Sənə dayaq "Quş qalası",
Binastısan – Əngəxaran.
O gur "Ayğır" bulağından,
Düzəlibdir bulaq, fantan.

İndi zaman başqadır bax,
Bir gözünə olaq çıraq,
Pərvanətək qoy fırlanaq
İşığına – Əngəxaran.
Ocağın verdi məktəbə,
Uşaqlar çıxdı ağ günə.
Qiymət verdi – Əngəxaran.
Oxunuşun sayı çoxdur,
Şişirtmirəm səni inan.
Sənə çatan bir kənd yoxdur,

Gəlin sənə – Əngəxaran.
Bal yeyənlər nəsilisən,
Əngə – arı, yemək – xaran
Ecasgarım – Əngəxaran.
Çox çəkmisən acı günlər.
Başın alıb tufan-boran.
On səkkizdə ermənilər
Soyun qırdı – Əngəxaran.
Otuz yeddi oldu bəla.
Qırx bir, qırx beş tutdu divan.
Qarabağda üç gül bala
İtirdin sən – Əngəxaran
Sənə sadıq övlad olan.
Öz canını verər qurban.
"Ayğır piri" bulağından
Çünki içib – Əngəxaran.
Vaxt olub ki, çox üzülüb,
Düz yol üstə verərək can.
Vaxt olub ki, mərd əzilib
Övladların – Əngəxaran.
Yetmiş başın kəsiyinə,
Şahid oldu o vaxt zaman.
Dörd yüz qırx şəhid səsinə
Necə dözdün – Əngəxaran?!

Elmi məkan – Əngəxaran.
Ağamirzə, Sədi, Fərhad,
Əliağa, Tahir, Soltan
İgid Sabir edilsin yad,
Fəxr eləsin – Əngəxaran.
Nuru kimi övladın var.
Ata yurda sadiq qalan.
El-obaya yaxın durar,
Hər bir zaman – Əngəxaran
İbrahim də "Üç gülünü,
Oxumuşdu zaman-zaman.
Mirzəhüseyn seygahını
Dinləmişdin – Əngəxaran.
Sədrəddini, Nurəddini,
Daşdəmiri sazda çalan
Yetişdirdin bir dövrdə
Çox nəğməkar – Əngəxaran
Yol göstərir cavanlara,
Hacıların əldə "Quran",
Ram olmuşam bir Allaha,
İbadətkar – Əngəxaran
Təbəhlərin çoxdu sənin,
Bir-birinə həmdəm olan
Şeriyyatına oxdu sənin

Sən öldünsə, öldürdün də,
Varlığını həmin dövran
Bu dünyaya bildirdin də,
Ey döyüşkən – Əngəxaran.
Sən qorxmadın, sən vuruşdun,
Dövran-dövran, zaman-zaman.
Alovlandın, sən tutuşdun.
Ey döyüşkən – Əngəxaran.
O vaxt qırdı çox erməni
Qorxmaz, igid Əlyar Balan.
Şahsəddin tək hamı səni
Qorudular - Əngəxaran

Düşmənlərə – Əngəxaran
Sən batmısan gül içində,
Kənd görmədim bu biçimdə.
Çoxsu yanır öz içində,
Gün gözləsən – Əngəxaran
İndi firavan – gündəsən,
Nazlı gəlin biçimdəsən.
Sən Vasifin qəlbindəsən,
Qəlbi kövrək – Əngəxaran.
Sənsən mənim görən gözüm,
Axirətdə mənə qalan.
Canım, qəlbim, şirin sözüm,
Şeriyyatım – Əngəxaran.

İlqar Gülabba oğlu Qəhrəmanov 14 dekabr 1958-ci ildə Şamaxı rayonunun Əngəxaran kəndində ziyalı ailəsində anadan olmuşdur. İbtidai təhsilini 1965-ci ildə Əngəxaran kənd 8-illik məktəbində alıb. 1973-cü ildə Şamaxı şəhər 1 saylı orta məktəbinin 9-cu sinfinə qəbul olub. 1975-ci ildə orada orta məktəbi bitirmişdir və elə həmin il BDU-nin fizika fakültəsinə daxil olmuşdur.

1980-cı ildə BDU-nin fizika fakültəsini astrofizika ixtisası ilə bitirib təyinatla Azərbaycan Milli Elmlər Akademiyasının Şamaxı Astrofizika Rəsədxanasına göndərilmişdir.

1980-1983-cü illərdə Şamaxı Astrofizika Rəsədxanasında kiçik elmi işçi, 1983-cü ildən 2004-cü ilə qədər AMEA-nın Şamaxı Astrofizika Rəsədxanasında elmi işçi vəzifəsində işləmişdir və “Günəş atmosferində maqnit-akustik-qravitasiya

dalğalarının yayılması “ mövzusu üzrə bir sıra elmi məqalələrin müəllifidir.

1992-2004-cü illərdə elmi fəaliyyətlə yanaşı Rəsədxananın yerləşdiyi Y.Məmmədəliyev adına qəsəbə tam orta məktəbində əvəzetmə ilə müəllim işləmişdir. 2004-cü ildə həmin məktəbin direktoru təyin olunmuşdur və hal-hazırda həmin məktəbin direktorudur.

İlqar müəllim işlədiyi dövrdə bir sıra dövlət mükafatları ilə, o cümlədən 2010-cu ildə “Tərəqqi” medalı ilə, 2013-cü ildə isə “Qabaqcıl təhsil işçisi” döş nişanı ilə təltif olunmuşdur. Ailəlidir, 3 övladı var

Kamil Fərhad oğlu İbrahimov 8 iyun 1962-ci ildə Bakıda ziyalı ailəsində anadan olmuşdur. Azərbaycanın görkəmli arxeoloqu, Bakı şəhəri tarixinin tədqiqatçısı, Bakı arxeoloji ekspedisiyasının sabiq rəisi Fərhad İbrahimovun oğludur.

K.İbrahimov 1979-cu ildə orta məktəbi əla qiymətlərlə bitirərək, Şirvanşahlar Sarayı Dövlət Tarixi-Memarlıq Qoruq Muzeyinin arxeoloji fonduna laborant vəzifəsinə qəbul olunur. 1980-88-ci illərdə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsində təhsil almışdır. 1985-ci ildən AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun

"Arxeologiya və Etnoqrafiya muzey-sərgisi"ndə elmi işçi vəzifəsində işləmişdir. 1988-ci ildən İnstitutun "Yeni tikinti sahələrinin arxeoloji tədqiqi" şöbəsində böyuk elmi işçi, daha sonra həmin İnstitutun "Azərbaycanın ilk orta əsrlər arxeologiyası" şöbəsində baş elmi işçi vəzifəsində çalışmışdır.

K.F.İbrahimov 20 ildən artıq bir müddət ərzində Azərbaycanın bir çox ərazilərində, o cümlədən Bakı, Şamaxı, Gəncə, Şabran, Yenikənd və digər arxeoloji ekspedisiyaların tərkibində yaxından iştirak etmişdir. 2001-2007-ci illər ərzində Bakı arxeoloji ekspedisiyasına rəhbərlik etmişdir. 2003-cü ildə "Bakı IX-XV əsrlərdə" mövzusunda dissertasiya müdafiə edərək, alimlik dərəcəsi almışdır.

2006-cı ildə "Bakı İçərişəhər" adlı II cildlik monoqrafiyasını çap etdirmişdir. 2007-ci ildə Azərbaycan Beynəlxalq Ekoenergetika Akademiyası nda "Bakı və Abşeronun arxeoloji xəritəsi və ekoarxeoloji problemləri" mövzusunda dissertasiya müdafiə edərək doktor professor adına layiq görülmüşdür. Azərbaycan Beynəlxalq Ekoenergetika Akademiyasının, Türkiyə Akdeniz Universitetinin və İstanbul Piri Reis universitetinin professorudur. Xarici ölkələrdə beynəlxalq arxeoloji ekspedisiyaların tərkibində iştirak etmişdir. Türkiyədəki

Universitetlərdə "Kiçik Asiyada mifalogiya tarixindən" adlı kurslar aparmış və mühazirələr oxumuşdur.

9 kitab, 100 - dən çox elmi əsər və 100-ə qədər jurnal və qəzet məqalələrinin müəllifidir. 12 kitabın elmi redaktorudur. Kitablarının hamısı, elmi məqalələrinin əksəriyyəti Bakı şəhərinin tarixi-arxeoloji tədqiqinə həsr olunmuşdur. Bakı şəhərinin tədqiqatçısı olaraq Azərbaycanı bir çox Beynəlxalq konfranslarda, simpoziumlarda, qurultaylarda və elmi görüşlərdə təmsil etmişdir.

Kamil İbrahimov hal-hazırda Azərbaycan Respublikası Nazirlər Kabineti yanında “İçərişəhər” Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi “Qala Tarix-Etnoqrafiya Qoruğu ilə iş şöbəsi”nin “Mədəni irsin tədqiqi sektoru”nun müdiri, həmçinin “Qala Tarix-Etnoqrafiya Qoruğu"-nda direktor müavini vəzifələrində çalışır.

Kamil İbrahimov həm də AMEA-nın Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyat Muzeyinin “Qədim və orta əsrlər Azərbaycan ədəbiyyatının tədqiqi və təqdimi” şöbəsinin böyük elmi işçisidir.

Kamil İbrahimov BDU-nin Tarix fakultəsinin arxeologiya və etnoqrafiya kafedrasının müəllimi olaraq “Arxeologiyanın əsasları”, “Çöl arxeologiyası” və digər fənləri tədris edib.

Kamil İbrahimov Azərbaycan Beynəlxalq Ekoenergetika Akademiyasında “Elmi və ekoarxeoloji tədqiqatlar” mərkəzinin və Bakı arxeoloji ekspedisiyasının rəhbəridir. O, Türk Tarix Qurumunun, Almaniya-Azərbaycan cəmiyyətinin, Miras ictimai birliyinin, Simurq asosiasiyasının üzvü, İCOM-un üzvü, həmçinin AAK-in “Tarix, İnsan, Cəmiyyət” elmi jurnalında redaksiya heyətinin üzvüdür. Rəsmi səviyyədə Azərbaycanın, eləcə də bir çox xarici dövlətlərin, həmçinin universitetlərin diplomları, fəxri fərmanları və digər mükafatları ilə təltif olunmuşdur. Evlidir, 2 övladı var.

Sevinc Bünyad qızı Qasımova 16 yanvar 1964-cü ildə Şamaxı şəhərində anadan olmuşdur. 1971-ci ildə Şamaxı şəhər 5 saylı orta məktəbin birinci sinfinə daxil olub, 1980-ci ildə həmin məktəbi əla qiymətlərlə başa vurmuşdur. 1980-ci ildə M.Ə.Sabir adına pedaqoji texnukumuna daxil olub, 1982-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1982-1987-ci illər arasında Bakı Dövlət Universitetinin tarix fakültəsində təhsil almış və Universiteti fərqlənmə diplomuyla başa vurmuşdur.

1987-ci ildən 1993-cü ilədək Şamaxı şəhər 5 saylı məktəbdə tarix və ictimaiyyət müəllimi kimi fəaliyyət göstərmiş, ailə qurmağımla əlaqədar Bakıya köçmüş və 1994-cü ildən BDU-nun tarix fakültəsi, Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasına baş laborant vəzifəsinə təyin edilmişdir. Həmin ildən 1999-cu ilədək həmin kafedranın dissertantı olmuş və elmi işimi başa vuraraq, 1999-cu ildə 07.00.02 – "Vətən tarixi" ixtisası üzrə "Mirzə Kazımbəyin tarixi görüşləri" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək tarix elmləri namizədi alimlik dərəcəsi almışdır. 1994-cü ildən indiyə kimi Bakı Dövlət Universiteti Tarix fakültəsinin Mənbəşünaslıq, tarixşünaslıq və metodika kafedrasında dosent vəzifəsində çalışır. Kafedranın qiyabi doktorantıdır və "Azərbaycanda maarifçilik hərəkatının tarixşünaslığı " mövzusunda doktorluq işi üzərində çalışır.

İşlədiyi müddətdə tarix fakültəsinin bakalavr pilləsi üçün Azərbaycan tarixinin mənbəşünaslığı, tarixşünaslıq, "Qafqaz xalqlarının mənbəşunaslığı, Qafqaz xalqlarının tarixşunaslığı", "A.Bakıxanov Azərbaycan tarixşunaslığının banisi kimi", "Kapitalizmin genezisi və onun tarixşunaslığı" "Tarixi biliyin elmə çevrilməsi", "Mirzə Kazımbəyin tarixi görüşləri", "XIX əsrdə ictimai -tarixi görüşlər", "XIX əsrdə maarifçilik hərəkatı və onun tarixşünaslığı" kursları üzrə

mühazirələr oxumuş, 60 elmi məqalənin, o cümlədən 1 monoqrafiyanın, 1 dərs vəsaitinin, 2 metodik vəsaitin, 10 proqramın müəllifidir.

İşlədiyi müddətdə həm respublikada, həm də xarıcdə dəfələrlə beynəlxalq konfrans və simpoziumlarda məruzələrlə çıxış etmiş və məqalə, tezisləri həmin konfransın materiallarında dərc olunmuşdur. “Vektor” beynəlxalq elmi cəmiyyətin qalibi, həmçinin TQDK-nin fəxri fərmanına layiq görülmüşdür. Hal-hazırda fakültə elmi şurasının üzvü və müdafiə üzrə elmi seminarın katibidir. Ailəlidir, 1 övladı var.

Rasim Fərhad oğlu İbrahimov 14 sentyabr 1967-ci ildə Bakı şəhərində anadan olmuşdur. 1974-cü ildə Azərbaycan Dövlət Konservatoriyası (Musiqi Akademiyası) nəzdində "Bül-bül" adına Orta İxtisas Musiqi Məktəbinə qəbul edilmişdir. Burada təhsil aldığı müddətdə o Üçüncü Respublika Musiqi Müsabiqəsində iştirak etmişdir. Müsabiqənin nəticəsinə görə o, Üçüncü Dərəcəli Diplomla mükafatlandırılmış və Dövlət Mükafatı Laureyatı elan edilmişdir. 1986-cı ildə o Azərbaycan Dövlət Konservatoriyasına – Azərbaycan milli ifaçısı və Dövlət Mükafatə Laureyatı Professor X. Mirzəzadənin sindinə daxil olmuşdur.

Rasim İbrahimov orduda xidmətdən geri qayıtdıqdan sonra o, Azərbaycan Dövlət Konservatoriyasında təhsilini davam etdirmişdir. 1997-ci ilin yazında, o İkinci Sovet İttifqqı Müsabiqəsində - Milli Yaradıcılıq Festivalında (Moskva – Xabarovsk) iştirak etmiş və Birinci Dövlət Mükafatını qazanmışdır. 1994-cü ilin yayında Azərbaycan Dövlət Konservatoriyasını bəstəkarlıq ixtisası ilə bitirmişdir.

Rasim İbrahimov Yerusəlimdə Leonard Bernstein adına Yerusəlim Beynəlxalq Musiqi Müsabiqəsində iştirak etmişdir. Onun böyük simfonik orkestr üçün “Sehirli Nağıl” poeması yarım finala vəsiqə qazanmışdır.

Rasim İbrahimov Böyük Britaniya Kraliça saray musiqi Akademiyasının və Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür.

O pianina, kamera və simfonik orkestr üçün musiqi əsərləri bəstələmişdir. Məsələn pianino üçün “Variasiyalar”, skripka və pianino üçün "Poema", Violençel və Pianino üçün Sonata (4 hissəli), Simli Kvartet, böyük simfonik orkestr üçün "Sehirli Nağı" poeması, böyük simfonik orkestr üçün "Diptiç" simfoniyası, müxtəlif musiqi qrupları üçün musiqilər "Deus Conservat Omnia - I", "Deus Conservat Omnia - II", "Deus Conservat Omnia - III", "Deus Conservat Omnia - IV" və s. yazmışdır. Hal-hazırda ABŞ-da yaşayır. Evlidir, 2 övladı var.

Əngəxaran kəndinin əqraba və nəsilləri

Ağaxanlılar nəslinin nümayəndəsi olduğum üçün, yalnız bu nəslin nümayəndələrini geniş xarakterizə etdim. Kəndin bütün nəsilləri haqqında bilgi və informasiya az olduğundan və bunun geniş səviyyəli araşdırma olduğunu nəzərə alıb bu işi gənc nəslin öhtəsinə buraxmağı qərara aldım.

Əngəxaran kəndində tarixən aşağıdakı əqrabalar yaşamışlar və indi də onların nəsilləri qalmaqdadır.

1. Ağaxanlılar. Bura daxildir
   - İbrahimovlar
   - Güliyevlər
   - Əhmədovlar
   - Minəsoltangillər
2. Vəlililər. Bura daxildir
   - Xanbabagillər
   - Əlisavadgillər
   - Əlisagillər
   - Mənnərşahgillər
   - Əzizxangillər
3. Ərdəbillilər. Bura daxildir:
   - Qəhrəmanovlar
   - Xanışgillər
   - Qardaşəligillər
   - Əlövsətgillər

- Böyükağagillər

4. Hacıəzməmmədlilər. Bura daxildir:

- İmrangillər
- Balaməhəmmədgillər

5. Aşıqlılar. Bura daxildir:

- Ağaligillər
- Manafgillər
- İslahgillər
- Babaxəlilgillər
- Təvəkgillər

6. Mazanovlar

Mazanın qardaşları Qəni, Cəbi, Abış Qubanın “Sobi” kəndindən gəlib Əngəxaranda yerləşiblər. Qubaya isə İrandan köçüblər. “Sobi” kəndi hal-hazırda İranın Ərdəbil şəhəri yaxınlığındadır. Mazanın oğlu Hacıbağı kişi, qızı Sobi (kəndin adını qoyublar), Hacıbağının oğlanları Əsəd, Bayramalı, Burcalı. Əsədin qızları Faxrı, Göyçək.

7. Qədirlilər. Bura daxildir

- Mirələmgillər
- Qayıbgillər
- Ağakişigillər
- Azadgillər
- Məhmədalıgillər
- Məhəmmədəligillər

8. Hacıoğlular. Bura daxildir:

- Mabıgillər
- Moligillər
- Ağaşərifgillər

9. Dəlləklilər. Bura daxildir:

- Hacıməmmədgillər
- Əlipaşagillər
- Ağababagillər
- Ağamuradgillər

10. Sofulular. Bura daxildir:

- Zibeyirgillər
- İbrahimgillər
- Teyfurgillər
- Seyfəddingillər
- Beydullagillər
- Xanqulugillər

11. Vərmişlilər. (İmamlılar) Bura daxildir:

- Əliağa-Sədigillər
- Nəbigillər
- Şuragillər
- Məhəmmədgillər

12. Hacıeyvazlılar. Bura daxildir:

- Babakərimgillər
- Tükəzbangillər

Nəticə

Şamaxının qədimliyini təsdiq edən çoxlu dəlil və sübutlar gətirmək olar. Şəhərin tarixi haqda xeyli fundamental əsərlər yazılmışdır. Şamaxının özü kimi, onun ətrafındakı digər yaşayış məntəqələrin də özünəməxsus tarixi var. Onların bəzisinin tarixi qismən də olsa araşdırılmışdır. Amma tarixi öyrənilməyən kəndlərimiz daha çoxdur. Onlardan biri də Əngəxaran kəndidir. Şamaxının lap yaxınlığında yerləşən Əngəxaran kəndinin tarixini araşdırmaq, kəndin adının etimologiyası haqda mülahizələr söyləmək, burada yaşamış görkəmli insanlar və ziyalılar haqqında informasiya əldə etmək, ətrafdakı digər qədim yaşayış məskənləri barədə məlumat vermək, Şirvanın tarixini öyrənmək baxımdan çox əhəmiyyətlidir.

Şamaxı şəhəri Azərbaycan Xalq Cümhuriyyəti dövründə də öz siyasi, iqtisadi və mədəni mərkəz rolunu qoruyub saxlamışdır. Şəhər, şovetlər birliyi dönəmində üzümçülük təsərrüfatının başlıca mərkəzinə çevrilmişdir. 1969-cu ildə Heydər Əliyevin ilk dəfə siyasi hakimiyyətə gəlməsilə Şamaxının yenidən inkişafı və tərəqqisi dövrü başlamış, rayonun və ətraf kəndlərinin sosial-iqtisadi sahələrinin inkişafı böyük vüsət almışdı.

1993-cü ildə Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Şamaxının inkişafının yeni mərhələsinə

başladı. Bu dövrdə Şamaxı rayonunun daxili imkanlarından və ehtiyat mənbələrindən səmərəli istifadə olunmuş, iqtisadiyyatın sabitləşməsi istiqamətində xeyli işlər görülmüşdür.

24 noyabr 2003-cü il tarixində ölkə prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərman və dövlət başçısı tərəfindən təsdiq olunan "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı" digər bölgələrlə yanaşı, Şamaxıda sosial-iqtisadi tərəqqidə, həyat səviyyəsinin daha da yüksəldilməsi və məşğulluğun təmin edilməsi sahəsində dönüş yaratmışdır. Hal-hazırda Şamaxı və ətraf kəndləri özünün tarixi ənənələrini saxlamaqla müstəqil Azərbaycanın ən müasir sənaye, kənd təsərrüfatı və mədəniyyət və turizm mərkəzlərindən birinə çevrilmişdir.

Uzun müddət Şirvan dövlətinin paytaxtı olmuş Şamaxı şəhərinə və onun yaxınlığında yerləşən gözəl təbiətli Əngəxaran kəndinə, onun tarixinə, arxeoloji-memarlıq abidələrinə və görkəmli şəxsiyyətlərinə, ziyalılarına həsr olunmuş bu kitab qədim bir elin zəngin tarixinin, mədəniyyətinin öyrənilməsi yolunda bir ərmağan olacaq.

İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

Azərbaycan dilində:

1. Azərbaycan tarixi I cild. Bakı, 1958-ci il., s.192.

2. Azərbaycan ədəbi dilində işlənən ərəb və fars sözlərinin qısa lüğəti. Bakı, 1960, s.65.

3. Azərbaycan Sovet Ensiklopediyası, cild X, Bakı, 1987, s. 457.

4. Bakıxanov A. Gülüstani-İrəm, Bakı, 1951, s. 21

5. Ciddi H.Ə Orta əsr Gülüstan qalası haqqında tarixi-arxeoloji məlumat, "Azərb. SSR EA Xəbərləri" Bakı, 1961, №6, s.54.

6. Ciddi H.Ə Gülüstan qalası. Bakı, 1967, s.70-71.

7. Ciddi H.Ə Gülüstan qalasında arxeoloji qazıntılar. "Az SSR EA Xəbərləri", 1961, №9, s.40-47; №6, s.52

8. Ciddi H.Ə. 1970-ci ildə Şamaxı şəhərində aparılmış arxeoloji qazıntıların hesabatı. Azərbaycan SSR EA Tarix İnstitutu çöl-tədqiqat işləri bürosunun arxivi, iş №h-42, s.2-3.

9. Ciddi H.Ə Şamaxı şəhərinin şimalında aşkar edilmiş orta əsr yaşayış yerləri. "Azərbaycan SSR EA Xəbərləri", 1969, №3. Şamaxı şəhərinin şimalında aşkar edilmiş orta əsr yaşayış yerləri. "Azərbaycan SSR EA Xəbərləri", 1969, №3.

10. Cəfərzadə İ.M. Göstərilən əsəri, s.53; S.M.Qazıyev. 1959-1960-cı illərdə Qəbələ şəhəri xarabalarında aparılan arxeoloji qazıntılar haqqında (əlyazması), s.46, tab. XX. şəkil.

11. Düma A. Qafqaz səfəri. Bakı, 1985, s.82

12. Mehrəliyev.E Şirvan Elmlər Akademiyası (X-XIII əsrlər), Bakı, 2000.

13. Əbdürrəşid əl-Bakuvi. Abidələrin xülasəsi və qüdrətli hökmdarların möcüzələri (ərəbcədən tərcümə, müqəddimə və şərhləri Z.Bünyadovundur), Bakı, 1992, 174 s.

14. Əhmədov Q.M. 1959-cu ildə Örənqalada aparılmış arxeoloji qazıntıların hesabatı (1 sahə), Azərb. SSR EA Tarix İnstitutunun elmi arxivi, f. 1, s.9, № 4728.

15. Əhmədov Q.M. Azərbaycanın şirsiz saxsı məmulatı, Bakı, 1959, s.97.

16. Gül Q.K. Xəzər dənizi, Bakı 1957, 62 s.

17. "Həbibüssiyər". Azərbaycan SSR EA Əlyazmalar Fondu, şrift V-53, s. 82.

18. Xəlilov C.Ə. Xınıslı daş heykəlləri. Azərb. SSR EA Məruzələri, № 2, 1960, s.155.

19. Xəlilov C.Ə. Qafqaz Albaniyasının maddi-mədəniyyəti, Bakı, 1985, s.138.

20. Xəlilov Ə.Ə. Xınıslı qədim yaşayış yeri. Azərbaycan SSR EA Xəbərləri, 1961, №3, s.31-39.

21. İbn əl-Əsir. "Əl-Kamil-fit-tarix", Bakı, 1959, (tərcümə edəni Əfəndizadə), s.15.

22. İbn-əl-Əsir. Əl-Kamil fit-tarix (per-prof. P.K.Juze) Bakı, 1940, s.42.

23. İbrahimov K.F. Bakının İçəri şəhər hissəsində tapılmış bəzi dulus inşaat məmulatı haqqında. Azərbaycan arxeologiyası jurn., № 1-4, Bakı, 2001, s.89-92.

24. İbrahimov F.A. Bakı orta əsrlərdə. Azərbaycan arxeologiyası jurn., № 3-4, Bakı, Xəzər Universiteti, 1999, s.75.

25. İbrahimov F.Ə. Quşqana yaşayış yeri haqqında ilk məlumat. "Azərbaycan SSR EA Məruzələri", 1963, №9.

26. İbrahimov F.Ə. İçəri şəhərdə 1988-ci ildə arxeoloji qazıntılar. Elmi konfransın materialları, Bakı, Bilik, 1992, s.67-69.

27. İbrahimov F.Ə. İçəri şəhərdə Məhəmməd məscidində 1988-ci ildə aparılan arxeoloji qazıntının hesabatı. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun elmi arxivi, h-88, s.9-18.

28. İbrahimov K.F. "Mədəni irs və arxeoloji abidələrin öyrənilməsində yenilik: GİS sisteminin İçərişəhər qoruğunda tətbiqi". AMEA Naxçıvan bölməsi, Xəbərlər ictimai və humanitar elmlər seriyası, cild 10, № 1, Naxçıvan, 2014.

29. İbrahimov K.F. "Heydər Əliyevin İşərişəhərin qorunması istiqamətində həyata keçirdiyi tədbirlər". AMEA Naxçıvan bölməsi, Xəbərlər ictimai və humanitar elmlər seriyası, cild 10, № 3, Naxçıvan, 2014.

30. İbrahimov K.F. “Orta əsr şəhərsalma tarixindən”. Azərbaycanın paytaxt şəhərləri (elmi-praktik konfrans). İDTMQİ-nin materialları (24 noyabr 2014). Bakı, 2014. s.61-72.

31. İbrahimov K.F. “Azərbaycan ərazisində erkən şəhər mədəniyyəti”. Azərbaycanın paytaxt şəhərləri (elmi-praktik konfrans). İDTMQİ-nin materialları (24 noyabr 2014). Bakı, 2014, s.31-47.

32. İbrahimov K.F. “Qədim Bakı milli irsimizin incisi kimi”. Azərbaycanın paytaxt şəhərləri (elmi-praktik konfrans). İDTMQİ-nin materialları (24 noyabr 2014). Bakı, 2014, s.81-118.

33. İbrahimov K.F. “Qədim türk mənəviyyatı arxeoloji materiallarda” VIII Beynəlxalq Türk Mədəniyyəti, İncəsənəti və Mədəni İrsin Mühafizəsi Simpoziumu/Sənət Fəaliyyətləri (15-16-17 may 2014) materialları. Türkiyə, Konya, 2014.

34. İbrahimov K.F. 31 mart Azərbaycanlıların soyqırım günüdür. “31 mart Azərbaycanlıların soyqırım günüdür”, Bakı, 2014, s.7-14. (0,5 ç/v).

35. İbrahimov K.F. Bir daha 1918-ci ilin soyqırım hadisələri haqqında. “I Beynəlxalq tarixdə soyqırımlar konfransı: faktlar, reallıqlar, uydurmalar”, Bakı, 2-3 aprel, 2015, s.13-16. (0,5 ç/v).

36. İbrahimov K.F. Şamaxıda 1918-ci il mart soyqırımı (sənədlər, xatirələr, şahidlər). 31 mart Azərbaycanlıların soyqırım günüdür (elmi-praktik konfrans). Bakı, 2015, s.94-121.

37. İbrahimov K.F. Bir qalanın tarixi. İçəri Şəhər tarixdə - Tarix İçəri şəhərdə. Bakı, 2016, s.127-173

38. İbrahimov K.F. “Söz naxışlı ulu sənətkarlarımız”. Azərbaycan qəzeti, 20.12.2016.

39. İbrahimov K.F. Dr. Lottar Veysin Azərbaycana səyahəti, Mədəni irs qəzeti, iyul-avqust 2011.

40. İçərişəhər. Kitab-toplu, (elmi redaktor K.F.İbrahimovdur) İstanbul, 2012. (azərbaycan dilində) (15 ç/v), 375 s.

41. İçərişəhər, Bakı, 2013. (ingilis dilində) (12 ç/v), 320 s.

42. İçərişəhərin xəritəsi. Bakı, 2013. (azərbaycan, rus, və ingilis dilində), (2 formatda kiçik və böyük).

43. İshaqova Ş.H. Muzeyin arxeoloji materialları ilə XIX-XX əsrlər Azərbaycan etnoqrafiyası arasında əlaqə haqqında. Azərbaycan tarixinə dair materiallar, II c., Bakı, 1957, s.129-131.

44. İsimzadə Ö.Ş. Bakı Qız qalası özülünün quruluşu haqqında. Azərbaycanın maddi mədəniyyəti, Vi cild, Bakı, 1965, s.229-230.

45. İsmizadə Ö.Ş., Ciddi H.Ə. Bakı Qız qalası. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1968, s. 19.

46. Kərəmov N.K. Odlar yurdunun səyyah və coğrafiyaşünasları. Bakı, 1985, 205 s.

47. Qiyasi C. Şamaxı Cümə məscidi. “Yom” dərgisi 2(4), 2006.

48. Qiyasi C., İbrahimov K. Şamaxı Cümə məscidi – on üç əsrin ibadət yeri. 12 iyul 2017. Azərbaycan qəzeti.

49. Qədim qalanın yuxuları. Elmi-bədii kitab, Dubay, 2013. (azərbaycan, rus, və ingilis dilində), (4 ç/v), 173 səh.

50. Mirəhmədov Ə. Seyid Əzim Şirvaninin bir elmi əsəri, "Ədəbiyyat və incəsənət" qəzeti, 15 noyabr 1958-ci il, №46 (988), s. 4.

51. Mustafayev A.N. Şirvanın maddi-mədəniyyəti. Bakı, 1977, s.98.

52. Məhəmməd Əli Tərbiyət. Danişaməndane Azərbaycan, Azərbaycan SSR EA Əlyazmalar Fondu, Tehran çapı, s.252.

53. Məhərrəm Zülfüqarlı. Şamaxı soyqırımı - 1918. Bakı 2011.

54. Nailə Vəlixanlı. Ərəb xilafəti və Azərbaycan, Bakı, 1993, s. 28.

55. Nailə Bayramova. Şamaxı xanlığı, Bakı, 2009, s.10.

56. Nəbiyev A. Azərbaycan aşıq məktəbləri. Bakı, 2004. s.64

57. Nizami. "Xosrov və Şirin", Bakı, Azərnəşr, 1946, s.181.

58. Osmanov F.L. Qafqaz Albaniyasının maddi mədəniyyəti. Bakı, Elm, 1982, 137 s.

59. Paxomov Y.A. Nizami dövrünün Şirvan qalası, "Nizami" məcmuəsi I kitab, Bakı, 1940, s.79.

60. Sabir M.Ə. Hop Hop namə. Bakı, 1980.

61. Sara Aşurbəyli. Şirvanşahlar dövləti. Bakı, 2006, səh. 50-51.

62. Şahin Mustafayev. Səlcuqilərdən Osmanlılara: XI-XV yüzilliklərdə Anadolunun türk mühitində etno-siyasi proseslər, Bakı, 2010, s. 24.

63. Şamaxı ensiklopediyası. Bakı, 2015

64. Şərifli M.X. Şamaxı şəhərinin tarixindən, "Azərbaycan SSR EA Xəbərləri", 1944, № 8, s.40.

65. Şərifli M.X. Şamaxı şəhərinin tarixindən, "Azərbaycan SSR EA Xəbərləri", 1944, № 8, s. 40.

66. Vahid Xanaliyev, Ədalət Məmmədov. Bakı-Şollar-100. Bakı, 2015.

67. Vaqif Piriyev. Azərbaycan XIII-XIV əsrlərdə, Bakı, 2003, s. 42-43

68. Vaqif Piriyev. Azərbaycanın tarixi-siyasi coğrafiyası, Bakı, 2006, s. 48-49

69. Vaqif Yusifli. Ey sirli dünya. "Qobustan" jurnalı, 1992, №3-4, s.54-63.

70. Ziya Bünyadov Azərbaycan VII-IX əsrlərdə, Bakı, 2004, s. 135.

Rus dilində:

71. Аббас-Кули-ага Бакиханов. Гюлистани-и Ирам, Bakı, 1991 /“Şərhlər və mülahizələr” hissəsi/, s. 234.

72. Азизаде А.А.. Социально-экономичесская и политическая история Азербайджана XIII-XIV вв. Баку, 1956, с.99.

73. Ализаде А. Некаторые сведения о природных богатствах и занятиях оседлого населения Азербайджана в XIII-XIV вв., “Изв. АН Азерб. ССР“, 1952, №7, с.72.

74. Ал-Балазури. Книга завоевания стран. Пер. П.К.Жузе. Материалы по истории Азерб, вып. III, Баку, 1927.

75. Ал-Истахри. Книга путей и царств. Пер. Н.А.Караулова СМОМПК, вып.29, Тифлис, 1901, с.25-26.

76. Аль Мугаддаси. Лучшее из делений для познания климатов. Пер. Н.А.Караулова СМОМПК, вып. 38, Тифлис, 1908

77. Ашурбейли С.Б. Государство Ширваншахов, Баку, Элм, 1983, с.35

78. Ашурбейли С.Б. История города Баку. Баку: Азернешр, 1992, 401 с.

79. Ашурбейли С.Б. Очерки истории Средневекового Баку. Баку, Изд-во АН Азерб.ССР, 1964, с.22

80. Ашурбейли С.Б. Скульптура Азербайджана древнего периода и период средневековья. Труды Музея История Ажербайджана, №I, Баку, 1965, с. 82-84.

81. Бакыханов А. Гюлистан-Ирам. Баку, Элм, 1991, 304 с.

82. Бартольд В.В. Отчет об осмотре древнего мусульманского кладбища в г. Баку. ИИАК, вып.16, Спб., 1905, s.116.

83. Безменов В. Извлечение из сборника сведений о древностях и достопримечательностях Ширвана. Известия Кавказского общества истории и археологии, т.I, вып. II, Тифлис. 1884, с.28.

84. Велиев С.Е. Где находился Баку во время Абд ар-Рашида Ал-Бакуви, СИБИБ, Баку, 1990, с. 24-25.

85. Дорн Б. К истории кавказских стран и народов по ближневосточным источникам (опыт истории Ширваншахов). Перевод Джаварова, Азярбайъан ССР ЕА Тарих Институтунун елми архиви, иш №1741, с.27.

86. Джафарзаде И. Археологические раскопки 1946 г. в Бакинской бухте. Изв. АН Азерб. ССР, 1947, №7, с.9-11.

87. Джафарзаде И.М. Археологические раскопки городища Оренкала в 1951 г. Труды Института истории, 1954, том. IV, с.123.

88. Джафарзаде И.М. Историка археологический очерк старой. Гянджи. Баку, 1949, с.10

89. Джафарзаде И.М. “Археологические раскопки в Бакинской Бухте. “Азярбайъан ССР ЕА Хябярляри“, 1947, № 7, с.6.

90. Джидди Г.А. Средневековый город Шемаха IX-XVII века. Баку, 1981.

91. Гаси Абдуллаев. Азербайджан в XVIII в. и Взаимоотношения с Россиией, Баку, 1965, səh. 613-614.

92. Гейдаров М.Х. Социально-экономические отношения и ремесленные организации в городах Азербайджана в XIII-XVII вв., Баку, 1987, с.56, 59, 96.

93. Гейдаров М.Х. Торговля и торговые связи Азербайджана в позднем средневековье, Баку, 1999, с.25, 27, 39, 73, 99, 58.

94. Ибн ал-Факих. Книга о странах. Перевод Н.А. Караулова, СМОМПК вып. 31, отд. I, 1902, с.23-26-98-99.

95. Ибрагимов Ф.А. Металлообрабатывающее ремесло и средневековых городах Азербайджана в IX- XIII вв. (автореферат канд. дисс), Баку, 1969, с.16.

96. Известие из путешествия Корнелия Ле Бриун (Ле оун), Azərbaycan SSR EA Tarix İnstitutunun elmi arxivi, iş № 482, s.25.

97. Извлечение из путешествия Корнелия Ле Бриун, (tərcüməsi Azərbaycan SSR EA Tarix İnstitutunun elmi arxivindədir). с.19, 20-23.

98. Ильяс Бабаев. Города Кавказской Албании в IV в. до н.э. - III в.н.э., Баку, с. 59,93, 108.155

99. Исмизаде О.Ш., Ибрагимов Ф.А. О результатах археологических работ на территории “Ичери шехер” в 1969 году. МКА, IX т., Баку, Элм, 1980, с.161-166.

100. Леватов В.Н. К истории дворца ширваншахов в Баку. “Изв. АЗФАН“, 1940; №5, с.30.

101. Левиатов В.И. О типах глазурованной керамики Азербайджана в VII-XV вв. Известия АН Азерб. ССР, №7, 1956.

102. Левиатов В.Н. Археологические раскопки 1945 года при Ширваншахов в городе Баку. Изв.АН Азерб.ССР, № 1, 1948, № 1, с.115-117.

103. Масуди. Луга золота и рудники драгоценных камней. Пер. Н.А.Караулова. СМОМПК, вып. 38, Тифлис 1908, с.57-58.

104. Мещанинов И.И. История Азербайджана по археологическим памятникам, “Известия АзФАН”, 1944, №7, с.64.

105. Минорский В.Ф. История Ширвана и Дербенда. М., 1963, с.174.

106. Неймат М.Х. Корпус эпиграфических памятников Азербайджана, том V, Баку, 2011, с.29

107. Нуриев А.Б. Производство стекла в Древней Шемахи. АММ., т.VI.

108. Обозрение российских владений за Кавказом..., часть III, СПб., 1836, с.158.

109. Пахомов Е.А. Дневник работ экспедиций для обследования крепости Гюлистан (Гыз галасы) близ Шемахи. Azərbaycan SSR EA Tarix İnstitutunun elmi arxivi, iş № 859, s. 2.

110. Пахомов Е.А. Краткий отчет о работах экспедиции ИНИАРЭ АзФАНа, по обследованию развалин креп. Гюлистан 1939 г., Tarix İnstitutunun elmi arxivi, iş №858, s.3.

111. Пахомов Е.А. Первоначальная очистка шахского дворца в Баку. Изв. ААК, Баку, 1926, вып. II, с.3-6.

112. Саламзаде А.В. Новые материалы по истории Азербайджанской архитектуры. Исследование и материалы по архитектуре и искусству Азербайджана. Баку, 1966.

113. Сведения путешественников об Азербайджане, I т., с.179.

114. Сведения путешественников об Азербайджане. Toplayanı Z.İ.Yampolski, Bakı, 1958. Tarix İnstitutunun Elmi arxivi, iş № 3701, s. 414.

115. Сейфеддини М.А., Гулиев А.А. Нумизматика Азербайджана. т.III, Баку: Элм, 2002, 207 с.

116. Солмаз Рустамова-Тогиди, Шемаха Март-июль 1918 г. Азербайджанские погромы в документах. Том I. Город Шемаха, Баку, 2013.

117. Солмаз Рустамова-Тогиди, Шемаха Март-июль 1918 г. Азербайджанские погромы в документах. Том II. Селения Шемахинского уезда, Баку, 2013.

118. Фатуллаев Ш.С. Градостроительство и архитектура Азербайджана XIX – начала XX века. Ленинград, 1986.

119. Фитуни А.П. История последней столицы Ширвана. АЗКОМСТАРИС, Бакы, 1927, III buraxılış, с.106.

120. Халилов Д.А. Раскопки на городще Хыныслы, памятнике Кавказской Албании. Советская археология, 1962, №1, с.219-220.

121. Шумовский Т.А. “У моря арабистики”, Москва, 1975, с.13.

122. Эвлия Челеби. Səyahətnamə. Перевод с турецкого яз. С.Саламовой НАИИАН Азерб. республики, № 1, с.207-208.

123. Эфендиев О.А. Азербайджанское государство Сефевидов в XVI веке, Баку, 1981, с.48.

124. Эфендиев О.А. Образование Азербайджанского государства Сефевидов в начале XVI в. Bakı, 1961, с.87, 89, 129, 131, 135.

Digər dillərdə:

125. Marquart S. Eransahp nach der geogap hic Ps. Moses хоренаси. Берлин, 1901. с.-79-da deyilmiş fikri nəzərdə tutulur.

126. İbrahimov K.F. “Dr. Lottar Weys on the trail of Engelbert Kempfer, 17-th century German traveller”, “Visions of Azerbaijan” jurnalı, iyul-avqust, 2011. (ingilis dilində)